AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

ELÇİN ƏHMƏDOV

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ: BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ İNSTİTUTLARI İLƏ MÜNASİBƏTLƏR

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurasının 12 iyun 2012-ci il tarixli iclasının qərarı ilə çapa tövsiyə edilmişdir (protokol №13).*

- 15706 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2013

**Elmi redaktor:** **Əli Həsənov**
tarix elmləri doktoru, professor

**Rəyçilər:** **Musa Qasımlı**
tarix elmləri doktoru, professor

**Elman Nəsirov**
siyasi elmlər doktoru, professor

**Hikmət Məmmədov**
siyasi elmlər doktoru, dosent

**Kərəm Məmmədov**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

**Elçin Əhmədov.** Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, „Letterpress" nəşriyyat evi, 2013, 452 səh.

Monoqrafiyada Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibərlər tədqiq olunmuş, bu kontekstdə Avroatlantik strukturlara inteqrasiyasının reallaşdırılması mexanizmləri öyrənilmişdir.

Kitabda Azərbaycanın xüsusi proqramlar çərçivəsində qurulmuş və müxtəlif istiqamətlərdə inkişaf edən BMT, ATƏT, NATO, Avropa Şurası və Avropa İttifaqı ilə münasibətləri Avroatlantika təhlükəsizliyi və əməkdaşlığı kontekstində geniş təhlil edilir.

Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələr, Avropa təhlükəsizlik sisteminin etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rolu monoqrafiyada elmi, siyasi aspektdən təhlil edilmişdir.

Kitab ali məktəblərin beynəlxalq münasibətlər, beynəlxalq hüquq, hüquqşünaslıq, politologiya, regionşünaslıq, tarix ixtisası üzrə təhsil alan tələbələr və magistrantlar, müəllimlər, xarici siyasət məsələləri ilə məşğul olan mütəxəssislər, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-45257-0**

© Elçin Əhmədov, 2013
© "Letterpress", 2013

# MÜNDƏRİCAT

GİRİŞ ........ 5-10

**FƏSİL I. Azərbaycanın beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sisteminə qoşulması** ........ 11-39

1.1. Azərbaycan-BMT əlaqələrinin qurulması. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasında ........ 11-27

1.2. Azərbaycan-BMT əlaqələrinin genişlənməsi. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi ........ 28-39

**FƏSİL II. Azərbaycan-ATƏT əməkdaşlığı ümumavropa təhlükəsizliyi fonunda** ........ 40-112

2.1. Ermənistanın Azərbaycana təcavüzü və ATƏT-in Minsk qrupunun yaradılması ........ 40-90

2.2. Azərbaycan və Ermənistan prezidentləri arasında aparılan birbaşa danışıqlar və onun nəticələri ........ 91-104

2.3. Münaqişənin nizama salınması istiqamətində Azərbaycan dövlətinin mövqeyi ........ 105-112

**FƏSİL III. Azərbaycanın Avroatlantik institutlara inteqrasiyası NATO ilə əməkdaşlıq kontekstində** .... 113-162

3.1. XX əsrin 90-cı illərində Avropada siyasi dəyişikliklər və NATO-nun gələcək vəzifələri ........ 113-120

3.1. Azərbaycanın Avroatlantik məkana inteqrasiya siyasəti və NATO ilə münasibətlərin yaranması ........ 120-136

3.3. Azərbaycanın NATO ilə əməkdaşlığının genişlənməsi ..... 137-162

**FƏSİL IV. Azərbaycanın Avropaya inteqrasiyası prosesində Avropa Şurası ilə əməkdaşlığı** ............... 163-204
4.1. Avropa Şurası və qlobal demokratikləşmə prosesləri ........ 163-169
4.2. Azərbaycanın Avropa Şurası ilə münasibətləri .................. 169-191
4.3. Azərbaycan-Avropa Şurası əməkdaşlığının yeni mərhələsi ........................................................................ 191-204

**FƏSİL V. Azərbaycanın Avropa inteqrasiya proseslərinə qatılması. Avropa İttifaqı ilə münasibətlər** ........ 205-266
5.1. Avropa İttifaqının fəaliyyət istiqamətləri ........................ 205-216
5.2. Azərbaycanın Avropa İttifaqı ilə əlqələrinin yaranması .... 216-230
5.3. Avropa İttifaqının "Yeni Qonşuluq Siyasəti" və Azərbaycan ........................................................................ 230-241
5.4. Avropa İttifaqının Cənubi Qafqaz siyasətində Azərbaycanın yeri və rolu: problemlər və prespektivlər ................ 241-266

**N Ə T İ C Ə** ........................................................................ 267-283

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI** ................. 284-301

**Ə L A V Ə L Ə R** ................................................................ 302-448



## G İ R İ Ş

XX əsrin sonunda SSRİ və sosializm sisteminin süqutu ilə dünyada bir sıra dəyişikliklər baş verdi. Soyuq müharibənin başa çatması ilə beynəlxalq münasibətlərin əsas güc mərkəzləri yeni geosiyasi reallıqlardan çıxış edərək öz fəaliyyətlərini mövcud şəraitə uyğunlaşdırmağı qərara aldılar. Köhnə beynəlxalq münasibətlər sisteminin süqutu ilə yanaşı, yeni dünya düzümünün əsası qoyulmağa başladı.

İdeoloji qarşıdurma başa çatsa da, Avropada sülh və təhlükəsizlik üçün təhlükə hələ də qalmaqda idi. Belə bir şəraitdə keçmiş SSRİ və Yuqoslaviya məkanında yeni münaqişə ocaqları yaranaraq genişlənməkdə davam edirdi. Bu amillər beynəlxalq və regional təşkilatların fəaliyyət istiqamətlərində keyfiyyətcə yeni mərhələnin başlanmasına imkan yaratdı və dünya siyasətində ATƏT, NATO, Avropa İttifaqı və Avropa Şurası kimi təhlükəsizlik və əməkdaşlıq strukturlarının rolunu əhəmiyyətli dərəcədə yüksəltdi.

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başlayan hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və iqtisadi problemlərlə üz-üzə qoy-

maqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi.

Müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və fəal xarici siyasət tələb edirdi.

1993-cü ilin ikinci yarısından, yəni ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasət məhz ümummilli liderin adı və onun fəaliyyəti ilə bağlıdır. Özünün zəngin təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyev bu yeniləşmiş xarici siyasət xəttində ilk növbədə bir sıra mühüm, təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya qoydu.

Həmin vəzifələrdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli



idi. Bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Digər mühüm vəzifələrdən biri də bəzi dövlətlərlə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan qaldırmaq, dövlətlərlə münasibətlərdə tarazlaşdırılmış xarici siyasət xəttini təmin etmək, region dövlətlərlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin qorunmasına nail olmaq idi. Qarşıda duran ən mühüm vəzifələrdən biri də münaqişənin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi şərti ilə ədalətli şəkildə həll olunması üçün böyük dövlətlərin, eləcə də beynəlxalq təşkilatların səylərini gücləndirməyə nail olmaqdan ibarət idi.

Ümummilli lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir.

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda

mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərinin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Məhz buna görə də Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir.

Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.



Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiyası, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir.

Azərbaycanın milli təhlükəsizliyi onun dünya və region dövlətləri, habelə beynəlxalq təşkilatlarla balanslaşdırılmış strateji xətt yeritməsini zərurətə çevirdi. Ümummilli lider H. Əliyev Azərbaycan Respublikasının xarici siyasət prioritetlərindən bəhs edərək qeyd edirdi ki, "...Dəyişən dünyamızda Azərbaycanın siyasi missiyası dost və tərəfdaş axtarışına, blok və ittifaqların çoxvariantlılığına yönəlmişdir. Bu, Azərbaycanın dünya dövlətləri ailəsində statusunu, suverenliyini möhkəmləndirəcək, həm də müxtəlif dövlətlərlə yaxınlaşmasına kömək edəcəkdir"[1].

Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı

[1] Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994, s. 31.

neft müqavilələrin Azərbaycanın dünya birliyinə, xüsusilə Avroatlantik məkana inteqrasiyasını sürətləndirdi.

Hazırda Azərbaycan Respublikası ümumavropa təhlükəsizlik sisteminə inteqrasiya olunmaqla yanaşı, qitənin təhlükəsizlik arxitekturasına öz töhfəsini verərək Avropa ölkələrinin enerji təchizatının təmin olunmasında da çox mühüm rol oynamaqdadır.



# FƏSİL I. AZƏRBAYCANIN BEYNƏXALQ TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ SİSTEMİNƏ QOŞULMASI

## 1.1. Azərbaycan-BMT əlaqələrinin qurulması. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasında

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci il oktyabrın 29-da BMT və dünya dövlətlərinə müraciət etdi[2]. Müraciətdə Azərbaycan dövlət müstəqilliyinin bərpasını elan edərək, demokratiya, azadlıq və bərabərlik yolu ilə getmək əzmini əsas tutaraq, dünya birliyində layiqli yer tutmağı, beynəlxalq təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işinə kömək göstərməyi arzulayaraq, BMT Nizamnaməsinə sadiq qalacağını və ondan irəli gələn öhdəlikləri yerinə yetirməyə hazır olduğunu bildirərək BMT üzvlərindən xahiş etdi ki, təşkilatın üzvlüyünə qəbul olunmaq məsələsi nəzərdən keçirilsin.

1992-ci il fevralın 14-də Azərbaycanın müraciətini müzakirə edən BMT Təhlükəsizlik Şurası ölkəmizin bu təşkilata üzv qəbul olunmasını tövsiyə etdi. Beləliklə, BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasında Azərbaycan Respulikasının BMT üzvlüyünə qəbul olması barədə qətnamə qəbul edildi.

---

[2] Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996, s.11.

Müstəqilliyə yenicə qədəm qoymuş Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qaldığına görə, ağır sosial-iqtisadi, hərbi-siyasi vəziyyətlə üzləşmişdir. İlk illərdə beynəlxalq aləm ilə münasibətlərin qurulmasında çətinlik çəkən və güclü informasiya blokadasını aradan qaldırmaqda böyük təzyiqlərlə qarşılaşan Azərbaycan üçün BMT kürsüsünün çox mühüm əhəmiyyəti var idi. Xalqımızın haqq səsinin dünyaya çatdırılması və obyektiv ictimai rəyin formalaşdırılması, eləcə də dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində 1992-ci il martın 6-da Nyu-Yorkda fəaliyyətə başlayan Azərbaycanın BMT yanında daimi nümayəndəliyi mühüm rol oynadı. Həmin ilin noyabr ayında isə BMT-nin Azərbaycanda daimi nümayəndəliyi açıldı.

Azərbaycanın BMT ilə siyasi sahədə əməkdaşlığının əsas məqsədi Ermənistanın ölkəmizə qarşı təcavüzünün genişləndiyi bir vaxtda beynəlxalq birliyin diqqətini münaqişə bölgəsində baş verən hadisələrə cəlb etmək və dünya ictimaiyyətində obyektiv rəy formalaşdırmaq idi.

BMT Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin müdafiəsi üçün başlıca məsuliyyət Təhlükəsizlik Şurasının üzərinə düşür. Dövlətlər əgər mübahisəni BMT Nizamnaməsinin 33-cü maddəsində nəzərdə tutulan dinc vasitələrlə həll edə bilmirlərsə, onda mübahisəni təhqiq etmək üçün Təhlükəsizlik Şurasına müraciət edə bilərlər[3].

[3] United Nations Peace-keeping. United Nations. New York, 1993, p.7.



Təhlükəsizlik Şurası mübahisəyə aşağıdakı hallarda baxır: mübahisə edən tərəflər və ya digər dövlətlər müraciət etdikdə; Baş Məclisin tövsiyəsi ilə; Şuranın özünün qərarı ilə; BMT Baş Katibinin müraciəti ilə.

Dövlətlər arasındakı mübahisəni həll etmək üçün Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamə və qərarlar tövsiyə xarakteri daşıyır və mübahisə edən tərəflər üçün məcburi hesab edilmir. Təhlükəsizlik Şurasının tövsiyəsinə baxmayaraq dövlətlər öz aralarındakı mübahisəli məsələni həll edə bilmirlərsə və bununla əlaqədar beynəlxalq sülh və təhlükəsizliyə qarşı təhlükə yaranırsa, məcburi tədbirlər tətbiq edilə bilər. BMT Nizamnaməsinə uyğun olaraq Təhlükəsizlik Şurası mübahisəli məsələləri dinc vasitələrlə həll etmək üçün geniş səlahiyyətlərə malikdir.

Ona görə də Ermənistanın açıq-aşkar təcavüzünün genişlənməsi ilə əlaqədar Azərbaycan BMT Baş Katibinə, Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək bu təcavüzü dərhal dayandırmağa, beynəlxalq hüquq normaları və BMT Nizamnaməsinin açıq-aşkar pozulmasının qarşısını almağa, münaqişənin dinc siyasi yolla nizama salınmasına kömək göstərməyə çağırdı[4]. BMT Baş Katibi münaqişə bölgəsində vəziyyəti öyrənmək üçün regiona BMT-nin müşahidəçilər qrupunu göndərməyi qərara aldı[5]. Bu məqsədlə 1992-ci il martın ortalarında BMT Baş Katibinin xüsusi nümayəndəsi, ABŞ-ın keçmiş dövlət katibi Sayrus Vensin başçılıq etdiyi

[4] "Həyat", 14 mart 1992-ci il.

[5] "Xalq qəzeti", 14 mart 1992-ci il.

nümayəndə heyəti Bakıda, Dağlıq Qarabağda və Yerevanda səfərdə oldu və bu səfərin yekunları barədə BMT Təhlükəsizlik Şurasına məlumat verdi[6].

BMT Baş Katibi Dağlıq Qarabağ probleminin həlli sahəsində ATƏM-in səylərini müdafiə etdiyini bildirdi. Onun vəziyyətə verdiyi qiymətdən aydın oldu ki, münaqişənin həlli yolunda regional təşkilatlar, xüsusən ATƏM əsas rol oynayır. BMT yalnız ekspertlər göndərməklə onlara kömək, habelə humanitar sahədə yardım göstərə bilər. BMT Təhlükəsizlik Şurasının sədri də S.Vensin səfərinin yekunlarını müsbət qiymətləndirərək münaqişənin aradan qaldırılmasında Təhlükəsizlik Şurasının ATƏM-ə məsləhətlər verəcəyini bildirməklə kifayətləndi[7].

Cəzasız qalan Ermənistan isə təcavüzkarlığını daha da genişləndirirdi. Belə ki, 1992-ci il mayın 8-də İranın vasitəçiliyi ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərləri arasında Azərbaycan-Ermənistan sərhəddi boyu və Qarabağın dağlıq hissəsində atəşin dayandırılması haqqında üçtərəfli saziş imzalanan gün Ermənistan silahlı qüvvələri növbəti razılaşmanı yenidən pozaraq, Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi Şuşa şəhərini zəbt etdilər. Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu bütün yuxarı Qarabağı işğal etdi. Bu hadisə BMT Nizamnaməsini və ATƏM-in prinsiplərini mütəmadi şəkildə pozaraq Qarabağın dağlıq

[6] Armenia-Azerbaijan conflict. GRS. Issue Brief. September 24, 1997, p.11.
[7] "Həyat", 28 mart 1992-ci il.



hissəsini zorla ilhaq etməyə çalışan Ermənistan Respublikasının beynəlxalq hüquq normaları ilə bir araya sığmayan təcavüzkarlıq siyasətini davam etdirdiyini bir daha təsdiqlədi.

Şuşanın işğalından dərhal sonra Azərbaycan BMT Təhlükəsizlik Şurasının sədrinə və dünya dövlətlərinə müraciət edərək Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq üçün bütün vasitələrdən istifadə etməyə çağırdı[8]. Mayın 9-da Türkiyə dövləti Dağlıq Qarabağda vəziyyətin kəskinləşməsi ilə əlaqədar təcili olaraq BMT Təhlükəsizlik Şurasının çağırılmasını xahiş etdi[9].

Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin təklifi ilə BMT Təhlükəsizlik Şurası (TŞ) Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar məsləhətləşmələr keçirdi. Mayın 12-də Təhlükəsizlik Şurasının 3072-ci iclasında Dağlıq Qarabağda vəziyyət müzakirə edildi və Şuranın sədri Peter Xoenfellner (Avstriya) bəyanat verdi[10]. BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatında iki məsələ öz əksini tapdı: son hadisələrin baş verdiyi münaqişə bölgəsində vəziyyəti yerinə yetirmək üçün BMT-nin xüsusi nümayəndəliyinin dərhal göndərilməsi və beynəlxalq birliyin qaçqınlara humanitar yardım göstərməsi haqqında.

Təhlükəsizlik Şurasının üzvləri bütün əlaqədar tərəfləri zorakılığa son qoymaq, Baş Katibin nümayəndəliyinin işini asanlaşdırmaq və onun üzvlərinin təhlükəsizliyini

[8] "Xalq qəzeti", 14 may 1992-ci il.
[9] "Həyat", 12 may 1992-ci il.
[10] "Həyat", 14 may 1992-ci il.

təmin etmək üçün hər cür lazımi tədbirlər görməyə çağırdılar. Həmin gün Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının sədrindən xahiş etdi ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar olaraq BMT TŞ-nın xüsusi iclası çağırılsın[11].

Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin Təhlükəsizlik Şurasının sədrinə məktubu BMT-nin qərargah-mənzilində Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayıldı. Sənəddə Ermənistanın hərəkətləri suveren dövlətin ərazi bütövlüyünü pozmaq kimi qiymətləndirilir, dünya birliyindən Ermənistanın Azərbaycana qarşı təcavüzü faktının etiraf edilməsi tələb olunurdu.

1992-ci il ərzində BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələrdə, qəbul olunan 12 may, 26 avqust və 27 oktyabr tarixli bəyanatlarda Təhlükəsizlik Şurasının 5 daimi üzvü olan böyük dövlətlər Ermənistan-Azərbaycan münasibətlərinin kəskinləşməsi, Ermənistanın Azərbaycana qarşı təcavüzünün qiymətləndirilməsinə çox ehtiyatlı və soyuq yanaşdılar, təcavüzün qarşısını almaq üçün beynəlxalq hüquq normaları və BMT Nizamnaməsini pozduğuna görə Ermənistana qarşı heç bir əməli tədbir görmədilər.

Təcavüz aktının baş verməsilə təcavüzə məruz qalmış dövlət BMT Nizamnaməsinin 39-cu maddəsinə uyğun olaraq BMT Təhlükəsizlik Şurası qarşısında təcavüzkar dövlətin məsuliyyəti məsələsini qoyur. Təcavüz anlayışının müddəalarının birində göstərilən faktın olması kifayət edir ki, Təhlükəsizlik Şurası təcavüzkara qarşı Nizamnamənin VI-VII fəsillərinə uyğun olaraq məcburiyyət tədbirləri görsün[12]. BMT Baş Məclisinin 1967-ci il 18 dekabr tarixli 2330 (XXII) saylı qətnamə layihəsində təcavüz hərəkətlərinin qarşısını almaq və BMT Nizamnaməsinə uyğun olaraq beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və təsirli tədbirlər həyata keçirmək üçün təcavüz anlayışının mahiyyəti öz əksini tapmışdır[13].

1974-cü il dekabrın 14-də BMT Baş Məclisinin 29-cu sessiyasının 3314 (XXIX) saylı qətnaməsində ilk dəfə olaraq təcavüz anlayışının mahiyyəti və məzmunu açıqlandı və ona beynəlxalq hüquqi qiymət verildi[14]. 8 maddədən ibarət olan qətnamədə təcavüzün nədən ibarət olması müəyyənləşdirildi.

Ona görə də Ermənistan Respublikası tərəfindən qətnamədəki hər hansı bir bəndin, ümumiyyətlə əksər maddələrin pozulması belə bir nəticəyə gəlməyə imkan verirdi ki, bu, hərəkətlər əsl təcavüz faktı kimi qiymətləndirilsin.

Cəzasız qalan Ermənistan təkcə Qarabağın dağlıq hissəsini tutmaqla kifayətlənmədi və təcavüzkarlığını daha da

---

[11] "Həyat", 14 may 1992-ci il.

[12] Charter of the United Nations and Statute of the International Court of Justice. United Nations. New York, 1999, p.19-28; Официальные отчеты Генеральной Ассамблеи. XXIX сессия.Приложение к резолюции 3314 (XXIX) Генеральной Ассамблеи, документ A/9890.

[13] The Work of the International Law Commission. United Nations. New York, 1996, p.38.

[14] Yenə orada.



15706
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

genişləndirdi. 1993-cü il martın 27-dən aprelin 3-dək Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Kəlbəcər rayonu işğal edildi[15]. Ermənistan hökuməti Azərbaycan torpaqlarının işğalını yalnız Dağlıq Qarabağ ermənilərinin həyata keçirdiyini bildirdi. Lakin Ermənistan münaqişədə bitərəf olmayıb, Azərbaycan ərazisinin işğal olunmasında Ermənistanın silahlı qüvvələrinin bilavasitə iştirakı danılmazdır.

Kəlbəcər rayonuna erməni təcavüzü başlayandan dərhal sonra Azərbaycan bölgədə yaranmış vəziyyət haqqında BMT-nin Baş Katibinə və Təhlükəsizlik Şurasının sədrinə məlumat verdi[16]. Azərbaycan dövləti Təhlükəsizlik Şurasından təcili iclas çağırmağı və Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləməyi tələb etdi. Azərbaycanın bu tələbi Türkiyə tərəfindən müdafiə olundu[17]. Məhz Kəlbəcərin işğalından sonra Türkiyə dövləti Ermənistanla sərhəddini bağladı.

1993-cü il aprelin 30-da BMT TŞ-nın 3205-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 822 saylı qətnamə qəbul edildi[18]. Qətnamədə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin pislənməsi ilə əlaqədar Təhlükəsizlik Şurasının ciddi narahatlıq keçirdiyi bildirilir, bununla da Ermənistan Respublikasının münaqişədə bu və ya

[15] Azerbaijan: Seven years of conflict in Nagorno-Karabakh. In: Human Rights Watch /Helsinki. New York, 1994, p.8-12.
[16] Armenia-Azerbaijan conflict.., p.2.
[17] "Azərbaycan", 8 aprel 1993-cü il.
[18] "Xalq qəzeti", 4 may 1993-cü il.



başqa formada iştirakı etiraf olunurdu. Bundan əlavə, sənəddə bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, eləcə də sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yol verilməzliyi bir daha təsdiq olundu[19].

Tərəflərin BMT TŞ-nın 822 saylı qətnaməsinin yerinə yetirilməsi və ATƏM çərçivəsində danışıqlar prosesinin bərpa olunması barədə Minsk Qrupuna daxil olan 9 ölkənin nümayəndələrinin Romada işləyib hazırladığı təklifləri qəbul etdiyi bir vaxtda Ermənistan silahlı qüvvələri Azərbaycanın Ağdam və Ağdərə bölgələrində döyüş əməliyyatlarını gücləndirdilər.

Belə ki, 1993-cü il iyulun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Ağdam rayonu işğal edildi. Ağdam rayonuna erməni təcavüzü başlayandan dərhal sonra Azərbaycan bölgədə yaranmış vəziyyətlə əlaqədar BMT-nin Baş Katibinə və Təhlükəsizlik Şurasının sədrinə müraciət etdi.

Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam rayonunun işğalı ilə əlaqədar yazılı müraciət edərək atəşin qəti şəkildə dayandırılması məqsədilə Ermənistan Respublikasından hərbi əmə-

[19] Resolution 822 (1993) – Adopted By the- UN Security Council at its 3505th meeting, on 30 April 1993.

liyyatlara son qoymağı, habelə zəbt olunmuş Azərbaycan ərazilərindən işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb etdi[20].

Ağdamın işğalından sonra BMT Təhlükəsizlik Şurasının iyulun 29-da keçirilən 3259-cu rəsmi iclasının gündəliyində bir məsələ dururdu: "Dağlıq Qarabağda vəziyyət". İclasın başlanğıcında Təhlükəsizlik Şurasının sədri Devid Henney Şura üzvlərinə məlumat verərək bildirdi ki, bu iclas Azərbaycan dövləti adından Təhlükəsizlik Şurasına göndərilən və BMT-dəki daimi nümayəndəlik tərəfindən yayılmış məktubdakı təkidli xahişə müvafiq surətdə keçirilir.

Müzakirələrdən sonra BMT Təhlükəsizlik Şurası Azərbaycanın Ağdam rayonunun işğal edilməsi ilə bağlı 853 saylı qətnamə qəbul etdi[21]. Bu qətnamədə də Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin olduğu göstərilir; beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilərin zor gücünə ələ keçirilməsinin yolverilməzliyi bir daha təsdiq olunur; hərbi əməliyyatların təxirə salınmadan dayandırılması və münaqişədə iştirak edən işğalçı qüvvələrin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlarından

[20] Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin BMT Təhlükəsizlik Şurasının sədrinə yazılı müraciəti, 26 iyul 1993-cü il. – "Azərbaycan" qəz., 27 iyul 1993-cü il; Azerbaijan International. California, September, 1993 p.22-25.

[21] "Xalq qəzeti", 31 iyul 1993-cü il.



dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu[22].

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə və BMT-nin Baş katibinə məktubunda 822 və 853 saylı qətnamələrin qəbul edilməsindən kifayət qədər vaxt keçməsinə baxmayaraq, təcavüzkar Ermənistanın Azərbaycan ərazilərinə hücumunu genişləndirərək bütün beynəlxalq hüquq normalarına məhəl qoymadığını bir daha diqqətə çatdırmışdır. Bu səbəbdən Azərbaycan rəhbəri kimi Heydər Əliyev təcavüzkarın qarşısının alınması, qan tökülməsinin dayandırılması, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə yönəlmiş təxirəsalınmaz tədbirlərin görülməsi üçün Təhlükəsizlik Şurasının dərhal çağırılmasını xahiş etdi[23].

Təəssüf ki, Baş Katibin, eləcə də Təhlükəsizlik Şurasının bölgədə yaranmış vəziyyətə vaxtında qiymət verməməsi Ermənistanı daha da ruhlandırdı. Bu da Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın digər ərazilərinin işğal olunmasına gətirib çıxardı.

Ermənistanın Azərbaycana qarşı açıq-aşkar təcavüzünün artdığı bir vaxtda beynəlxalq təşkilatlar və böyük

[22] Resolution 853 (1993) – Adopted By the UN Security Council at its 3259th meeting, on 29 July 1993.

[23] Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin BMT Təhlükəsizlik Şurasının sədrinə və BMT-nin Baş katibinə məktubu, 18 avqust 1993-cü il. – "Azərbaycan" qəz., 19 avqust 1993-cü il.

dövlətlər hadisələrə çox ehtiyatla yanaşdılar. Hələ 853 saylı qətnamə qəbul edilməzdən əvvəl Ağdamın işğalı ilə bağlı Təhlükəsizlik Şurasında keçirilən məsləhətləşmələrdə Şuranın daimi üzvləri ABŞ, Fransa və Rusiya münaqişəyə Azərbaycanla Dağlıq Qarabağ arasında gedən münaqişə kimi baxırdılar. Həmin ölkələrin nümayəndələri qətnamə qəbul edilərkən Ağdam və digər işğal olunmuş ərazilərə hücumu "Dağlıq Qarabağ ermənilərinin" hərəkəti kimi qiymətləndirdilər. Ermənistanı təcavüzkar dövlət kimi tanımadılar.

Ümumiyyətlə, 1993-cü ilin yayında Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayaraq Azərbaycanın digər yeni ərazilərini işğal etdi. Belə ki, avqust ayının 20-25-də Azərbaycanın Füzuli və Cəbrayıl rayonları, avqustun 31-də isə Qubadlı rayonu Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olundu.

1993-cü il oktyabrın 14-də BMT Təhlükəsizlik Şurası özünün 3292-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 874 saylı qətnamə qəbul etdi[24]. Bu qətnamədə BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiq edirdi. Əvvəlkilərdə olduğu kimi, bu qətnamədə də, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətlərdəki gərginliklə əlaqədar ciddi narahatlıq ifadə edilir; dövlətlərin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı və

[24] "Xalq qəzeti", 20 oktyabr 1993-cü il.



ərazi əldə etmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyi bir daha təsdiq olunurdu[25].

Lakin, cəzasız qaldığından istifadə edən Ermənistan Respublikası təcavüzkarlığını daha da genişləndirərək BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 saylı qətnamələrinə məhəl qoymayaraq Azərbaycanın digər yeni ərazilərini işğal etdi.

1993-cü il oktyabrın 23-də Ermənistan Respublikasının silahlı qüvvələri atəşin dayandırılması haqqında razılaşmanı pozaraq Azərbaycan Respublikasının cənub-qərb rayonlarına güclü hücuma keçdi[26]. Ermənistan ordusunun bu hücumda başlıca məqsədi Azərbaycan Respublikasının Zəngilan rayonunu ələ keçirmək, bununla da Azərbaycanın cənub-şərq hissəsinin tamamilə işğal olunmasını başa çatdırmaq idi. Bu məqsədi həyata keçirmək üçün Zəngilan rayonuna hücumdan bir neçə gün əvvəl Ermənistan ordusu Azərbaycanın cənubunda mühüm kommunikasiya qovşağı olan Horadiz qəsəbəsini tutmaqla Horadiz-Zəngilan sahəsində avtomobil və dəmir yollarını kəsmişdi.

Beləliklə, Azərbaycanın 60 min nəfərdən artıq əhalisi olan Zəngilan rayonu mühasirəyə düşmüş və onun Azərbaycanın digər rayonları ilə əlaqəsi kəsilmişdi. Zəngilan rayonuna hücum zamanı erməni qüvvələrinin ön hissələri Azərbaycanın İranla dövlət sərhəddinə bilavasitə yaxın-

[25] Resolution 874 (1993) – Adopted By the UN Security Council at its 3292th meeting, on 14 October 1993.
[26] "Azərbaycan", 29 oktyabr 1993-cü il.

laşmış və sərhəddin 70 kilometr uzunluğunda məsafəsini nəzarət altına almışdı. Azərbaycanın onlarca yaşayış məntəqəsi Ermənistan Respublikasının qoşunları tərəfindən işğal olundu[27].

Azərbaycan dövləti Ermənistanın təcavüzkarlığının genişlənməsi ilə əlaqədar olaraq BMT Baş Katibinə, Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək beynəlxalq birliyin diqqətini Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı birbaşa təcavüz həyata keçirdiyinə cəlb etdi və təcavüzkara qarşı bütün lazımi tədbirləri görməyə çağırdı.

Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi və Ermənistan silahlı qüvvələri tərəfindən Zəngilan rayonunun işğalı ilə əlaqədar Azərbaycan dövlətinin xahişi ilə BMT Təhlükəsizlik Şurası özünün 3313-cü iclasında vəziyyəti müzakirə edərək 1993-cü il noyabrın 12-də 884 saylı qətnamə qəbul etdi[28].

Bu qətnamədə də Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsindən və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gərgin olaraq qalmasından ciddi narahat olduğunu bildirilir; atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların genişlənməsi, həddən artıq güc tətbiq edilməsi, o cümlədən Azərbaycan Respublikasının Zəngilan rayonunun

[27] "Azərbaycan", 29 oktyabr 1993-cü il.

[28] Resolution 884 (1993) – Adopted By the UN Security Council at its 3313th meeting, on 12 November 1993.



və Horadiz şəhərinin işğalı təşvişlə qeyd edilir; Azərbaycanın suverenliyi və ərazi bütövlüyü, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyi bir daha təsdiq olunurdu. Nəticədə, 884 saylı qətnamə əvvəlki, yəni – 822, 853, 874 saylı qətnamələrin məzmununu bir daha təsdiqlədi[29].

Ümumiyyətlə, 1993-cü il ərzində Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığının artması ilə əlaqədar BMT TŞ-nın və dünyanın aparıcı ölkələrinin qəbul etdikləri bütün sənədlərdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilirdi. Lakin Təhlükəsizlik Şurasının daimi üzvləri olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq vermədilər. Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxmasına deyil, münaqişənin atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər.

BMT TŞ-da aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən Şuranın daimi üzvləri olan böyük dövlətlər Ermənistan-Azərbaycan münasibətlərinin kəskinləşməsinin səbəblərinin, xarakterinin və məzmununun qiymətləndirilməsinə birmənalı yanaşmadılar. Qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü bu dövlətlərin böyük "səyləri" nəticəsində "Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirildi.

[29] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, 2012, s.778-786.

Ermənistanın Azərbaycana qarşı açıq-aşkar müharibə apararaq BMT üzvü olan dövlətin ərazisinin ilhaqını davam etdirməsi nəticəsində, ölkəmizin ərazisinin 20 %-indən çox hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali öz torpağında qaçqın vəziyyətinə düşdü. Yüzlərlə yaşayış məntəqəsi dağıdıldı, talan edildi və yandırıldı.

Ermənistan özünün minimum proqramını həyata keçirdikdən, yəni Dağlıq Qarabağ regionunun bütün ərazisini işğal etdikdən sonra onun sərhədləri boyunca "bufer zonası" yaratmağa başladı. Bu zona işğal edilmiş Dağlıq Qarabağ ətrafında yerləşən Azərbaycan rayonlarını əhatə edir. Təcavüzün gedişində Azərbaycanın Ermənistanla həmsərhəd rayonlarının demək olar ki, hamısı iki istiqamətdə: zəbt edilmiş Dağlıq Qarabağ regionundan və bilavasitə Ermənistan Respublikası ərazisindən aparılan hücumlardan sonra işğal olunmuşdur. Nəticədə, Azərbaycanın Ermənistanla dövlət sərhəddinin 70 %-indən çoxu və İran İslam Respublikası ilə sərhəddinin 160 kilometri işğalçı erməni qoşunlarının nəzarəti altına düşdü[30].

Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla aradan qaldırılması sahəsində BMT və dünya birliyinin göstərdiyi səylər təəssüf ki, Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından təsirli nəticələr vermədi. BMT-nin regionda sülhpərvərlik

[30] "Xalq qəzeti", 30 oktyabr 1993-cü il.



fəaliyyətinin uğursuzluqlarının başlıca səbəbi məhz Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü faktının birbaşa etiraf olunmaması ilə bağlıdır. Ermənistan Respublikası BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində və ATƏT-in Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozmasına baxmayaraq adı çəkilən nüfuzlu beynəlxalq təşkilatların faktlar toplamaq sahəsində çoxsaylı missiyaları öz nəticələrini çıxararkən Ermənistan silahlı qüvvələrinin münaqişədə bilavasitə iştirakını etiraf etməyin mürəkkəb olduğunu bildirirdilər. Halbuki BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və Təhlükəsizlik Şurası sədrinin bəyanatlarında Ermənistan Respublikasının münaqişədə bu və ya başqa formada iştirakı etiraf olunurdu. Deməli, Ermənistan münaqişədə bitərəf olmayıb, dolayı yolla olsa da hərbi təcavüzə rəvac verib. Bu isə beynəlxalq cinayətdir və yuxarıda qeyd edildiyi kimi, BMT Baş Məclisinin 1974-cü ildə keçirilən 29-cu sessiyasında təcavüzün istənilən forması (birbaşa, yaxud dolayısı ilə) hərbi cinayət elan edilib.

Ona görə də böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, BMT Nizamnaməsinin 7-ci fəslinə müvafiq surətdə, qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər.

## 1.2. Azərbaycan-BMT əlaqələrinin genişlənməsi. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi

Müstəqillik əldə etdikdən sonra Azərbaycan BMT ilə əlaqələrini inkişaf etdirməklə yanaşı, bu təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə töhfə vermək üçün irəli sürülən islahat təkliflərinin verilməsi və müzakirəsi prosesində fəal iştirak edir. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu proses daha da genişləndi. Belə ki, Azərbaycan Prezidenti Heydər Əliyevin BMT Baş Məclisinin sessiyalarında və digər yüksək səviyyədə keçirilən müxtəlif iclaslarda və çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi. Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə ümummilli lider 1994-cü ilin sentyabr aynıda BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək, bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmışdır[31].

1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdır[32].

2000-ci ilin sentyabr ayında BMT-nin Minilliyin sammitində çıxış edən Prezident Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında bu beynəlxalq təşkilatın mühüm rol oynadığını qeyd etmiş, regional münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bildirmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır[33].

XXI əsrin başlanğıcı dünyanın siyasi həyatında, beynəlxalq münasibətlərin nizama salınmasında, müasir dövrdəki ümumbəşəri və qlobal problemlərin həllində, Qərbə inteqrasiya kursu götürmüş ölkələrin demokratikləşməsində dövlətlərarası təşkilatların rolunun kəskin şəkildə artması ilə səciyyəvidir[34].

Azərbaycan Respublikası beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlərini inkişaf etdirmək

[31] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasındakı çıxışı. 29 sentyabr 1994-cü il. – "Azərbaycan" qəz., 30 sentyabr 1994-cü il.

[32] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin 50 illiyi yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında çıxışı, 22 oktyabr 1995-ci il. – "Azərbaycan" qəz., 24 oktyabr 1995-ci il.

[33] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.447

[34] Yenə orada, s.463.

və XXI əsrdə qlobal təhlükələrə operativ cavab vermək üçün təkliflər irəli sürmüş və bu işə öz töhfəsini verməkdədir.

Bu baxımdan, 2003-cü ilin sentyabrında BMT Baş Məclisinin 58-ci sessiyasında iştirak edən Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev öz çıxışında beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlərin arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə, BMT TŞ-nin şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməsini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab vermədiyini vurğulamış və bununla bağlı təşkilat daxilində islahatların vacib məsələyə çevrildiyini bildirmişdir. Azərbaycanın hökumət başçısının fikrincə, BMT Təhlükəsizlik Şurasında "həm bu günkü, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalıdır"[35].

Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etmişdir. Belə ki, Azərbaycan beynəlxalq aləmdə BMT-nin rolunun artırılması və mövcud problemlərin həllində daha təsirli tədbirlərin görülməsinə nail olmaq üçün əlavə addımların atılması zərurətini BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında yenidən gündəliyə gətirdi. Sessiyada çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul

[35] Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. II cild. /Kitabın ideya rəhbəri: akademik R. Mehdiyev, redaktor: professor Ə.Həsənov, buraxılışa məsul: B. Sadıqov / Bakı, 2012, s.276-282.



etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ən zəruri məsələ kimi irəli sürmüşdür. Eyni zamanda, Azərbaycanın dövlət başçısı bildirmişdir ki, "Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verilməlidir"[36].

Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclaslarında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edilmişdir[37].

Həmin sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması, həmin ərazilərdə yanğınların törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad edilməklə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Bu-

[36] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 59-cu sessiyasında çıxışı, 24 sentyabr 2004-cü il. – "Azərbaycan" qəz., 26 sentyabr 2004-cü il.

[37] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, 2012, s.788-791.

nunla yanaşı, qətnamələrdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyünə hörmət ifadə olunur, eləcə də öz torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququ bir daha təsdiqləndi.

Azərbaycanın dövlət başçısı cənab İlham Əliyev Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin BMT üçün əsas olmasını vurğulayaraq, onların 20 ildən artıq bir müddət keçməsinə baxmayaraq, hələ də yerinə yetirilməməsini ədalətsizlik və ikili standartlar adlandırmışdır. Bu vəziyyətin dözülməz olduğunu vurğulayan Azərbaycan Prezidenti dövlətimizin prinsipial mövqeyini bir daha bəyan etmişdir: "Biz yaranmış bu vəziyyətlə barışa bilmərik. Status-kvo bizi qane etmir. Status-kvo dəyişməlidir və ədalətli dəyişməlidir. Erməni işğalçı qüvvələri bütün torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır"[38].

Azərbaycan Respublikası BMT-nin islahatlar nəticəsində yaradılmış İnsan Hüquqları Şurasına seçilən ilk 47 ölkəsindən biri olmuş və 2006-2009-cu illəri əhatə edən üzvlük müddətində öz səmərəli fəaliyyəti ilə bu qurumun işinə öz töhfəsini vermişdir. Şurada göstərdiyi fəallığın nəticəsi olaraq Azərbaycan Respublikası BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi nümayəndəsi 2008-2009-cu illər üzrə İnsan Hüquqları Şurasının vitse-sədri məruzəçisi seçilmişdir.

[38] Nazirlər Kabinetinin 2011-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında İlham Əliyevin giriş nitqi – "Azərbaycan" qəz., 13 yanvar 2011-ci il.



Təhlükəsizlik Şurası dünyada sülh və təhlükəsizliyin təmin edilməsi üzrə BMT-nin məsul qurumu olaraq, 5 daimi və 10 qeyri-daimi üzvdən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, BMT Baş Məclisinin Prosedur Qaydalarının 142-ci bəndinə əsasən hər il BMT TŞ-nin 10 qeyri-daimi üzvündən 5-i yenilənir. 2011-ci ildə də 2012-2013-cü illər üşün Təhlükəsizlik Şurasının 5 qeyri-daimi üzvü seçilməli idi. BMT TŞ-nin qeyri-daimi üzvülüyünə seçkilərdə namizədlər regional qruplar adlandırılan qruplar tərəfindən irəli sürülür. Belə ki, Afrikadan və Asiya-Sakit okean regionundan dərhal beş ölkə öz namizədliyini irəli sürmüşdür. Bunlar Qırğızıstan, Mavritaniya, Mərakeş, Pakistan və Toqo olmuşdur[39].

Onlar 2011-ci il dekabrın 31-də Qabon, Livan və Nigeriya tərəfindən azad olunan yerlər uğrunda mübarizə aparmışlar. İlin sonunadək Bosniya və Herseqovinanın tutduğu yerə Şərqi Avropa dövlətləri qrupundan üç ölkə – Azərbaycan, Macarıstan və Sloveniya iddia etmişdir. Reqlamentə görə, qeyri-daimi üzvlüyə seçkilər gizli səsvermə yolu ilə həyata keçirilir. Yalnız Azərbaycan, Qırğızıstan və Qvatemaladan başqa, doqquz namizəd ölkə artıq bundan əvvəl BMT TŞ-nin qeyri-daimi üzvü olmuşdu.

Şərqi Avropa qrupundan namizədliyini irəli sürən Sloveniya və Macarıstanla mübarizə aparan Azərbaycan seçkilərin 16 mərhələsində əvvəl Macarıstan, sonra isə

[39] Əhmədov E. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi ölkəmizin diplomatiya tarixində böyük nailiyyətdir. – "Xalq qəzeti", 28 oktyabr 2011-ci il.

Sloveniya üzərində şərtsiz üstünlük qazanaraq 17-ci mərhələdə qələbə üçün tələb olunan 129 səsdən də çox olan 155 səs əldə etmişdir[40].

Bundan əvvəl baş tutan səsvermənin 16-cı mərhələsində Azərbaycan 116, Sloveniya isə ancaq 77 səs toplamışdı. Səsvermənin axırıncı mərhələsindən əvvəl Sloveniyanın xarici işlər naziri Samuel Zboqar öz ölkəsinin namizədliyini geri götürdüyünü bildirmişdir. Axırıncı mərhələdə isə, Azərbaycanın lehinə 155 ölkə səs vermiş, 24 ölkə bitərəf qalmış və daha 13 ölkə yenə də Sloveniyaya səs vermişdir. Digər səsvermənin yekunları üzrə BMT TŞ-nin yeni qeyri-daimi üzvləri Qvatemala, Mərakeş, Toqo və Pakistan olmuşdur[41].

Beləliklə, Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətinin dəstəyini qazanaraq inamlı qələbə qazanmışdır. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü iki il – 2012-ci il yanvarın 1-dən başlayaraq 2013-cü il dekabrın 31-ə qədər davam edəcəkdir.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması tarixi hadisədir və bu Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi

[40] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, 2012, s.307-308.

[41] Əhmədov E. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi ölkəmizin diplomatiya tarixində böyük nailiyyətdir. – "Xalq qəzeti", 28 oktyabr 2011-ci il.



qiymətləndirilməlidir. Eyni zamanda, Azərbaycan dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli əlaqələr quraraq bunu dövlətlərarası sivil münasibətlər müstəvisində daim inkişaf etdirir. Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə olmuşdur. Bu da simvolik bir haldır ki, Azərbaycan bu tarixi qələbəni BMT-nin təsis edildiyi gün olan oktyabrın 24-də əldə etmişdir.

Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla ölkənin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu olaraq qəbul edilməlidir. Bu uğurun müstəqilliyin bərpasının 20-ci ildönümündə əldə edilməsi təsadüfi deyildir. Belə ki, Azərbaycan, ötən 20 il ərzində stabil inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki əməlləri ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdir.

BMT Nizamnaməsinin 23-cü maddəsinə görə, Baş Assambleya Təhlükəsizlik Şurasının on qeyri-daimi üzvünü seçərkən, ilk növbədə həmin ölkələrin beynəlxalq sülhün və təhlükəsizliyin saxlanması və təşkilatın digər məqsədlərinə nail olunmasında iştirak dərəcəsinə diqqət ayırır. Ancaq, BMT TŞ beş daimi üzvdən – ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çindən və iki ildən bir seçilən 10 qeyri-

daimi üzvdən ibarətdir. "Böyük beşlik"dən fərqli olaraq qeyri-daimi üzvlər veto hüququna malik deyillər.

Əlbəttə ki, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ölkəmiz üçün çox böyük uğurdur. 155 ölkənin ölkəmizin namizədliyinin lehinə səs verməsi Azərbaycanın beynəlxalq aləmdə artan çəkisinin, ərazi bütövlüyü və *sərhəd toxunulmazlığının bir daha təsdiqlənməsi* deməkdir. Digər tərəfdən, bu hadisə son illərdə Azərbaycanın dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilməsidir. Çünki beynəlxalq münasibətlər sisteminin böyük miqyaslı məsələlərinin müzakirəsi prosesində ölkəmizin artan fəallığı danılmaz faktdır.

Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimiz dövründə – 20 il ərzində belə böyük uğurun əldə edilməsini tarixi nailiyyət kimi qiymətləndirərək demişdir: "Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu, göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib. Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir"[42].



Azərbaycan BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlükdən istifadə edərək, özünün təhlükəsizlik problemlərini, ilk növbədə, pozulmuş ərazi bütövlüyü məsələsini BMT Təhlükəsizlik Şurasının gündəliyinə çıxarmaq imkanı qazanmışdır. Belə ki, artıq Azərbaycan dövləti may ayında BMT Təhlükəsizlik Şurasının sədri funksiyalarını çox uğurla icra etmiş və 2012-ci il yanvarın 4-də dövlət başçısı İlham Əliyev öz çıxışında Azərbaycanın təhlükəsizlik problemlərini, xüsusilə Ermənistanın xalqımıza qarşı apardığı terror, etnik təmizləmə, soyqırımı siyasətini bu yüksək qurumun kürsüsündən bir daha bəyan etmişdir. Azərbaycan Prezidenti bu gün Ermənistanın terror risklərindən irəli gələrək, terror hədələrinin tərəfimizdən zərərsizləşdirilməsinə baxmayaraq, bu riskin yenə də yüksək olaraq qaldığını ön plana çəkərək Azərbaycanın işğal edilmiş ərazilərinin terrorçuluqla separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlıq, o cümlədən narkotik maddələrin dövriyyəsi, çirkli pulların yuyulması və silah qaçaqmalçılığı arasında olan əlaqə baxımından böyük narahatlıq mənbəyi olduğunu, Ermənistanın terror hədələrinə əlavə olaraq, Azərbaycan beynəlxalq terror qruplarından irəli gələn risk və təhlükələrlə hələ də üzləşdiyini bildirmişdir. Buna görə, Azərbaycan təbii olaraq milli səviyyədə genişmiqyaslı tədbirləri

---

[42] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibəti ilə Bəyanatı. – "Azərbaycan" qəz., 25 oktyabr 2011-ci il.

görməkdədir və terrorçuluğun qarşısının alınması üçün beynəlxalq səylərə fəal şəkildə töhfə verir. Bu baxımdan, Təhlükəsizliyin bölünməzliyinin carçısı olan Azərbaycan beynəlxalq antiterror koalisiyasına fəal şəkildə töhfə verən ölkə kimi terrorçuluğa qarşı mübarizənin aparılmasında səmərəli vasitə kimi xidmət edəcək beynəlxalq terrorçuluqla bağlı əhatəli konvensiya üzərində razılığın əldə edilməsinin vacibliyini vurğulamışdır[43].

Bununla yanaşı, Azərbaycan 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyəti müddətində bir sıra məsələlərin gündəliyə şıxarılmasına nail olmuşdur. Ədalətin və beynəlxalq hüququn norma və prinsiplərinin qorunmasını BMT Təhlükəsizlik Şurasında özünün prioritet məqsədi kimi qarşıya qoyaraq, ölkəmiz iki il ərzində BMT TŞ-nın qeyri-daimi üzvü kimi aktiv fəaliyyətini davam etdirmiş, beynəlxalq sülh və təhlükəsizliyin qorunması naminə öz töhfələrini vermiş və BMT TŞ-nın gündəliyində duran məsələlərin müzakirəsində fəal rol oynamış və daim öz qətiyyətli mövqeyini ortaya qoymuşdur.

Ölkəmizin 2013-cü ilin oktyabr ayından etibarən BMT TŞ-da başlayan ikinci sədrlik dövründə BMT tarixində ilk dəfə olaraq, Azərbaycanın təşəbbüsü ilə oktyabrın 28-də "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda qurumun yüksək səviyyəli iclası keçirilmişdir.

[43] "Azərbaycan", 8 yanvar 2012-ci il.



Azərbaycanın sədrliyi dövründə 2013-cü il oktyabrın 3-9-da Afrikanın Böyük Göllər regionunda siyasi, təhlükəsizlik və humanitar vəziyyətlə tanış olmaq və Afrika İttifaqının Sülh və Təhlükəsizlik Şurası ilə illik birgə müzakirələr keçirilmək üçün BMT TŞ-ı Afrikaya səfər etmişdir.

Ümumiyyətlə, Azərbaycanın sədrliyi dövründə Afrikanın Böyük Göllər regionu, Sudan-Cənubi Sudan münasibətləri, Somali, Mərkəzi Afrika Respublikası, Suriyada kimyəvi silahlar məsələsi və humanitar vəziyyət, Mali, Konqo Demokratik Respublikası, Somali, Qərbi Səhra bölgəsi, Livan və Fil Dişi Sahili üzrə çoxsaylı müzakirələr keçirilmiş, qətnamələr və bəyanatlar qəbul olunmuşdur[44].

Ümummili lider tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalan dövlət başçısı İlham Əliyevin münaqişənin nizama salınması prosesində hücum taktikasına üstünlük verməsi və bu istiqamətdə ardıcıl, qətiyyətli diplomatik addımların atılması problemin Azərbaycanın milli maraqları təmin olunmaqla aradan qaldırılması və uğurlu nəticələrin əldə edilməsinə möhkəm zəmin yaratmışdır. Dövlət başçısı İlham Əliyevin dəfələrlə və birmənalı olaraq "Azərbaycan ərazi bütövlüyü danışıqların mövzusu ola bilməz" fikrini irəli sürməsi ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla münaqişənin ədalətli şəkildə həll olunacağı ilə bağlı ümidləri daha artırmışdır.

[44] Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. – http://www.mfa.gov.az/

# FƏSİL II. AZƏRBAYCAN-ATƏT ƏMƏKDAŞLIĞI ÜMUMAVROPA TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ

## 2.1. Ermənistanın Azərbaycana təcavüzü və ATƏT-in Minsk qrupunun yaradılması

Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Helsinki Yekun Aktını 33 Avropa dövləti, ABŞ və Kanada imzalamışlar. Müşavirənin ilkin mərhələsi 1973-cü il iyulun 3-də Helsinkidə xarici işlər nazirlərinin görüşü ilə başlanmışdır. 1973-cü ilin sentyabrından 1975-ci ilin iyun ayınadək Cenevrədə siyasi sənədlər hazırlanmış, 1975-ci il iyulun 30-dan avqustun 1-dək isə Helsinkidə Yekun Akt imzalanmışdır[45].

1994-cü ildə ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında bu təşkilatın statusu genişləndirildi və o, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırıldı[46]. 1975-ci ildən indiyədək təşkilatın üzvlərinin sayı keçmiş SSRİ və Yuqoslaviya respublikalarının hesabına artaraq 56-ya çatmışdır.

Yarandığı vaxtdan ATƏT özünün yüksək səviyyədə müntəzəm keçirilən görüşlərində və Zirvə toplantılarında

[45] OSCE. Handbook. Vienna, Published by the Secretariat of the Organization for Security and Co-operation in Europe, 1999, p.5.

[46] Заключительный Акт Совещания по безопасности и сотрудничеству в Европе. 30 июля – 1 августа 1975 г. Москва, Международные отношения, 1987, 96 с.



(Belqrad 1977, Madrid 1980, Vyana 1986, Paris 1990, Helsinki 1992, Budapeşt 1994, Lissabon 1996, İstanbul 1999) Avropada sülhün qorunub saxlanmasına, regional və beynəlxalq münasibətlərin tənzimlənməsinə dair əhəmiyyətli qərarlar qəbul etmişdir[47]. ATƏT-in mühüm nailiyyətlərindən biri də 1990-cı ildə Avropada adi silahlar haqqında müqavilənin imzalanmasıdır. Elə həmin il noyabrın 19-21-də ATƏT-in Parisdə keçirilən Zirvə toplantısında imzalanan "Paris Xartiyası" ATƏT tarixində "Helsinki aktı"ndan sonra mühüm bir mərhələ oldu. "Paris Xartiyası" ATƏT-in fəaliyyətinə yeni məzmun gətirdi və Avropada "soyuq müharibə" dövrü başa çatdı[48].

1990-cı il Paris Xartiyasından sonra ATƏT-in ilk daimi fəaliyyət institutları yaradıldı. Bunlar Münaqişələrin Həlli Mərkəzi, Azad Seçki Bürosu (hazırda Demokratik İnstitutlar və İnsan Haqları İdarəsi) və Katiblikdən ibarətdir. Bundan başqa ATƏT-in daha 3 siyasi orqanı təsis edildi: ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərindən ibarət Nazirlər Şurası; Nazirlər Şurasına kömək etmək üçün Yüksək Vəzifəli Şəxslər Komitəsi (1994-cü ilin dekabrından Ali

[47] Rəcəbli H., İbayev V. Avropa beynəlxalq təşkilatları. Bakı. 1999, s.51.

[48] OSCE. Handbook. Vienna, Published by the Secretariat of the Organization for Security and Co-operation in Europe, 1999, p.8; Парижская хартия для новой Европы. Совещание глав государств и правительств. Париж, 19-21 ноября 1990 г.

Rəhbər Şura) və ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının müntəzəm keçirilən Zirvə toplantısı[49].

1992-ci ilin dekabrında Milli Azlıqların işi üzrə Ali Komissar və ATƏT-in sülhü müdafiə missiya və əməliyyatlarına nəzarətin həyata keçirilməsi üçün Baş Katib vəzifələri təsis edildi. 1993-cü ilin dekabrından Vyanada ATƏT-in Daimi Komitəsi (1994-cü ilin dekabrından Daimi Şura) fəaliyyət göstərir və burada bütün üzv olan dövlətlərin təmsilçiləri vardır. Daimi Komitə ATƏT üzvü olan dövlətlərdə siyasi məsələlərə dair, o cümlədən, böhranlı vəziyyət və silahlı münaqişələr olduqda məsləhətləşmələr aparır və müvafiq qərarlar qəbul edir[50].

Bundan başqa, 1992-ci ilin iyulundan ATƏT-in Parlament Assambleyası fəaliyyət göstərir ki, o öz iclaslarını ildə bir dəfə keçirir. ATƏT-in Fəaliyyətdə olan Sədri (Nazirlər Şurasının axırıncı iclası keçirilən dövlətin xarici işlər naziri) bir il müddətinə seçilir və onun operativ fəaliyyətinə ümumi rəhbərlik edir.

1992-ci illərin əvvəllərindən başlayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi daha çox beynəlxalq əhəmiyyətli problemə çevrildi. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası ATƏM-in üzvü oldu və həmin il iyulun 8-10-da adı çəkilən təşkilatın Helsinkidə keçirilən Zirvə toplantısında onun sənədlərini imzaladı[51].

[49] Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton. 1996, p.1168.

[50] OSCE. Handbook. Vienna, Published by the Secretariat of the Organization for Security and Co-operation in Europe, 1999, p.8.

[51] Dövlət başçılarının Helsinki görüşü. Helsinki, 8-10 iyul 1992: Sənədlər və materiallar, Bakı, 1992, s.12.



Müstəqilliyini əldə edən Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Ermənistan-Azərbaycan münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv olan dövlətlərin daha çox müzakirə obyektində oldu. Bu məqsədlə fevral ayının ortalarında ATƏM-in xüsusi missiyası Azərbaycanda oldu. Fevralın 27-28-də ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilən 7-ci iclasında münaqişə bölgəsində olan missiyanın məruzəsi dinlənildi. Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olmasını təsdiq edən sənəddə, sərhədlərin dəyişdirilməməsi şərti ilə, münaqişənin sülh yolu ilə həllinə çağırış öz əksini tapdı[52].

ATƏM-in YVŞK-nın martın 13-14-də Helsinkidə keçirilən 8-ci iclasında Dağlıq Qarabağ münaqişəsinin davam etməsi və onun dinc siyasi vasitələrlə aradan qaldırılması yolları müzakirə olundu. Bu görüşdən sonra ATƏM-in YVŞK-nın sədri Yan Kubişin başçılıq etdiyi nümayəndə heyəti martın 19-23-də ikinci dəfə münaqişə bölgəsinə səfər etdi[53]. Dağlıq Qarabağ, Bakı və Yerevanda olan nümayəndəliyin məqsədi Qarabağda atəşin dərhal dayandırılması, ATƏM müşahidəçilərinin münaqişə bölgəsində yerləşdirilməsi imkanlarını öyrənmək idi.

1992-ci il martın 23-24-də Helsinkidə ATƏM-in YVŞK-nın 9-cu iclasında münaqişə bölgəsində atəşi dərhal

[52] CSCE Seventh meeting of the Committee of Senior Officials. Prague, 27-28 February, 1992, CSO. Journal N 2, p.1-4.

[53] Report of the Second CSCE Mission on Nagorno Karabakh. CSCE. Helsinki, 24 March, 1992.

dayandırmaq və münaqişə edən bütün tərəfləri ATƏM çərçivəsində Dağlıq Qarabağa dair sülh konfransının tezliklə keçirilməsi üçün hər cür şərait yaratmağa çağırdılar[54].

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının martın 24-də keçirilən birinci əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olundu. ATƏM-in Nazirlər Şurası YVŞK-nın zəmanəti əsasında münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul etdi. Sənəddə göstərilirdi ki, Minskdə çağırılacaq konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, İsveç, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin[55].

1992-ci il mayın 1-də ATƏM-in YVŞK-nın Helsinkidə keçirilən 10-cu iclasında Dağlıq Qarabağa dair konfransın təşkili, iclasların keçirilməsi şərtləri, sədrin səlahiyyətləri və s. haqqında YVŞK-nın qərarı qəbul edildi. Minsk Konfransının reallaşması üçün yaradılan eyni adlı qrup münaqişənin nizamlanması istiqamətində fəaliyyət göstərməli, münaqişə həll ediləndən sonra isə məsələnin həllində neytral, regionda maraqlı dövlət olmadığını nəzərə alaraq Belarusun paytaxtı Minsk şəhərində konfransa üzv olan dövlətlər toplanmalı və Yekun sənədi qəbul etməli idilər. ATƏM-in

[54] CSCE. Budapest Document 1994. Towards a Genuine pornership in a new era. Budapest, 1994, p. 35.

[55] CSCE. First Additional meeting of the Council. Helsinki, 24 March, 1992, CSO. Journal, N 3, p.1-3.



Xarici İşlər Nazirləri Şurası Minskdə keçiriləcək konfransa hazırlıq məqsədilə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar görüş keçirmək və məsələni həll etmək barədə Mario Rafaelliyə mandat verdi.

1992-ci il mayın 7-də ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri M.Rafaelli başda olmaqla ATƏM-in nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Səfər zamanı o, bildirdi ki, regionda sülhün tezliklə bərqərar olması üçün atəş uzun müddətə kəsilməli, iyunun ortalarında keçiriləcək konfransın çağırılması şərtləri və subyektləri müəyyənləşdirilməlidir. Azərbaycan tərəfi bildirdi ki, Dağlıq Qarabağ nümayəndələri ancaq Azərbaycan nümayəndə heyətinin tərkibində konfransda iştirak edə bilərlər[56].

1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu tərəfindən bütün Yuxarı Qarabağ işğal edildi. Bundan sonra erməni hərbi qüvvələrinin qarşısında duran vəzifə işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün onların arasında dəhliz açmaq idi. Bu yolda iki respublikanın arasında yerləşən qədim Azərbaycan şəhəri Laçın əsas maneə idi. 1992-ci il mayın 17-də Laçın şəhəri də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq məqsədilə Azərbaycanın Dağlıq

[56] CSCE Seventh meeting of the Committee of Senior Officials. Prague, 27-28 February, 1992, CSO. Journal N 2, p.1-4.

Qarabağ bölgəsini Ermənistanla birləşdirən dəhliz silah gücünə ələ keçirildi. Laçının işğalı müharibənin Dağlıq Qarabağ sərhədlərindən çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin böyük olduğunu göstərdi. Ermənilərin "humanitar dəhliz" adlandırdığı bu yol ilə Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi[57].

Nəticədə, 1993-cü il ərzində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min km$^2$) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali (ümumi əhalinin 15%-i) öz torpağında qaçqın vəziyyətinə düşdü, 900-ə yaxın yaşayış məntəqəsi dağıdıldı, talan edildi və yandırıldı. Hazırda Azərbaycan ərazisinin 20%-dən çox (17 min km$^2$) hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur[58].

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı nəinki münaqişənin hərbi tərəfini, eyni zamanda onun mahiyyətini də dəyişərək yeni siyasi problem yaratdı və sülh missiyasını öz üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda maneəyə çevrildi.

1992-ci il iyunun 1-dən 5-dək Romada Minsk Qrupunun danışıqları seriyasından ilk mərhələ başlandı. Romada

---

[57] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s.5.

[58] Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, 2005, s. 157.



11 ölkənin – ABŞ, Türkiyə, Rusiya, İtaliya, Fransa, Almaniya, İsveç, Çexiya-Slovakiya, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilən görüş iyunun 23-də Minskdə açılması nəzərdə tutulan beynəlxalq konfransa hazırlıq məqsədi daşıyırdı[59].

Roma görüşündə Minsk Konfransının keçirilməsinə əngəl törədən erməni təcavüzü barədə məsələ müzakirə olundu. Konfransın qəbul edilməmiş sənədlərində "Laçından hərbi hissələrin çıxarılması", "Qaçqınların Laçına qaytarılması", "Şuşadan qoşunların çıxarılması", "Bu məsələlərin icrasına nəzarət etmək üçün beynəlxalq müşahidəçilərin yerləşdirilməsi" və s. kimi bəndlər var idi. Təklif edilmişdi ki, ATƏM-in Minsk Konfransı ərəfəsində, bu konfransın çağırılması haqqında qərar qəbul edilərkən mövcud olan, yəni Laçının tutulmasından əvvəlki vəziyyətə qayıtmaq lazımdır. Ancaq Ermənistan nümayəndələrinin konsensusa gələ bilmədiklərindən həmin sənəd qəbul edilmədi. 1992-ci il iyunun 15-dən 20-dək Romada Minsk Qrupunun danışıqları seriyasından keçirilən ikinci mərhələdə erməni tərəfi konfransın Laçın və Şuşanın işğalı ilə bağlı əvvəlki dörd bəndlik sənədinə Goranboy və Ağdərənin adlarını əlavə etməyi tələb etdilər[60].

ATƏM çərçivəsində M.Rafaellinin başçılığı altında 11 dövlətin iştirakı ilə Romada 1993-cü il fevralın 26-dan mar-

---

[59] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s.14.

[60] Маммадов И., Мусаев Т. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Баку, 2008, s.124.

tın 1-dək Minsk Qrupu danışıqlarının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə həsr edilmiş növbəti mərhələsində tərəflər münaqişə zonasına müşahidəçilər qrupunun göndərilməsi haqqında razılığa gəldilər[61]. Çox gərgin keçən danışıqlardan sonra tərəflər arasında saziş imzalandı. Qərara alındı ki, atəşin dayandırılması müddətləri, ATƏM-in atəşin dayandırılması üzrə müşahidəçilər missiyasının işə başlaması və Minsk Konfransının rəsmən açılması ilə bağlı maddələr də daxil olmaqla sülh danışıqları prosesinin konkret sənədləri barədə saziş imzalamaq üçün Minsk Qrupunun 1993-cü ilin aprel ayında daha bir görüşü keçirilsin. İmzalanan saziş aprelin 26-da keçiriləcək ATƏM-in YVŞK-nın iclasında bəyənilməli idi[62].

Ermənistan silahlı qüvvələrinin geniş miqyaslı hücumu nəticəsində 1993-cü il martın 27-dən aprelin 3-dək Azərbaycanın Kəlbəcər rayonunun işğalı münaqişəni keyfiyyətcə başqa səviyyəyə keçirdi. Ermənistan Respublikasının bu təcavüzü Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənarda yerləşən ərazilərinin intensiv surətdə işğal edilməsinin yeni mərhələyə – işğalçılıq mərhələsinə keçməsinə sübut idi.

Çox təəssüf ki, dünya birliyi Ermənistanın bu açıq-aşkar təcavüzkarlığına göz yumdu və təcavüzkarın cilovlanması üçün heç bir əməli tədbir görmədi. 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik

[61] "Azərbaycan", 3 mart 1993-cü il.
[62] Маммадов И., Мусаев Т. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Баку, 2008, s. 124.



Şurasında aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən Şuranın daimi üzvüləri olan böyük dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsinin səbəblərinin, xarakterinin və məzmununun qiymətləndirilməsinə birmənalı yanaşmadılar. Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü "Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirildi. Şuranın daimi üzvləri münaqişəyə Azərbaycanla Dağlıq Qarabağ arasında olan münaqişə kimi baxırdılar. BMT TŞ-nın 822, 853, 874, 884 saylı qətnamələri qəbul edilərkən Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər. Cəzasız qaldığından ruhlanan və bundan istifadə edən Ermənistan tərəfi BMT TŞ-nın münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

Vyanada ATƏM-in Minsk Qrupu tərəfindən BMT TŞ-nın 822, 853 və 874 saylı qətnamələrinin yerinə yetirilməsinə dair "Təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli" yenidən tərəflərin müzakirəsinə verildi. "Vyana cədvəli" prinsipcə "Paris cədvəli"ndən o qədər də fərqlənmirdi. Bu "Cədvəl"də Dağlıq Qarabağ ermənilərinin qeyri-konstitusiya qurumu statusu alması, yəni danışıqlar prosesində Dağlıq Qarabağ ermənilərinin "münaqişə iştirakçısı olan

tərəf" səviyyəsinə qaldırılması Azərbaycanın mənafeyinə zidd idi[63].

ATƏM-in Minsk Qrupunun bu illərdəki fəaliyyətinə nəzər salsaq, demək olar ki, onun BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yeritmək üçün hazırladığı "Təxirəsalınmaz tədbirlər cədvəli" heç bir təsir gücünə malik deyildi. ATƏM-in başlıca çatışmazlıqlarından biri də, məhz ATƏM çərçivəsində və onun himayəsi altında müqaviləni yerinə yetirməkdən imtina edən tərəfə qarşı sanksiya qəbul etmə mexanizminin olmaması idi. Minsk Qrupu tərəfindən qəbul edilən sənədlər yalnız məsləhət və ya tövsiyə xarakteri daşıyırdı. ATƏM-də tətbiq olunan qarşılıqlı güzəşt prinsipi müqaviləni pozan tərəfə öz əməllərinə görə məsuliyyət daşımamaq imkanı verirdi. Buna görə də ATƏM tərəflərin razılığı ilə münaqişə bölgəsinə müşahidəçilər qrupu göndərə bilərdi. 1992-1993-cü illər ərzində Minsk Qrupunun qəbul etdiyi yeganə konstruktiv sənəd də məhz münaqişə bölgələrində beynəlxalq hərbi müşahidəçilərin yerləşdirilməsini nəzərdə tutan 1993-cü il 1 mart tarixli mandat idi. Bu illərdə hərbi əməliyyatların dayandırılması və münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏM-in və onun yaratdığı Minsk Qrupunun göstərdiyi sə'ylər heç bir nəticə vermədi[64].

---

[63] Adjusted Timetable of Urgent Steps to Implement U.N. Security Council Resolutions 822, 853 and 874. November 12, 1993.

[64] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 25.



Torpaqlarına təcavüz olandan sonra da, Azərbaycan bütün vasitəçilik missiyalarından imtina etməyərək, problemin ATƏM prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu bir daha nümayiş etdirdi. Münaqişənin dinc vasitələrlə nizama salınması üçün yaradılmış Minsk qrupu çərçivəsində aparılan danışıqlarda qarşı duran tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə, Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxartdı.

Ermənistan-Azərbaycan münaqişəsinin vasitəçilik tarixinə nəzər salsaq və bunu şərti olaraq mərhələlərə bölsək, bu mərhələlərin hər biri xeyli dərəcədə Rusiya-Qərb qarşıdurması kontekstində qiymətləndirilə bilər. 1992-ci ilin martında Minsk qrupu yaradılan zaman Rusiya bu təşəbbüsü müdafiə etsə də, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair vasitəçilik səylərinin fəallaşması Rusiya siyasi dairələrində narahatlıq doğurmağa başlamışdı. Belə bir vaxtda münaqişənin dinc vasitələrlə həlli prosesində Rusiya təşəbbüsü beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən almağa və bununla da regionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərirdi.

Rusiya ATƏM-in Minsk qrupunun üzvü olsa da, 1993-cü ildə özünün müstəsna rolunu israr etməklə, istər BMT, istərsə də ATƏM çərçivəsində regionda "sülhün və sabitliyin təminatçısı" statusunu almağa səy göstərirdi. Ru-

siya ATƏM çərçivəsində vasitəçiliyi bitərəfləşdirməklə özünün münaqişənin nizama salınması planına aşkar üstünlük verirdi. Münaqişənin həllinə dair planlarda ATƏM ilə Rusiya arasında yaranmış fikir ayrılığı ondan ibarət idi ki, ATƏM münaqişənin nizama salınmasında çoxtərəfli vasitəçiliyin olmasını istəyir, sülh prosesinin beynəlxalq müşahidəçilərin nəzarəti altında aparılmasına və çoxmillətli sülhməramlı qüvvələrin formalaşmasına çalışırdı. Rusiya isə əksinə, münaqişənin nizamlanmasını öz nəzarətində saxlamaq və regionda geosiyasi maraqlarını təmin etmək üçün münaqişə bölgələrində yalnız rus qoşunlarının yerləşdirilməsini istəyirdi[65].

Lakin bu məqsədinə nail olmayan Rusiya Ermənistanda öz qoşunlarını yerləşdirmiş, onu gizli və aşkar yolla silahlandıraraq Azərbaycan ərazilərinin işğal olunmasına imkan yaratmışdır. 1997-ci ilin əvvələrində Rusiyadan Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard dollardan çox olan müasir silahların verilməsi haqqında faktlar üzə çıxdı. Məlum oldu ki, bu silahlar 1993-cü ildən etibarən, yəni Ermənistan ilə Azərbaycan arasında geniş hərbi əməliyyatlar getdiyi bir zamanda göndərilməyə başlanmış və bu da Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsinə şərait yaratmış, sonralar atəşkəs elan ediləndən sonra da bu proses davam etmişdir.

1993-cü ilin oktyabrında ABŞ Rusiyanın bu iddialarına qarşı birmənalı şəkildə çıxış etməyə başladı. Əvvəlcə,

[65] Yenə orada, s. 29-30.



Rusiya hərbi qüvvələrinə BMT sülhməramlı qüvvələri statusu verilməsinə qəti etiraz edildi. Sonra isə Rusiya bu məsələni 1993-cü ilin dekabrında Romada ATƏM-in Xarici İşlər Nazirləri Şurasının görüşündə həll etməyə çalışmış, lakin orada da istədiyi mandatı ala bilməmişdi. Qərbin kəskin mövqeyi ABŞ, Böyük Britaniya, Almaniya və Türkiyə dövlət nümayəndələrinin rəsmi bəyanatlarında da öz əksini tapdı. ABŞ-ın MDB dövlətləri üzrə koordinatoru Ceyms Kollinz Rusiyanın keçmiş SSRİ ölkələrinə təzyiqinin gücləndiyini və ABŞ-ın bunun əleyhinə olduğunu bildirdi. O, bəyan etdi ki, ABŞ Qarabağ münaqişəsi regionuna yalnız bir dövlətin qoşunlarının gətirilməsinə imkan verməyəcək. Dövlət Departamentinin bəyanatında da qeyd edilirdi ki, ABŞ münaqişənin yalnız ATƏM çərçivəsində həllinə üstünlük verir. Dağlıq Qarabağa dair danışıqlarda ABŞ-ın xüsusi nümayəndəsi olmuş Con Mareska isə Rusiyanın regionda nüfuzunu bərpa etmək istəyinə işarə edərək bildirdi ki, əgər Qərb, xüsusilə ABŞ biganə qalarsa, onda Rusiya məsələləri öz bildiyi kimi həll edəcək[66].

Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması ümummilli liderim Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Bu məqsədlə 1993-cü ilin ikinci yarısından başlayaraq Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın

[66] Maresca J. Agony of Indifference in Nagorno-Karabakh. "The Christian Science Monitor". Boston. June 27, 1994, p.19.

ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Münaqişənin sülh yolu ilə həll edilməsi üçün Prezident Heydər Əliyevin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi səylər dövlət başçısının apardığı ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir.

Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədi ilə məhz Prezident Heydər Əliyevin qətiyyəti, əzmkarlığı və gərgin fəaliyyəti sayəsində 1994-cü ilin mayın 12-də atəşkəs haqqında razılıq əldə edildikdən sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı[67].

1994-cü ilin dekabrın 5-6-da ATƏT-in Budapeştdə keçirilən Zirvə toplantısında "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" barədə qərar qəbul olundu[68]. Qəbul edilən sənəddə münaqişə bölgəsində sabitliyin təmin edilməsi üçün ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi haqqında maddə də öz əksini tapdı. Bundan başqa, Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk konfransına iki

[67]Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, s.199.

[68] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik-Bakı, 2005,s.725-726.



həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul edildi[69]. Rusiyanın bu münaqişədə maraqlı tərəf olduğu nəzərə alınaraq ATƏM-in Minsk konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və Finlandiyaya tapşırıldı. Bu razılıq təkcə Budapeşt görüşünə qədər gərgin olaraq qalan Qərb-Rusiya münasibətlərinin yumşaldılması deyil, həm də münaqişənin həlli istiqamətində Rusiyanın "fərdi sülhpərvərlik" istəyinin qarşısının alınması idi.

ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə toplantısı ATƏM tarixində yeni bir mərhələ oldu. Budapeştdə qəbul edilən qərarların birincisi Avropada sülhün və təhlükəsizliyin təmin edilməsində ATƏM-in rolunun daha da gücləndirilməsinə həsr edilmişdi. Zirvə toplantısında "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı bəyannamə qəbul edildi. Qərara alındı ki, Budapeşt görüşünə qədər Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirə (ATƏM) adı ilə fəaliyyət göstərən bu təşkilat 1995-ci il yanvarın 1-dən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırılsın. Qəbul edilən bu sənəd ATƏM-in təşkilati cəhətdən yeniləşməsi, onun fəaliyyətinin genişlənməsi prosesinin başlanğıcı demək idi.

ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliy-

[69] CSCE. Budapest Document 1994. Towards a Genuine pornership in a new era. Budapest, 1994, p. 4-5.

yətinin intensivləşdirilməsi" barədə qərar qəbul olundu[70]. Qəbul edilən sənəddə münaqişə bölgəsində sabitliyin təmin edilməsi üçün ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi haqqında maddə öz əksini tapdı. Bundan başqa, Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk Konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul olundu. ATƏM-in Minsk Konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və İsveçə (sonradan isə Finlandiyaya) tapşırıldı.

ATƏM-in Budapeşt samitində Azərbaycan Prezidenti Heydər Əliyev öz çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün nəzərdə tutulmuş beynəlxalq sülməramlı qüvvələrin təşkili üzrə ATƏM sədrinin səylərini yüksək qiymətləndirərək, münaqişənin nizama salınması prosesində irəliləyiş əldə etmək üçün Budapeşt görüşündə əlverişli imkanın yarandığını vurğuladı və dövlət başçılarına müraciət edərək ATƏM üzvlərini bu işdə fəal iştirak etməyə çağırdı.

1995-ci il fevralın 6-11-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasına dair Moskvada Rusiya və İsveçin həmsədrliyi ilə aparılmış danışıqlar Budapeşt sammitindən sonra keçirilən ilk məsləhətləşmə idi. Bu danışıqlarda Budapeşt sammitində qəbul olunmuş "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar

[70] Будапештские решения. II. Региональные вопросы. Активизация действий СБСЕ в связи с Нагорно-Карабахским конфликтом. Встреча на высшем уровне. Будапешт, 5-6 декабря 1994 года.



ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi" haqqında qətnamədə göstərilənlərin həyata keçirilməsi yolları müzakirə mövzusu olmalı idi. Lakin Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe ucbatından bu istiqamətdə irəliləyişlər əldə etmək mümkün olmadı[71].

Moskvada Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ nümayəndələri arasında danışıqlar başladı. Danışıqlarda Dağlıq Qarabağ ermənilərinin tərəf kimi tanınması üçün Azərbaycana böyük təzyiqlər göstərildi. Ermənistan tərəfi istəyirdi ki, danışıqlarda yalnız Dağlıq Qarabağın erməni icması, Azərbaycan və Ermənistan iştirak etsin. Azərbaycan tərəfi bildirdi ki, qarşı duran tərəflər Ermənistanla Azərbaycandır, Dağlıq Qarabağın erməni və azərbaycan icmaları maraqlı tərəflərdir. Bundan başqa, erməni tərəfi sülh müqaviləsi imzalanmamışdan əvvəl sülhməramlı qüvvələrin bölgəyə göndərilməsini tələb etdi.

Eyni zamanda, onlar sülhməramlı qüvvələrin tərkibində Türkiyə nümayəndələrinin olmasını istəmirdilər. Sülh danışıqlarına maneçilik törədən başqa bir məsələ Şuşa və Laçının azad edilməsi və Dağlıq Qarabağın gələcək statusu məsələsi idi. Ermənistan Laçın və Şuşa məsələsini Dağlıq Qarabağa status verildikdən sonra müzakirə etmək arzusunda olduğunu bildirdi. Həmçinin Ermənistan Laçın dəhlizini yalnız öz nəzarəti altında saxlamaq fikrində idi. Azərbaycan tərəfi, heç şübhəsiz, bu şərtlərlə razılaşmayaraq Laçın dəhlizinin sülh prosesinin ilk mərhələsində beynəlxalq qüvvələrin

[71] "Azərbaycan", 10 may 1995-ci il.

nəzarəti altında olmasına razılıq versə də, Dağlıq Qarabağın statusu məsələsini yalnız Şuşa və Laçından işğalçı qoşunların çıxarılması ilə şərtləndirdi. Beləliklə, erməni tərəfinin güzəştə getmək üçün məqbul sayılmayan bu tələbləri Azərbaycan tərəfindən qəbul edilmədi. Nəticədə, Moskva danışıqları uğursuzluqla başa çatdı[72].

1995-ci il aprelin 6-7-də Stokholmda ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağla əlaqədar keçirilən görüşündə münaqişə bölgəsində vəziyyət müzakirə olunaraq bəyanat qəbul edildi. Stokholm bəyanatında deyilirdi ki, iştirakçı dövlətlər atəşkəs rejiminin qorunub saxlanmasını alqışlayır, regiondakı şəraiti və danışıqlar prosesindəki vəziyyəti nəzərə alaraq, münaqişədə iştirak edən tərəfləri hərbi əməliyyatların yenidən baş verməməsinə xüsusi diqqət yetirməyə çağırırlar. Daha sonra münaqişə iştirakçılarından hərbi münaqişəni dayandırmaq haqqında siyasi sazişlə bağlı danışıqları davam etdirmək və münaqişənin nəticələrini heç bir ilkin şərt qoymadan aradan qaldırmaq tələb olunurdu.

ATƏT-in Minsk Qrupunda İsveç nümayəndələrinin fəaliyyət müddəti başa çatdığına görə Minsk Konfransının həmsədrlik funksiyası Finlandiyaya tapşırıldı[73]. Aprel ayında ATƏT-in Minsk Konfransı və Qrupunun yeni finlandiyalı həmsədrləri Heyke Talvitye və Rene Niberq münaqişə bölgələrinə səfər etdilər. Daha sonra ATƏT-in YVŞK-nin

[72] E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü və beynəlxalq təşkilatlar. Bakı 1998, s 34.

[73] OSCE. Handbook.., p.39.



sədri İştvan Dyarmoti (Macarıstan) başda olmaqla ATƏT nümayəndələri Azərbaycan və Ermənistanda oldular. Erməni tərəfinin konstruktiv mövqe tutmaması ucbatından ATƏT-in Minsk Qrupu həmsədrlərinin danışıqları yenidən bərpa etmək üçün göstərdiyi səylər heç bir nəticə vermədi.

1995-ci ilin mayında Moskvada Ermənistan-Azərbaycan münaqişəsinə dair keçirilən danışıqlar ərəfəsində Ermənistan Minsk prosesi çərçivəsində danışıqlarda iştirakını dayandırdığını bildirdi[74]. Nəticədə danışıqlar növbəti dəfə iflasa uğradı. 1995-ci ilin iyun-iyul aylarında Qarabağ münaqişəsinin ATƏT-in Minsk Qrupu çərçivəsində keçirilən Helsinki (Finlandiya) və Baden (Avstriya) danışıqları da Moskva danışıqları kimi nəticəsiz qurtardı.

1995-ci ilin ikinci yarısı Qərbin Qarabağ münaqişəsinin həlli yolunda fəaliyyətinin güclənməsi hiss olunurdu. Belə ki, ABŞ, Türkiyə və Almaniya özünün ATƏT-in Minsk Qrupundakı nümayəndələrinə Qarabağ münaqişəsinin həlli prosesində iştirak etmək üçün xüsusi səlahiyyətli səfir statusu verdilər. 1995-ci il avqustun sonlarında ABŞ-ın Dağlıq Qarabağ üzrə danışıqlarda xüsusi nümayəndəsi Cozef Pressel və ATƏT-dəki xüsusi nümayəndəsi Sem Braun Azərbaycan, Ermənistan və Dağlıq Qarabağa səfər etdilər[75]. Hələ 1995-ci ilin fevral ayında C.Presselin (həmin vaxt o, ABŞ-ın ATƏT-də daimi nümayəndəsi idi) Bakıdakı çıxışı çox narazılıqla qarşılanmışdı (münaqişə edən tərəflər

[74] Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г. – декабрь 1996 г.). Баку, 1997, с.56.

[75] "Azərbaycan", 26 avqust 1995.

birbaşa danışıqlara getməlidir; Azərbaycan güzəştə gedib, xüsusi arzularından (?) əl çəkməlidir; münaqişənin həlli uzanarsa, atəşkəs pozula bilər). Bu səfər zamanı o, qeyd etdi ki, Amerika hökuməti heç də bütün mövcud münaqişə nöqtələrinə özünün xüsusi səfirini göndərmir və onun regiona bu missiya ilə gəlişi Qarabağ münaqişəsinin tezliklə həllində ABŞ-ın maraqlı olduğuna bir daha sübutdur. Buna baxmayaraq o, münaqişəyə dair heç bir planın olmadığını bildirdi və demək olar ki, əvvəlki fikirlərini bir daha təkrar etdi. Amerika nümayəndəsi qeyd etdi ki, ABŞ əvvəlki kimi yenə də məsələnin həllini ATƏT-in Minsk Qrupu çərçivəsində görür[76].

ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqların növbəti mərhələsi 1995-ci il sentyabrın 3-dən 9-dək Moskvada keçirildi[77]. Danışıqlarda uzun müddət qeyri-konstruktiv mövqedən çıxış edən Ermənistan Şuşa və Laçın məsələsinin əvvəl, Dağlıq Qarabağın statusunun isə sonra müzakirə edilməsinə razılıq verdi. Bu məsələ hələ Moskva, Helsinki, Baden danışıqlarında müzakirə obyektinə çevrilmiş ən kəskin və mübahisəli məsələlərdən biri idi, hər dəfə də Azərbaycan Şuşa və Laçın azad edildikdən sonra Dağlıq Qarabağın statusu məsələsinə baxılacağını bildirirdi. Ermənistan isə Azərbaycanın bu təkliflərinə məhəl qoymayaraq Şuşa və Laçın məsələsini danışıqların sonrakı mərhələsinə saxlayırdı. Moskva danışıqlarında Rusiyanın Şuşa və Laçın məsələsini ön plana çəkməsi heç də təsadüfi deyildi. Məlum olduğu kimi ABŞ nümayəndəsi C.Presselin Bakıya səfəri zamanı Azərbaycanı "öz xüsusi arzularından əl çəkmək" (şübhəsiz ki, Şuşa və Laçın məsələsini nəzərdə tuturdu – E.Ə.) çağırışı Moskvanın diqqətindən yayınmamışdı. Bu, həmçinin regionda Rusiya-ATƏT qarşıdurmasının nəticəsi idi. Rusiya bununla ATƏT-ə alternativ olub münaqişənin həlli yolunda bütün vasitələri öz əlində saxlamağa cəhd edirdi. 1995-ci ilin oktyabrında Moskvada keçirilən növbəti danışıqlarda Azərbaycan tərəfinin əsas nailiyyəti ATƏT-in Minsk Konfransının birgə sədrləri V.Lozinski və H.Talvitye təklifilə işğal olunmuş Azərbaycan ərazilərinin azad olunması üzrə cədvələ Laçının da əlavə edilməsi idi[78]. Azərbaycan Şuşa və Laçın da daxil olmaqla bütün işğal olunmuş ərazilərin azad edilməsi, o cümlədən Laçın yolunun ATƏT-in sülhməramlı qüvvələri tərəfindən hərbi nəzarət altında fəaliyyət göstərməsi fikrini irəli sürdü. Erməni tərəfi sülhün qorunması üzrə ATƏT qüvvələrinə etibar etmədiklərini bəyan etdi və Laçın yolu üzərində öz hərbi nəzarətinin qorunub saxlanması fikrində israr edərək Dağlıq Qarabağın statusu məsələsini yenidən qaldırmağa cəhd etdi. Şuşanın azad edilməsi məsələsinə gəldikdə isə erməni tərəfi həmişə olduğu kimi bunun qəti əleyhinə çıxdı.

[76] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 37.

[77] Заявления и сообщения МИД Азербайджанской Республики.., с.62-63.

[78] Armenia-Azerbaijan conflict.., p.5-6.

1995-ci il dekabrın 7-8-də Budapeştdə ATƏT-in Xarici İşlər Nazirləri Şurasının görüşü keçirildi[79]. Bu görüşdə regionun hərbsizləşdirilməsi, Dağlıq Qarabağın statusu, Şuşa və Laçın məsələlərində ciddi fikir ayrılıqları olduğu üçün, tərəflər arasında heç bir razılıq əldə edilmədi[80]. Regionun hərbsizləşdirilməsi məsələsində erməni tərəfi Dağlıq Qarabağı işğal edilmiş ərazilərə aid etməyərək orada erməni silahlı qüvvələrinin qalmasını da israr edirdi. Azərbaycan tərəfi işğalçı qüvvələrin Şuşa və Laçın da daxil olmaqla bütövlükdə münaqişə bölgəsindən çıxarıldıqdan sonra Dağlıq Qarabağa yüksək status verilməsi mövqeyindən çıxış edirdi. Erməni tərəfi isə bildirdi ki, Dağlıq Qarabağın təhlükəsizliyi və onun statusu məsələsi həll olunmayınca Şuşa və Laçın problemi həll edilməyəcək. ATƏT-in sədri Laslo Kovaç Budapeşt danışıqlarının nəticəsi barədə fikrini bildirərək görüşün gözlənilən irəliləyişə səbəb olmadığını bəyan etdi.

1996-cı il yanvarın 9-dan 14-dək Moskvada ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqların növbəti mərhələsi keçirildi[81]. Danışıqlarda münaqişənin nizama salınmasına dair əsas məsələlərin müzakirəsi davam etdirildi. Erməni tərəfi Dağlıq Qarabağın təhlükəsizliyinə təminat verilməsinin zəruriliyini əsas gətirərək Laçının azad olunması haqqında məsələni müzakirə etməkdən imtina etdi. Moskva görüşündə tərəflər arasında razılaşdırılmış hər hansı qərar qəbul

[79] OSCE. Handbook.., p.88.
[80] Armenia-Azerbaijan conflict.., p.6.
[81] "Независимая газета", 11 января 1996 г.



edilmədiyindən danışıqların bu mərhələsi də nəticəsiz qurtardı.

Rusiya və Amerika vasitəçilərinin ardınca ATƏT-in sədri, İsveçrənin xarici işlər naziri Flavio Kotti başda olmaqla ATƏT-in Minsk Konfransının həmsədrləri V.Lozinski və H.Talvitye, Minsk Qrupunun həmsədrləri V.Kazimirov və R.Niberq 1996-cı il fevralın sonunda regiona səfər etdilər[82]. Səfər zamanı ATƏT-in sədri Azərbaycan sərhədləri daxilində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilməsinə dair Azərbaycanın təklifinə tərəfdar olduğunu və münaqişənin nizama salınmasından ötrü hər cür kömək-lik göstəriləcəyini bildirdi[83]. Bununla belə o, qeyd etdi ki, hətta ATƏT kimi beynəlxalq strukturlar belə bu problemi həll etməkdə çətinlik çəkirlər. Buna görə də məhz münaqişə edən tərəflər məsələnin həllinə özləri qoşulmalıdırlar[84]. ATƏT nümayəndələrinin ardınca regiona səfər etmiş ABŞ Dövlət katibinin müavini Stroub Telbott da birbaşa Azərbaycanla Ermənistanın danışıqlarının keçirilməsinin vacibliyini ön plana çəkdi. Minsk Qrupunun həmsədri V.Kazimirov Amerika nümayəndəsinin fikirlərini təsdiqləsə də Azərbaycanla Ermənistan arasında birbaşa danışıqların nəticələrinə ümid etmədiyini bildirdi.

1996-cı il iyunun 15-dən 18-dək Moskvada ATƏT-in Minsk Qrupu çərçivəsində Dağlıq Qarabağ probleminin

[82] "Xalq qəzeti", 1 mart 1996-cı il.
[83] "Azərbaycan", 1 mart 1996-cı il.
[84] "Panorama", 6 mart 1996-cı il.

həllinə dair danışıqlar keçirildi[85]. Danışıqlarda Şuşa və Laçının azad olunması, tərəflərin təhlükəsizlik məsələləri diqqət mərkəzində oldu. Görüş zamanı erməni tərəfi Azərbaycanın hərbi nöqteyi-nəzərdən möhkəmləndiyini və bunun Ermənistan üçün daim təhlükə törədəcəyindən narahat olduğunu bəhanə gətirdi[86]. Bununla da onlar özlərinin silahlı birləşmələrinin mövcudluğunun vacibliyini sübut etməyə çalışaraq, Şuşa və Laçının azad olunmasını qeyri-məqbul hesab etdilər. Laçının azad edilməsi məsələsində erməni tərəfinin etdiyi təklif həmsədrlərin fikirləri ilə üst-üstə düşürdü. Bu təklifdə Azərbaycanın ərazi bütövlüyünün pozulması ilə yanaşı silahlı qüvvələrin tranzit bölgədən çıxarılmasının dəqiq müddəti də göstərilmirdi. Moskva danışıqlarında müzakirə olunan məsələlərin böyük bir qismində həmsədrlərlə erməni tərəfinin mövqeləri üst-üstə düşürdü[87]. Bu təkliflər Azərbaycan üçün qeyri-məqbul sayıldığından aparılan danışıqların heç bir nəticəsi olmadı. ATƏT-in Minsk Qrupu çərçivəsində Stokholmda (İsveç) iyulun 1-dən 5-dək keçirilən görüş bir növ Moskva danışıqlarının davamı kimi qiymətləndirilirdi[88]. Lakin danışıqların bu mərhələsində münaqişənin həlli ilə bağlı mühüm məsələlərin (Şuşa və Laçın, Dağlıq Qarabağın statusu və s.) ön plana çəkildiyi zaman erməni tərəfi müzakirələrin ardıcıllığını pozmaq məqsədilə

[85] "Независимая газета", 2 июля 1996 г.
[86] Yenə orada.
[87] "Независимая газета", 13 июля 1996 г.
[88] Yenə orada.



ilk baxışdan ciddi qəbul edilməyən bir sıra tələblər irəli sürdülər (Goranboyun azad edilməsi və s.). Nəticədə Ermənistanın belə manevrlərdən istifadə edərək ortaya atdığı bu tələblər münaqişənin həllinin uzadılmasına xidmət edir və vəziyyətin dondurulmuş şəkildə qalmasına səbəb olurdu. ATƏT-in Minsk Qrupunun həmsədrləri bunun günahını münaqişədə iştirak edən tərəflərin mövqelərinin bir-birinə zidd olması ilə izah edirdilər. Lakin danışıqlar prosesində həmsədrlərin mövqeyi erməni tərəfinin mövqeyinə daha yaxın idi. Onlar münaqişədə hərbi cəhətdən zəif tərəfə təzyiq göstərməklə irəliləyişə nail olmağa çalışırdılar. Azərbaycan tərəfinin mövqeyi isə onlardan tamamilə fərqlənirdi. Erməni tərəfi Azərbaycanın Şuşa və Laçın da daxil olmaqla bütün işğal olunmuş ərazilərinin azad edilməsinə dair təklifinə qarşı əks mövqedən çıxış edərək, Şuşa və Laçının azad edilməsini qeyri-mümkün sayırdı. Digər tərəfdən, məsələnin bu cür qoyuluşunda sərt mövqedən çıxış edən erməni tərəfi 1996-cı ilin sonunda Minsk Qrupu həmsədrlərinin mandatının müddətinin bitəcəyini də nəzərə alırdı (Yeni həmsədr Almaniya nümayəndəsinin olacağı gözlənilirdi. Almaniya öz mövqeyində daha qətiyyətli və münaqişəyə münasibətdə obyektivlik baxımından Azərbaycanın mövqeyinə daha yaxın idi).

1996-cı il oktyabrın sonunda Moskvada Minsk Qrupu çərçivəsində danışıqların növbəti mərhələsi keçirildi[89]. Daha sonra məsləhətləşmələr noyabrın əvvəllərində Helsinkidə

[89] "Независимая газета", 1 ноября 1996 г.

davam etdirildi. ATƏT-in Parlament Assambleyasının sədri Havyer Rupers, sonra isə onun müavini, Bundestaqın Almaniya-Qafqaz Qrupunun rəhbəri Villi Vimmerin regiona səfərləri zamanı keçirilən görüşlərdə heç bir tərəqqi əldə edilmədi. Tərəflər arasında heç bir razılıq əldə edilməməsi dekabr ayında Lissabonda keçiriləcək Zirvə toplantısında erməni tərəfinin konstruktiv bir mövqedən çıxış edəcəyini şübhə altında qoyurdu. Razılığın əldə olunmamasını Ermənistan danışıqlarda Azərbaycanın guya sərt mövqe tutması ilə izah edirdi. Ermənilər Şuşa və Laçın məsələsində güzəştə gedilməsini və Dağlıq Qarabağın müstəqilliyinin tanınmasını nəzərdə tuturdular[90]. Lakin Azərbaycan ən axırıncı güzəştlərini edərək Şuşadan silahlı qüvvələrin çıxarılmasına, Dağlıq Qarabağla Ermənistan arasında yerləşən Laçın dəhlizinin beynəlxalq sülhməramlı qüvvələrin nəzarəti altında olmasına və bundan sonra Dağlıq Qarabağa Azərbaycan tərkibində ən yüksək status verilməsinə razı olduğunu bildirmişdi. Buna baxmayaraq, ermənilərin Şuşa və Laçına olan iddiaları və beynəlxalq hüquq normalarına zidd tələbləri ucbatından tərəflər Lissabon Zirvə toplantısına razılıqsız getdilər.

1996-cı il dekabrın 2-3-də Lissabonda ATƏT-in dövlət və hökumət başçılarının Zirvə toplantısı Avropanın 52 dövlətinin, ABŞ və Kanadanın, habelə müşahidəçi qismində 10 Asiya və Afrika dövlət başçılarının iştirakı ilə keçirildi[91].

[90] Armenia-Azerbaijan conflict.., p.6.
[91] Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, s.96.



Lissabon Zirvə toplantısında yekun sənəd – 27 maddədən ibarət bəyannamə qəbul edildi[92]. Bəyannamə "Avropada XXI əsrdə ümumi və hərtərəfli (qlobal) təhlükəsizlik modeli" adlandırıldı. Toplantıda Avropada və dünyada baş verən proseslər, o cümlədən, qarşılıqlı təhlükəsizlik və əməkdaşlıq, insan haqlarının qorunması, demokratikləşmə və münaqişələrin həlli ilə bağlı məsələlər müzakirə obyektinə çevrildi. Bəyannamədə Bosniya və Herseqovinada daimi sülhün təmin olunması, Qazaxıstan, Ukrayna və Belarusun öz ərazilərindən nüvə silahlarını çıxarması, Gürcüstan və Moldova respublikalarının suverenliyinin və ərazi bütövlüyünün təmin olunması, Çeçenistan məsələsi, ATƏT-in Orta Asiya respublikalarında demokratik strukturların inkişaf etdirilməsində rolu, qaçqınlar problemi, mətbuat azadlığı, iqtisadi, sosial və s. problemlər öz əksini tapdı. Qərara alındı ki, 1997-ci ilin dekabrında ATƏT-in Xarici işlər nazirləri Şurasının toplantısı Kopenhagendə (Danimarka), dövlət və hökumət başçılarının Zirvə toplantısı isə 1998-ci ildə İstanbulda keçirilsin. 1998-ci ildən ATƏT-ə sədrlik Polşaya tapşırıldı[93].

Lissabonda digər məsələlərlə yanaşı, ilk dəfə olaraq, Qafqazda gedən proseslər, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları dünyanın aparıcı ölkələri tərəfindən geniş müzakirə olundu. Hələ Zirvə toplantısından əvvəl tərəflərin mövqeləri arasında ziddiyyətlərin qalması

[92] Lisbon Document 1996. Lisbon, 1996, p.1-5.
[93] Yenə orada.

Lissabonda Azərbaycan və Ermənistanın ikitərəfli danışıqlarının uğursuzluqla qurtarmasına səbəb olmuşdu.

Keçirilən bütün görüşlərdə Azərbaycan ATƏT prinsiplərini əsas götürərək özünün ərazi bütövlüyünü qorumaq şərti ilə Dağlıq Qarabağa öz tərkibində ən yüksək status verilməsi mövqeyindən çıxış edirdi. Azərbaycanın bu təklifi Ermənistandan başqa ATƏT-in Minsk qrupunun bütün üzvləri tərəfindən müdafiə olundu. Hətta Azərbaycan və Ermənistan danışıqlarında iştirak edən xüsusi nümayəndələrin görüşləri zamanı da bu prinsiplər Minsk qrupu tərəfindən müzakirəyə təqdim edilmiş, lakin Ermənistan buna etiraz etdiyindən heç bir nəticə əldə edilməmişdi[94]. Göstərdiyi bütün səylərə baxmayaraq, Lissabon Zirvə toplantısının yekun bəyannaməsinin layihəsində Azərbaycan təklif etdiyi maddənin yox, başqa bir maddənin salınmasının şahidi oldu. Vyanada, daha sonra Lissabonda işçi qrup tərəfindən hazırlanmış bəyannamə layihəsində əks olunan izahatda göstərilirdi ki, Ermənistan bu maddəyə konsensus vermədiyinə görə, ümumi bəyannamədən çıxarılmışdır[95].

Buna baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qətnamə müzakirəyə çıxarılarkən əsas mübarizə sənədin 20-ci maddəsi uğrunda oldu. Azərbaycan nümayəndə heyətinin səyləri və təkidi ilə Lissabon sənədinə 20-ci maddə adı altında həmin prinsipləri əks etdirən bir maddə

[94] Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, s.48.
[95] Yenə orada, s.52.



daxil edildi. Bu maddəyə əsasən, Azərbaycanın ərazi bütövlüyü tanınırdı. Lakin Ermənistan tərəfi konsensus qaydasından istifadə edərək, yekun qətnamənin 20-ci maddəsinə "veto" qoydu[96].

Belə vəziyyətdə Azərbaycan Prezidenti Heydər Əliyev prinsipial mövqe tutaraq və buna cavab kimi sammitin Yekun sənədlərinə "veto" qoymaqla obyektiv qərarın qəbul olunması istiqamətində fəaliyyətini davam etdirdi. Böyük dövlətlərin başçıları və ATƏT-in fəaliyyətdə olan sədri ilə aparılan danışıqlardan sonra Azərbaycan Prezidenti Ermənistan-Azərbaycan münaqişəsinin həlli prinsipləri haqqında fəaliyyətdə olan sədrin adından bəyanatın verilməsinə və sammitin Yekun sənədlərinə qoyduğu "veto"nu götürməyə razı oldu.

Nəticədə, Lissabon sammitinin yekun bəyannaməsinin 20-ci maddəsi Azərbaycanın təklif etdiyi prinsiplər olmadan qəbul edildi. Bunun əvəzində ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kotti Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən bəyanat verdi[97]. Bəyanatda deyilirdi ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində və Azərbaycanın ərazi bütövlüyü məsələsində tərəqqi əldə edilməmiş, məsələnin həlli prinsiplərinə dair tərəflərin fikirlərini bir-birinə yaxınlaşdırmaq üçün Minsk Konfransı həmsədrlərinin səyləri uğursuz olmuşdur. Daha sonra bəyanatda Dağlıq Qarabağ münaqişəsinin dinc vasitə-

[96] Yenə orada, s.53.
[97] E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, s.180-181.

lərlə həllinin bir hissəsini təşkil etməli olan 3 əsas prinsip göstərilirdi:

- Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü;

- Razılaşmada müəyyən edilmiş öz müqəddəratını təyin etməyə əsaslanan, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə dərəcəsi verən hüquqi statusu;

- Qarşılıqlı öhdəliklər də daxil olmaqla nizamasalma müddəalarına bütün tərəflərin riayət etməsi və Dağlıq Qarabağın, eləcə də bütün əhalisinin təminatlı təhlükəsizliyi[98].

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən və ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin Xarici işlər naziri Flavio Kottinin adından verilən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin Yekun sənədlərinə əlavə edildi[99].

Beləliklə, 1996-cı ilin dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil etmiş olan sənəd Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq yolunda böyük siyasi nailiyyət sayıla bilər. Zirvə toplantısı zamanı Prezident Heydər

[98] *Лиссабонский документ 1996 года. Приложение 1: Заявление ДП* ОБСЕ; Приложение 2: Заявление делегации Армении. Встреча на высшем уровне. Лиссабон, 2-3 декабря 1996 года.

[99] Lisbon Document 1996, p.6.



Əliyevin gərgin əməyi və diplomatik istedadı sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bir sənəd qəbul edildi[100].

Bu bəyanatın qəbul edilməsi ilə Azərbaycan münaqişənin ATƏT çərçivəsində qarşılıqlı güzəşt prinsipi vasitəsilə həllinə bir daha tərəfdar olduğunu göstərdi. Lissabonda danışıqlar zamanı və yekun sənəd qəbul edilərkən Ermənistan ATƏT prinsiplərinə və beynəlxalq hüquq normalarına məhəl qoymayaraq münaqişənin dinc vasitələrlə aradan qaldırılmasına bir daha maneçilik törətdi. Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış edərək yekun sənəd qəbul edilərkən "veto" hüququndan istifadə etməsi və nəticədə Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən 20-ci maddənin yekun sənəddən çıxarılması zamanı ATƏT özünün əsas prinsiplərindən birinin – ərazi bütövlüyünün təsdiq edilməsi üçün mümkün mexanizmlərdən istifadə edə bilərdi. 1992-ci ildə qəbul edilən bu mexanizmə görə münaqişələrin dinc yolla nizama salınması zamanı "konsensus minus 2" variantı qəbul oluna bilər.

Məlum olduğu kimi, ATƏT-də qərarlar konsensus yolu ilə qəbul olunur. Bununla yanaşı, 1992-ci ildə ATƏT-in Nazirlər Şurasının iclasında qəbul olunan qərara görə, əgər hər hansı dövlət ATƏT prinsiplərini kobudcasına pozursa, həmin dövlətin razılığı olmadan da qərar qəbul oluna bilər. Bu müddəa elə həmin il iki dəfə tətbiq olunub (Yuqo-

[100] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik-Bakı, 2005, s.726.

slaviyanın razılığı olmadan). Buna görə də ATƏT özünün sərhədlərin toxunulmazlığı haqqında əsas prinsiplərindən birini pozan Ermənistanın razılığı olmadan da yekun bəyannamədə Azərbaycana aid əlavə maddə qəbul olunmasına nail ola bilərdi. Bundan başqa ATƏT-in Fəaliyyətdə olan Sədri konsensus olmadan da müəyyən qərarları qəbul etdirmək hüququna malikdir. Lakin ATƏT-in bu mexanizmlərdən istifadə etməməsi Avropanın bu mötəbər təşkilatının Ermənistan-Azərbaycan münaqişəsinə hələ də ikili standartlar mövqeyindən yanaşmasını bir daha sübut etdi. Bundan başqa Lissabon Zirvə toplantısında Finlandiyanın ATƏT-in Minsk Qrupunda həmsədrliyi başa çatdığına görə onun əvəzinə yeni həmsədr Almaniyanın seçiləcəyi gözlənilirdi. Lakin münaqişənin həlli prosesində maraqlı olan dövlətlərin (xüsusilə ABŞ və Fransa) və Ermənistanın mane olması (hələ Zirvə toplantısına qədər Ermənistan açıq şəkildə olmasa da, Almaniyanın namizədliyi əleyhinə öz etirazını bildirmişdi) nəticəsində Almaniya həmsədr seçilmədi.

ATƏT-in Minsk Qrupunda daimi həmsədrlik statusu almış, regionda xüsusi maraqları və hadisələrə real surətdə təsir göstərmək imkanı olan Rusiya əsas rol oynayırdı. Digər həmsədr – münaqişənin həlli prosesində bir o qədər də fəal rol oynamayan Finlandiyanın Rusiya ilə bir çox məsələlərdə mövqeyinin eyni olması Minsk Qrupunda Rusiyanın daimi həmsədrliyini daha da möhkəmləndirdi.

Lissabon sammitindən başlayaraq ATƏT-in Minsk Qrupunda həmsədrlik uğrunda mübarizədə bir sıra dövlətlərin fəallığı nəzərə çarpırdı. Son anda iki real namizəd – ABŞ



və Fransanın həmsədrliyə can atması onların münaqişənin həll edilməsilə yanaşı regionda daha çox maraqlı olduqlarını göstərirdi. 1997-ci il yanvarın əvvəllərində Fransanın nümayəndəsi Jak Blo Minsk Qrupuna həmsədr təyin olundu[101]. Fransanın Minsk Qrupunda həmsədr seçilməsi, onun Rusiya və Ermənistanla xüsusi münasibətlərinin qalması münaqişənin həlli prosesinə müsbət təsir göstərəcəyini şübhə altında qoyurdu. Buna görə də Azərbaycan Minsk Qrupunda Fransa nümayəndəsinin həmsədr seçilməsinə açıq etiraz etməyərək, ABŞ nümayəndəsinin üçüncü həmsədr olacağını razılıqla qarşıladı. Çünki ABŞ-ın həmsədr təyin olunacağı təqdirdə o, Minsk Qrupunda və ümumiyyətlə, münaqişənin həlli prosesində Rusiya-Fransa cütlüyünə qarşı əks tarazlıq yarada bilərdi.

Bundan başqa ABŞ-ın özünün də regionda təhlükəsizliyin təmin olunması üçün xüsusi maraqları var idi və o, bunu heç də gizlətmirdi. Belə ki, 1997-ci il yanvarın 8-də ABŞ-ın Dövlət katibi vəzifəsinə yeni təyin olunmuş Madelin Olbrayt Senatın Beynəlxalq Münasibətlər Komitəsi qarşısında çıxış edərkən Dağlıq Qarabağ məsələsi haqqında demişdi: "ATƏT-in Minsk Qrupu çərçivəsində indiyə qədər gedən proses sarsıdıcı dərəcədə ləng olub. Bizim bu regionda çox əhəmiyyətli iqtisadi, siyasi və humanitar maraqlarımız var və biz münaqişənin həllinə kömək göstərməklə daha gözə çarpan rol oynamağa hazırıq"[102].

---

[101] E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü və beynəlxalq təşkilatlar. Bakı 1998, s.50.
[102] United States Information Agency (USIA), 8 January, 1997.

Daha sonra ABŞ-ın Minsk Qrupunda xüsusi nümayəndəsi C.Presselin Dövlət katibinin keçmiş SSRİ dövlətləri üzrə müavini, regiona yaxşı bələd olan Stroub Telbottla əvəz edilməsi onu göstərdi ki, Birləşmiş Ştatlar Qafqazda, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin həllində daha qətiyyətli addımlar atmağa hazırlaşır.

1997-ci il fevralın 14-də ATƏT-in sədri Nils Petersen (Danimarka) ABŞ Dövlət katibinin müavini S.Telbottu ATƏT-in Minsk Qrupunun həmsədri təyin etdi[103].

Bu təyinata qarşı Rusiya və Ermənistanın e'tirazına baxmayaraq ABŞ ən yüksək səviyyədə Rusiya-Fransa həmsədrlər sırasına qoşuldu. Beləliklə istər M.Olbraytın çıxışı, istərsə də S.Telbottun həmsədr tə'yin olunması Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində ABŞ-ın fəallığının gücləndiyini göstərirdi. 1997-ci ilin əvvəllərində Minsk Qrupuna yeni həmsədrlər təyin olunduqdan sonra aprelin 1-dən 5-dək Moskvada Minsk Qrupu çərçivəsində danışıqların növbəti mərhələsi keçirildi[104]. Bu, ATƏT-in Lissabon sammitindən sonra bütün tərəflərin iştirakı ilə keçirilən ilk görüş idi. Danışıqların bu mərhələsi iki hissədən ibarət olmuşdur: birinci hissə silahlı münaqişənin dayandırılması haqqında razılaşma layihəsinin işlənib hazırlanması və müzakirəsinə həsr edildi. İkinci hissədə isə Azərbaycanın, Ermənistanın və maraqlı tərəflərin (Dağlıq Qarabağın erməni icmasının və azərbaycanlı əhalisinin nümayəndələrinin) iştirakı ilə və habelə onların iştirakı olmadan Minsk Qrupunun iclasları keçirildi[105].

[103] Armenia-Azerbaijan conflict.., p.7.

[104] E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s.51.



Moskva danışıqlarında Azərbaycan tərəfindən tənzimlənmənin başlıca problemi olan və silahlı münaqişənin dayandırılması haqqında razılaşmanın əsas mövzusu kimi qəbul edilən Şuşa və Laçının azad edilməsi məsələsi əsas diqqət mərkəzində olsa da, ermənilər əvvəlki kimi sərt mövqe tutaraq, Dağlıq Qarabağın statusu məsələsini müzakirəyə çıxarmağa çalışdılar. Ermənistan və Dağlıq Qarabağın erməni icmasının nümayəndələri Dağlıq Qarabağın erməni icmasının təhlükəsizliyi məsələsini status haqqında məsələ ilə əlaqələndirirdilər. Lakin Azərbaycan tərəfinin ciddi iradlarından sonra Minsk Qrupu həmsədrləri Dağlıq Qarabağın statusu məsələsinin ATƏT-in Minsk Konfransında müzakirə ediləcəyini bildirsələr də, ilkin məsləhətləşmələrin mümkünlüyünü də istisna etmədilər.

Siyasi razılaşmanın mətninin işlənib hazırlanması və müzakirəsi üzrə aparılan danışıqlarla yanaşı Moskvada tərəflərin iştirakı ilə Minsk Qrupunun iclasları da keçirildi. İclasların birində Azərbaycan tərəfi Rusiyadan Ermənistana qeyri-qanuni olaraq silahların göndərilməsi məsələsini də qaldırdı (Moskva danışıqları ərəfəsində Rusiya Federasiyasının MDB ölkələri üzrə əməkdaşlıq naziri A.Tuleyev Rusiyadan Ermənistana 1994-1996-cı illər ərzində 1 milyard dollarlıq silah göndərilməsi haqqında məlumat vermişdi) və

[105] "Ayna", 12 aprel 1997-ci il.

Minsk Qrupundan bu məsələyə öz münasibətini bildirməyi xahiş etdi[106]. Lakin Minsk Qrupu münaqişə regionuna qeyri-qanuni olaraq silahların göndərilməsindən vəziyyətin gərginləşəcəyini qeyd etsə də, aparılan rəsmi tədqiqatın nəticələrini gözləməyi məsləhət bildi. Beləliklə, Lissabon sammitindən sonra Minsk Qrupunun yeni təyin olunmuş həmsədrlərinin iştirakı ilə Moskvada keçirilən ilk görüşdə tərəflər arasında heç bir razılıq əldə edilmədi.

1997-ci ilin iyun ayında ATƏT-in Minsk Konfransının həmsədrləri V.Lozinski (Rusiya), J.Blo (Fransa) və S.Telbott (ABŞ) münaqişənin nizamlanması istiqamətində hazırladıqları yeni təkliflərlə Ermənistan və Azərbaycana səfər etdilər[107]. Minsk Konfransı həmsədrlərinin yeni təklifi Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin daha dəqiq təminatı, sülhməramlı qüvvələrin iştirakı, onların münaqişə regionunda qalmasının müddəti və Dağlıq Qarabağın statusu haqqında idi. Daha sonra Minsk Qrupu həmsədrləri Y.Yukalov (Rusiya), J.Vojye (Fransa) və C.Presselin əvəzinə L.Pasko (ABŞ) regiona səfər edərək problemin nizamlanması üzrə məsləhətləşmələri davam etdirdilər[108]. Səfər zamanı məlum oldu ki, Ermənistan və Dağlıq Qarabağ erməniləri Minsk Konfransı həmsədrlərinin Lissabon sənədində əksini tapan prinsiplər əsasında hazırladıqları "paket" variantını qəbul etmirlər. Bu variant Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq əldə edilməsini nəzərdə tuturdu.

[106] "Ayna", 12 aprel 1997-ci il.
[107] Armenia-Azerbaijan conflict.., p.7.
[108] "Azərbaycan", 19 iyul 1997-ci il.



ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı, Fransa və ABŞ nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət – yəni Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 6 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə əlaqədar 3 təkliflə çıxış etmişlər[109]. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin "mərhələli" (bu variantda isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən ibarət idi[110]. Azərbaycan Prezidenti həmin planlarla tam razı olmasa da, həmsədrlərin bu iki təklifini qəbul etdiyi halda, Ermənistan tərəfi qeyri-konstruktiv mövqedən çıxış edərək həmin təkliflərlə razılaşmadı[111].

1997-ci il iyulun 18-də ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlanan birinci

[109] ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş.-"Azərbaycan" qəz., 21 fevral 2001-ci il
[110] ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş. – "Azərbaycan" qəz., 21 fevral 2001-ci il
[111] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik-Bakı, 2005, s.726.

sənəd münaqişə tərəflərinə təqdim edildi. Həmin sənəd daha çox "paket həll" kimi tanınır və bir paketdə birləşdirilən iki anlaşmadan ibarət idi. Anlaşmalardan birincisi silahlı münaqişənin dayandırılmasına, ikincisi isə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə həsr olunmuşdu.

"Paket" həll variantında Azərbaycanı təmin etməyən və ATƏT-in Minsk qrupunun həmsədrlərinin diqqətinə çatdırılan bir sıra ciddi məqamlar var idi. Hər şeydən əvvəl, sənədin BMT-nin məlum qətnamələrinə əsaslanmaması və hüquqi baxımdan icbari xarakter daşımaması narazılıq doğururdu. Digər tərəfdən, işğal olunmuş ərazilərin boşaldılması ilə status məsələsinin qarşılıqlı şəkildə əlaqələndirilməsi əslində münaqişənin həllini uzun bir prosesə çevirirdi. Çünki sənəddə münaqişənin aradan qaldırılmasının dəqiq mexanizmi və konkret zaman çərçivəsi öz əksini tapmamışdı. Bir çox məsələlərin həlli "Daimi qarışıq komissiya"nın öhdəsinə buraxılırdı. Həmin komissiyanın qərarlarının işlənib hazırlanması isə bu sənədin çərçivəsindən kənarda nəzərdə tutulurdu.

"Paket" təklifindəki Laçın və Şuşa ilə bağlı müddəalar, habelə gələcəkdə ermənilərin Azərbaycanın Goranboy rayonunun bir hissəsinin (keçmiş Şaumyan rayonu) qaytarılmaları ilə bağlı təklif də Azərbaycan tərəfindən birmənalı şəkildə qarşılanmadı. Digər tərəfdən, münaqişə başlayana qədər Dağlıq Qarabağın 56 yaşayış məntəqəsinin əsas yerli əhalisini təşkil etmiş 50 mindən çox azərbaycanlının gələcək taleyi də təbii ki, Azərbaycanın diqqətindən kənarda qalmamış və buna öz narazılığını bildirmişdi.



"Paket" təklifinin Dağlıq Qarabağın statusu ilə bağlı olan hissəsi isə regionun Azərbaycanın tərkibində özünüidarə statusu konsepsiyası ilə bir araya sığışmadığından, Azərbaycan dövləti tərəfindən etirazla qarşılanmış və həmsədrlərdən bu mühüm məqama aydınlıq gətirmək tələb olunmuşdu. Əslində təqdim olunan həll variantı Azərbaycanı da qane etmirdi. Buna baxmayaraq, həmin dövrdə paket təklifi Azərbaycan tərəfdən yalnız taktiki mülahizələrin danışıqlar prosesinə başlamaq və Ermənistanın mövqelərini ümumi şəkildə də olsa müəyyənləşdirmək məqsədilə əsas olaraq qəbul edilmişdi. Lakin sənəd hətta bu şəkildə də ermənilər tərəfindən qəbul olunmadı və bununla da Ermənistanın sülh istəmədiyini və dialoqa hazır olmadığını bir daha göstərdi.

Belə ki, sənədlər təqdim olunduqdan az sonra həm Ermənistan, həm də Dağlıq Qarabağ erməniləri onu prinsipial şəkildə qəbul etməyəcəklərini bildirdilər. Onlar öz fikirlərini bu sazişin ATƏT-in Lissabon sammitinin prinsipləri əsasında hazırlanması, həmin prinsiplərin isə sammit zamanı Ermənistan tərəfindən qəbul olunmaması ilə izah etdilər. Eyni zamanda, Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkibində olması da erməni tərəfini qane etmirdi. Status məsələsinin ATƏT-in Minsk Konfransında müzakirə və həll olunacağı barəsində əvvəllər əldə olunmuş razılığa əsaslanaraq, onlar ilkin mərhələdə status məsələsinin gündəliyə gətirilməsini yolverilməz saydılar. Bunun nəticəsində Ermənistan tərəfi Minsk qrupu həmsədr-

lərindən münaqişənin iki mərhələdə həlli ilə bağlı variant tələb etməyə başladı[112].

1997-ci il sentyabrın 19-23-də ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişə edən tərəflərə Minsk Konfransı həmsədrləri tərəfindən hazırlanmış 18 iyul tarixli son təkliflər planınının yeni variantını təqdim etmək üçün regiona səfər etdilər[113].

"Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş" adlı layihə kimi münaqişə tərəflərinə təqdim edilən və şərti olaraq "mərhələli həll" adlandırılan plan Azərbaycan Respublikası üçün daha məqbul hesab olundu. Çünki bu plan ardıcıl şəkildə silahlı münaqişənin nəticələrinin aradan qaldırılmasına və sonrakı mərhələdə keçiriləcək ATƏT-in Minsk Konfransında Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə yönəldilmişdi.

"Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş"in mahiyyəti münaqişənin iki mərhələdə həll edilməsindən ibarət idi. Birinci mərhələdə ATƏT-in sülhməramlı qüvvələrinin regionda yerləşdirilməsi, hərbi-texniki xarakterli tədbirlər sistemi əsasında münaqişə zonasında hərbi gərginliyin aradan qaldırılması, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə bitişik ərazilərin – erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş altı rayonun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) azad edilməsi,

[112] E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, s.187-189

[113] "Ayna", 27 sentyabr 1997-ci il.



bu rayonlardan qaçqın düşmüş əhalinin öz yerlərinə qaytarılması, münaqişə zonasında bütün əsas kommunikasiyaların fəaliyyətinin normallaşdırılması nəzərdə tutulurdu.

İkinci mərhələdə isə bir tərəfdən Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi, o biri tərəfdən isə Laçın, Şuşa və Goranboy rayonunun bir hissəsi (keçmiş Şaumyan rayonu) ətrafında vəziyyətin nizama salınması göstərilirdi. Həm də bu zaman hər bir maddənin həyata keçirilməsinin dəqiq mexanizminin və konkret zaman çərçivəsinin müəyyənləşdirilməsi və bu prinsipləri pozan tərəflərə sanksiyaların tətbiqi nəzərdə tutulurdu.

Təbii ki, digər təkliflər kimi, "mərhələli həll" təklifində də Azərbaycanı qane etməyən bir sıra müddəalar var idi. Bu, ilk növbədə, Dağlıq Qarabağın azərbaycanlı əhalisinin taleyi, Laçın dəhlizi və s. məsələlər idi. Lakin bu çatışmazlıqlara baxmayaraq, Azərbaycan yenə də "mərhələli həll" təklifinin danışıqlara başlamaq üçün əsas kimi qəbul olunmasına öz razılığını bildirdi. Dağlıq Qarabağ erməniləri isə heç bir güzəştə getməyərək əksinə əvvəllər olduğundan daha da sərt mövqedən çıxış edirdilər. Onlar Minsk Qrupunun 6 rayonun boşaldılması ilə bərabər Şuşa və Laçın məsələsinin müzakirəsi layihəsini də qəbul etmirdilər.

Ümumilikdə isə, həm "paket", həm də "mərhələli" həll planlarında Goranboy rayonunun bir hissəsi (keçmiş Şaumyan rayonu) haqqında müddəanın sənədə salınması ermənilərin iddiaları əsasında baş vermişdi. Əslində isə bu, tarixən Ermənistan ərazisində yaşamış, ancaq 1988-1989-cu

illərdə amansızlıqla öz doğma yurdlarından qovulmuş azərbaycanlıların taleyinə biganə yanaşılması demək idi. Çünki onlar da beynəlxalq hüquqa görə tarixən yaşadıqları torpaqlara qayıtmaq hüququna malikdirlər və qayıtmalıdırlar. Amma bu sənədlərdə bu barədə heç nə deyilmirdi[114].

Əgər böyük dövlətlər məsələni ədalətli şəkildə həll etmək istəyirlərsə, uzunmüddətli münaqişəyə səbəb olmuş bu məsələlərə kompleks şəkildə yanaşılmalıdır. Əks halda münaqişənin ədalətli həllinə nail olmaq çətindir.

1997-ci il noyabr ayının ortalarında ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona səfəri zamanı Azərbaycan tərəfi problemin iki mərhələdə həllinə dair Minsk Qrupunun təkliflər planını qəbul etdiyini bir daha bəyan etdi. Ermənistan tərəfi də münaqişənin "mərhələ-mərhələ" nizama salınması planını qəbul etməyə razı olsa da, Dağlıq Qarabağ ermənilərì saziş layihəsini əsas kimi qəbul etməyərək münaqişənin "paket" üsulu ilə nizama salınmasını təkid etdilər[115]. Onlar münaqişənin siyasi vasitələrlə həllinin bütün prosesində Dağlıq Qarabağın statusunun hüquqi cəhətdən rəsmiləşdirilməsinin zəruriliyini tələb edirdilər. Beləliklə, Dağlıq Qarabağ ermənilərinin sərt mövqeyi nəticəsində ATƏT vasitəçilərinin hazırladığı plana görə münaqişənin nizama salınması haqqında sazişin imzalanması baş tutmadı. Bu da dekabr ayında ATƏT-in Xarici İşlər Nazirlərinin Kopenhagendə keçiriləcək iclasında əhəmiyyətli irəliləyişin əldə olunacağı ehtimalını heçə endirirdi.

[114] E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, s.190-191.
[115] "Ayna", 27 sentyabr 1997-ci il.



1997-ci il dekabrın 17-18-də Kopenhagendə ATƏT üzvü olan ölkələrin Xarici İşlər Nazirlərinin görüşü keçirildi[116]. 54 ölkənin nümayəndələri yekdilliklə qitənin təhlükəsizlik məsələlərinin həllində ATƏT-in başlıca rolunu əks etdirən sənədə imza atdılar. Azərbaycanın da imzaladığı bu sənədlər Avropa Təhlükəsizlik Xartiyasının hazırlanmasını sürətləndirir və Avropada regional münaqişələrin həllində ATƏT-in başlıca rolunu təsbit edirdi.

Kopenhagen toplantısında Almaniya ATƏT-in qərarlarının qəbulunda "konsensus minus 1" prinsipinin tətbiq edilməsi məsələsini irəli sürdü. Bir dövlətin 53 dövlətin razılaşdığı qərara "veto" qoymaq hüququnu heçə endirən bu prinsip Azərbaycan üçün də böyük əhəmiyyətə malik idi. Çünki 1996-cı ilin dekabrında Lissabonda məhz belə bir prinsipin olmaması nəticəsində Ermənistan "veto" hüququndan istifadə etdi və nəticədə Azərbaycanın ərazi bütövlüyü təsbit olunan maddə yekun qətnamədə öz əksini tapmadı. Ancaq yeni prinsipin qəbul edilməsi üçün də "veto" hüququ mane oldu. Çünki bu prinsip də ATƏT üzvü olan dövlətlərin hamısı tərəfindən qəbul edilməli idi. Bu dəfə isə Kopenhagendə Rusiya "veto" hüququndan istifadə edərək "konsensus minus 1" prinsipinin qəbul edilməsinə mane oldu[117].

[116] "Azərbaycan", 23 dekabr 1997-ci il.
[117] E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü və beynəlxalq təşkilatlar. Bakı 1998, s.54; E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, s.195-196.

Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə isə, Kopenhagendə Ermənistan tərəfi radikal mövqedən çıxış edərək bəyan etdi ki, guya Azərbaycanın Dağlıq Qarabağla birbaşa danışıqlara getməməsi problemin nizama salınmasına maneçilik törədir və Dağlıq Qarabağın birbaşa iştirak etmədiyi danışıqlar prosesində onun statusu üzrə hər hansı sənədin qəbul edilməsi mümkün deyil. Bununla da Ermənistan Dağlıq Qarabağa özünün müqəddəratını təyin etməyə qədər hüquq verilməsi tezisini yenidən ön plana çəkdi. Bu onu göstərirdi ki, 1997-ci ildə aparılan danışıqlarda yeganə irəliləyiş hesab edilən Ermənistanın Minsk Qrupunun son təkliflərini qəbul etməsi özünün münaqişədə iştirakını neytrallaşdırmaq və bütün məsuliyyəti Dağlıq Qarabağın üzərinə ataraq, danışıqlarda onun müstəqil tərəf kimi tanınmasına nail olmaq məqsədi daşıyırdı.

1998-ci il oktyabrın 8-də Varşavada ATƏT-in sədri, Polşanın xarici işlər naziri Bronislav Geremekin Minsk qrupunun ABŞ, Fransa və Rusiyanı təmsil edən həmsədrləri ilə görüşü oldu[118]. Həmsədrlər ATƏT sədrinə sentyabr ayında münaqişə bölgəsinə etdikləri səfərin yekunları barədə, habelə münaqişəyə cəlb olunmuş tərəflərin rəhbərləri ilə keçirdikləri görüşlərin nəticələri haqqında məlumat verdilər. Bununla yanaşı həmsədrlər Dağlıq Qarabağın statusu probleminin həllinə dair yeni təkliflərin hazırlanacağını ATƏT sədrinin nəzərinə çatdırdılar. ATƏT-in sədri Ermənistan-

[118] E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, s.198-199.



Azərbaycan sərhəddində və qoşunların təmas xəttində mövcud atəşkəs rejiminin qorunub saxlanmasının böyük əhəmiyyəti olduğunu bildirməklə yanaşı, o Qafqaz regionuna getmək niyyətində olduğunu və bu səfərni ATƏT-in Minsk prosesinə əlavə təkan verəcəyinə ümid etdiyini bildirdi[119].

ATƏT-in Minsk qrupu həmsədrlərinin nümayəndələri uzun sürən fasilədən sonra danışıqlar prosesini yenidən canlandırmaq məqsədilə 1998-ci il noyabrın 8-12-də Azərbaycanın mənafeyinə zidd və danışıqların davam etdirilməsinə imkan yaratmayan növbəti təklifi irəli sürdülər. Bu məqsədlə ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur[120].

ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı özlərinin üçüncü və sonuncu təkliflərini ("Ümumi dövlət") tərəflərə təqdim etdilər.

"Ümumi dövlət" planı da ATƏT-in Minsk qrupunun həmsədrlərinin ilk təklifi kimi paket xarakteri daşıyırdı. Bu sənəd münaqişənin mərhələlərlə həllini əsas götürən ATƏT-in Budapeşt və Lissabon sammitlərinin qərarlarına zidd idi. Həm də həmsədrlər bu dəfə Dağlıq Qarabağın statusunun qəbul edilməsini silahlı qarşıdurmanın dayandırılmasından daha əvvəl nəzərdə tuturdular. Bununla yanaşı, həmin status münaqişəyə cəlb edilmiş ölkələrin parlamentlərində ratifi-

[119] Yenə orada.

[120] ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında. – "Azərbaycan" qəz., 21 fevral 2001-ci il.

kasiya olunmalı idi. Bu da öz növbəsində münaqişənin həllini istənilən qədər uzatmaq və lazımi mərhələdə onu siyasi vasitəyə çevirmək üçün qarşı tərəfin, konkret olaraq, Ermənistan tərəfinin əlində kifayət qədər güclü vasitəyə çevrilmiş olurdu.

Həmsədrlərin irəli sürdükləri bu təklif Dağlıq Qarabağı öz müvafiq atributları olan respublika şəklində dövlət və ərazi qurumuna çevirir və "ümumi dövlət" çərçivəsində ona bərabər subyektlilik verirdi. Bu zaman formalaşacaq ümumi dövlətin sərhədləri kimi Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədlərinin göstərilməsi hələ Azərbaycanın öz suveren hüquqlarını bu sərhədlər daxilində gerçəkləşdirməsi demək deyildi. Nəhayət, tərəflər, o cümlədən də Dağlıq Qarabağ istənilən məqamda ümumi dövlətin tərkibindən çıxa bilər ki, bu da hətta belə bir dövlət yarandıqdan sonra da Azərbaycanın ərazi bütövlüyünə yönəlmiş təhlükələrin gündəlikdən çıxarılmadığını göstərirdi[121]. ATƏT-in Minsk qrupu həmsədrlərinin beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qətiyyən qəbuledilməz olan və danışıqların davam etdirilməsinə imkan yaratmayan üçüncü təklifi dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan tərəfindən qətiyyətlə rədd edilən süni "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşılması demək idi.

Dünyada baş vermiş münaqişələrin nizama salınması prosesində mövcud olmayan bu prinsip bir tərəfdən beynəlxalq hüquq normalarına zidd idisə, digər tərəfdən də Azərbaycan üçün qətiyyən qəbul edilməz idi. Minsk qrupu həmsədrlərinin təklif etdiyi "ümumi dövlət" prinsipinin açıq-aşkar ermənilərin mövqeyinə uyğun gəldiyi və Rusiya tərəfindən hazırlandığı şübhəsiz idi. Bu planlı surətdə hazırlanmış və razılaşdırılmış Rusiya-Ermənistan taktikasının yeni təzahürü idi.

Rusiya tərəfindən hazırlanan və mahiyyətə Dağlıq Qarabağa müstəqillik verilməsi məqsədi daşıyan bu təklifi ATƏT-in digər həmsədrləri olan ABŞ və Fransa da müdafiə etdiyini bildirmişdi. Lakin elə həmin gün Azərbaycan bu təklifi qəbul etməyəcəyini rəsmən bildirdi.

Bu sonuncu "ümumi dövlət" təklifi tərəflərə təqdim edildikdən sonra ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətində demək olar ki, durğunluq yarandı[122].

1998-ci il noyabrın 25-də ATƏT-in sədri B.Geremek münaqişə bölgələrinə, o cümlədən Azərbaycana səfər etdi[123]. Səfər zamanı o, Azərbaycan Prezidenti H.Əliyevlə görüşündə münaqişənin nizama salınması istiqamətində Minsk qrupu həmsədrləri tərəfindən hazırlanan Dağlıq Qarabağın Azərbaycanla birlikdə "ümumi dövlət" yaratması prinsipini

[121] E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, s.199-200.

[122] Yenə orada, s.199-200.

[123] Yenə orada, s.200-201.

bir daha irəli sürərək, bu təklifin Ermənistan və Dağlıq Qarabağ tərəfindən qəbul edildiyini bildirdi.

Azərbaycanın dövlət başçısı Minsk qrupu həmsədrlərinin təkliflərinin heç bir beynəlxalq normalara uyğun gəlmədiyini və Minsk qrupunun icad etdiyi yeni dövlət forması olduğunu ATƏT sədrinin nəzərinə çatdırdı. Bu təklifə Azərbaycan prezidentinin kəskin mənfi münasibəti və inandırıcı dəlil subutları ATƏT-in sədri B.Geremekin mövqeyini tamamilə dəyişilməsinə səbəb oldu.

Nəticədə, 1998-ci il dekabrın 2-3-də ATƏT-in Xarici İşlər Nazirləri Şurasının Osloda (Norveç) keçirilən iclasında müzakirəsi və qəti qərar qərar qəbul olunması üçün əsas götürülməsi nəzərdə tutulmuş bu təklif heç sammitin gündəliyinə də çıxırılmadı.

Minsk qrupu həmsədrlərinin təklif etdiyi "ümumi dövlət" prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı.

ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan tərəfi birmənalı şəkildə imtina etdikdən sonra 1999-cu il fevralın 8-də Azərbaycan Prezidenti H.Əliyev ATƏT-in Minsk Qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Fransa, Rusiya) başçılarına eyni məzmunlu məktubla müraciət



etdi[124]. Azərbaycanın dövlət başçısı Ermənistan-Azərbaycan münaqişəsinin həllinə yönəlmiş görülən işləri ətraflı təhlil edərək problemin hələ də həll olunmaması ilə əlaqədar narahatlığını bildirdi. Minsk qrupu həmsədrlərinin axırıncı təklifini ciddi sürətdə tənqid edən Prezident H.Əliyev "ümumi dövlət" konsepsiyasının ATƏT prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını Ermənistan-Azərbaycan münaqişəsinin ədalətlə və tezliklə aradan qaldırılması üçün səylərini ciddi sürətdə artırmağa çağırdı.

Bu müraciətdən sonra münaqişənin "ümumi dövlət" prinsipi əsasında həllinə böyük dövlətlərin, xüsusilə Rusiya və ABŞ-ın münasibətini yaqin etmək o qədər də çətin deyildi. İlk növbədə bu planın hazırlanmasında əsas rol oynayan Rusiya problemin adı çəkilən prinsip üzrə həll edilməsində maraqlı idi və bunun üçün daha çox fəallıq göstərirdi. Eyni zamanda Azərbaycan tərəfinin həmsədrlərin təklif etdiyi "ümumi dövlət" prinsipinə mənfi münasibətini nəzərə alaraq Rusiya tərəflər üçün daha əlverişli planın hazırlanmasının mümkünlüyünü də istisna etmirdi[125].

Rusiyadan fərqli olaraq ABŞ-ın "ümumi dövlət" prinsipinə münasibəti bir qədər dəqiq və aydın idi. Birləşmiş Ştatlar son təklifin reallaşmayacağı təqdirdə, Minsk qrupunun yeni təkliflər hazırlamasını zəruri hesab edirdi. ABŞ

[124] Yenə orada, s.201.
[125] Armenia Azerbaijan conflict.., p.11.

tərəfi Minsk Qrupunun hazırlamış olduğu əvvəlki iki təklifin ("paket" və "mərhələ-mərhələ" variantları) də öz əhəmiyyətini itirmədiyini və bunların hər birinin danışıqlar prosesinin mövzusu olacağını bildirmişdi.

"Ümumi dövlət" prinsipi Azərbaycanın milli maraqlarına zidd olduğundan bu təklifi qəbul etmədi və bundan sonra ATƏT-in Minsk qrupu hər hansı bir təklif irəli sürmədi. Nəticədə, Minsk prosesi çərçivəsində sülh danışıqlarında fasilə yarandı.

Bu dövrdə ATƏT-in Minsk Qrupunun həmsədrləri olan ABŞ, Fransa və Rusiya nümayəndələri Azərbaycana Ermənistanla birbaşa danışıqlar aparmağı məsləhət bilirdilər. Bu məsələni ABŞ rəsmiləri daha tez-tez vurğulayırdılar. Ümumiyyətlə, 1999-cu ilin ikinci yarısından Birləşmiş Ştatların regionda fəallığının artması hiss edilirdi.

ABŞ-ın bu fəallığı Rusiyanın regiondakı mövqelərini zəiflətmək və öz strateji maraqlarını təmin etmək məqsədi daşıyırdı. Eyni zamanda ABŞ özünün strateji maraqlarını təmin etmək üçün münaqişənin dinc vasitələrlə nizama salınması və regionda daimi sabitliyini bərqərar olmasında da maraqlı idi.

Münaqişənin dondurulmuş şəkildə qalmasına səbəb olan, danışıqlar prosesinin davam etdirilməsinə imkan yaratmayan və dünya praktikasında analoqu olmayan "Ümumi dövlət" ideyası haqqında görkəmli azərbaycanşünas amerika alimi, regionda baş verən hadisələri daim izləyən T.Svyatoxovski Azərbaycanda olarkən bildirdi ki, "ATƏT-in son təklifi Dağlıq Qarabağı respublika formasında dövlət ərazi



qurumu kimi ayırır və ona uydurma "ümumi dövlət" çərçivəsində Azərbaycanla bərabər status verir. Eyni zamanda, "ümumi dövlət"in Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində yaradılmalı olduğuna istinad edilməsi Azərbaycanın suverenliyi üçün təminat yaratmır"[126].

1999-cü il iyul və avqust aylarında Cenevrədə Azərbaycan və Ermənistanın dövlət başçıları səviyyəsində keçirilən ikitərəfli görüşlər də Birləşmiş Ştatların razılığı və təqdiri şəraitində baş tutmuşdu. Bu görüşlərin keçirilməsi tərəflər arasında qarşılıqlı güzəştlərə bir növ hazırlıq məqsədi daşıyırdı. 1999-cu il sentyabrın 24-də ABŞ Dövlət katibi M.Olbraytın, bir qədər sonra isə vitse-prezident A.Qorun Azərbaycan Prezidenti H.Əliyevə göndərdikləri məktublarda da bu ayın hiss edilirdi.

## 2.2. Azərbaycan və Ermənistan prezidentləri arasında aparılan birbaşa danışıqlar və onun nəticələri

Danışıqlar prosesinə təkan vermək üçün 1999-cu il aprelin 26-da ABŞ-ın təşəbbüsü ilə Vaşinqtonda Azərbaycan və Ermənistan prezidentləri arasında artıq yeni formatda birbaşa danışıqlara başlandı və ATƏT-in Minsk qrupu tərəfindən danışıqların bu formatı bəyənildi. Lakin bu görüşün nəticəsində də münaqişənin nizama salınması istiqamətində konkret nəticə əldə edilmədi.

[126] "Xalq qəzeti" 28 sentyabr 1999-cu il.

Münaqişə tərəflərinin mövqelərində ziddiyyətlərin qalması xüsusilə, Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi səbəbindən ATƏT-in 1999-cu il noyabrın 18-19-da İstanbulda keçirilən Zirvə toplantısında qəbul edilən yekun bəyannamədə yalnız Dağlıq Qarabağ problemi ətrafında yaranmış mövcud vəziyyəti özündə əks etdirən və Minsk qrupu çərçivəsində münaqişə tərəflərinin danışıqları davam etdirməyə çağıran 20-ci maddə öz əksini tapdı[127]. Sənəddə ATƏT-in Minsk qrupu həmsədrlərinin cəhdlərinə müsbət qiymət verilməklə yanaşı, Ermənistan və Azərbaycan prezidentləri arasında intensivləşən danışıqlardan razılıq ifadə olunur və nizamlama formatına daha çox uyğun gələn Minsk qrupu çərçivəsində müntəzəm olaraq sülh prosesinin davam etdirilməsi üçün görüşlərin keçirilməsi dəstəklənirdi.

1999-cu il noyabrın 18-19-da İstanbulda ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə toplantısında Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ilə əlaqədar ATƏT-in Minsk Konfransı həmsədrlərinin məruzəsi dinlədildi. Məruzədə həmsədrlər Ermənistan və Azərbaycan arasında ciddi siyasi dialoqun yarandığını və hər iki dövlət başçısının 1999-cu il ərzində keçirdiyi 6 görüşü (1 apreldə Moskvada, 27 apreldə Vaşinqtonda, 16 iyul və 23 avqustda Cenevrədə, 10 sentyabrda Yaltada, 11 oktyabrda Sədərəkdə) yüksək qiymətləndirdilər. Eyni zamanda həmsədrlər hesab edirdilər ki, Ermənistan-

[127] OSCE. Istanbul Summit Declaration. Istanbul, 1999, p.8



Azərbaycan dialoquna hansısa mərhələdə Dağlıq Qarabağ nümayəndələri də cəlb olunmalıdırlar[128].

Beləliklə, İstanbul sammitində də əvvəlki Zirvə görüşlərində olduğu kimi Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizama salınması istiqamətində heç bir müsbət irəliləyiş əldə edilmədi.

2001-ci ilin əvvəli iki dövlətin prezidentləri arasında keçirilən danışıqların intensivliyi ilə müşahidə olundu. Belə ki, 2001-ci ilin yanvarın 26-da Parisdə əvvəlcə Marini sarayında, martın 5-də isə Yelisey sarayında aparılan danışıqlar daha sonra aprelin 4-6-da ABŞ-ın Florida ştatının Ki-Vest şəhərində Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam etdirildi.

Sonradan "Paris prinsipləri" adını almış bu variantda əvvəllər irəli sürülmüş 3 təklifin ("paket", "mərhələli" və "ümumi dövlət") tərəfləri qane edən məqamlarının ümumiləşdirilməsi nəzərdə tutulurdu. Daha sonra Minsk qrupu həmsədrləri bəyan etdilər ki, onlar münaqişənin həlli ilə bağlı yeni təklif üzərində işləyirlər və onu iyul ayında Cenevrədə keçiriləcək növbəti görüşdə prezidentlərə təqdim edəcəklər. Lakin adı çəkilən bu görüş Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində baş tutmadı.

ATƏT-in Nazirlər Şurasının 2001-ci il dekabrın 3-4-də Buxarestdə keçirilən iclasında qəbul edilmiş bəyanatda sülh danışıqlarının davam etdirilməsinin vacibliyi bildirilmiş və tərəflərə münaqişənin beynəlxalq hüquq normaları və

[128] İbid.

prinsipləri əsasında tez bir zamanda həll edilməsi üçün səyləri artırmaq məsləhət görülmüşdür[129].

2002-ci ilin mart ayında regiona səfəri zamanı ATƏT-in Minsk qrupu həmsədrləri danışıqların Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələri səviyyəsində davam etdirilməsini təklif etdilər. Bu təklif hər iki dövlət tərəfindən qəbul edildi. Belə ki, 2002-ci il mayın 13-15-də və iyulun 29-30-da Praqa şəhəri yaxınlığında Ştirin ərazisində, daha sonra isə həmin il noyabrın 15-də Vyanada Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələrinin üç görüşü baş tutdu[130]. Mahiyyətcə *"mərhələli həll"* planını ehtiva edən Praqa formatının Azərbaycan tərəfindən dəstəklənməsinə baxmayaraq Ermənistan tərəfinin Dağlıq Qarabağın statusu məsələsini yenidən ilkin şərt kimi müzakirə olunmasını irəli sürməsindən sonra danışıqlar prosesi yenidən dalana dirəndi.

ATƏT-in Nazirlər Şurasının 2002-ci il dekabrın 6-7-də Portuda keçirilən iclasında qəbul edilmiş bəyanatda tərəflər arasında danışıqların intensivləşməsinə və Minsk qrupu həmsədrlərinin fəal dəstəklənməsinə baxmayaraq, Dağlıq Qarabağ probleminin hələ də nizamlanmamasına görə narahatlıq ifadə olundu. Sülh prosesinin davam etdirilməsinin vacibliyi vurğulanmaqla, tərəflər beynəlxalq hüquq normaları və prinsipləri əsasında problemin qısa bir zamanda həllinə

[129] ОБСЕ. Девятая встреча Совета министров. Бухарест, 3-4 декабря 2001 года. Решения 2. Заявление Совета министров (5).

[130] Маммадов И., Мусаев Т. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Баку, 2008, с.127.



çağırıldılar. Bununla yanaşı, qəbul edilən sənəddə Azərbaycan və Ermənistan prezidentlərinin, həmçinin onların şəxsi nümayəndələrinin davamlı görüşləri dəstəkləndi. Azərbaycan nümayəndə heyəti ATƏT-in Nazirlər Şurasının bu qərarı ilə əlaqədar olaraq izahedici bəyanat verdi[131].

Ümumiyyətlə, 1992-ci ildən başlayaraq ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan danışıqlar və bu qurumla qarşılıqlı əməkdaşlıq ümummilli liderimiz Heydər Əliyevin ciddi səyləri ilə Azərbaycanın xarici siyasət kursunun mühüm tərkib hissələrindən birinə çevrilmişdir. Yalnız, onu qeyd etmək kifayətdir ki, 1993-2003-cü illər ərzində Azərbaycanın dövlət başçısı Heydər Əliyev Ermənistan Prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə 140-a qədər görüş keçirmişdir.

2003-cü il dekabrın 1-2-də ATƏT-in Nazirlər Şurasının Maastrixtdə keçirilən növbəti iclasında qəbul edilmiş bəyanatda Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində edilən cəhdlərin uğursuzluğundan narahatlıq ifadə olundu. Nazirlər yenidən sülh danışıqlarına təkan verməyin vacibliyini vurğulamaqla tərəfləri münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında həll olunması üçün edilən səyləri ikiqat artırmağa çağırdılar. Azərbaycan nümayəndə heyəti bu çağırışa uyğun bəyanatla çıxış etdi[132].

[131] ОБСЕ. Десятая встреча Совета министров. Порто, 6-7 декабря 2002 года. Заявление Совета министров (4); Приложение 3. Дополнение 3. Интерпретирующее заявление Азербайджана.

[132] ОБСЕ. Одинадцатая встреча Совета министров. Маастрихт, 1-2 декабря 2003 года. Заявление о понимании председателя; Заявление делегации Азербайджана.

Ümummili liderimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək 2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti seçildiyi ilk gündən Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirən İlham Əliyev bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirmişdir. Azərbaycan prezidenti bütün xarici səfərlərdə, eləcə də Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, ehtiyac yarandığı halda, hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulamışdır. Bununla yanaşı, Azərbaycanın dövlət başçısı münaqişəni dinc vasitələrlə nizama salınmasının tərəfdarı olduğunu bildirmiş, beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir.

Belə ki, 2004-cü il fevralın 4-də ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin Azərbaycana səfəri zamanı dövlət başçısı İlham Əliyev qeyd etdi ki, münaqişənin nizama salınması prosesinda əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq qurumlar – ATƏT-in Parlament Assambleyası, Avropa Şurası və Avropa İttifaqının da fəaliyyətinin gücləndirilməsi böyük əhəmiyyətə malikdir[133]. ATƏT-in Parlament Assambleyasının fevralın ortalarında keçirilən iclası zamanı Qoran Lenmarkerin

[133] "Azərbaycan", 5 fevral 2004-cü il.



məruzəsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənmiş və işğal olunmuş ərazilərin qaytarılmasının zəruriliyi ön plana çəkilmişdir[134].

2004-cü ilin martın 16-da ATƏT-in fəaliyyətdə olan sədri, Bolqarıstanın xarici işlər naziri Solomon Passinin Azərbaycana səfəri zamanı dövlət başçısı İlham Əliyevlə görüşündə Minsk qrupunun konkret təkliflərinin olmadığını və hər iki dövlətin prezidentlərinin dialoqundan çox şey gözlədiyini bəyan etdi[135]. Son zamanlar Minsk qrupu həmsədrləri də problemin məhz Azərbaycan və Ermənistan rəhbərlərinin qarşılıqlı anlaşması sayəsində həll oluna biləcəyini dəfələrlə vurğulamışlar. Onu da qeyd etmək vacibdir ki, münaqişə başlayandan həqiqətən qarşılıqlı anlaşma mövcud olsaydı, heç Minsk qrupunun fəaliyyətinə də ehtiyac duyulmazdı. Çünki tərəflərin bir-birinin şərtlərini qəbul etməməsi, xüsusilə Ermənistanın daim qeyri-konstruktiv mövqedən çıxış etməsi danışıqların nəticəsiz, münaqişənin isə həll olunmamış qalmasına gətirib çıxarmışdır.

Məhz bu səbəbdən də dövlət başçısı İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrini qəbul edərkən bir daha Minsk qrupunun fəaliyyətini tənqid etmiş və Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalaraq, münaqişənin yalnız beynəlxalq hüquq normaları əsasında respublikamızın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmişdir.

[134] "Azərbaycan", 13 mart 2004-cü il.
[135] "Xalq qəzeti", 17 mart 2004-cü il.

2004-cü il aprelin 16-dan başlayaraq Praqada Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində danışıqlar yenidən bərpa olundu. Sonradan "Praqa prosesi" adını almış danışıqların bu mərhələsində 2005-ci ilin yayına qədər iki dövlətin xarici işlər nazirləri 11 görüş keçirərək münaqişənin nizama salınmasına dair sülh planının yeni variantının detallarını müzakirə etdilər. Bununla yanaşı, Azərbaycan və Ermənistan prezidentləri arasında 2004-cü il aprelin 28-də əvvəlcə Varşavada, sonra isə sentyabrın 15-də Astanada keçirilən danışıqların başlıca mövzusu xarici işlər nazirlərinin Praqa görüşlərində razılaşdırılan məsələlərin əsas detalları oldu.

ATƏT-in Nazirlər Şurasının 2004-cü il dekabrın 6-7-də Sofiyada keçirilən iclasında Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilən bəyanatda Azərbaycan və Ermənistan prezidentlərinin Minsk qrupunun həmsədrlərini himayəsi altında baş tutmuş 3 görüşü dəstəklənirdi. ATƏT-in Minsk qrupu həmsədrlərinin "Praqa prosesi"nin nəticələrinə dair sentyabr ayında Astanada hər iki dövlətin prezidentlərinə təqdim edilmiş çərçivə sənədi münaqişənin nizamlanmasının əsası kimi qeyd olundu[136].

2005-ci il yanvarın 3-də Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Təhlükəsizlik Şurasının iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətində əlverişli şəraitin yarandığını və bu

[136] ОБСЕ. Двенадцатая встреча Совета министров. София, 6-7 декабря 2004 года. Заявление Совета министров о Нагорно-Карабахском конфликте.



problemin "Praqa prosesi" əsasında getdiyini bildirməklə danışıqlarda yeni mərhələnin başlandığını bəyan etdi[137]. Ermənistanın münaqişənin "Praqa prosesi", yəni "mərhələli həll" variantı ilə razılaşmaq məcburiyyətində qalması heç şübhəsiz Azərbaycan Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasətin nailiyyətlərindən biri hesab oluna bilər. 2005-ci il mayın 15-də Varşavada, avqustun 27-də isə Kazanda iki ölkənin prezidentləri arasında keçirilən növbəti görüşlərdə danışıqların əsas mövzusu təklif olunan yeni sülh planının detallarının müzakirəsi oldu.

2005-ci ildə dekabrın 5-6-da ATƏT-in Nazirlər Şurasının Lyublyanada qəbul edilmiş bəyanatında 2005-ci il ərzində "Praqa prosesi" çərçivəsində Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlarda, xüsusilə ATƏT Minsk qrupu həmsədrlərinin himayəsi altında Azərbaycan və Ermənistan prezidentlərinin Varşava və Kazan görüşlərində əldə olunmuş tərəqqiyə razılıq ifadə olunur və hər iki ölkənin prezidentinə yaranmış imkanlardan münaqişənin nizama salınması üçün istifadə etmək tövsiyə olunurdu[138].

Münaqişənin nizama salınmasına dair aparılan danışıqların "Praqa prosesi" adını almış variantın ictimaiyyət üçün açıqlanan əsas elementləri ondan ibarət idi ki, burada nizamlanmanın "mərhələli həll" variantının detalları müzakirə obyektinə çevrilmişdi.

[137] "Xalq qəzeti", 4 yanvar 2005-ci il.

[138] ОБСЕ. Тринадцатая встреча Совета министров. Любляна, 5-6 декабря 2005 года . Заявление Совета министров о конфликте, являющемся предметом рассмотрения в Минской группе ОБСЕ.

Yeni sülh planının əsas prinsiplərini aşağıdakılar təşkil edirdi:

1. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudları boyunca olan işğal olunmuş ərazilərdən (Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı və Zəngilan) Ermənistan öz qoşunlarını mərhələli şəkildə çıxardır;

2. Azərbaycan ilə Ermənistan arasında diplomatik və iqtisadi əlaqələr bərpa olunur;

3. Laçın və Kəlbəcər bölgələri istisna olmaqla işğaldan azad olunmuş ərazilərə beynəlxalq sülhməramlı qüvvələrin müdafiəsi altında Azərbaycan əhalisi qayıdır;

4. Dağlıq Qarabağın statusu məsələsi həll olunur. Bu məqsədlə orada referendum keçirilir.

2006-ci il Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində aparılan danışıqların intensivliyi dövrü kimi xarakterizə oluna bilər. Məhz bu ildə tərəflərin nizamlanmaya bir addım yaxın olması barədə təsəvvürlər formalaşdı. Belə ki, Azərbaycan və Ermənistan prezidentləri 2006-cı il fevralın 10-11-də Paris yaxınlığında Rambuyedə, iyunun 5-də Buxarestdə, noyabrın 28-də isə Minskdə görüşdülər. Bundan əlavə, il ərzində hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində altı görüş keçirildi. Danışıqların tam təfərrüatı açıqlanmasa da, tərəflərin nizamasalma prosesində bəzi elementlərin razılaşdırılmasının müzakirə olunduğu bildirildi.

ATƏT-in Nazirlər Şurasının 2006-cı il dekabrın 4-5-də Brüsseldə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qəbul etdiyi bəyanatda 2006-cı il ərzində aparılmış danışıqlar nəticəsində tərəflərin əsas prinsiplər üzrə razılığa gəlmələri üçün daha da yaxınlaşması qeyd olundu. Bununla yanaşı, qəbul edilən sənəddə Azərbaycan və Ermənistan prezidentləri 2007-ci ildə baza prinsiplərini razılaşdırmaq üçün səyləri gücləndirməyə çağırıldılar[139]. Keçirilən görüşlərdə Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi "Praqa prosesi"nin yenidən dalana dayanmasına və danışıqların nəticəsiz qalmasına gətirib çıxartdı.

*Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması* prosesini sürətləndirmək üçün yenidən baza prinsipləri 2007-ci il noyabrın sonunda Madriddə tərəflərə təqdim olundu. ATƏT-in Nazirlər Şurasının 2007-ci il noyabrın 29-30-da Madriddə keçirilən növbəti iclasında qəbul edilən bəyanatda Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində cari danışıqların gələcək seçki ilində davam etdirilməsinə dair Azərbaycan və Ermənistan arasında razılığın əldə edilməsindən məmnunluq ifadə olundu. Bununla yanaşı, sənəddə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə münaqişənin nizamlanmasının baza prinsiplərinin razılaşdırılması üçün tərəflərə təqdim olunmuş variant dəstəklənirdi[140].

Bundan sonra, 2008-ci il iyunun 5-də Sankt-Peterburqda, noyabrın 2-də Moskvada, 2009-cu il yanvarın 28-də Sürixdə, mayın 7-də Praqada, iyunun 4-də Sankt-Peterburq-



139 ОБСЕ. Четырнадцатая встреча Совета министров. Брюссель, 4-5 декабря 2006 года. Заявление о Нагорному Карабаху.

140 ОБСЕ. Пятнадцатая встреча Совета министров. Мадрид, 29-30 ноября 2007 года. Заявление Министров.

da, iyulun 17-18-də Moskvada, oktyabrın 8-9-da Kişinyovda, noyabrın 22-də Münhendə, 2010-cu il yanvarın 25-də Soçidə, iyunun 17-də Sankt-Peterburqda, oktyabrın 27-də Həştərxanda, 2011-ci il martın 5-də Soçidə, iyunun 24-də Kazanda, 2012-ci il yanvarın 25-də isə Soçidə Vyanada Azərbaycan və Ermənistan prezidentlərinin 15 görüşü keçirilmişdir. Bu görüşlərdən 9-u, eləcə də son 6-sı Rusiya prezidentinin vasitəçiliyi ilə keçirilmişdir.

Aparılan danışıqların mahiyyəti haqqında verilən məlumatlarda bildirilir ki, son beş ildə "Praqa prosesi" çərçivəsində işlənilməsi başlanılan və Madrid sənədinə çevrilən baza prinsipləri mövcuddur. Bu prinsiplərin bəziləri üzrə müəyyən razılaşma əldə edilmişdir. Lakin hazırda prezidentlər səviyyəsində müzakirə olunan bir neçə prinsip üzrə anlaşmanın müəyyən cizgiləri hiss olunur. Bu kontekstdə bütün məsələlərə dair ümumi razılıq əldə olunduqdan sonra yekun hər hansı bir sənədin qəbul ediləcəyi bildirilir.

Heç şübhəsiz ki, Ermənistan tərəfi aparılan danışıqlar prosesində həmişə qeyri-konstruktiv mövqedən çıxış edərək hər dəfə bu prosesi uzatmağa çalışır. Aparılan danışıqların gedişi konfidensial səciyyə daşısa da, Azərbaycan Prezidenti İlham Əliyev görüşlərin daha intensiv xarakter aldığını qeyd etməklə yanaşı, bu gün danışıqlar masası üzərində bütün işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması və məcburi köçkünlərin öz doğma ev-eşiklərinə qayıdışı məsələlərinin mövcudluğunu bildirmişdir. Bununla yanaşı, Ermənistanın danışıqlar prosesini süni şəkildə uzatdığını və bu taktikanın heç bir perspektivinin olmadığını söyləyən



dövlət başçısı İlham Əliyev nə bu gün, nə on il, nə də yüz il sonra Dağlıq Qarabağın müstəqil olmayacağını vurğulamışdır. Eyni zamanda, Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanın mövqeyi birmənalıdır və biz bütün təzyiqlərə baxmayaraq sonadək öz mövqeyimizi müdafiə edəcəyik[141].

2009-cu ilin iyulun 10-da "Böyük səkkizlər"in İtaliyanın Akvil şəhərində keçirilən toplantısında ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ problemini də müzakirə etdilər. Sonda hər üç prezidentin münaqişə ilə bağlı qəbul etdikləri birgə bəyanatda həmsədrlərə Azərbaycan və Ermənistan prezidentlərini Baza Prinsiplərinə dair son təkliflərin əks olunduğu, yəni 2007-ci il noyabrın 29-da açıqlanmış Madrid təklifləri üzrə yeni versiyanı təqdim etməyi tapşırdılar.

Bununla yanaşı, sənəddə ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlərin prezidentləri Azərbaycan və Ermənistan prezidentlərini qalan fikir ayrılıqlarını aradan qaldırmağa və hərtərəfli sülh planının əsasını təşkil edəcək Baza Prinsiplərinin razılaşdırılmasını başa çatdırmağa çağırış öz əksini tapdı. Eyni zamanda, bəyanatda bu prinsiplərin Helsinki Yekun Aktına, yəni gücün tətbiq edilməməsi, ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə hüququna əsaslandığı qeyd olundu[142].

2010-cu il iyunun 26-da ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin prezidentlərinin "Böyük səkkiz-

---

[141] "Azərbaycan", 28 may 2009-cu il.
[142] "Ayna", 11 iyul 2009-cu il.

lərin" Torontoda keçirilən sammitində qəbul etdikləri birgə bəyanatda münaqişə tərəflərinə təqdim olunmuş yenilənmiş Madrid prinsiplərinə istinad edilir. Bu prinsiplərə görə Ermənistan qoşunları işğal edilmiş rayonlardan çıxmalı, qaçqınlar öz yurdlarına qayıtmalı, münaqişə bölgəsində sülhməramlı qüvvələr yerləşdirilməli, Dağlıq Qarabağa özünüidarəetmə imkanı yaradan aralıq status verilməli, yekun statusun müəyyənləşdirilməsi isə növbəti mərhələdə müzakirə edilib həyata keçirilə bilər.

Bu səbəbdən yenilənmiş Madrid prinsiplərinin Azərbaycanın deyil, üç həmsədr (ABŞ, Rusiya, Fransa) ölkənin *təklifi olduğunu bildirən Azərbaycan Prezidenti İlham* Əliyev Ermənistan tərəfinin öz mövqeyini bildirməsinin vacibliyini vurğulayaraq qeyd etmişdir ki, "...Ermənistan ya Rusiya, Fransa, Amerika tərəfindən verilmiş təklifə müsbət cavab verəcək və o təqdirdə biz məsələnin həllinə yaxınlaşacağıq, ya da ki, mənfi cavab veriləcək və beləliklə, danışıqlar prosesi pozulacaq və Ermənistan ilə Azərbaycan arasında yeni bir dövr başlaya bilər". Keçən dövr ərzində Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək vaxt uzatmaq taktikasından istifadə etmişdir.

2011-ci il mayın 25-də "Böyük səkkizlik" ölkələrinin Fransanın Dovil şəhərində keçirilən sammiti çərçivəsində son üç ildə artıq 3-cü dəfə ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair birgə bəyanatla çıxış etdilər[143].

[143] "Azərbaycan", 27 may 2011-ci il.



Bəyanatda ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin prezidentləri Ermənistan və Azərbaycan liderlərini "iyun ayında keçiriləcək Ermənistan-Azərbaycan sammitində siyasi əzmkarlıq nümayiş etdirməyə və Əsas Prinsipləri (Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Prinsipləri) üzərində işi tamamlamağa" çağırmışlar. Bununla yanaşı, sənəddə deyilirdi ki, "Dağlıq Qarabağ münaqişəsi tərəflərinin dinc tənzimləmə istiqamətində addım atmasının vaxtı çatmışdır". Minsk qrupunun həmsədrləri olan üç dövlətin başçıları Ermənistan və Azərbaycan liderlərini israrla "əhalini müharibəyə deyil, sülhə hazırlamağa" çağırmışlar.

## 2.3. Münaqişənin nizama salınması istiqamətində Azərbaycan dövlətinin mövqeyi

Münaqişənin nizama salınması prosesində Azərbaycan və Ermənistan tərəflərinin mövqelərində müəyyən fərqlər qalmaqdadır. Azərbaycan dövlətinin mövqeyi əvvəlki kimi birmənalıdır. Yəni, ermənilər Dağlıq Qarabağ ətrafında işğal etdikləri əraziləri mərhələli şəkildə azad etməli, məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdırlar. Bundan sonra isə, keçid dövründə Laçın və Kəlbəcər rayonlarının azad edilməsi ilə eyni zamanda Dağlıq Qarabağ və Ermənistan arasında dəhlizin yaradılması mümkündür.

Növbəti mərhələdə Dağlıq Qarabağdan olan məcburi köçkünlər öz torpaqlarına qayıtmalı və sülhməramlı qüvvələr yerləşdirilməlidir. Dağlıq Qarabağın 65 min azərbay-

canlı əhalisi tarixən yaşadıqları doğma yurdlarına qayıtdıqdan sonra isə status məsələsi ilə bağlı məsələlər aydınlaşmalıdır. Dövlət başçısı İlham Əliyev bəyan etmişdir ki, Dağlıq Qarabağın azərbaycanlı əhalisi oraya, o cümlədən Şuşaya qayıtdıqdan sonra status məsələsi müzakirə oluna bilər[144]. Heç şübhəsiz ki, bütün bunlar Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir ki, gələcəkdə Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları yüksək muxtariyyət şəraitində, Azərbaycan dövlətinin tərkibində yaşamalıdırlar. 2008-ci il noyabrın 2-də Moskva yaxınlığında "Mayndorf" qəsrində Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin birgə imzaladığı bəyannamədə də münaqişənin ərazi bütövlüyü çərçivəsində həlli nəzərdə tutulur. 2009-cu il dekabrın 5-də ATƏT-in xarici işlər nazirlərinin Afinada keçirilən görüşündə qəbul edilmiş sənəd də məhz bu yanaşmanı təsdiq edir[145].

Ermənistan tərəfinin mövqeyinə gəldikdə isə, ermənilər öz müqəddəratını təyinetmə prinsipini əsas gətirərək Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınmasına çalışırlar. Ancaq ermənilər öz müqəddəratını təyin etmə hüququndan hələ əsrin əvvəllərində ən yüksək səviyyədə istifadə edərək özlərinin müstəqil dövlətini – Ermənistan Respublikasını yaratmışlar. Dağlıq Qarabağ bölgəsinin erməniləri isə müstəqil Azərbaycan dövlətində yaşayan milli azlıq-

[144] "Azərbaycan" 7 iyul 2010-cu il.
[145] "Azərbaycan" 6 dekabr 2010-cu il.



lardan biridirlər. Beynəlxalq hüquq normalarına görə milli azlıqlar öz müqəddəratlarını təyin edə bilərlər. Lakin bu, müstəqillik formasında ola bilməz. Çünki müstəqil dövlətin ərazisində yaşayan milli azlıqların belə hüquqları yoxdur. Bu baxımdan, ermənilərin öz müqəddəratını təyin etmə hüququnu bəhanə etməsi beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması deməkdir.

Bu səbəbdən Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək. Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində hər hansı bir status verilə bilər. Lakin bu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür.

Bundan əlavə, Ermənistan tərəfi aparılan danışıqlarda Dağlıq Qarabağın üçüncü tərəf kimi iştirakının təmin olunmasını istəyir. Ancaq bu tələb də əsassızdır və heç bir məntiqə uyğun deyil. Çünki Dağlıq Qarabağ ermənilərinin müstəqil tərəf kimi danışıqlarda iştirakı məsələsi nəinki ATƏT-in Minsk qrupunun mandatına ziddir, eyni zamanda 2008-ci ilin sonunda Moskvada imzalanmış məlum bəyannamədə də açıq şəkildə bildirilir ki, münaqişənin nizamlanması istiqamətində aparılan danışıqlar prosesində yalnız Azərbaycan və Ermənistan tərəfləri iştirak edə bilər.

Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu dəfələrlə bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev 2009-cu il iyulun 13-də Londonda məşhur Kral Beynəlxalq Münasibətlər İnstitutunda görüşü zamanı Ermənistan

rəhbərinin Moskva bəyannaməsini tərəf kimi imzaladığını vurğulamaqla yanaşı, danışıqların Ermənistanla Azərbaycan arasında aparıldığını və bunun beynəlxalq format olduğunu bildirərək qeyd etdi ki, əgər Dağlıq Qarabağ münaqişə tərəfi olsaydı, onda Ermənistan tərəfi bəyannaməni imzalamazdı. Bununla yanaşı dövlət başçısı bəyan etdi ki, "Əgər Dağlıq Qarabağın erməni icması iştirak etmək istəyirsə, onda onlar Dağlıq Qarabağın azərbaycanlı icması ilə danışıqlara gedə bilərlər"[146]. Buna görə də Ermənistan ilk növbədə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etməli, işğalçılıq siyasətinə son qoymalı, sonra isə münaqişənin nizamlanmasının variantları barədə öz mövqeyini bildirməlidir.

Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması prosesində Azərbaycan dövləti və onun başçısı cənab İlham Əliyev ilk növbədə sülh variantına üstünlük verir. Lakin Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğalı, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün tam əsasımızın olduğunu və bunun beynəlxalq hüquq normaları ilə təsdiq etdiyini vurğulamışdır[147]. Münaqişə həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, dövlət başçısı İlham

[146] "Azərbaycan", 17 iyul 2009-cu il
[147] "Xalq qəzeti", 7 aprel 2009-cu il



Əliyev ölkəmizin öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirmişdir. Eyni zamanda, bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan etdi ki, "Azərbaycan bundan sonra da nə danışıqlar prosesində, nə də bölgədə gedən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcəkdir"[148].

Bundan əlavə, dövlət başçısı İlham Əliyev son Münhen danışıqları ərəfəsindəki çıxışında dünya birliyinin bu məsələyə biganə qaldığını vurğulayaraq qeyd etdi ki, beynəlxalq təşkilatlar lazım olan qərarları qəbul etsə də, ancaq onlar icra olunmur və belə olan halda o qətnamələr mənasını itirir. Dünyada beynəlxalq hüquq normalarının kobudcasına pozulduğunu bildirən Prezident İlham Əliyev Azərbaycan torpaqlarının uzun illər işğal altında qalmasını bunun nəticəsi kimi qiymətləndirdi. Ona görə də ancaq Azərbaycan xalqının iradəsinə, gücünə arxalanmağı bildirən dövlət başçısı bu məqsədlə iqtisadiyyatımızı və ordumuzu gücləndirməyin vacibliyini vurğuladı. Problemin sülh yolu ilə həll olunmasına ümidlərini itirməyən və bu səbəbdən münaqişənin nizama salınmasında dinc vasitələrə üstünlük verdiyini söyləyən Prezident İlham Əliyev qeyd etdi: "Biz danışıqlar aparırıq, ancaq bununla bərabər, hər an torpaqlarımızı işğalçılardan hərbi yolla azad etməyə hazır olmalıyıq"[149].

[148] "Xalq qəzeti", 17 oktyabr 2009-cu il
[149] "Azərbaycan", 18 noyabr 2009-cu il

2010-cu il yanvarın 25-də Rusiyanın vasitəçiliyi ilə Soçidə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü zamanı münaqişənin nizama salınması istiqamətində danışıqlar ATƏT-in Minsk qrupu həmsədrlərinin 2009-cu ilin dekabr ayında təklif etdiyi yenilənmiş Madrid prinsipləri əsasında aparılmışdır. Bu danışıqlardan sonra Azərbaycan tərəfi Madrid prinsipləri əsasında verilən bu təklifi prinsip etibarı ilə qəbul etmiş, Ermənistan isə verilən təklifə münasibət bildirmək üçün iki həftə vaxt istəmişdi. Ancaq keçən dövr ərzində Ermənistan tərəfdən həmsədrlərin tərəfinə rəsmən heç bir cavab verilməmişdir.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində beynəlxalq təşkilatlarin səyləri ilə yanaşı, 1999-cu ilin aprelindən başlayaraq, yeni formada addımlar atılmişdır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqunun aparılması olmuşdur. Həmin vaxtdan bu günə qədər iki respublikanın prezidentləri Moskvada, Vaşinqtonda, Cenevrədə, Yaltada, İstanbulda, Davosda, Nyu-Yorkda, Minskdə, Parisdə, Ki-Uestdə, Soçidə, Kişinyovda, Praqada, Strasburqda, Varşavada, Astanada, Kazanda, Rambuyedə, Buxarestdə, Sankt-Peterburqda, Surixdə, Münhendə, Vyanada və habelə iki respublikanın sərhəddi – Sədərəkdə 45-dən çox görüş keçirmişlər.

Ancaq çox ağır və çətin keçən danışıqlar zamanı Azərbaycan tərəfi öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Çünki münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan



qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən isə, dünya birliyinin "ikili standartlar" prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına maneə törədir.

Bundan başqa, münaqişənin nizamlanması istiqamətində vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun sonuncu təklifindən (Madriddə tərəflərə təqdim edilmiş sənəd nəzərdə tutulur – E.Ə.) 5 ildən çox vaxt keçməsinə baxmayaraq, Minsk qrupu indiyə qədər heç bir yeni təkliflə çıxış etməmişdir. Buna baxmayaraq Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanın Prezidenti İlham Əliyev keçən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə 50-dən çox görüş keçirmiş və bu da münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda ölkəmizin ilk növbədə sülh variantına üstünlük verdiyinə sübutdur.

Çox təəssüf ki, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzu olunan nəticəni verməmişdir. ATƏT çərçivəsində yaradılan Minsk qrupu və

bu qrupa həmsədrlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin dondurulmuş şəkildə qalmasında məsuliyyət daşımamış və təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmamışlar. Bununla yanaşı, münaqişədə Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, qəbul edilən sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Eyni zamanda təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də heçə endirir. Ona görə də böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər.



# FƏSİL III. AZƏRBAYCANIN AVROATLANTİK STRUKTURLARA İNTEQRASİYASI NATO İLƏ ƏMƏKDAŞLIQ KONTEKSTİNDƏ

## 3.1. XX əsrin 90-cı illərində Avropada siyasi dəyişikliklər və NATO-nun gələcək vəzifələri

Qərb dövlətlərinin hərbi-siyasi bloku kimi meydana gəlmiş Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) 1949-cu il aprelin 4-də ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Kanada, Belçika, Niderland, Lüksemburq, Portuqaliya, Norveç, Danimarka və İslandiya arasında bağlanan müqavilə əsasında yaradılmışdır. Vaşinqton müqaviləsinə əsasən yaradılmış bu təşkilatın məqsədi BMT nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq kollektiv müdafiədir.

1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-ci ildə AFR, 1982-ci ildə isə İspaniya bu bloka qoşulmuşdur[150].

Qərbi Avropada kommunizm ideologiyasının sürətlə yayılmağa başlaması liberal demokratik rejimlərin hökm sürdüyü ölkələrinin hərəkətə keçməsinə gətirib çıxartdı. Bu da İkinci Dünya müharibəsindən sonra yeni bir müharibənin – ideologiyalar müharibəsinin başlamasının əlaməti idi. İkinci Dünya müharibəsi dövründə faşist rejiminə qarşı bərabər mübarizə aparan demokratik ölkələrlə kommunist rejiminin hakim olduğu Sovet İttifaqı arasındakı əlaqələr müharibə qurtardıqdan sonra fərqli formada, gizli şəkildə

[150] NATO Handbook. NATO office of information and press. 1110 Brussels. Belgium, 2001. s.412

ziddiyyətlərin davam etməsi ilə müşahidə olundu. Sovet İttifaqının kommunizm ideyalarını yaymaq uğrunda aktiv fəaliyyətə başlaması tərəflər arasındakı münasibətlərin daha da kəskinləşməsinə gətirib çıxardı.[151]

Şimali Atlantika müqaviləsinin birinci maddəsində bəyan edildi ki, məqsəd ümumi sülhün, kollektiv təhlükəsizliyin və BMT nizamnaməsinin qorunmasıdır.

İkinci maddədə üzv ölkələrdə mövcud ictimai quruluşun birgə müdafiəsi məqsədilə onun üzvlərinin sıx əməkdaşlığı göstərildi.

Üçüncü maddədə deyilirdi ki, pakt iştirakçıları hərbi qüdrətin güclənməsində birgə iştirak etməlidirlər.

Dördüncü maddədə mövcud qayda və onun təhlükəsizliyinə qarşı istənilən təcavüzə qarşı birgə əməliyyatlar aparılmasını nəzərdə tuturdu.

Beşinci maddə tərəflər arasında hərbi qüvvələrin tətbiqi məsələlərində qarşılıqlı yardımın vəzifələrini müəyyənləşdirirlər.

Altıncı və yeddinci maddələr hərbi təcavüzə qarşı pakt iştirakçılarının gəmi və ya təyyarə ilə müdaxilə etməsi imkanını nəzərdə tuturdu.

Səkkizinci maddəyə görə, NATO iştirakçıları bloka daxil olmayan dövlətlərlə beynəlxalq müqavilələr bağlaya bilərdilər.

Doqquzuncu maddə blokun daimi hərbi orqanlarının yaradılmasını nəzərdə tuturdu. Bu maddə NATO-nun iri və işlək hərbi-siyasi maşına çevrilməsinə yönəlmişdi.

[151] http://www.history.com/topics/formation-of-nato-and-warsaw-pact.



XX yüzilliyin sonunda dünyada baş verən qlobal proseslər, xüsusən də Varşava Müqaviləsi Təşkilatının fəaliyyətini dayandırılması, "soyuq müharibə"nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan yeni müstəqil dövlətlərin bilavasitə beynəlxalq münasibətlər sisteminə qatılması və öz maraqlarını ifadə edən xarici siyasət kursunu həyata keçirməyə başlaması dünyada dövlətlərarası münasibətlərin yeni nizamının formalaşmasına gətirib çıxardı.

Soyuq müharibənin doğurduğu qarşıdurmanın başa çatmasından sonra Avropada təhlükəsizlik məsələlərini yeni müsbət istiqamətə yönəltmək, Avropanın Şərq və Qərb ölkələri arasındakı əlaqələri normallaşdırmaq, xüsusilə, Mərkəzi və Şərqi Avropa ölkələrinə yenicə qazanılmış müstəqilliklərini möhkəmləndirmək, regionda və dünyada qlobal təhlükəsizlik problemlərinin həllində tam demokratik ölkə olaraq iştirak etmək arzusunu həyata keçirmək zərurəti yaranmışdı.

1989-cu ilin noyabrında Berlin divarlarının uçulması Soyuq müharibənin başa çatdığını göstərdi. Qısa müddətdən sonra Mərkəzi və Şərqi Avropada baş verən sürətli dəyişikliklər NATO-nu yeni və tamamilə fərqli təhlükəsizlik təhdidləri ilə üzbəüz qoydu. Tamamilə yeni miqyaslı siyasi dəyişikliklər Avropada təhlükəsizliyin inkişafı üçün böyük imkanlar açdı[152].

[152] Tərəfdaşlıq vasitəsilə təhlükəsizlik. Brüssel, 2005, s.4.

Soyuq müharibə başa çatdıqdan sonra NATO-nun qarşısında duran əsas məsələ Varşava Müqaviləsi Təşkilatına üzv olan ölkələrdə yeni münasibətlərin qurulması və yeni şəraitə uyğun siyasət və strategiyanın həyata keçirilməsi idi. 1990-cı ilin iyulunda keçirilən NATO Şurasının London sessiyası bu prosesə başlanğıc oldu[153].

1990-cı ildə Almaniyanın birləşməsi nəticəsində keçmiş Almaniya Demokratik Respublikası vahid dövlətin ayrılmaz hissəsi kimi Alyansın təhlükəsizlik mühafizəsi altına keçdi. Şimali Atlantika Alyansı üzv dövlətlər arasında bağlanan müqavilə əsasında yaradılmışdır. Bu dövlətlərin hər biri öz iradəsi ilə ictimai müzakirə və müvafiq parlament prosesinin nəticəsində təşkilata üzv olmuşlar. Müqavilə onların fərdi hüquqları və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində göstərilmiş beynəlxalq öhdəliklərini müdafiə edir. O, hər bir üzv dövlətin üzərinə kollektiv müdaxilə ilə bağlı hədə və məsuliyyəti bölüşmək öhdəliyini, həmçinin müqavilə ilə ziddiyyət təşkil edə biləcək digər beynəlxalq öhdəlikləri öz üzərilərinə götürməmək vəzifəsini qoyur.[154]

Avropada siyasi dəyişikliklər prosesi NATO-nun gələcək vəzifələri ilə əlaqədar bir sıra müraciətlər edilməsinə səbəb oldu. Belə ki, NATO ölkə başçıları 1990-cı il iyulun 6-da Londonda keçirilən sammitdə Şərq-Qərb ayrı-seçkiliyinə son qoyaraq bütün Mərkəzi və Şərqi Avropa ölkələrinə yeni əməkdaşlıq təklif etdilər[155].

Münasibətlərdəki bu əsas dəyişikliklər NATO-nun 1991-ci il noyabr ayının 8-də dövlət və hökumət başçılarının yüksək səviyyədə keçirilən Roma görüşündə elan olunmuş və təhlükəsizlik məsələlərinə daha geniş yanaşmanın qəbul edildiyi yeni "Alyansın yeni strateji konsepsiyası"nda təsdiq edildi. Konsepsiyada göstərilirdi ki, 1989-cu ildən başlayaraq Avropada siyasi vəziyyət dəyişmişdir. NATO-nun keçmişdə qarşılaşdığı problemlərini yeniləri əvəz etmişdir. Hazırda alyans üçün əsas təhlükəni NATO üzvlərindən birinə hücum təhlükəsi deyil, qeyri-sabitliyin (iqtisadi, sosial və siyasi çətinliklər, etnik münaqişələr, ərazi mübahisələri, kütləvi qırğın silahları və ballistik raketlərin yayılması, həyati əhəmiyyətli ehtiyatların çatışmaması, terror və sabotaj aktları) meydana çıxması təşkil edir[156].

Strateji konsepsiya qlobal qarşılıqlı asılılığı və alyansın təhlükəsizliyinin bölünməzliyini nəzərdə tutur və Avropada qüvvələr nisbətinin tarazlığının qorunmasını onun əsas vəzifəsi hesab edir. Eyni zamanda strateji konsepsiya Avropada təhlükəsizliyin üç əsas ünsürünü – dialoq, əməkdaşlıq və kollektiv müdafiə qabiliyyətinin qorunmasını müəyyənləşdirmişdir.

[153] Справочник НАТО. Брюссель, 2001, с. 17.
[154] http://www.nato.int/cps/en/natolive/official_texts_17120.htm



[155] NATO Handbook. NATO office of information and press. 1110 Brussels. Belgium, 2001. s.439
[156] NATO Public Diplomacy Division. 1110 Brussels, Belgium, 2005. s.4.

Roma bəyannaməsi NATO-nun vəzifələrini və gələcək istiqamətlərini müəyyən edir. Bəyannamədə təsdiq olunur ki, yeni problemlər hər hansı bir institut tərəfindən deyil, Avropa və Şimali Amerika dövlətlərini bir-biri ilə bağlayan bütöv institutlar kompleksi tərəfindən həll edilə bilər. Eyni zamanda bəyannamədə qeyd edilir ki, alyans elə bir təhlükəsizlik sistemi üzərində işləyir ki, onun çərçivəsində NATO, ATƏT, Avropa İttifaqı və Avropa Şurası bir-birini qarşılıqlı surətdə tamamlamalıdır. Bundan əlavə, Bəyannamədə Mərkəzi və Şərqi Avropa ölkələri ilə məsləhətləşmə və əməkdaşlıq sisteminin inkişafı nəzərdə tutulmuşdur.

XX yüzilliyin 90-cı illərində baş vermiş siyasi proseslərin qloballığı onların ümümbəşəri xarakterə malik olmasında idi. Məhz bunun nəticəsində dünya siyasətində sistem dəyişiklikləri baş verdi, ikiqütblü dünya qaydası tarixə çevrildi, yeni dünya nizamı formalaşmağa başladı.

Təkcə Avropada yox, ümumiyyətlə beynəlxalq aləmdə yeni siyasi vəziyyətin yaranmasına səbəb olan bu hadisələr təhlükəsizlik baxımdan NATO-nun fəaliyyətlərində də köklü dəyişikliklər edilməsini şərtləndirdi. Yeni geosiyasi şəraitdə NATO-ya üzv olan ölkələrin dövlət hökumət başçılarının 1990-1994-cü illərdə keçirilmiş görüşlərində qəbul olunmuş qərarlara əsasən Alyans özünün ümumi strateji konsepsiyasında dəyişikliklər etmiş, yeni strateji kurs mövcud şəraitə transformasiya edilməyə başlamışdır.

NATO-nun əsas vəzifəsi ona üzv ölkələri siyasi və hərbi vasitələrlə müdafiə etməkdir. Təşkilat həmçinin Al-



yansa üzv olmayan ölkələrlə bir sıra təhlükəsizlik məsələləri, xüsusilə müdafiə sistemində islahatlar və sülhyaratma sahələrində məsləhətləşmələr aparmaqda və əməkdaşlıqda maraqlıdır. Müzakirələr və tərəfdaşlıq proqramları vasitəsilə NATO ona üzv ölkələrin sərhədləri daxilində və xaricində baş verən münaqişələrin qarşısının alınmasına yardım edir. Bu Alyans demokratik dəyərləri müdafiə edir və münaqişələrin sülh yolu ilə nizamlanmasını dəstəkləyir. Diplomatik səylərin iflasa uğradığı halda NATO təklikdə, yaxud digər ölkələrlə və beynəlxalq təşkilatlarla birgə əməkdaşlıqda böhranlı vəziyyətin aradan qaldırılması və sülhyaratma əməliyyatlarının aparılması üçün kifayət qədər hərbi qüvvəyə malikdir.

Beləliklə, NATO yarandığı yarım əsrlik vaxtdan bəri onun diqqət mərkəzi öz üzv dövlətlərinin müdafiə və təhlükəsizliyini birbaşa təmin edilməsində olmuşdur. Hazırda bu onun əsas vəzifəsi olaraq qalır, lakin Alyansın yeni təhdidləri qarşılamaq və yeni hədələrlə üzləşməmək imkanlarını yaratmaq üçün onun başlıca diqqət mərkəzi əsaslı dəyişikliklərə məruz qalmışdır.

Nəticədə, 1991-ci ilin dekabrın 20-də Müttəfiqləri və yeni tərəfdaş-dövlətləri birləşdirmiş Şimali Atlantika Əməkdaşlıq Şurasını (ŞAƏŞ) – ümumi narahatlıq doğuran məsələləri müzakirə etmək üçün məsləhətçi strukturun təşkil edilməsi üçün şərait yaradıldı[157]. Şuranın vəzifəsi təhlükəsizlik

[157] NATO Handbook. NATO office of information and press. 1110 Brussels. Belgium, 2001. s.446.

sahəsində əməkdaşlığa və ölkələr arasında münasibətlərin inkişafına yardım göstərməkdən ibarət idi.

Müraciətdə başqa dövlətlərlə yanaşı Azərbaycan da ŞAƏŞ-in 1992-ci il martın 10-da keçiriləcək görüşünə dəvət edilmişdir[158]. Azərbaycan Respublikası çoxtərəfli əlaqələrində NATO ilə əməkdaşlıq mühüm yer tutur. Azərbaycan NATO əlaqələri öz başlanğıcını 1991-ci il dekabrın 20-də qəbul olunmuş Brüssel toplantısının Müraciətindən götürmüşdür.

Beləliklə, ŞAƏŞ-nin tərkibi genişləndirildi və Azərbaycan da daxil olmaqla 11 MDB dövləti bu quruma qəbul edildi. Beləliklə, Azərbaycan-NATO əməkdaşlığı inkişaf dövrünə qədəm qoydu.

### 3.2. Azərbaycanın Avroatlantik məkana inteqrasiya siyasəti və NATO ilə münasibətlərin yaranması

XX əsrin 90-cı illərində baş vermiş əsas qlobal dəyişikliklər, xüsusilə "soyuq müharibə"nin başa çatması, sosializm sisteminin süqutu nəticəsində dünyanın geosiyasi mənzərəsinin dəyişilməsi NATO-nun fəaliyyətində bir sıra yeniliklər gətirdi. Yeni beynəlxalq şəraitə uyğun olaraq NATO kollektiv təhlükəsizlik missiyasını özünün başlıca vəzifəsinə çevirmişdir. Avroatlantika məkanda sülhün, sabitliyin və təhlükəsizliyin təminatında mühüm rol oynayan

[158] Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı, 1998. s.114.



NATO artıq həmin məkanla kifayətlənməyərək öz fəaliyyət sahəsindən kənarda əməliyyatlar həyata keçirməyə başladı.

Hazırda, beynəlxalq təşkilat olaraq, NATO müasir dünyada siyasi vəziyyətə getdikcə daha ciddi təsir göstərir. Təşkilatının keçmiş SSRİ məkanındakı hadisələrə müdaxilə etməsi əsasən onunla bağlıdır ki, postsovet məkanında yaranmış yeni dövlətlərdə baş verən milli, etnik, ərazi münaqişələri bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün təhlükə yaradır. Hərbi-siyasi təşkilat kimi NATO bütün dünyada, o cümlədən postsovet məkanında münaqişələrin ləğv edilməsində öz rolunu artırmağa, bu ölkələrdə siyasi və iqtisadi böhranın aradan qaldırılmasına, demokratik islahatlar keçirilməsinə zəruri kömək göstərməyə çalışır. NATO şəraitə uyğun olaraq öz vəzifələrini daim yenidən müəyyənləşdirir, dünya siyasətində öz təsirini və xüsusi çəkisini artırmağa səy göstərir[159].

Azərbaycanla NATO arasında qarşılıqlı münasibətlərin ilk təzahürləri 1992-ci ilin oktyabrında özünü göstərirdi. O zaman suveren dövlətimizin nümayəndə heyəti NATO üzvü olan ölkələrin Türkiyədə təşkil olunmuş seminarında iştirak edirdi. Seminar zamanı Azərbaycan nümayəndələri NATO-nun baş katibi M.Vernerlə görüşmüşlər. Burada qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmiş, ikitərəfli əməkdaşlığın inkişafı zəruri qeyd olunmuşdur.

[159] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s. 501.

1993-cu ilin fevralında Azərbaycan nümayəndə heyəti Brüsseldə Avropa təhlükəsizliyi problemləri üzrə Şimali Atlantika İttifaqının təşkil etdiyi konfransda iştirak etmişdir[160]. Konfransda nümayəndə heyətinin Azərbaycanda gedən ictimai-siyasi proseslər, Ermənistanın ölkəmizə təcavüzü və s. haqqında məlumatları yayılmışdır.

Azərbaycan üçün hərbi-siyasi aspektdən ağır olan həmin illərdə ölkəmiz NATO-nun yaratdığı müxtəlif forum və strukturlardan istifadə edərək, yaranmış informasiya blokadasını yarmağa, Azərbaycanda və Cənubi Qafqazda gedən prosesləri obyektiv şəkildə dünya ictimaiyyətinə çatdırmağa çalışmışdır. Bu dövrdə Azərbaycanın NATO-dan böyük gözləntiləri olduğu halda ölkəmizdə, o cümlədən Qafqazda daxili qeyri-sabitlik və region haqqında Brüsseldə obyektiv təsəvvürlərin olmaması bu gözləntilərin reallaşmamasına səbəb olmuşdur.

1994-cü ilə qədər Azərbaycan-NATO münasibətləri demək olar ki, epizodik və səthi xarakter daşıyırdı. Lakin getdikcə ərazisində separatçı qüvvələrin ciddi hərbi əməliyyatlar keçirdiyi, torpaqlarının 20 faizinin Ermənistanın hərbi birləşmələri tərəfindən işğal edilməsi Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla, xüsusən NATO ilə əməkdaşlığa marağını artırırdı.

Əvvəla, Qarabağ probleminin sülh yolu ilə həll olunmasında, respublikamızın işğal edilmiş torpaqlarının azad edilməsində, bir milyondan artıq qaçqın və məcburi köçkünün öz doğma yurdlarına dönməsində NATO kimi nüfuzlu təşkilatın böyük rol oynaya biləcəyi inkaredilməz faktdır. Şimali Atlantika Bloku ilə yaradılan əlaqələrin və əməkdaşlığın müstəqil Azərbaycan dövləti üçün mühüm əhəmiyyəti bir də onunla ölçülür ki, respublikamız "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla həm NATO-nun müxtəlif struktur və institutları vasitəsilə dünyanın kollektiv təhlükəsizlik sisteminə daxil olmaq, öz təhlükəsizliyini beynəlxalq təhlükəsizlik məsələləri ilə uyğunlaşdırmaq, həm də bloka daxil olan 26 ölkə ayrı-ayrılıqda və birgə sülhməramlı və humanitar aksiyalarda iştirak etmək imkanı qazanır.

Bundan başqa, NATO ilə əməkdaşlıq çərçivəsində respublikamız Qafqaz regionunda strateji balans və təhlükəsizlik sistemi yaratmaq, münaqişəli məsələləri beynəlxalq hüquq normalarına uyğun həll etmək, Azərbaycanın müstəqillik və təhlükəsizlik məsələlərinin həllində NATO-nun geniş nüfuzundan və təsir mexanizmlərindən istifadə etmək imkanı da əldə edir.

1994-cü ilin yanvarın 10-11-də NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Brüsseldə keçirilən Zirvə toplantısında isə Sülh Naminə Tərəfdaşlıq fəaliyyətinin əsası qoyuldu və hər bir ölkəyə fərdi olaraq qarşılıqlı əməkdaşlıq çərçivəsində bunu həyata keçirməyə şərait yaradıldı[161]. "Sülh naminə tərəfdaşlıq" proqramı əməli əməkdaşlıq və Şimali Atlantika Şurasının istinad etdiyi demokratik

[160] Yenə orada, s.507.

[161] NATO Transformed. Public Diplomacy Division. 1110 Brussels, Belgium, 2005. s.16

prinsiplərə sadiqliyə əsaslanır. O, sabitliyin möhkəmləndirilməsi, sülh üçün təhlükənin azalması və təhlükəsizlik sahəsində ayrı-ayrı tərəfdaş-dövlətlər arasında möhkəm əlaqələrin yaradılmasını qarşısına məqsəd qoyur.

NATO üzvü olan ölkələrin dövlət və hökümət başçılarının Brüssel görüşün yekunlarına dair bəyanat qəbul edildi. Sənəddə beynəlxalq və regional siyasi şəraitin aktual problemləri barədə NATO-nun mövqeyi əks olunmuşdur. Bəyanatın 21-ci bəndində NATO-nun üzvü olan ölkələr Cənubi Qafqazda vəziyyət haqqında öz mövqelərini bildirmişdir. Bəyanatda qeyd edilirdi ki, güc işlədilməsi ilə ərazilər ələ keçirilməsini pisləyən NATO ölkələri Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmət edilməsini, həmin bölgədə sülhün, sabitliyin bərqərar olunması üçün zəruri hesab edir[162].

NATO-nun əsas məqsədi Cənubi Qafqaz strategiyasında üç respublika ilə eyni dərəcədə əməkdaşlığın planlaşdırılmasıdır. NATO Cənubi Qafqaz respublikaları ilə ayrı-ayrılıqda yaratdığı münasibətlərin bir-birinə xələl gətirəcək istiqamətdə inkişafına imkan verməməyə çalışır. Təşkilatın Azərbaycan, Gürcüstan və Ermənistan arasında regional formatda əməkdaşlıq təklifləri də bu məntiqdən qaynaqlanır[163].

Əməkdaşlığın ilk dövründən başlayaraq Azərbaycan hər zaman Avroatlantik birliyin dəyərləri ilə bölüşərək, çoxtərəfli transatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir.

[162] Əzimli A. Azərbaycan-NATO münasibətləri (1991-2000). Bakı, 2001, s.66.

[163] Чернявский С.Южный Кавказвпланах НАТО. – "Международная жизнь", 1998, №9, s.102.



Sülh Naminə Tərəfdaşlığın özünəməxsus alət və mexanizmləri mövcuddur ki, bunlara Avroatlantik Tərəfdaşlığın İşçi Planı (WP), Fərdi Tərəfdaşlıq Planı (İPP), Planlaşdırma və Təhlil Prosesi (PARP), Üzvlüyün Fəaliyyət Planı (MAP) və Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı (İPAP) daxildir.

1994-cü il mayın 4-də Prezident Heydər Əliyev "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzaladı[164]. Bu sənədin imzalanması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində mühüm addımlardan biri oldu. Əlbəttə, Respublikamız bu proqrama qoşulmaqla dərhal daha güclü beynəlxalq hərbi dəstək almağa təminat verilmədi. Amma bu proqramının Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, NATO-nun Təhlükəsizlik sisteminə daxil olan Avropa ölkələri və ABŞ-la dünya təhlükəsizlik sisteminin və beynəlxalq münasibətlərinin sivil qaydaları çərçivəsində hər cürə əməkdaşlıq etmək imkanı qazanır. Bu də öz növbəsində NATO-nun hərbi strukturları ilə Azərbaycan ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, onların ordu quruculuğu təcrübəsindən bəhrələnmək, kadr hazırlığı və s. sahədə birgə hərəkət etmək imkanı verir.

[164] "Xalq qəzeti", 10 may 1994-cü il.

Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun mənzil qərargahında "Sülh naminə tərəfdaşlıq" sənədinin imzalanması Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Gənc müstəqil dövlət kimi Azərbaycan Respublikasının bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Regionda hərbi münaqişə olduğunu nəzərə alaraq Azərbaycan bu proqrama böyük ümidlər bəsləyir. Eyni zamanda, ölkəmizin bu proqramına qoşulması Azərbaycan Respublikası və NATO üzvü olan dövlətlər arasında əlaqələrin genişlənməsinə kömək edəcəkdir.

Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun mənzil qərargahında sənədlərin imzalanmasından sonra keçirdiyi mətbuat konfransında bildirmişdir ki, "Sülh naminə tərəfdaşlıq" sənədinin imzalanması Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Gənc müstəqil dövlət kimi Azərbaycan Respublikasının bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Regionda hərbi münaqişə olduğunu nəzərə alaraq Azərbaycan bu proqrama böyük ümidlər bəsləyir. Müstəqil Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması Azərbaycan Respublikası və NATO üzvü olan dövlətlər arasında əlaqələrin genişlənməsinə kömək edəcək[165].

Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun iclasında çıxışı zamanı demişdir: "Biz NATO-nun Şərqi

[165] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.513.



Avropa ölkələrini və kecmiş Sovet İttifaqına daxil olan yeni müstəqil dövlətləri "Sülh naminə tərəfdaşlıq" sənədinə qoşulmağa çağıran dəvətini böyük razılıqla qarşılamışıq. Biz həmin sənədi imzalamağı qərara almışıq və NATO ilə əməkdaşlığa böyük ümid bəsləyirik. Bu əməkdaşlıq həm Azərbaycanın Qərb demokratiyasına qovuşması, həm də NATO ilə əməkdaşlıq edərək, regionda vəziyyəti sabitləşdirməyə, müharibəni dayandırmağa, Azərbaycan ilə Ermənistan arasında sülh və mehriban qonşuluq yaratmağa yönəldilmiş əlavə yollar axtarmaq baxımından bizdən ötrü cox mühümdür"[166].

Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması həm də Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi deməkdir. Əlbəttə, respublikamızın bu proqrama qoşulması dərhal güclü beynəlxalq hərbi-siyasi dəstək almağa təminat vermir. Məqsədə nail olmaq üçün Azərbaycanın çox fəal düşünülmüş, məqsədyönlü və səmərəli iş aparması tələb olunur.

Gələcəkdə Şimali Atlantika alyansı Azərbaycana öz milli müdafiəsinin planlaşdırılmasında, silahlı qüvvələr üzərində demokratik nəzarətin təmin edilməsində, müasir mülki müdafiə sisteminin təşkil edilməsində, böhranın nizamlamasında və s. məsələlərdə kömək edə bilər[167].

[166] Azərbaycan-NATO: tərəfdaşlıqdan başlanan yol (1994-2009). Bakı, 2009. s.16-17.

[167] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s. 509.

"Sülh naminə tərəfdaşlıq" proqramı dövlətimiz üçün təhlükə yarada bilən qüvvələrin neytrallaşdırılmasında və ölkəmizin xarici təzyiqlərdən qorunmasında əhəmiyyətli rol oynaya bilər. Bu, həm də Azərbaycanın NATO üzvü olan, demokratiya və bazar iqtisadiyyatı sahəsində böyük təcrübəyə malik ölkələrdə inteqrasiyanın sürətlənməsi, onlarla əməkdaşlığın yeni yolların açılması deməkdir.

NATO və Azərbaycan arasında qarşılıqlı münasibətlər 1994-cü ilin iyununda Azərbaycan nümayəndə heyətinin Şimali Atlantika Əməkdaşlığı Şurasının sessiyasında iştirakı ilə bir qədər də inkişaf etdirilmişdir[168]. Səfər zamanı Ermənistanın Azərbaycana təcavüzü və onun nəticələri haqqında geniş məlumat verilmiş və bu problem qəbul olunmuş bəyanatın "Regional münaqişələr" hissəsində öz əksini tapmışdır. Bəyanatda belə bir prinsipial müddəa ifadə olunmuşdur ki, bütün dövlətlərarası münaqişələr dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll olunmalıdır[169].

NATO ilə əməkdaşlıq Azərbaycan üçün bir sıra başqa mühüm sahələrdə də cəlbedici perspektivlər açır. Azərbaycan Respublikasının NATO ilə strateji təhlükəsizlik, demokratik təsisatların, azad bazar iqtisadiyyatının inkişafı, yeni texnologiyanın respublika həyatına cəlb edilməsi və s. sahələrdə əməkdaşlığına xüsusi ehtiyac duyulur. NATO-nun bu sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açan bir sıra

[168] Yenə orada, s.515.

[169] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, 2012, s. 903.



komitələri – mədəniyyət və informasiya, elmi məsələlər, müasir cəmiyyət, mülki cəmiyyət məsələləri üzrə fövqəladə planların işlənib hazırlanması bürosu, boru kəmərlərinin çəkilməsi və istismarı komitələri və s. mövcuddur[170].

Azərbaycan dövləti ümid edir ki, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak etmək ona Ermənistan-Azərbaycan münaqişəsinin ədalətlə, dinclıklə dayandırılmasına, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə, müharibənin bütün nəticələrinin aradan qaldırılmasına nail olmağa imkan verəcəkdir. Çünki NATO üzvü olan dövlətlər hər hansı ölkənin sərhədlərinin silah gücünə dəyişdirilməsini yolverməz sayırlar. Sənədin bu müddəaları ümid etməyə əsas verir ki, Qafqaz regionunda vəziyyətin nizama salınması üçün NATO ölkələri konkret əməlli addımlar atacaqlar[171].

"Sülh naminə tərəfdaşlıq" proqramı aşağıdakı məqsədlərin həyata keçirilməsini nəzərdə tutur[172]:

1. Milli müdafiənin planlaşdırılması və büdcənin hazırlanması;

2. Silahlı qüvvələr üzərində demokratik nəzarətin təmin olunması;

[170] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.509.

[171] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.514.

[172] http://nisa.az/content/view/90/675/lang,en/

3. Milli konstitusiyanın müddəaları nəzərə alınmaqla BMT və ATƏT-in himayəsi altında sülhməramlı hərbi əməliyyatlarda iştirak;

Sülhyaratma, xilasetmə, axtarış, humanitar və başqa istiqamətlərdə əməliyyatların keçirilməsini, milli hazırlığı yüksəltmək məqsədilə NATO ilə hərbi sahədə əlaqələr qurmaq;

Qeyd edək ki, bu proqram müdafiə sahəsində əməkdaşlığın və hərbi sahədə qarşılıqlı fəaliyyətin inkişafı üçün uğurlu mexanizmdir və sülhyaratma əməliyyatlarında iştirak etmək imkanı verir.

Bir faktı da qeyd etmək lazımdır ki, Cənubi Qafqaz müxtəlif dövlətlərin mənafelərinin toqquşduğu və kəsişdiyi bir regiondur. Azərbaycan Respublikası keçmiş SSRİ respublikaları arasında dördüncü olaraq "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuş və Cənubi Qafqazda yeni geosiyasi vəziyyət yaratmışdır[173].

Azərbaycan – NATO əməkdaşlığı 8 plan və istiqamət üzrə inkişaf etməkdədir:

1. PfP (Partnership for Peace) – Sülh Naminə Tərəfdaşlıq (SNT);

2. IPP (Individual Partnership Program) – Fərdi Tərəfdaşlıq Proqramı (FTP);

3. PARP (Planing and Review Process) – Proseslərin Planlaşdırılması və Analizi Proqramı (PPAP);

[173] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.514



4. IPAP (Individual Partnership Action Plan) – Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı (FTFP);

5. OCC (Operational Capabilities Concept) – Əməliyyat İmkanları Konsepsiyası (ƏİK);

6. PAP DİB (Partnership Action Plan on Defence Institution Building) – Müdafiə Təsisatlarının Qurulması üzrə Tərəfdaşlığın Əməliyyat Planı (MTQTƏP);

7. PSE (Partnership for Peace Staff Element) – Sülh Naminə Tərəfdaşlığın Qərargah Elementi;

8. PAP-T (The Partnership Action Plan against Terrorism) – Terrorizm Əleyhinə Tərəfdaşlıq Fəaliyyət Planı[174].

Fərdi Tərəfdaşlıq Proqramı SNT çərçivəsində tərəfdaş ölkənin NATO ilə əməkdaşlığının birinci səviyyəsi hesab olunur. Tərəfdaş ölkələr proqrama uyğun olaraq fəaliyyət sahələrinin geniş siyahısından istədiyi fəaliyyət sahəsini seçir və NATO rəhbərliyinə təqdim edir. NATO rəhbərliyi isə təqdim olunan siyahıdan müəyyən layihələri qəbul edir. Adətən hər hansı fəaliyyətin maliyyələşmə məsələləri tərəfdaş ölkədən asılı olur. Hər il bu çərçivədə Azərbaycan Silahlı Qüvvələrinin 1000-dən çox şəxsi heyəti hərbi sahələr üzrə tədris tədbirləri və təlimlərdə iştirak edir. Hərbi qulluqçular Oberammerqau, Lyublyana, Budapeşt, Ankara və digər yerlərdə olan təlim məktəblərində hərbi biliklərə yiyələnirlər. [175]

1996-cı il oktyabr 14-də ŞAƏŞ Azərbaycanın ilk

[174] Sümərinli C. İrəliyə, NATO-ya doğru! Bakı, 2007. s.35-43.

[175] Yenə orada, s.35-36.

FTP-ni təsdiq etdi. Azərbaycan FTP-nin keyfiyyət və məqsədi son on il ərzində daima inkişaf etdirilmişdir. Müdafiə Nazirliyi ilə yanaşı, digər müvafiq dövlət təşkilatları da mütəmadi olaraq FTP-nin planlaşdırılması və yerinə yetirilməsi prosesinə cəlb olunurlar. FTP çərçivəsində Azərbaycanın əsas prioritetləri aşarıdakı sahələrə yönəlmişdir: hərbi təhsil, təlim və doktrina; xarici dil hazırlığı; hərbi təlimlər və təlimlə bağlı tədbirlər; müdafiə planlaşdırılması və strategiyası; sülhməramlı qüvvələrin konsepsiyası, planlaşdırılması və əməliyyat sahələri; maddi texniki təminat; rabitə və informasiya sistemləri daxil edilməklə, məsləhətləşmə, komandanlıq və nəzarət; müdafiənin planlaşdırılması, büdcə.

FTP əsasən NATO strukturları və üzv ölkələri və bəzi tərəfdaş ölkələr tərəfindən təşkil edilən hazırlığın artırılmasına və ekspert müzakirələrinə xidmət edən tədbirlərdə (hərbi təlim, kurs, konfrans və s.) iştiraka şərait yaradır. Azərbaycan 1996-cı ildən başlayaraq hər il FTP зərзivəsində orta hesabla 200-dən artıq tədbirdə iştirak edir[176].

1994-1996-cı illərdə əsası qoyulmuş və inkişaf etdirilmiş Azərbaycan-NATO əlaqələri sonrakı dövrdə qarşılıqlı münasibətlərin daha da intensivləşdirilməsi üçün əlverişli baza rolunu oynadı. Məhz həmin illərdə münasibətlərin hüquqi cəhətdən tənzimlənməsi və bir sıra praktiki addımların atılması NATO-nun Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirməyə marağını artırdı.

[176] Azərbaycan-NATO 15 illik tərəfdaşlıq. Azərbaycan Respublikasənən NATO yanənda Nьmayəndəliyi. 2009. s. 37.



1995-ci ilin sentyabrın 28-də NATO "NATO-nun genişləndirilməsinə dair" ŞAƏŞ və müttəfiqlərin SNT-də əməkdaşlığı haqqında qərar qəbul etdi[177]. SNT proqramının mahiyyəti ayrı-ayrı tərəfdaş-dövlətlər və NATO arasında onların hər birinin konkret tələbatlarının nəzərə alınması ilə fərdi əsaslar üzərində formalaşdırılan tərəfdaşlıqdan ibarətdir. 1997-ci ildə Madriddə, 1999-cu ildə Vaşinqtonda, 2002-ci ildə Praqada, 2004-cü ildə İstanbulda keçirilmiş sammitlərdə isə bu proses daha sürətlə inkişaf etdirildi[178].

Azərbaycanın NATO ilə əməkdaşlığı sonrakı dövrdə də ildən-ilə yeni keyfiyyət almış, NATO mütəxəssisləri Azərbaycan ordusunun modernləşdirilməsi üçün ölkəmizə müntəzəm olaraq texniki və təlim xarakterli yardım etmişlər. Siyasi və iqtisadi cəhətdən durmadan inkişaf edən Azərbaycanda hərbi quruculuğun da yüksək səviyyədə olmasını artıq hamı etiraf edir. Milli silahlı qüvvələrimizin maddi-texniki bazasının NATO standartları səviyyəsində yenidən qurulması isə bilavasitə ümummilli liderimiz Heydər Əliyevin Brüsseldə imzaladığı məlum sənədin icrası nəticəsində mümkün olmuşdur.

Tərəflər arasında əməkdaşlığın uğurlu inkişafı 1997-ci ilin fevralında NATO Baş katibi X.Solananın Azərbaycana səfəri zamanı hazırlanmış "Prezentasiya sənədi" aydın şəkildə göstərirdi. Sənədə əsasən Azərbaycan ordu quruculuğu

[177] NATO Handbook. NATO office of information and press. 1110 Brussels. Belgium, 2001. s.473.

[178] NATO Public Diplomacy Division. 1110 Brussels, Belgium, 2005. s.13.

və onun təchizatı NATO nümunəsinə əsasən həyata keçirilməyə başlamışdır[179].

1997-ci il fevralın 13-14-də NATO-nun baş katibi Xavyer Solona Azərbaycana səfər etdi[180]. Prezident Heydər Əliyevlə görüşən baş katib qeyd etmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli 1996-cı ildə Lissabon sammitində qəbul olunmuş prinsiplər əsasında mövcuddur. Tərəflər arasında dialoqun uğurlu perespektivləri hazırlanmış "Prezentasiya sənədi"ndə aydın şəkildə göstərilirdi[181].

NATO Baş katibi X.Solananın Bakıya səfəri NATO-Azərbaycan əlaqələrinə xüsusi təkan verdi və bu hərbi-siyasi təşkilatın ölkəmizlə bağlı niyyətlərinin ciddi olduğunu sübut etdi. Səfər zamanı Azərbaycanın beynəlxalq vəziyyətinə və xarici siyasət fəaliyyətinə toxunan baş katib ölkəmizin hazırda beynəlxalq aləmdə getdikcə aydın nəzərə çarpan müstəqil siyasət yeritdiyini vurğuladı[182].

Azərbaycan ilə NATO arasında yaradılan əməkdaşlığın əsas prinsipləri və istiqamətləri "Sülh naminə tərəfdaşlıq" proqramında və Azərbaycanın təqdim etdiyi "Prezentasiya sənədi"ndə öz əksini tapmışdır. 1996-cı il aprel ayının 23-də Brüsseldə Azərbaycan Prezidenti Heydər Əliyev

[179] Azərbaycan Respublikası XİN-in arxivi. Beynəlxalq təşkilatlar idarəsi. Arayış, 1991-1997, s. 2.
[180] Əzimli A. Azərbaycan-NATO münasibətləri (1992-2000). Bakı, 2001. s. 99.
[181] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivi. Beynəlxalq təşkilatlar idarəsi. 1991-1997, Arayış, s.2.
[182] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005. s.518.



NATO-nun qərargah-mənzilində bu təşkilatın baş katibi X.Solana ilə görüş zamanı Azərbaycan Respublikasının Şimali Atlantika İttifaqı ilə əməkdaşlığını təsdiqləyən və şərtləndirən "Prezentasiya sənədi"ni ona təqdim etmişdir[183].

Azərbaycan-NATO əlaqələrinin mahiyyəti və xüsusiyyətlərinə qiymət vermək baxımından 1997-ci ilin iyulunda Prezident Heydər Əliyevin Avro-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammitindəki çıxışı xüsusi əhəmiyyət kəsb edir. Həmin çıxışında Azərbaycan Prezidenti yeni müstəqil dövlətlərlə NATO arasında əməli dialoqa və əməkdaşlığa böyük əhəmiyyət verdiyini xüsusi vurğulayaraq qeyd etmişdir ki, Azərbaycan bölgədə silahlı münaqişənin aradan qaldırılmasında həmçinin NATO-nun və Avropa-Atlantika Əməkdaşlıq Şurasının fəal roluna ümid bəsləyir[184].

NATO ilə hərbi sahədə əməkdaşlıq 1997-ci ildə daha da intensivləşdirilmişdir. Bu çərçivədə 1997-ci ilin yanvarında Azərbaycanda Azərbaycan Silahlı Qüvvələrində sülhməramlı bölük, daha sonra isə tabor yaradıldı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri 1997-ci il iyulun 28-dən avqustun 8-dək ABŞ-ın Virciniya ştatının Norfolk şəhərində NATO-nun "Sülh naminə tərəfdaşlı" proqramı çərçivəsində keçirilən sülhməramlı təlimlərin iştirakçısı olmuşlar[185].

[183] Yenə orada, s.516.
[184] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.519.
[185] Yenə orada, s.520.

1997-ci ilin mayın 30-da ŞAƏŞ Avroatlantik Tərəfdaşlığı Şurasıyla (AATŞ) əvəz edildi və bununla da NATO tərəfdaş ölkələri arasında ümumi siyasi əməkdaşlıq yaradıldı[186]. AATŞ NATO ölkələri və Tərəfdaş-dövlətləri birləşdirir. Hal-hazırda ona 46 ölkə daxildir. O, siyasət və təhlükəsizlik məsələləri üzrə daim dialoq və məsləhətləşmələrin aparıldığı çoxtərəfli forumdur. O, həmçinin NATO ilə Sülh Naminə Tərəfdaşlıqda iştirak edən ölkələr arasında ayrı-ayrı ikitərəfli əlaqələrin siyasi əsası kimi çıxış edir.

Azərbaycan-NATO əməkdaşlığı ictimai təşkilatların xətti ilə də davam etdirilir. 1997-ci ilin iyulunda "NATO və Azərbaycan: Koordinasiya və əməkdaşlıq mərkəzi" yaradılmışdır. Təşkilatın məqsədi NATO ilə tərəfdaşlıq proqramı çərçivəsində Azərbaycan ictimaiyyətinin NATO haqqında bilik və təsəvvürlərini genişləndirmək, ictimai rəyi uyğun istiqamətdə formalaşdırmaq, Azərbaycanın NATO ilə əməkdaşlığı prinspilərini öyrənmək, NATO-nun genişləndirilməsinin Qafqazda sülhyaratma proseslərinə təsirini araşdırmaqdır[187].

[186] NATO Transformed. Public Diplomacy Division. 1110 Brussels, Belgium, 2005. s.17-18

[187] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.521.



## 3.3. Azərbaycanın NATO ilə əməkdaşlığının genişlənməsi

XX əsrin sonunda NATO-nun yeni genişlənməsi baş verdi. 1997-ci ilin iyulunda NATO keçmiş sosialist düşərgəsinin üzvü olan üç tərəfdaş dövlət – Macarıstan, Çexiya və Polşanın da onun sıralarına daxil olması haqqında qərar qəbul etmişdir və bu qərar 1999-cu il martın 12-də həyata keçirilmişdir. Bir neçə il sonra isə – 2004-cü ildə daha yeddi tərəfdaş dövlət – Rumıniya, Bolqarıstan, Slovakiya, Sloveniya və keçmiş sovet respublikaları Litva, Latviya və Estoniya da bloka qoşuldular[188]. 2008-ci il aprelin 2-4-də NATO-nun Buxarestdə keçirilən Zirvə toplantısında Albaniya və Xorvatiya təşkilata üzv qəbul edildilər. Beləliklə, 2009-cu ilin aprelin 3-4-də NATO-nun 60 illik yubileyi ilə əlaqədar Kil və Strasburqda keçirilən Zirvə toplantısında iştirak edən Alyans üzvlərinin sayı 28-ə çatmışdır.

PARP (Planing and Review Process) – Proseslərin Planlaşdırılması və Analizi Proqramı SNT çərçivəsində əməkdaşlığın ikinci səviyyəsi olaraq əməkdaşlığın gücləndirilməsi xarakterini daşıyır. PARP ideyası ilk dəfə 1994-cü il dekabr 4-də NATO-nun 15 tərəfdaş ölkəsinə münasibətdə üzə çıxıb. Sənədin rəsmi təqdimatı isə 1995-ci ilin yazına təsadüf etmişdir. Azərbaycanın 1997-ci ildə qoşulduğu bu proqramda iştirakında əsas məqsəd NATO qüvvələri ilə

[188] NATO Transformed. Public Diplomacy Division. 1110 Brussels, Belgium, 2005. s.16.

hərbi əməkdaşlığa nail olmaq və çoxmillətli tədris, təlim və sülhməramlı əməliyyatlar üçün hazırlıqlı qüvvələrin formalaşdırılmasından ibarətdir.[189]

1997-ci ilin ortalarında Azərbaycan NATO-nun Planlaşdırma və Analiz Prosesi (PARP) sənədinə qoşuldu[190]. Bu, tərəfdaş dövlətlərlə NATO arasında əməkdaşlığın səmərəsini artırmaq məqsədi ilə bir sıra praktiki tədbirlərin birgə həyata keçirilməsini nəzərdə tutur. Elə həmin il Azərbaycan NATO-nun Brüsseldəki mənzil – qərargahında öz diplomatik nümayəndəliyini təsis etdi. Bu isə əməkdaşlıq əlaqələrinə daha yeni təkan verdi. Hazırda orada Azərbaycan Silahlı Qüvvələrini iki zabit təmsil edir.

1997-ci il iyulun 8-də dövlət başçısı Heydər Əliyev Avroatlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Madriddə keçirilən zirvə görüşündə çıxış edərək bölgədə silahlı münaqişələrin aradan qaldırılmasında Azərbaycanın NATO-nun və Avroatlantika Əməkdaşlıq Şurasının fəal roluna ümid bəslədiyini bildirdi.

Şimali Atlantika Alyansı ilə əməkdaşlığın inkişafı sahəsində növbəti addım 1997-ci il noyabrın 14-də Prezident Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" Sərəncamı oldu[191]. Sərəncama əsasən

[189] Babayev Z. Azərbaycan-NATO münasibətlərinin beynəlxalq hüquqi nizamlanması. "Dirçəliş-XXI əsr". 2008, №126-127, s.232-242.
[190] Sümərinli C. İrəliyə, NATO-ya doğru. Bakı, 2007. s.31.
[191] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005. s.520



Azərbaycan Respublikası Prezidenti yanında NATO ilə əməkdaşlıq üzrə dövlət komissiyası yaradıldı. Dövlət komissiyası "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlığın vahid proqramının hazırlanması ilə əlaqədar müvafiq nazirlik və təşkilatların fəaliyyətinin koordinasiya edilməsi sahəsində ardıcıl iş aparır.

OCC (Operational Capabilities Concept) – Əməliyyat İmkanları Konsepsiyası – Alyansın çevik əməliyyat qüvvələrinin yaradılmasında və inkişafında tərəfdaş dövlətlərin iştirakını nəzərdə tutur. Azərbaycan bu sənədə 2004-cü ildə qoşulmuşdur. Adı çəkilən sənədə istinadən Azərbaycan Alyansın çevik əməliyyat qüvvələrinin tərkibində iştirak etmək və bununla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin tərkibində bu tip bölmələrin yaradılması şansı qazanmışdır.[192]

PAP-DİB (Partnership Action Plan on Defence Institution Building) Müdafiə Təsisatlarının Qurulması üzrə Tərəfdaşlığın Əməliyyat Planının təqdimatı NATO-nun 2004-cü il İstanbul sammitində keçirilmişdir. PAP-DİB Planı SNT-ə qoşulmuş ölkələrdə üç istiqamət üzrə həyata keçirilməli olan 10 islahatı özündə əks etdirir. Azərbaycan tərəfi hazırda bu plan üzərində ətraflı iş aparır [193].

PSE (Partnership for Peace Staff Element) – Sülh Naminə Tərəfdaşlığın Qərargah Elementi sənədi SNT Proqramı ilə eyni ildə yaradılıb və özündə sabitliyin möhkəm-

[192] Sümərinli C. İrəliyə, NATO-ya doğru! Bakı, 2007, s. 41.
[193] Yenə orada, s. 42.

ləndirilməsi və münaqişə riskinin azaldılması məqsədini əks etdirir. Hazırda bu sənədə 30-a yaxın ölkə qoşulmuşdur ki, bu da həmin ölkələrin tərəfdaşlıq proqramları üzrə inteqrasiyanın sürətləndirilməsi və tərəfdaş ölkələrin zabitlərinin NATO zabitləri ilə eyni qərargahlarda birgə fəaliyyətləri üçün geniş imkanlar açmışdır. Azərbaycan 2002-ci ildən 8 zabiti Tərəfdaşlığın Qərargah Elementinin strukturlarında vəzifələrə təyin etmişdir. 2007-ci ildə isə daha 4 Azərbaycan zabiti müxtəlif NATO qərargahlarında vəzifə daşıyır.

PAP-T (Partnership Action Plan against Terrorism) – Terrorizm Əleyhinə Tərəfdaşlıq Fəaliyyət Planı terrorçuluqla mübarizənin əsaslarını müəyyən edir. Plan 2001-ci il 11 sentyabr tarixində ABŞ-da baş vermiş hadisədən dərhal sonra qəbul edilmişdir. Proqramda nəzərdə tutulan istiqamətlərlə bağlı yekun məqamlar isə Alyansın 2002-ci ildə keçirilmiş İstanbul sammitində qəbul olunmuşdur. Azərbaycan tərəfinin bu planla bağlı nəzərdə tutduğu əsas tədbirləri isə əsasən, Milli Təhlükəsizlik Nazirliyi və Dövlət Sərhəd Xidməti yerinə yetirir[194].

Azərbaycan Terrorizmə qarşı Tərəfdaşlıq Fəaliyyət Planının (PAP-T) məqsədlərinin yerinə yetirilməsinə töhfə məqsədi ilə NATO ilə əməkdaşlıq edir və AATŞ çərçivəsində müvafiq tədbirlərdə iştirak edərək öz fəallığı ilə seçilir. Milli qabiliyyətlərin inkişaf etdirilməsi üçün ekspertiza yardımının əldə edilməsi, məlumat mübadiləsi və AATŞ

[194] Babayev Z. Azərbaycan-NATO münasibətlərinin beynəlxalq hüquqi nizamlanması. "Dirçəliş-XXI əsr". 2008, №126-127, s.232-242.



çərçivəsində siyasi müzakirələrə töhfə terrorizmlə mübarizə sahəsində qarşılıqlı təmasların əsas məsələləridir. Enerji infrastrukturlarının mühafizəsi üzrə qeyri-formal PAP-T İşçi Qrupuna sədrliyi ilə Azərbaycan PAP-T-nin canlandırılmasına töhfə verməkdə davam edir[195].

Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasına görə, "NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək" Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur[196].

1998-ci ilin ikinci yarısından etibarən Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissələri "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO ilə birgə keçirən hərbi təlimlərdə iştirak etməyə başladı. 1998-ci ilin sentyabrında NATO-nun baş katibi X.Solana Azərbaycana ikinci dəfə səfərə gəldi[197]. Səfər zamanı NATO-nun Avroatlantik və regional təhlükəsizliyə dair mövqeyi Azərbaycan tərəfinə açıqlandı və qarşılıqlı əlaqələrin inkişafına dair müzakirələr aparıldı.

[195] Azərbaycan-NATO 15 illik tərəfdaşlıq. Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi. 2009. s. 53

[196] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2198 saylı fərmanı ilə 23 may 2007-ci ildə təsdiq edilmişdir. – "Azərbaycan" qəz., 4 avqust 2007-ci il.

[197] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005. s.521.

Şimali Atlantika Bloku ilə əməkdaşlığı dərinləşdirmək xətti götürmüş Azərbaycana 1999-cu ilin mayın 27-31-də NATO Parlament Assambleyasının Polşada keçirilən sessiyasında həmin qurumda müşahidəçi statusu verildi. 1999-cu ilin iyulun 28-də Bakıda Türkiyə hökuməti ilə Azərbaycan hökuməti arasında "Kosovo türk taburu tərkibində Azərbaycan tağımının fəaliyyətinə dair saziş" imzalandı. 1999-cu ilin sentyabrından etibarən Azərbaycan öz sülhməramlı tağımını ilk dəfə olaraq həmin regiona ezam etdi[198].

1999-cu il dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlıq üzrə Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzaladı.[199]

Komissiyanın əsas funksiyası Azərbaycan Respublikasının NATO ilə siyasi və hərbi əməkdaşlığını keyfiyyətcə yeni səviyyəyə qaldırmaqdan, habelə Avroatlantik Tərəfdaşlıq Şurasının və NATO-nun genişləndirilmiş "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində əməkdaşlıq üçün yaradılmış yeni mexanizmlər və imkanlardan fəal istifadə etməkdən və NATO ilə əməkdaşlığın möhkəmləndirilməsi çərçivəsində qəbul olunmuş qərarların, tədbirlərin və təkliflərin səmərəli və operativ həllindən ibarətdir[200].

---

198 Sümərinli C. İrəliyə, NATO-ya doğru. Bakı, 2007. s.31.

199 Əliyeva A. NATO-da hərbi siyasi islahatlar və Azərbaycan Respublikası. Bakı, 2012. s.178.

200 "Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlıq üzrə Komissiyası haqqında" Əsasnamə, 1999, maddə 2. – http://e-qanun.az/



NATO qüvvələri ilə uzlaşmanın yaradılması PAP (Planlaşdırma və Analiz Prosesi) mexanizminə əsaslanır. 1997-ci ildən 2 illik sikllər əsasında PAP əməliyyat hazırlığı naminə Azərbaycanı NATO-nun Müdafiə planlamasına cəlb edir. Azərbaycan xaricdə sülhməramlı məqsədlər üçün açıla bilən xüsusi bölmələr hazırlamışdır. 2008-ci ildə bu bölmələr eyni vaxtda üç sülhməramlı əməliyyata cəlb edilmişdir: KFOR (Kosovo Qüvvələri), ISAF (Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri) və Çoxmillətli Qüvvələr (İraq).

2001-ci ilin yanvarında NATO-nun baş katibi Corc Robertsonun Bakıya səfəri Alyansın Azərbaycana artan marağının təzahürü kimi qiymətləndirilməlidir. Baş katibin Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşündə Ermənistanın ölkəmizə təcavüzü, NATO ilə əlaqələrin inkişaf perspektivləri və s. məsələlər müzakirə edildi.

2002-ci ilin noyabrında NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev Cənubi Qafqaz regionunda davam edən münaqişələrin aradan qaldırılmasında NATO-nu daha fəal olmağa çağırdı[201]. 2002-ci il noyabrın 18-də Azərbaycan Əfqanıstana sülhməramlı tağımının göndərilməsi ilə bağlı qərar qəbul edərək oraya 33 nəfərlik şəxsi heyət göndərildi.

Azərbaycanda demokratik islahatlar həyata keçirildiyinə görə, onun NATO-nun strateji proqramlarına qoşulması

---

201 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005. s.522.

təbii hesab olunmalıdır. Çünki Azərbaycanın dövlətçilik maraqları və demokratiyanın inkişafı ilk növbədə yeni texnologiyaların mənimsənilməsi, vətəndaş cəmiyyətinin əsaslarının möhkəmləndirilməsi, bazar iqtisadiyyatı mexanizmlərinin yaradılması işində NATO-nun və NATO üzvü olan ayrı-ayrı dövlətlərin köməyinə ehtiyac yaradır[202].

2003-cü ildə Azərbaycan NATO-nun çevik əməliyyat qüvvələrinin yaradılması və inkişafına dair proqram konsepsiyasına qoşuldu. Milli Məclis 2003-cü il mayın 7-də keçirilmiş iclasında "Azərbaycan Respublikası Silahlı Qüvvələri bölüyünün beynəlxalq koalisiya tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etməsi haqqında" qərar qəbul etdi və oraya 150 nəfərdən ibarət şəxsi heyət göndərildi[203].

Beləliklə, Azərbaycan İraqdakı Çoxmillətli Qüvvələrin tərkibində iştirak etmiş və 2003-cü ildən 2008-ci ilin dekabrınadək ABŞ Quru Qoşunları tərkibində, İraqın Qərbindəki əl-Hədithə su səddini bir bölük ilə mühafizə etmişdir. Azərbaycan qüvvələri orada ərazinin təhlükəsizliyi, eskort vəzifələri və digər təhlükəsizlik funksiyalarını yerinə yetirirdilər. Eyni zamanda bir zabitimiz Bağdad şəhərində yerləşən Çoxmillətli Birləşmiş Qüvvələrin Qərargahında xidmət etmişdir[204].

---

202 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.526.

203 Sümərinli C. İrəliyə, NATO-ya doğru. Bakı, 2007. s.13.

204 Azərbaycan-NATO 15 illik tərəfdaşlıq. Azərbaycan Respublikasının NATO yanında Nımayəndəliyi. 2009. s.39-43.



Azərbaycan NATO-nun nüfuzlu qurumu hesab olunan Parlament Assambleyası ilə əməkdaşlığı dərinləşdirmək siyasətini davam etdirmişdir. Bunun nəticəsi olaraq, 2002-ci il noyabrın 19-da Azərbaycan Respublikası NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul edildi[205]. Bununla da respublikamız öz problemlərini və digər aktual məsələlərini dünya ictimaiyyətinə çatdırmaq üçün yeni beynəlxalq tribuna əldə etdi.

Qeyd etmək lazımdır ki, NATO ilə münasibətlər məsələsində Qafqaz dövlətlərinin mövqeləri fərqlidir. Azərbaycan və Gürcüstan NATO ilə əməkdaşlıq proqramlarında fəal iştirak etdikləri halda, Ermənistan bu əlaqələrə xüsusi maraq göstərmir, Rusiya ilə hərbi əməkdaşlığa üstünlük verir, alyansın Şərqə doğru genişlənməsinin əleyhinə çıxış edir[206].

Lakin bu reallıqlara baxmayaraq, Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması və "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"nı imzalaması nəticəsində NATO ölkələri ilə siyasi, hərbi, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanlar açılmışdır. Bir tərəfdaş olaraq, Azərbaycan Şimali Atlantika İttifaqının əsas məqsədinə – bütün Avratlantika zonasında sülhün və sabitliyin möhkəmləndirilməsinə öz sadiqliyini nümayiş etdirir. Azərbaycanın NATO ilə əməkdaşlıqdan son məqsədi bilavasitə alyansın fəal iştirakı ilə yaradılacaq hər hansı

---

205 Sümərinli C. İrəliyə, NATO-ya doğru. Bakı, 2007. s.13.

206 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.525.

etibarlı təhlükəsizlik sistemində özünə yer tapmaqdan ibarətdir[207].

2004-cü il mayın 19-da Prezident İlham Əliyevin Brüsseldə NATO-nun baş katibi Yaap de Hoop Sxefferlə görüşü zamanı Azərbaycanın hazırladığı Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planının (FTFP/İPAP – İndividual Partnership Action Plan) təqdimat sənədini ona təqdim edərək bildirdi ki, bu plan Azərbaycanla NATO arasında əməkdaşlığın daha da yaxınlaşmasına kömək edəcək[208]. Bundan sonra respublikamızın Şimali Atlantika Alyansı ilə əməkdaşlığı bu plan əsasında davam etdiriləcək. Azərbaycanın Silahlı Qüvvələrinin təkmilləşdirilməsi, NATO standartlarının tətbiqi, təminat və təchizat sisteminin, maddi-texniki bazanın yeniləşdirilməsi və başqa sahələrdə əsaslı islahatlar həyata keçiriləcək. Bu isə Azərbaycan-NATO əməkdaşlığında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. "Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı"nın yerinə yetirilməsi Azərbaycanın NATO-ya qəbul edilməsində mühüm rol oynayacaq. Həmin il noyabrın 4-də isə NATO Baş Katibi Yaap de Hoop Sxefferin Azərbaycana səfəri əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində atılan növbəti addım oldu.

İPAP dövlətlərin islahat ehtiyacların qaldırmaq məqsədilə yaradılan yeni ikitərəfli mexanizmdir. İttifaq müdafiə, siyasət və qurum islahatları sahəsində mühüm islahatlar

[207] Yenə orada.
[208] "Azərbaycan", 21 may 2004-cü il.



keçirmək istəyən tərəfdaş dövlətlərə öz məsləhət və yardımını təklif edir.

Azərbaycanın NATO ilə İPAP sənədi əsas etibarilə 4 sahədə (siyasi məsələlər və ümumi təhlükəsizlik problemləri, hərbi, təhlükəsizlik və müdafiə sahəsindəki problemlər, ekologiya, elm problemləri və ictimai məsələlər, informasiya mübadiləsi və inzibati məsələlər) olan problemləri əhatə edir.

İPAP "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlığın üçüncü səviyyəsi hesab edilir. Bununla yanaşı İPAP NATO-nun 2002-ci ilin noyabrında Praqada keçirilən sammitində tərəfdaş dövlətlər üçün açıq elan edilmişdir. Sənədi ilk olaraq 2004-cü ilin oktyabrın 29-da Gürcüstan imzalamışdır[209]. İPAP tərəfdaş dövlətlərin təhlükəsizlik sektorunun inteqrasiya istiqamətində konkret tədbirləri əks etdirir. Plan, eyni zamanda NATO-nun müttəfiq dövlətlərinin tərəfdaş ölkələrə yardım edə biləcəyi sahələri, təlim və tədris imkanlarının artırılması yollarını müəyyənləşdirir.

İPAP-da NATO-ya üzv olmağa çalışan və alyansla əməkdaşlıq edən dövlətlərin silahlı qüvvələrində həyata keçiriləcək islahatların mahiyyəti, bu istiqamətdə lazımi əlaqələrin və planlaşdırmanın hazırlanması və bütün bunlar üçün ən optimal büdcə variantının seçilməsi öz əksini tapır.

Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması və "Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı"nı imzalaması nəticəsində NATO ölkələri ilə siyasi, hərbi,

[209] Sümərinli C. İrəliyə, NATO-ya doğru. Bakı, 2007. s.37

mədəni, humanitar əlaqələrinin inkişaf etdirilməsi üçün geniş imkanlar açılmışdır. Bir tərəfdaş olaraq, Azərbaycan Şimali Atlantika İttifaqının əsas məqsədinə-bütün Avroatlantika zonasında sülhün və sabitliyin möhkəmləndirilməsinə öz sadiqliyini nümayiş etdirir.

Bu məqsədlərə nail olmaq üçün həmçinin qeyri-hökumət təşkilatlarının imkanlarından və potensialından da geniş istifadə olunmalıdır. Həmkarlar təşkilatları, ekologiya, səhiyyə təşkilatları, elmi-mədəni və xeyriyyə cəmiyyətləri bu işdə mühüm rol oynaya bilər[210].

NATO ilə yaradılmış hüquqi münasibətlər bu beynəlxalq təşkilata daxil olan ölkələrdə gələcəkdə Azərbaycan ordusu üçün zabit kadrlarının hazırlanmasına, NATO İttifaqının keçirdiyi sülhməramlı tədbirlərdə və hərbi manevrlərdə ordu hissələrimizin iştirakına, milli ordu quruculuğunda blokun imkanlarından istifadə edilməsinə əsas verir.

2005-ci il aprelin 28-də Brüsseldə "NATO + Azərbaycan" formatında keçirilən görüş zamanı tərəflər Azərbaycanın NATO ilə FTFP planının müddəalarını müzakirə edərək təsdiqlədilər. 2005-ci il noyabrın 2-də Latviyanın paytaxtı Riqada Cənubi Qafqaz dövlətlərini dəstəkləyən ölkələrinin əməkdaşlığının əlaqələndirilməsi üzrə konfrans (South Caucasus Clearing House Conference) keçirilmişdir. Konfrans iştirakçıları FTFP planının yerinə yetirilməsi üzrə

[210] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.526



Azərbaycana yardımların göstərilməsi ilə bağlı razılaşma əldə etdilər[211].

2005-ci il noyabrın 18-19-da NATO baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun yenidən Azərbaycana səfəri zamanı İPAP-ın yerinə yetirilməsi baxımından 6 aylıq müddətə qiymət verilərək məqbul hesab edilmişdir. Qeyd edək ki, qiymətləndirmə hər 6 aydan bir keçirilir. 2007-ci ilin mart ayında Azərbaycanda səfərdə olan R.Simmons FTFP -ın birinci mərhələsinin başa çatdığını və yaxınlarda yeni FTFP -ın imzalanacağını bəyan etdi[212].

Bu səfərlər Azərbaycanın NATO ilə FTFP çərçivəsində əməkdaşlığın intensivləşməsinin məntiqi nəticəsidir. Azərbaycan ümumiyyətlə, Avroatlantik qurumlarla tərəfdaşlığın inkişaf etdirilməsinə çox ciddi və praktik şəkildə yanaşdığından ikitərəfli əməkdaşlıq və birgə fəaliyyətin inkişaf etdirilməsi ölkəmiz, eyni zamanda bütövlükdə region üçün çox böyük əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan istər "Sülh naminə tərəfdaşlıq" proqramı, istərsə də FTFP çərçivəsində bu əməkdaşlığı uğurla inkişaf etdirir. Bu fəaliyyət FTFP çərçivəsində əks olunan qiymətə uyğundur. Çünki FTFP-da qeyd olunur ki, Azərbaycanın NATO ilə tərəfdaşlıq və əməkdaşlıq əlaqələri möhkəm xarakter daşıyır.

Azərbaycanla NATO arasında əməkdaşlıq təkcə "Sülh naminə tərəfdaşlıq" proqramı və FTFP-dan ibarət deyil.

[211] Sümərinli C. İrəliyə, NATO-ya doğru. Bakı, 2007. s.38.
[212] Yenə orada.

NATO ilə Fərdi Tərəfdaşlıq Planı (FTP/İPP) çərçivəsində hər il Azərbaycan SQ-nin 1000-dək nümayəndəsi NATO-nun 300-dək tədbirində iştirak edir. Həmçinin Azərbaycanda hər il NATO-nun Brüsseldəki mənzil-qərargahında, Monsdakı (Belçika) tərəfdaşlığın koordinasiya qrupunda, Neapoldakı (İtaliya) regional və Norfolkdakı (ABŞ) strateji komandanlıqda da xidmət edirlər. Bundan başqa, Azərbaycan Müdafiə Təsisatlarının Qurulması üzrə Tərəfdaşlığın Əməliyyat Planı (PAP DİB) proqramı çərçivəsində də NATO ilə əməkdaşlıq edir[213].

2010-cu ildə NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planının 2-ci mərhələsi rəsmi olaraq başa çatdırılmış və bu çərçivədə nəzərdə tutulan tədbirlər Azərbaycanın müvafiq dövlət qurumları tərəfindən uğurla yerinə yetirilmişdir[214].

Bununla yanaşı, NATO-nun mənzil-qərargahında enerji təhlükəsizliyi üzrə "28+1" (NATO üzv ölkələri və Azərbaycan) formatında iclas keçirilmişdir. NATO ilə FTFP-in III mərhələsinin başlanılması istiqamətində aparılan müzakirələrin nəticəsi olaraq, 2011-ci il dekabrın 20-də FTFP-in III mərhələ sənədi qəbul olunmuşdur[215]. Sənəd siyasi və təhlükəsizlik, müdafiə və hərbi, ictimai məlumatlandırma, mülki fövqəladə planlaşdırma, məlu-

[213] "Ayna", 29 aprel 2006-cı il.
[214] Azərbaycan Respublikası Xarici İşlər nazirliyinin 2010-cu il üçün yekun mətbuat buraxılışı. – www.mfa.gov.az
[215] Azərbaycan Respublikası Xarici İşlər nazirliyinin 2010-2011-ci illər üçün yekun mətbuat buraxılışları. – www.mfa.gov.az



matların təhlükəsizliyi, elm və ətraf mühit, inzibati, resurslar və hüquqi məsələləri əhatə edən dörd bölmədən ibarətdir[216].

Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması bütövlükdə Cənubi Qafqazda qüvvələr balansında yeni keyfiyyət dəyişikliyi yaratdı. Hərbi quruculuq işlərinin gedişində 1997-ci ildən etibarən Azərbaycan NATO standartları və proseduralarına uyğun olaraq müdafiə və qüvvə planlaşdırması üçün bazanın yaradılmasına başlanmış, müttəfiq qüvvələrlə birlikdə çoxmillətli məşq, təlim və əməliyyatlara qatılaraq öz sülhməramlı qüvvələrini yaratmışdır. Təhlükəsizlik şəraitinin təkamülü və yeni təhdidlərin ortaya çıxması milli müdafiə sistemi çərçivəsində yeni yanaşmanı və vasitələrin yaradılmasını tələb edirdi.

Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası bəyan edir ki, "NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək" Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur[217].

Milli Təhlükəsizlik Konsepsiyası əsasında Azərbaycanın Hərbi Doktrinası və Dəniz Təhlükəsizliyi Strategiyası

[216] http://azertag.com/newsarchive?mod=1&date=2011-12-30&id==901321&partition=0
[217] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2198 saylı fərmanı ilə 23 may 2007-ci ildə təsdiq edilmişdir. – "Azərbaycan" qəz., 4 avqust 2007-ci il.

hazırlanmışdır. 2007-ci ilin avqustunda milli və hərbi təhlükəsizlik haqqında qanunların qəbulu 2011-2015-ci illər üçün müdafiə planlarının təfərrüatları və prioritetlərinin hazırlanmasına və həyata keçirilməyə başlanmasına imkan vermişdir.

Azərbaycan Respublikası Avropa və Avroatlantik məkanında qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir və təhlükəsizliyin bölünməzliyi prinsipinə zidd coğrafi və siyasi ayrı-seçkilik olmadan Avropada və yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir[218].

Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasına görə, "NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək" Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur[219].

Dövlət başçısı İlham Əliyevin Belçika Krallığına növbəti səfəri Azərbaycan-NATO münasibətlərinin yeni mərhələsi kimi qiymətləndirilməlidir. Belə ki, 2006-cı il noyabrın 8-də Brüsseldə-NATO-nun qərargahında bu hərbi-siyasi qurumun baş katibi Yaap de Hoop Sxeffer ilə görüşən Azərbaycan Prezidenti İlham Əliyev adı çəkilən beynəlxalq

[218] Yenə orada.
[219] Yenə orada.



təşkilatla əməkdaşlığın uğurla inkişaf etdiyini söyləyərək "Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət planı" çərçivəsində həyata keçirilən tədbirlərin bunun yaxşı nümunəsi olduğunu qeyd etdi və bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi[220].

NATO ilə əməkdaşlığın genişləndirilməsi baxımından Prezident İlham Əliyevin Brüsselə çox böyük əhəmiyyət kəsb edən səfəri zamanı keçirdiyi görüşlər, aparılan danışıqlar Azərbaycanın bu beynəlxalq təşkilatlara inteqrasiyasına yeni təkan verəcəkdir. Bununla yanaşı, dövlət başçısı İlham Əliyevin Belçika Krallığına son səfəri bir daha sübut etdi ki, Avroatlantik strukturlara, xüsusilə NATO-ya inteqrasiya Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir.

NATO ilə Azərbaycan arasında əməkdaşlığın digər əsas məqsədi sülhməramlı və böhranların idarə olunması əməliyyatlarında ölkənin silahlı qüvvələrinin NATO ölkələrinin silahlı qüvvələri ilə birgə fəaliyyət imkanlarının gücləndirilməsindən ibarətdir. "Sülh naminə tərəfdaşlıq" proqramına uyğun olaraq təlim və məşğələlərində mütəmadi iştirakı nəticəsində Azərbaycan NATO-nun rəhbərliyi altında aparılan sülhməramlı əməliyyatlara qoşularaq Avroatlantik təhlükəsizliyinin təmin olunmasına fəal töhfə vermişdir. Azərbaycanın silahlı qüvvələri 1999-cu ildən 2008-ci ilədək Kosovoda, 2002-ci ildən isə Əfqanıstanda, eləcə də İraqda həyata keçirilən sülhməramlı əməliyyatları dəstəklə-

[220] "Azərbaycan", 12 noyabr 2006-cı il.

yir. Azərbaycan Prezidenti İlham Əliyevin NATO-nun Baş Katibi Yaap de Hoop Sxefferlə birgə mətbuat konfransındakı bəyanatında qeyd etdiyi kimi, "Bu, bizim gənc, lakin NATO-nun əsil və etibarlı tərəfdaşı olmaq üçün öz potensialını artıran ölkəmiz üçün çox vacibdir"[221].

Hazırda NATO-nun bəyan etdiyi yeni beynəlxalq təhlükəsizlik strategiyası, həmin strategiyanın müəyyən etdiyi gələcək vəzifələr və fəaliyyət istiqamətləri də dünya mütəxəssislərində fərqli fikirlər yaratmışdır. Onların bir qismi hesab edir ki, NATO gələcəkdə əsas diqqətini öz təyinatına müvafiq olaraq üzv ölkələrin və tərəfdaşların hərbi təhlükəsizlik məsələlərinə yönəltməli, Şərqə doğru genişlənməli və dünyanın əsas təhlükəsizlik strukturuna çevrilməlidir. İkinci qrup hesab edir ki, NATO təkcə üzv ölkələrin hərbi təhlükəsizliyi ilə kifayətlənməməli, həm də planeti təhdid edən digər beynəlxalq və regional təhlükələrlə mübarizə aparmalı, insanların təhlükələrdən xilas edilməsi prosesində aparıcı rol oynamalıdır. Bu sahədə NATO-nun missiyasına onlar kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasını, regional və yerli münaqişələrin dayandırılmasını, beynəlxalq terrorizmə, narkotik və nəzarətsiz silah alverinə qarşı mübarizə aparılmasını və s. aid edirlər. Üçüncü qrupun fikrincə, NATO bundan sonra əsas diqqətini Avropa Birliyinin enerji təhlükəsizliyinin təminatına, dünyada enerji dəhlizləri və strateji kəmərlərin təhlükəsizliyinin təmin olunmasına və digər geoiqtisadi təhlükəsizlik məsələlərinə yönəltməlidir[222].

2006-cı il noyabrın 28-29-da 26 ölkənin dövlət və hökumət başçılarının iştirakı ilə NATO-nun Riqada keçirilən Zirvə toplantısının yekunu olaraq qəbul olunmuş 46 bənddən ibarət kommunikenin 43-cü bəndində alyans üzvü olan ölkələrin Cənubi Qafqazdakı münaqişələrin hələ də həll edilməməsindən narahatlığı əks olunmuşdu[223]. NATO-nun Zirvə toplantısının yekun bəyannaməsində Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin dəstəklənməsi ölkəmizin regionda və beynəlxalq aləmdə qazandığı uğurların nəticəsi kimi qiymətləndirmək olar. Bununla yanaşı, Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən bu bəyannamənin qəbul olunması, həm də alyansın Cənubi Qafqaz regionuna marağının artmasını göstərir. Hazırda Azərbaycanın Şimali Atlantika İttifaqı ilə "Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət planı" çərçivəsində əməkdaşlıq etməsi və alyansın üzv olan dövlətlərin ölkəmizə xüsusi diqqət verməsi buna bariz sübutdur. Məhz qarşılıqlı əməkdaşlığın inkişafı nəticəsində NATO regionda sülhün və sabitliyin bərpasına çalışır.

NATO-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi müstəqil dövlətimizin beynəlxalq aləmdəki mövqelərinin daha da möhkəmləndirilməsinə zəmin yaradır. Bu baxımdan

---

221 Azərbaycan-NATO:Tərəfdaşlıqdan başlanan yol (1994-2009), Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, Bakı, 2009, s.82

222 Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, s.242-243.

223 E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, s.906; "Xalq qəzeti", 1 dekabr 2006-cı il.

NATO-nun Buxarest sammiti bizim üçün xüsusi əhəmiyyət daşımışdır. Belə ki, 2008-ci il aprelin 2-4-də NATO-nun Buxarestdə keçirilən zirvə toplantısında regional münaqişələr xüsusi müzakirə obyekti oldu. Zirvə toplantısının Yekun Bəyannaməsinin 43-cü maddəsində ərazisində "dondurulmuş münaqişələr" olan dörd postsovet respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün dəstəklənməsi və bu münaqişələrin həmin prinsiplər əsasında həll edilməsinin tövsiyə olunması bu gün Azərbaycan üçün olduqca mühüm əhəmiyyət kəsb edir[224].

Bundan əlavə, NATO-nun 60 illiyi ilə əlaqədar 2009-cu il aprelin 3-4-də Kil və Strasburqda keçirilmiş sonuncu Zirvə toplantısında qəbul edilmiş Bəyannamənin münaqişələrlə bağlı 58-ci bəndində təşkilatın Cənubi Qafqaz və Moldova ərazilərindəki münaqişələrin mövcudluğundan ciddi narahatlıq keçirdiyi bildirilməklə yanaşı, Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi də öz əksini tapdı[225].

Azərbaycanın ərazi bütövlüyü məsələsi NATO-nun digər toplantılarının sənədlərində də öz əksini tapmışdır. Belə ki, 2009-cu ildə Strasburq-Kel sammitinin Yekun Bəyannaməsinin 58-ci maddəsində, 2010-cu ilin 19-20 noyabr

[224] E.Əhmədov. Azərbaycanın Avroatlantik strukturlara inteqrasiyası NATO ilə əməkdaşlıq konteksində. – "Dövlət İdarəçiliyi": nəzəriyyə və təcrübə. Elmi-nəzəri və praktiki jurnal. 2009, №1 (25), s.156-165; "Xalq qəzeti", 10 aprel 2008-ci il.

[225] Lisbon Summit Declaration of NATO. Lisbon, 2010; E.Əhmədov. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, s. 908; "Xalq qəzeti", 7 aprel 2009-cu il.



tarixlərində Lissabonda keçirilmiş NATO-nun Zirvə görüşünün yekun Bəyannaməsinin 35-ci bəndində qeyd olunmuşdur ki, Cənubi Qafqazda və Moldova Respublikasında uzadılmış regional münaqişələrin indiyədək davam etməsi alyans üçün narahatlıq doğuran məsələ olaraq qalır[226].

NATO-nun 2012-ci il Çikaqo sammitinin yekun bəyannaməsinin 47-ci maddəsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənir. Həmin maddədə qeyd edilir: "Biz regional sabitliyi poza biləcək addımlardan qaçmağa çağırırıq. Azərbaycan, Gürcüstan, Ermənistan və Moldovanın ərazi bütövlüyünü, suverenliyini, həmçinin mövcud münaqişələrin beynəlxalq hüquq norma və prinsipləri əsasında, BMT Nizamnaməsi, Helsinki yekun aktı çərçivəsində həllinə dair dinc səyləri dəstəkləyirik"[227].

Müstəqilliyinə qovuşduğu andan indiyə qədər millətçilik zəminində daxili münaqişələrə cəlb olunan əksər ölkələr – Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova və başqaları bu və ya digər yolla Şimali Atlantika blokunu hansısa formada həmin münaqişələrin həllinə cəlb etmək, onun köməkliyi ilə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə, beynəlxalq hüquq normalarının bərpasına nail olmaq istiqamətində daim fəaliyyət göstərmişlər.

Lakin məlum olduğu kimi, NATO bütün bu münaqişələrdə "bitərəf" mövqe tutaraq, onların daha çox BMT,

[226] Əliyeva A. NATO-da hərbi siyasi islahatlar və Azərbaycan Respublikası. Bakı, 2012. s.159.

[227] Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, 2013. s. 215

ATƏT çərçivəsində danışıqlar və dialoq yolu ilə həllinə üstünlük verdiyini bəyan etmişdir. Bir faktı da qeyd etmək lazımdır ki, Alyans ABŞ-ın iradəsi ilə və öz maraqlarına uyğun olanda dünyanın digər regionlarında, o cümlədən, Yaxın və Orta Şərqdə, Balkanlarda, Cənubi Asiyada və s. yerlərdə münaqişələrin aradan qaldırılması, "günahkarların cəzalandırılması" və "sülhyaratma" proseslərində dəfələrlə iştirak etmişdir.

Bu da onu göstərir ki, NATO hazırda dünyada yalnız ABŞ və Alyans üzvlərinin maraqları çərçivəsində bu və ya digər münaqişələrə müdaxilə edir və sülhyaratma proseslərinə qoşulur. Cənubi Qafqaz münaqişələrinə gəldikdə isə, NATO rəsmiləri dəfələrlə bu və ya digər müraciətlərə cavab olaraq "bu məsələ NATO-nun səlahiyyətlərinə daxil deyil" – deyərək boyun qaçırmışlar[228].

Azərbaycan 1994-cü ildən NATO-nun müxtəlif proqramları çərçivəsində Alyansla və onun ayrı-ayrı üzvləri ilə əməkdaşlıq edir, öz milli ordusunun modernləşdirilməsi və dünya standartlarına çatdırılması işini həyata keçirir. Lakin bütün bunlarla yanaşı, Azərbaycan NATO-nun ayrı-ayrı illərdə Cənubi Qafqazda həyata keçirdiyi "genişlənmə", "möhkəmlənmə" və Rusiyanın təqdir etmədiyi digər siyasi addımlarına, fərqli istək və tələblərinə bir qədər ehtiyatla yanaşaraq, bu sahədə Gürcüstan və Ukraynadan ciddi şəkildə fərqlənmişdir. Məsələn, NATO istəyirdi ki, Cənubi

[228] Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, s.241-242.



Qafqaz ölkələrinin hər üçü və Ukrayna özlərinin milli və hərbi təhlükəsizlik doktrinalarını qəbul edərək, ordu və müdafiə sənayesini, milli müdafiə siyasətini NATO-nun tələblərinə uyğunlaşdırsın və bu quruma hərbi inteqrasiyanı öz rəsmi strateji kursları kimi bəyan etsin. Lakin Azərbaycan o zaman Gürcüstan və Ukraynadan fərqli olaraq, "NATO-ya üzvlüyü özünün əsas hədəfi və məqsədi kimi" deyil, "ölkənin beynəlxalq və regional təhlükəsizliyini təmin etmək vasitəsi" kimi qəbul etmiş və bu qurumla tərəfdaşlıq münasibətlərinin davam etdirilməsini ona üzvlük məsələsindən daha üstün tutmuşdur[229].

Bəzi mütəxəssislərin fikrincə, Azərbaycan ötən illərdə bu quruma üzvlüyün mənfi və müsbət tərəflərini dəqiq proqnozlaşdırmadan və Alyansın ölkənin təhlükəsizliyinə gətirəcəyi müsbət və mənfi məqamları dəqiq müəyyənləşdirmədən üzvlük məsələsindən çəkinmişdir. Əslində isə Azərbaycan Gürcüstan və Ukraynanın bu quruma üzv olmaqla bağlı çalışmalarını izləyərək, bir qədər səbirli davranmış və NATO-nun yeni üzvlərlə bağlı öz daxilindəki fikir ayrılığını aradan qaldırmasını gözləmək qərarını vermişdir. 2009-cu ilin aprelində Buxarestdə Almaniya və Fransanın Gürcüstan və Ukrayna məsələsində nümayiş etdirdiyi fikir ayrılığı Azərbaycanın bu taktikasının doğru olduğunu sübut etdi və hələ də NATO-da postsovet ölkələrinin bu quruma üzvlüyü ilə bağlı vahid mövqenin olmadığını nümayiş etdirdi[230].

[229] Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, s.244.
[230] Yenə orada, s.244-245.

Azərbaycan Respublikası 2012-ci ildə Avroatlantik strukturlar ilə tərəfdaşlığını davam etdirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2012-ci il fevralın 15-də NATO mənzil-qərargahına səfər etmiş və mayın 22-də isə Çikaqoda keçirilmiş NATO-nun ISAF əməliyyatı iştirakçısı ölkələrinin sammitində iştirak etmişdir. Azərbaycan beynəlxalq terrorçuluğa qarşı mübarizə və regional təhlükəsizlik üçün böyük təhdidlərə malik Əfqanıstanda sülh və sabitliyin bərqərar olunması üçün 2012-ci ildə müxtəlif formatlarda və sahələrdə bu ölkəyə yardımlarını davam etdirmişdir. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin kontingenti NATO-nun Əfqanıstanda apardığı ISAF əməliyyatında iştirakını davam etdirmişdir. Həmçinin, Azərbaycan və Gürcüstanın təşəbbüsü ilə NATO-nun mənzil-qərargahında Bakı-Tbilisi-Qars layihəsinin inauqurasiyası ilə bağlı təqdimat keçirilmişdir. Azərbaycan Əfqanıstanın birbaşa və regional qonşuları olan dövlətlərdən ibarət olan İstanbul prosesinə qoşulmuş, Əfqanıstanda inkişaf məsələlərinə həsr olunmuş Kabul prosesi və Əfqanıstan üzrə Regional İqtisadi Əməkdaşlıq Konfransında (RECCA) iştirakını davam etdirmişdir[231].

2013-cü ildə NATO ilə əməkdaşlıq "Sülh naminə tərəfdaşlıq" proqramı, IPAP, Planlaşdırma və təhlil prosesi

[231] Azərbaycan-NATO əməkdaşlığı. - www.mfa.gov.az



çərçivəsində uğurla davam etdirilmişdir. Azərbaycan Respublikası mayın 22-23-də təhlükəsizlik çağırışları üzrə NATO-nun tərəfdaşlıq konfransına ev sahibliyi etmişdir. İl ərzində Azərbaycan Respublikası NATO-nun rəhbərliyi ilə Əfqanıstanda aparılan ISAF əməliyyatına töhfəsini davam etdirmiş və əlverişli hava və quru tranziti imkanları yaratmışdır. Azərbaycan eləcə də Əfqanıstana müxtəlif təlim proqramları, humanitar layihələr, mina təmizləmə, təhsil və kadr hazırlığı vasitəsilə yardımlar etmişdir[232].

Ümumilikdə, Azərbaycan NATO ilə əməkdaşlığı respublikamızın xarici siyasət strategiyasının bir neçə əsas amili baxımından qiymətləndirilməlidir. Birincisi, gənc Azərbaycan dövləti öz xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi əhəmiyyət verir. İkincisi, Azərbaycan beynəlxalq təşkilatların üzvü olan bütün dünya dövlətləri ilə əməkdaşlıqda maraqlıdır və çoxtərəfli diplomatiya siyasəti yeridir. Üçüncüsü, Azərbaycanın müharibə vəziyyətində olması tələb edir ki, bütün vasitə və yollarla beynəlxalq aləmdə təmasda olsun və onu müstəqillik problemlərimizin həllinə daha çox cəlb etsin. Bu üç faktor Azərbaycanın NATO proqramına qoşulmasında əsas rol oynamışdır.

[232] Azərbaycan Respublikası Xarici İşlər nazirliyinin 2013-cü il üçün yekun mətbuat buraxılışı www.mfa.gov.az

Bu gün NATO ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi, Azərbaycanın dünya birliyinə inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyindən bu sahədə fəaliyyət müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.



# FƏSİL IV. AZƏRBAYCANIN AVROPAYA İNTEQRASİYASI PROSESİNDƏ AVROPA ŞURASI İLƏ ƏMƏKDAŞLIĞI

## 4.1. Avropa Şurası və qlobal demokratikləşmə prosesləri

Avropa Şurasının yaranması Böyük Britaniyanın baş naziri olmuş Uinston Çörçilin 1942-ci ilin oktyabr ayında verdiyi bəyanat ilə əlaqələndirilir. Bəyanatda millətlər arasındakı səddləri əhəmiyyətli dərəcədə aradan qaldıran, maneəsiz hərəkət üçün imkan yaradacaq Avropa Birləşmiş Ştatlarının yaradılması və Avropa iqtisadiyyatına vahid bir tam halında baxılması göstərilirdi. II Dünya müharibəsindən sonra isə 1946-cı ildə U.Çörçil Sürixdə etdiyi bir çıxışda bu ideyanı reallaşdırmaq üçün birinci addım kimi Avropa Şurası yaratmaq fikrini irəli sürmüşdür[233].

U.Çörçil tərəfindən irəli sürülmüş bu ideyalar Avropada geniş əks-səda doğurdu və II Dünya müharibəsindən sonra qitədə federasiya cərəyanları yaranmağa başladı. 1947-ci ildə həmin cəmiyyət və təşkilatlar Avropanı birləşdirmək hərəkatını əlaqələndirmək üçün beynəlxalq komitə yaratdılar. Bu komitə 1948-ci il mayın 8-10-da Haaqada Av-

[233] Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton.1996, p. 1128.

ropanın inteqrasiya probleminə həsr olunmuş konqres çağırdı[234].

1948-ci il martın 17-də Böyük Britaniya, Fransa, Belçika, Hollandiya və Lüksemburq tərəfindən "İqtisadi, sosial, mədəni əməkdaşlıq və kollektiv özünümüdafiə haqqında" Brüssel Paktı adlanan və 50 il müddətinə imzalanmış müqavilə həmin il avqustun 25-də qüvvəyə mindi[235].

Avropa konqresinin qərarlarının təsiri altında Fransa Brüssel Paktının iştirakçısı olan ölkələrə 1948-ci ilin iyul ayında həmin Paktın Şura iclasında Avropa Assambleyası yaratmaq məqsədilə müşavirə çağırmağı təklif etdi.

1949-cu ilin yanvarında komitə əlaqələndirmə xarakterli təşkilat – hökumət və parlament orqanının olacağı nəzərdə tutulan Avropa Şurasının yaradılması qərara alındı. Təşkilatın funksiya və strukturuna dair ətraflı qərar hazırlanması üçün 1949-cu ilin mart ayında Londonda Brüssel Paktına daxil olan ölkələr, eləcə də Danimarka, İtaliya, İrlandiya, Norveç və İsveç səfirlərinin iştirakı ilə keçirilən müşavirədə Avropa Şurasının Nizamnaməsi hazırlandı. 1949-cu il may ayının 5-də adı çəkilən ölkələrin xarici işlər nazirləri Nizamnaməni imzaladılar və bu səbəbdən hər il 5 may Avropa Şurasının yaradılması günü kimi qeyd olunur[236].

---

[234] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 8.
[235] Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton.1996, p. 1128
[236] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 10.



1949-cu il avqustun 3-də qüvvəyə minən Avropa Şurasının Nizamnaməsi 10 fəsil və 42 maddədən ibarətdir.

Avropa Şurasının məqsədləri üzv dövlətlərin ideya və prinsiplərinin müdafiə və həyata keçirilməsi üçün onlar arasında sıx əlaqələr yaratmaq; Avropanın demokratik və təhlükəsiz əraziyə çevrilməsinə kömək etmək; plüralist demokratiya və insan hüquqlarının müdafiəsi; vahid mədəniyyətin formalaşması üçün Avropa özünüdərkini möhkəmləndirmək və inkişaf etdirmək; üzv dövlətlərin iqtisadi və sosial tərəqqisinə yardım etmək; XXI yüzillikdə meydana çıxa bilən problemlərin həlli yollarının axtarılması; təşkilatın fəaliyyətini demokratik və təhlükəsiz Avropa yaratmaq prosesində iştirak edən başqa institutların işi ilə sıx əlaqələndirmək və s. ibarətdir.

Hərbi məsələlər Avropa Şurasının səlahiyyətlərinə aid edilmir. Nizamnaməyə əsasən qarşıya qoyulan bu məqsədlərə çatmaq üçün təşkilat aşağıdakı vəzifələri yerinə yetirir:

- Üzv ölkələr arasında "insan fəaliyyəti"nin bütün sahələrində əməkdaşlığın genişləndirilməsi yolu ilə birliyin möhkəmləndirilməsi;
- Avropa Şurasına daxil olmayan Avropa dövlətləri ilə sosial, hüquq, mədəniyyət, təhsil, səhiyyə, "belə əməkdaşlığın qarşılıqlı arzu olunduğu" digər sahələrdə əməkdaşlıq;
- BMT və onun orqanlarının fəaliyyətində "Avropa töhvəsi"ni verməklə iştirak etmək[237].

---

[237] Устав Совета Европы. В книге: Международное публичное право / Сборник документов. М., т.1.,1996, с.322.

Avropa Şurası hüquqi statusuna görə regional beynəlxalq təşkilatdır. Belə ki, təşkilat eyni region dövlətləri tərəfindən beynəlxalq saziş əsasında yaradılmış və qurumun fəaliyyəti BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğundur.

Avropa Şurasının iki əsas orqanı – Nazirlər Komitəsi və Parlament Assambleyasıdır. Nazirlər Komitəsi Avropa Şurasının adından fəaliyyəti həyata keçirməyə səlahiyyəti olan icraedici və sərəncamverici orqandır. Avropa Şurasının üzvü olan hər bir dövlət Nazirlər Komitəsində bir nümayəndə ilə təmsil olunur. Faktiki olaraq ancaq komitənin birinci sessiyasında, yəni 1949-cu ildə bütün üzv dövlətlər xarici işlər nazirləri səviyyəsində təmsil olunmuşdular. Qalan hallarda isə, Nazirlər Komitəsində üzv dövlətlərin xarici işlər nazirləri ilə yanaşı, digər vəzifəli şəxsləri, çox vaxt isə üzv dövlətlərin Parisdə akkreditə olunmuş diplomatik nümayəndələri iştirak edirlər[238].

Avropa Şurasının ikinci mühüm orqanı Parlament Assambleyasıdır. Bu qurum özünün xarakter vəzifələrinə görə Nazirlər Komitəsindən fərqlənir. Assambleya üzv ölkələrinin Parlamenti tərəfindən seçilmiş və ya təyin olunmuş parlament nümayəndələrindən təşkil olunur. Nizamnaməyə əsasən nümayəndənin bir müavini ola bilər və o, nümayəndənin iştirak edə bilmədiyi iclaslarda onu əvəz edir. Əhalisinin sayından asılı olmayaraq Assambleyada həmin dövlə-

[238] Шреплер Х.-А. Международные организации. Спр. М., 1995, с. 184.



tin ən azı üç siyasi partiyası təmsil olunmalıdır. Üzv ölkələrin nümayəndələrinin sayı 2 nəfərdən 18 nəfərədək olur. Parlament Assambleyası öz üzvlərindən sədr və onun müavinlərini seçir. Onlar sədr və 17 müavindən ibarət Assambleya Bürosunu təşkil edirlər. Assambleya öz sessiyalarını Strasburqda Avropa sarayında keçirir[239].

Təşkilatın Nizamnaməsində nəzərdə tutulan üçüncü orqan Baş Katibin rəhbərlik etdiyi Katiblikdir. Baş Katibi Nazirlər Komitəsinin təqdimatı ilə Parlament Assambleyası beş il müddətinə seçir[240].

Avropa Şurasının ali orqanı kimi üzv ölkələrin dövlət və hökumət başçılarının Zirvə toplantısı fəaliyyət göstərir. İlk Zirvə toplantısı 1993-cü ildə Vyanada, 1997-ci ildə Strasburqda ikinci, 2005-ci ildə isə Varşavada üçüncü Zirvə toplantısı keçirilmişdir.

Avropa Şurasının beynəlxalq miqyasda nüfuzunun artması ilə əlaqədar üzvlərinin sayı da daim artır. Belə ki, 1949-cu ildə təşkilatın Nizamnaməsini 10 dövlət imzalayaraq Avropa Şurasını təsis etdikdən sonra, həmin ilin avqust ayında Türkiyə və Yunanıstan, 1950-ci ildə İslandiya və Almaniya, 1956-cı ildə Avstriya, 1961-ci ildə Kipr, 1963-cü ildə İsveçrə, 1966-cı ildə Malta, 1976-cı ildə Portuqaliya, 1977-ci ildə İspaniya, 1978-ci ildə Lixtenşteyn,

[239] H.Rəcəbli., V.İbayev. Avropa beynəlxalq təşkilatları. Bakı. 1999, s.74-76.

[240] Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton.1996, p. 1128.

1988-ci ildə San-Marino və 1989-cu ildə Finlandiyanın quruma üzv qəbul olunması ilə təşkilatın üzvlərinin sayı 23-ə çatdı[241].

XX yüzilliyin sonunda dünyada, o cümlədən Avropada baş verən qlobal siyasi proseslər, xüsusən də Varşava Müqaviləsi Təşkilatının fəaliyyətini dayandırması, "soyuq müharibə"nin başa çatması və SSRİ-nin süqutu beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Belə bir şəraitdə Şərq və Qərb ölkələri arasındakı əlaqələri normallaşdırmaq, xüsusilə, Mərkəzi və Şərqi Avropa ölkələrinə yenicə qazanılmış müstəqilliklərini möhkəmləndirmək, regionda və dünyada qlobal problemlərinin həllində tam demokratik ölkə olaraq iştirak etmək arzusunu həyata keçirmək zərurəti yaranmışdı.

XX əsrin sonu-XXI əsrin əvvəllərində bu ölkələrin böyük bir hissəsi Avropa Şurasına üzv qəbul edildilər. Belə ki, 1990-cı ildə Macarıstan, 1991-ci ildə Polşa, 1992-ci ildə Bolqarıstan, 1993-cü ildə Litva, Rumıniya, Slovakiya, Sloveniya, Çexiya, Estoniya, 1994-cü ildə Andorra, 1995-ci ildə Albaniya, Latviya, Makedoniya, Moldova, Ukrayna, 1996-cı ildə Rusiya və Xorvatiya, 1999-cu ildə Gürcüstan, 2001-ci ildə Azərbaycan və Ermənistan, 2002-ci ildə Bosniya və Hersoqovina, 2003-cü ildə Serbiya, 2004-cü ildə Monako, 2007-ci ildə isə Çernoqoriya təşkilatda tamhüquqlu üzv kimi təmsil olunmaqla Avropa Şurasının üzvlərinin sayı hazırda 47-yə çatmışdır[242]. Bundan əlavə, Kanada, Vatikan, İsrail, Meksika, ABŞ və Yaponiya təşkilatda müşahidəçi statusuna malik dövlətlərdir.

[241] The Statesman's Year – Book. Statistical and historical annual of the states of the world for the year 1995-1996. (ed: Brian Hunter), St. Martin's press – New York, 1996, p. 38.



Müdafiə və təhlükəsizlik məsələləri istisna olmaqla, Avropa Şurası bir çox fəaliyyət istiqamətlərini əhatə edir. Onun proqramına insan hüquqları, kütləvi informasiya vasitələri, hüquq sahəsində əməkdaşlıq, sosial və iqtisadi problemlər, səhiyyə, təhsil, mədəniyyət, idman, gənclik, yerli və regional idarəetmə və ətraf mühitlə bağlı məsələlər daxildir.

Avropa Şurasının Nizamnaməsinə görə, onun üzvü "qanunun aliliyi prinsipini tanıyan və yurisdiksiyası altında olan şəxslərə insan hüquqları və əsas azadlıqlarından istifadə etməyə şərait yaradan" Avropa dövlətləri ola bilər. Hərbi məsələlərdən uzaq, sırf siyasi təşkilat olan Avropa Şurası demokratik idarə formalı ölkələr arasında sıx əlaqələri nizamlamağa çalışır. Belə ölkələrdən birinə çevrilən Azərbaycan əlverişli perspektivlər və real imkanlar qazanmışdır.

## 4.2. Azərbaycanın Avropa Şurası ilə münasibətləri

Azərbaycanın Avropaya inteqrasiya proseslərinə qoşulmaqda maraqlı olması qısa müddətdə ölkədə yaradılmış

[242] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 12.

siyasi sabitlik, respublikamızda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, bazar iqtisadiyyatının bərqərar olmasına yönəldilmiş siyasi-iqtisadi islahatlar, insan hüquqlarının qorunması sahəsində həyata keçirilmiş tədbirlər Azərbaycanın Avropaya inteqrasiya proseslərinə qoşulması üçün əlverişli zəmin yaradırdı. Azərbaycanın əlverişli geosiyasi mövqeyi və zəngin təbii ehtiyatları Avropanı Azərbaycana cəlb edirdi. Bu baxımdan, Avropa beynəlxalq təşkilatlarının Azərbaycanla əməkdaşlığa meylli olmaları təbii qəbul edilməli idi.

Müasir dövrdə yeni müstəqillik əldə etmiş dövlətlərdə demokratik proseslərin inkişaf etdirilməsi ümumavropa məkanında insan hüquqlarının qorunması və istiqamətində, habelə beynəlxalq münasibətlər sisteminin tənzimlənməsində, qitədə sülhün, təhlükəsizliyin saxlanmasında, qlobal problemlərin həllində müstəsna rol oynayan Avropa Şurası öz strukturuna və fəaliyyət istiqamətlərinə görə mürəkkəb bir sistemdir. Bu baxımdan ölkəmizin Avropa Şurası ilə əməkdaşlığının inkişaf dinamikasının araşdırılması mühüm elmi, eləcə də praktik siyasi əhəmiyyət kəsb edir[243].

Avropa strukturlarında təmsilçilik, ölkəmizin gələcəyinin sivil bir Avropa ölkəsi kimi qurulması baxımından mühüm əhəmiyyət daşıyır. Müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın əməkdaşlığa böyük maraq göstərdiyi nüfuzlu təşkilatlardan biri də məhz Avropa Şurasıdır.

[243] Yenə orada, s.47.



Avropanın demokratik və təhlükəsiz əraziyə çevrilməsinə kömək üçün üzv dövlətlər arasında sıx əlaqələr yaratmasında müstəsna xidmətləri olan Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın təhlili öz aktuallığı baxımından digər qurumlarla müqayisədə daha yüksəkdə durur.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında bu əlaqələr aktuallığına görə son dərəcə diqqəti cəlb edir və hazırda Azərbaycanın Avropa Şurası ilə əlaqələrinin yaranması formaları, mahiyyət və məqsədləri, inkişaf istiqamətləri geniş tədqiq edilməlidir. Bu mənada Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əlaqələrin yaranmasının, inkişaf edib möhkəmlənməsinin, onların tarixi kökləri və hüquqi əsaslarının tədqiq edilməsi, Avropa Şurası ilə əməkdaşlığın ölkənin xarici siyasətindəki və daxili həyatındakı rolunun öyrənilməsi, Azərbaycanda demokratiyanın inkişafı və insan hüquqlarının qorunması sahəsində əldə olunmuş nailiyyətlərdə Avropa Şurasının rolu, bu təşkilatlarla perspektiv istiqamətlərin müəyyənləşdirilməsi, ümumiyyətlə, Avropa Şurası təşkilatının öyrənilməsi, onun mahiyyətinin, quruluşunun və fəaliyyətinin tədqiqi bu gün Azərbaycan üçün zəruridir[244].

Bu gün ümumavropa məkanında demokratik dövlət quruculuğu, insan hüquqlarının müdafiəsi, iqtisadi və mədəni əməkdaşlıq həlledici dəyərlər kimi ön sıraya çıxmışdır. Bütün bu amillər mövcud problemlərin tezliklə aradan

[244] Yenə orada, s.48-49.

qaldırılmasına və müasir Avropanın dünyanın ən sabit, eləcə də hərtərəfli inkişaf etmiş bölgəsinə çevrilməsinə gətirib çıxarmışdır. Bu nəticələrin əldə edilməsində region dövlətlərinin fəaliyyətini uzlaşdıran və istiqamətləndirən orqan kimi mühüm rol oynayan Avropa Şurası fəaliyyətinin çoxşaxəliliyinə görə mürəkkəb bir sistem olaraq Avropada cərəyan edən hadisələrə və problemlərə münasibət bildirməklə insanın rifahı və onun yaratdığı sivilizasiyanın tərəqqisi naminə fəaliyyət göstərir[245].

Azərbaycan Respublikası 1992-ci ilin yanvarında ona "xüsusi dəvət edilmiş qonaq" statusu verilməsi üçün Avropa Şurasına rəsmi müraciət etdi. Müraciət bu nüfuzlu Avropa təşkilatının bərabərhüquqlu üzvü olmaq üçün ilk addım olmaqla bərabər Avropa ölkələri ilə siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məqsədi daşıyırdı. Bu status Assambleyanın və bir çox komissiyaların işində səsvermə və AŞ PA tərəfindən qəbul olunacaq mətnə təkliflər verilməsi hüququ istisna olmaqla, iştirak etmək hüququ verirdi. "Xüsusi dəvət olunmuş statusu" almamışdan əvvəl xahiş edən tərəf insan hüquqları sahəsində siyasi və hüquqi əhəmiyyət kəsb edən məcburi xarakterli bir sıra beynəlxalq alətləri qəbul etməlidir[246].

Lakin 1992-ci ildə Avropa Şurasının özü Cənubi Qafqaz regionuna qədər genişlənməyə hazır deyildi. Üstəlik, bu təşkilatın ölkəmizə münasibəti də müsbət deyildi və hətta

[245] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.463.
[246] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s.49-50.



1992-ci ildə Avropa Şurasının qeyri-üzv ölkələr üzrə komitəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar respublikamızın əleyhinə bəyannamə qəbul etmişdi. Belə bir şəraitdə ilk növbədə Avropa Şurasında Azərbaycanın obyektiv rəy formalaşdırmaq lazım idi.

Avropa Şurası ilə əlaqələr yaradıldıqdan sonra bu təşkilat Azərbaycanda baş verən hadisələrə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə dair öz mövqeyini bildirdi. Belə ki, Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) üzvü olmayan Avropa ölkələri ilə əlaqələr Komitəsi 1992-ci il fevralın 5-də Dağlıq Qarabağa dair ilk bəyanat qəbul etdi. Bəyanatda deyilirdi ki, Komitə Dağlıq Qarabağda vəziyyətin pisləşməsi ilə əlaqədar atəşin dayandırılması məqsədilə Ermənistan və Azərbaycan tərəfinə müraciət edərək hər iki maraqlı tərəfi münaqişənin sülh yolu ilə həll edilməsinə çağırır. Sənəddə Azərbaycanın mənafeyinə zidd olaraq BMT Təhlükəsizlik Şurasından Ermənistanın tələbi ilə Dağlıq Qarabağa BMT qüvvələrinin gətirilməsi xahiş olunurdu[247].

Bundan sonra qəbul edilən sənədlərdə Şuranın mövqeyində maraqların uyğunlaşdırılması istiqamətində dəyişiklik hiss olunmağa başladı. Belə ki, 1992-ci il martın 12-də Avropa Şurası Nazirlər Komitəsinin qəbul etdiyi bəyanat neytral xarakter daşıyırdı. Bəyanatda deyilirdi ki, Komitə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar dərin təşviş hissi

[247] Əhmədov E.Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 85-86.

keçirdiyini bildirir və Azərbaycanın Dağlıq Qarabağ vilayətinin dinc əhalisi barədə zorakılığı pisləyir. Sənəddə göstərilirdi ki, Beynəlxalq birlik Dağlıq Qarabağda münaqişənin zor gücünə aradan qaldırılmasına razı ola bilməz və bütün sərhədlərin toxunulmazlığı prinsipləri gözlənilməlidir. Bununla yanaşı qeyd olunurdu ki, sərhədlər yalnız dinc yolla və qarşılıqlı razılıq əsasında dəyişdirilə bilər[248].

Bu dövr Azərbaycanın Avropa Şurası ilə sistemsiz və pərakəndə əlaqələrini əhatə edir. Bu mərhələdə əlaqələrdəki belə qeyri-müəyyənlik, Ermənistanın təcavüzkarlığına qarşı mübarizəyə daha çox diqqət verilməsi və bir sıra daxili proseslərlə, bu məsələdə daxili və xarici siyasətdə qeyri-sabitliyin mövcudluğunu aydın şəkildə göstərməsi ilə səciyyələnir[249].

1993-cü il aprelin 16-da Avropa Şurası Nazirlər Komitəsi Dağlıq Qarabağ münaqişəsinin genişlənməsi ilə əlaqədar bəyanatla çıxış etdi. Sənəddə deyilirdi ki, Nazirlər Komitəsi BMT Təhlükəsizlik Şurası sədrinin bütün döyüş əməliyyatlarını dərhal dayandırmaq çağırışına tərəfdar çıxır, bu regionda sülh və təhlükəsizlik üçün təhlükə yaradan qüvvələrin aradan qaldırılmasını tələb edir. Bəyanatda Azərbaycanın Kəlbəcər rayonunda döyüş əməliyyatlarının güclənməsindən narahatlıq ifadə olunsa da, bunun səbəbləri göstərilmir, Kəlbəcər rayonunun işğalı haqqında heç bir söz deyilmirdi. Bundan başqa sənəddə regionda sülh üçün

[248] "Həyat" qəzeti, 14 mart 1992-ci il.
[249] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s.52.



təhlükə yaradan silahlı qüvvələrin çıxarılması göstərilsə də, bu qüvvələrin kimə məxsus olması açıqlanmırdı[250].

1993-cü ilin ikinci yarısından, yəni ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizin beynəlxalq aləmdə fəallığının güclənməsi, ictimai həyatın hərtərəfli demokratikləşdirilməsi sahəsində inamlı addımların atılması, Ermənistanla münaqişədə respublikamızın hərbi əməliyyatların dayandırılması və atəşkəsin əldə edilməsinə yönəlmiş fəaliyyəti Azərbaycanla Avropa Şurasının yaxınlaşması prosesinə zəruri impulslar verdi.

Bu dövrdən başlayaraq Azərbaycan xalqı müstəqil dövlətçiliyini inkişaf etdirərək öz tarixi seçimini etmiş, Avropa dəyərləri, normaları və standartları əsasında hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması yolunu tutmuşdur.

Avropa Şurasının üzvü olan dövlətlərin yüksək səviyyədə ilk konfransı 1993-cü ildə Vyanada keçirilmişdi. Vyana Konfransı Avropanın gələcək inkişaf perspektivlərinə dair tarixi bəyannamənin qəbulu ilə başa çatmışdı. Burada yeni tarixi şəraitlə bağlı Avropa Şurasının qarşısında duran məqsəd və vəzifələr də açıqlanmışdı.

Məhz bu ildən etibarən Azərbaycanın xarici siyasətində Avropa Şurasına daxil olmaq istiqamətində həyata keçirilən kompleks tədbirlər, müstəqil Azərbaycanın dünyəvi dövlət quruculuğu sahəsində bu qurumdan öyrənmək meyllərini daha bariz şəkildə büruzə verirdi.

[250] "Azərbaycan" qəzeti, 20 aprel 1993-cü il

Bu dövrdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin beynəlxalq aləmdə cərəyan edən proseslərə incə və praqmatik yanaşma tərzi və Azərbaycanın vahid Avropa ailəsinə daxil olması istiqamətində apardığı məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olması üçün zəmin yaradıldı[251].

Avropa Şurası 1993-cü il noyabrın 9-da "Dağlıq Qarabağa dair" verdiyi bəyanatda deyilirdi ki, Avropa Şurası 1993-cü il oktyabrın 24-də Dağlıq Qarabağ bölgəsində atəşkəs haqqında sazişin pozulmasını pisləyir və bu yaxınlarda işğal olunmuş ərazilərdən çıxarmağa çağırır, eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyirdi.

1994-cü il yanvarın 24-dən 28-dək Avropa Şurasına üzv olmayan ölkələr komitəsinin təşəbbüsü ilə Ermənistan-Azərbaycan münaqişəsinə dair görüş keçirildi[252]. Strasburqda keçirilən bu görüşə Dağlıq Qarabağın erməni icması münaqişə iştirakçısı olan tərəf kimi dəvət olunmuşdu. Ona görə də Azərbaycanın və Dağlıq Qarabağın azərbaycanlı əhalisinin nümayəndələri etiraz əlaməti olaraq bu görüşdə iştirak etmədilər.

Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlıq məqsədilə 1994-cü il iyulun 4-dən 11-dək Strasburqda Dağlıq Qarabağla əlaqədar keçirilən görüşdə iştirak edən Azərbaycan nümayəndə heyəti Ermənistanın Azərbaycana

[251] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s.55-56.
[252] Əhmədov E.Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 86-87.



qarşı əsassız ərazi iddiaları ilə bağlı hərbi təcavüzkarlığını, onun nəticələrini və bu münaqişədə Azərbaycanın mövqeyini açıqladı[253].

1994-cü il noyabrın 10-da Avropa Şurası Parlament Assambleyasının "Dağlıq Qarabağda münaqişəyə dair" qəbul etdiyi 1047 saylı qətnamədə Azərbaycanın mənafeyinə zidd bir sıra bəndlər var idi[254].

Bundan sonra, 1994-cü il noyabrın 14-17-də Avropa Şurası Parlament Assambleyası təşkilata üzv olmayan Avropa ölkələri ilə əlaqələr komitəsinin sədri Devid Atkinson başda olmaqla nümayəndə heyəti Azərbaycanda səfərdə olmuş və səfər zamanı Respublika rəhbərliyi ilə görüşündə bu təşkilatla Azərbaycanın münasibətləri, o cümlədən ölkəmizin "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün müraciəti, Ermənistanın təcavüzkarlığına son qoyulması və münaqişənin dinc vasitələrlə həlli məsələləri müzakirə olundu.[255]

Azərbaycan Respublikasının xarici siyasətində xüsusi yer tutan Avropa Şurası öz fəaliyyətində insan hüquqlarının müdafiəsi və demokratiyanın möhkəmləndirilməsini, sosial və hüquqi problemlərin birgə həlli yollarının araşdırılmasını, Mərkəzi və Şərqi Avropa ölkələrinə siyasi, qanunvericilik və konstitusional islahatların həyata keçirilməsində kömək-

[253] "Azərbaycan", 21 iyul 1994-cü il.
[254] Resolution 1047 (1994) on the conflict in Nagorno-Karabakh. Parliamentary Assembly of the Council of Europe, 10 November, 1994.
[255] "Azərbaycan", 20 noyabr 1994-cü il.

lik göstərilməsini və onlar arasında bu sahədə sıx əlaqələrin yaradılmasını rəhbər tutur[256].

Qısa müddət ərzində Azərbaycanda demokratik dəyərlərin bərqərar olması və inkişaf etdirilməsi, insan hüquqları və əsas azadlıqlarının təmin olunması sahəsində nəzərə çarpan nailiyyətlər əldə edildi. 1995-ci ildə referendum yolu ilə qəbul edilən, insan hüquq və azadlıqlarını özündə əks etdirmək baxımından ən yüksək norma və standartlara cavab verən müstəqillik dövrünün ilk Konstitusiyası Azərbaycan cəmiyyətinin irəliyə doğru inkişafının bünövrəsini qoydu[257].

1994-1995-ci illərdə Azərbaycan ilə Avropa Şurası arasında yaranmış əlaqələr təşkilatın müxtəlif təsisatlarının nümayəndələrinin ölkəmizə səfərləri zamanı Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması, eləcə də Azərbaycanda demokratik təsisatların inkişafı, insan hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi məsələləri müzakirə olunmuşdur. Avropa Şurası ilə əlaqələrin genişlənməsi Azərbaycana bir sıra qanunvericilik aktlarına yenidən baxmaq üçün ekspert köməyi əldə etmək imkanı verdi.

Belə ki, 1996-cı il martın 1-2-də Azərbaycan nümayəndə heyəti ilk dəfə iştirak etdiyi Avropa Şurasının Venesiya Komissiyasının iclasında ölkəmizin bu quruma üzvlük hüququnun verilməsini xahiş etmiş və həmin il mayın

[256] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.463.
[257] Yenə orada, s.465



17-18-də Azərbaycanın bu Komissiyaya üzv olması haqqında qərar qəbul edilmişdir[258].

1996-cı ilin iyunun 2-6-da Avropa Şurasının Parlament Assambleyasının təşkilata üzv olmayan ölkələrlə əlaqələr komissiyasının sədri Jak Setlenjin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı dövlət başçısı Heydər Əliyevlə görüşündə Azərbaycanın Avropa Şurasında "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi məsələləri müzakirə edilmişdir. Həmin il iyun 26-28-də AŞ PA-nın növbəti sessiyası zamanı Assambleyanın Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul etdi[259].

"Xüsusi dəvət edilmiş qonaq" statusu alması Azərbaycanın AŞ PA-da təmsil olunmasına və Avropa Şurası tərəfindən qəbul olunmuş bəzi konvensiyalara qoşulmasına imkan yaratdı. Daha sonra Azərbaycan Prezidenti Heydər Əliyevin 1996-cı il 8 iyul tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" Sərəncamı Avropa Şurası ilə ölkəmizin sonrakı illərdə fəaliyyət planı kimi mühüm əhəmiyyət kəsb etmişdir[260].

1996-cı il iyulun 13-də dövlət başçısı Heydər Əliyev Avropa Şurası Baş katibinin adına məktub göndərərək ölkəmizin bu təşkilata tam hüquqlu üzv qəbul olmaq və

[258] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 60.
[259] Yenə orada, s. 60-61
[260] Vəliyev A. Azərbaycan-Avropa Şurası: demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. Bakı, 2006, s. 69.

digər üzv dövlətlər kimi "İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmaq arzusunda olduğunu bildirdi[261].

Azərbaycanın müasir xarici siyasətinin bir sıra həlledici uğurlarını özündə əks etdirən növbəti mərhələdə Avropa Şurasına "xüsusi dəvət olunmuş" statusu əldə etmiş Azərbaycan Avropa ölkələri ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığı yeni çoxtərəfli əsaslarda qurmağa başlamışdır[262].

1996-cı ildə "xüsusi dəvət olunmuş" statusu almaqla Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasında təmsil olunmasına və Şura tərəfindən qəbul olunmuş bəzi konvensiyalara qoşulmasına imkan yaranmışdır.

Bununla Azərbaycan Avropa Şurası Parlament Assambleyasında Ümumavropa problemlərinin müzakirəsində birbaşa iştirak etmək imkanı qazanır. Parlament Assambleyasının işində iştirak bir tərəfdən Azərbaycan üçün yaxşı parlament demokratiyası məktəbinə çevrilir, digər tərəfdən, Avropada Azərbaycanın mövqeyinin möhkəmlənməsinə xidmət edir[263].

"Xüsusi dəvət olunmuş" statusunu əldə etdikdən sonra məruzəçilərin səfərləri daha da intensivləşir və maraqlı dövlətə ünvanlanmış "sorğu vərəqi" ilə nəzarət olunur. Bu sorğu vərəqinə cavablar məruzəçilər tərəfindən rəy layihəsinin hazırlanmasında önəmli rol oynayır və təklif olunan öhdəliklər sırasında öz əksini tapır.

[261] Yenə orada, s. 67-68.
[262] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s.64.
[263] Yenə orada, s.65.



Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan diplomatiyasının məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmizdə baş verən proseslər, qarşılaşdığımız problemlər, Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın mövqeyi, respublikamızda sosial həyat şəraitinin, əhalinin sosial rifahının aşağı səviyyəsi, bütövlükdə regionda vəziyyət Avropa Şurasının diqqətini daha çox çəkməyə başlaymışdır[264].

Bundan sonra, 1997-ci il aprelin 22-də Avropa Şurası Parlament Assambleyası Zaqafqaziyada münaqişələrə dair 1119 saylı qətnamə qəbul etdi.[265] Qətnamənin Dağlıq Qarabağa dair olan hissəsində deyilirdi ki, Assambleya münaqişənin dinc yolla nizama salınmasına nail olmaqla, işğal olunmuş ərazilərin azad edilməsinə, qaçqınların və köçkünlərin geri qayıtmasına çağırır. Sənəddə Azərbaycanın ərazi bütövlüyü və münaqişənin nizama salınmasına dair ATƏT-in Lissabon Zirvə görüşünün prinsipləri təsdiq edilirdi[266].

Qətnamənin əhəmiyyətindən bəhs edən dövlət başçısı Heydər Əliyev 1997-ci il oktyabrın 11-də Strasburqda Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısındakı çıxışında xüsusi olaraq qeyd edirdi ki, 1119 (1997) saylı Qətnamədə Azərbaycan

[264] Yenə orada, s.66.
[265] "Azərbaycan", 29 aprel 1997-ci il.
[266] Əhmədov E.Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 88; 128.

dövlətinin ərazi bütövlüyü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Lissabon zirvə görüşünün prinsipləri təsdiq edilmişdir. Bu sənədlər hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında sülhə nail olmaq üçün yaxşı zəmindir[267].

Avropa Şurası ilə bağlı Azərbaycan üçün mühüm hadisələrdən biri də 1997-ci il oktyabr ayının 10-11-də Strasburqda keçirilən Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 2-ci zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirak etməsi idi. Şuranın 1993-cü ilin oktyabrında Vyanada keçirilən 1-ci zirvə görüşündən sonra ötən müddət ərzində Avropa Şurasına artıq 8 yeni üzv qəbul olunmuşdu. 2-ci zirvə toplantısı ərəfəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Şurasının iqamətgahında Şuranın Baş katibi Daniel Tarşislə görüşü zamanı Azərbaycanda demokratik proseslərin gedişi, ölkəmizin Avropa strukturları, o cümlədən Avropa Şurası ilə əlaqələri barədə ətraflı fikir mübadiləsi aparılmışdır[268].

Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci il oktyabrın 10-da Strasburqda keçirilən 2-ci Zirvə toplantısında Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı və orada təşkilatın yüksək vəzifəli nümayəndələri ilə keçirdiyi görüşlər zamanı Azərbaycanda demokratik proseslərin gedişi, ölkəmizin Avropa strukturları, o cümlədən Avropa Şurası ilə əlaqələri barədə ətraflı danışıqlar aparmışdır[269].

[267] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 68.
[268] Rəcəbli H., İbayev V. Avropa Şurası, Bakı, 1999, s.66.



Azərbaycan Prezidenti Heydər Əliyevin 1998-ci il yanvarın 20-də "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında" imzaladığı sərəncam ölkəmizin Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul olunması sahəsində atılan mühüm addımlardan biri oldu. Sərəncamda Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul edilməsi istiqamətində respublikada görülən işlər və Avropa Şurası ilə əməkdaşlıq məsələləri öz əksini tapmışdır[270].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il aprel ayının 1-də AŞ PA-nın Hüquq məsələləri və insan hüquqları komitəsinin İnsan hüquqları üzrə yardımçı komitəsinin ölkəmizdə olan nümayəndə heyətini qəbul etmiş və Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv kimi qəbulolunma arzusunu bildirərək demişdi: "Biz Azərbaycanda Avropa Şurası ilə əməkdaşlığa xüsusi əhəmiyyət veririk. Avropa ölkəsi olaraq və Avropa standartlarına uyğun surətdə öz ölkəmizdə dövlət quruculuğu apararaq Avropa Şurasına tamhüquqlu üzv olmaq arzusundayıq"[271].

1998-ci il iyunun 15-də AŞ PA-nın nümayəndə heyəti – Azərbaycanın və Ermənistanın Avropa Şurasına daxil olmaq üzrə məruzəçiləri Jak Bomel, Corc Kleyfart və Eyso

[269] "Azərbaycan", 14 oktyabr 1997-ci il.
[270] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 69.
[271] Rəcəbli H., İbayev V. Avropa Şurası, Bakı, 1999, s.68.

Volter Prezident sarayında Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişlər[272].

1998-ci ilin yanvar və iyun aylarında Azərbaycana səfər etmiş Avropa Şurası Parlament Assambleyasının məruzəçiləri J.Bomel və C.Kleyfart dövlət başçısı Heydər Əliyevlə görüşlərində Avropa Şurasına qəbul olunmaq sahəsində ölkəmizdə görülmüş işlərdən razılıqlarını bildirmişlər[273]. Avropa Şurası nümayəndələrinin Azərbaycana növbəti səfəri 1998-ci ilin avqust ayında olmuş və Avropa Şurasının Baş katibi Daniel Tarşisin başçılıq etdiyi nümayəndə heyəti onları maraqlandıran məsələlər üzrə məlumatlar toplamış, rəsmi görüşlər keçirmişdir[274].

Bununla da Azərbaycan diplomatiyası Avropa inteqrasiya proseslərinə qoşulmaq uğrunda mübarizədə böyük qələbə əldə edərək Avropanın üzvi hissəsinə çevrildiyini işdə sübut etdi. Bu gün beynəlxalq aləmdə respublikamıza qarşı münasibətdə hiss olunan müsbət dəyişikliklərin yaranmasından və mövcud əlverişli situasiyadan kifayət qədər səmərəli istifadə edilməlidir. Həmçinin Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü kimi öz fəaliyyətində çalışmalıdır ki, Avropa Şurasının Parlament Assambleyası Qafqaz regionunda baş verən prosesləri daim diqqət mərkəzində saxlasın[275].

272 Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 74.

273 "Xalq qəzeti", 23 yanvar 1998-ci il; "Azərbaycan" qəzeti, 17 iyun 1998-ci il.

274 Rəcəbli H., İbayev V. Avropa Şurası, Bakı, 1999, s.69-70.

275 Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s..79-80.



1999-cu il sentyabrın 15-18-də AŞ PA-nın sədri lord Rassel Constonun, eləcə də təşkilatın digər rəsmi nümayəndələrinin Azərbaycana səfərləri zamanı aparılan danışıqlar ölkəmizin Avropa Şurasına qəbuluna dair müzakirələri şərtləndirən amillərdəndir.

Avropa Şurasına "xüsusi dəvət olunmuş" statusu əldə etdiyi vaxtdan bu mötəbər təşkilata tamhüquqlu üzv olduğu dövrə qədər olan müddətdə, yəni, 5 ildə Azərbaycanın xarici siyasət konsepsiyası bir neçə prinsipial məqamı ilə diqqəti cəlb edir.

İnsan hüquqları sahəsində Avropa Şurası təşkilatı ilə əməkdaşlıq əldə olunmuş nəticələr baxımından müsbət qiymətləndirilməlidir. İnsan hüquqlarının qorunması sahəsində Avropa Şurası Azərbaycanla əlaqələrinin qruplaşmasına imkan verir: insan hüquqları üzrə beynəlxalq müqavilələr sisteminə qoşulmaq, insan hüquqlarının pozulması faktlarının üzə çıxarılması və onların aradan qaldırılması sahəsində əməkdaşlıq; Azərbaycanda Avropa standartlarına uyğun qanun yaradıcılığının həyata keçirilməsi, insan hüquqları üzrə Avropa Şurası konvensiyalarının hazırlanmasında bu sahəyə dair konfrans və toplantılarda iştirak; Avropa Şurasının insan hüquqları üzrə həyata keçirdiyi texniki əməkdaşlıq proqramlarında fəal iştirak[276].

Məhz bu uğurların məntiqi nəticəsi kimi, 1996-cı il iyunun 28-dən etibarən Azərbaycan Respublikasının Avropa Şurası təşkilatında xüsusi dəvət olunmuş qonaq statusunda

276 Yenə orada, s.82.

iştirakı milli qanunvericiliyimizin Avropa standartları səviyyəsinə yüksəldilməsinin işlək mexanizmini hazırlamağa imkan verdi. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1996-cı il iyulun 8-də "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 1998-ci il yanvarında 20-də "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", 1999-cu il mayın 14-də "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" imzaladığı sərəncamlar ölkəmizin Avropa Şurasına qəbul edilməsi üçün səylərin artırılmasına və məqsədyönlü fəaliyyətə zəmin yaratmış oldu[277].

2000-ci il martın 18-də Azərbaycan Prezidenti Heydər Əliyev "Avropa Şurasının fəaliyyətinə və Azərbaycan Respublikası ilə Avropa Şurası arasındakı əməkdaşlığa dair məlumatların yayılması barədə" Sərəncam imzaladı. Ümummilli lider Heydər Əliyevin 1996-2000-ci illərdə Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığına dair imzaladığı sərəncamlar respublikamızın bu nüfuzlu beynəlxalq təşkilata qəbul edilməsi istiqamətində aparılan məqsədyönlü fəaliyyətə zəmin yaratdı.

[277] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.465.



Avropa Şurasının Siyasi Komitəsi 2000-ci il martın 23-də Azərbaycan Milli Məclisinə ölkəmiz təşkilata tamhüquqlu qəbul edildikdən sonra yerinə yetirməli olacağı öhdəliklərin siyahısına göndərmiş və bu sənəd Milli Məclisdə təmsil olunmuş siyasi partiyaların nümayəndələri tərəfindən imzalanmışdır. Daha sonra mart ayının 27-28-də Milli Məclisdə imzalanmış öhdəliklərin siyahısı və Azərbaycanın Avropa Şurasının 8 konvensiyasına qoşulması barədə dövlət başçısının imzaladığı müqavilələr Avropa Şurasının Baş katibinə təqdim olundu[278].

2000-ci il mayın 15-də Avropa Şurasının Siyasi Komitəsinin Dublində və iyunun 12-13-də Romada keçirilmiş iclaslarında Azərbaycan üzrə məruzəçi J.Bomelin hesabatı dinlənilmiş və ölkəmizin təşkilata tamhüquqlu üzv kimi qəbul edilməsi ilə bağlı müsbət rəy verilmişdir.

2000-ci ilin iyunundan noyabr ayınadək təşkilatın müxtəlif komitələrində keçirilən müzakirələrdən sonra Avropa Şurası Nazirlər Komitəsinin noyabrın 7-9-dakeçirilmiş 107-ci sessiyasında Azərbaycanın bu beynəlxalq təşkilata üzv olmağa dəvət edilməsi haqqında qəbul edilən 14 (2000) saylı Qətnamədə deyilirdi:

- Azərbaycanın Avropa Şurasına üzv olmağa və Nizamnaməyə qoşulmağa dəvət edilməsi;
- Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı nümayəndələrinin sayının altı nəfər həddində müəyyənləşdirilməsi;

[278] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 78.

• Qətnaməyə uyğun olaraq Azərbaycanın Avropa Şurasına müxtəlif bölgülü maliyyə ödəmələrinin müəyyənləşdirilməsi[279].

Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Bu qərar ümummilli liderin uzaqgörən, daxili və xarici siyasətinin və bu istiqamətdə görülmüş məqsədyönlü fəaliyyətinin nəticəsi idi.

Az sonra, yəni yanvarın 25-də Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə Strasburqda ölkəmizin bu təşkilata üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilmiş və dövlətimizin üçrəngli bayrağı ucaldılmışdır. Bu hadisəni ümummilli lider Heydər Əliyev yüksək qiymətləndirərək demişdi: "Azərbaycanın Avropa Şurasına qəbul edilməsi nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır"[280].

Nəhayət, 2001-ci ilin yanvar ayında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və bununla da Azərbaycan diplomatiyası Avropa inteqrasiya proseslərinə qoşulmaq uğrunda böyük nailiyyət əldə edərək,

[279] "Xalq qəzeti"10 noyabr 2000-ci il.
[280] "Azərbaycan" qəzeti, 28 yanvar 2001-ci il



Avropanın üzvi hissəsinə çevrildiyini əməli fəaliyyətlə sübut etmişdir[281].

Azərbaycan Respublikasının Avropa Şurasına qəbul edilməsi yeni əsrin əvvəllərində xalqımızın taleyində baş verən ən mühüm hadisələrdən biridir. Ölkəmizin Avropa xalqlarının demokratik ailəsinə inteqrasiyasını reallığa çevirmiş bu hadisə Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi sahəsində görülən nəhəng işlərin məntiqi nəticəsi olmuşdur.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əlaqələrin siyasi təhlili göstərir ki, müasir dövrdə beynəlxalq aləmdə, xüsusən Avropa məkanında baş verən proseslərə qoşulmaq, digər Avropa ölkələri ilə münasibətlər yaratmaq və bu münasibətləri müsbət istiqamətdə inkişaf etdirmək, beynəlxalq əməkdaşlıqdan və qlobal problemlərdən kənarda qalmamaq üçün Avropa Şurasının üzvü olmaq əsas amillərdən biri olmuşdur[282].

Ölkəmizdə müstəqillik dövründə demokratik islahatlar və hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilmiş tədbirləri qeyd edərkən Avropa beynəlxalq təşkilatlarından olan Avropa Şurası və onun Parlament Assambleyasının rolunu ayrıca qiymətləndirmək lazımdır. Azərbaycanın bu təşkilata daxil olmaq barədə müraciətindən onun tam hüquqlu üzv kimi fəaliyyət göstərdiyi hazırkı dövrə qədər

[281] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.466.
[282] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 83.

ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilmiş geniş demokratik islahatları aşağıdakı formada sistemləşdirmək olar:

- Dövlət idarəçiliyi və seçki islahatları, Azərbaycan Respublikasının siyasi sisteminin təkmilləşməsində çox böyük rol oynayan 1995-ci il noyabr ayının 12-də ölkənin yeni Konstitusiyasının, demokratik quruluşun və hüquqi dövlətin təməlini qoymuş qanunların qəbul edilməsi;
- Insanların şəxsiyyət azadlığına və toxunulmazlığına, habelə hüquqi müdafiəsinə təminat verilməsi, çoxpartiyalı sistemin yaradılması, siyasi plüralizm, söz və vicdan azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərlik və təqsirsizlik prezumpsiyasının təmin edilməsi;
- Konstitusiya Məhkəməsinin yaradılması, ölüm cəzasının ləğv edilməsi, üçpilləli məhkəmə sisteminin yaradılması və şəffaf proseduralar əsasında hakimlər korpusunun seçilməsi və məhkəmənin müstəqilliyinin təmin edilməsi;
- On minlərlə şəxs barəsində amnistiya verilməsi və xeyli sayda məhbusların əfv edilməsi;
- Senzuranın aradan götürülməsi, kütləvi informasiya vasitələrinin azadlığı və qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyətinin təmin olunması və s.

Azərbaycan Avropa Şurası ilə əməkdaşlığının müasir dövr üçün siyasi aktuallığı və əhəmiyyəti, bu əlaqələrin konkret sahələr üzrə, ayrı-ayrılıqda təhlil edilməsini zəruri edir. Azərbaycan insan hüquqlarının qorunması üzrə yeni sistemin yaranmasının parlaq təzahürlərindən biri də "İnsan



hüquqları üzrə müvəkkil (ombudsman) haqqında" Qanunun qəbul edilməsi olmuşdur[283].

## 4.3. Azərbaycan-Avropa Şurası əməkdaşlığının yeni mərhələsi

Azərbaycanın 2001-ci il yanvarın 25-də Avropa Şurasının bərabərhüquqlu üzvü olması – respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Dövlət başçısı Heydər Əliyev Avropa Şurasının tribunasından Azərbaycanın mənafeyinə uyğun şəkildə istifadə edilməsi üçün uğurlu bir addım atdı. Belə ki, Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinə millət vəkili İlham Əliyevin rəhbərlik etməsi və daha sonra cənab İlham Əliyevin AŞ PA-dakı fəaliyyəti ümummilli liderimiz Heydər Əliyevin qarşıya qoyduğu bütün vəzifələri reallaşdırdı.

2001-ci il aprelin 24-27-də Azərbaycan Respublikasının AŞ PA-dakı nümayəndə heyətinin ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etdiyi plenar sessiyada dövlətçilik maraqları baxımından, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən sənədlər: 9 ölkə və AŞ PA-da fəaliyyət göstərən 5

---

[283] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s. 471.

siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması" adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar" adlı sənəd AŞ PA-nın rəsmi sənədləri qismində yayılmışdır.

Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetrilməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, Ermənistanda, eyni zamanda, işğal edilmiş Azərbaycan ərazilərində uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər öz əksini tapmışdır[284].

2001-ci il iyunun 25-29-da AŞ PA-nın növbəti plenar sessiyası zamanı Azərbaycanla bağlı daha 2 mühüm sənəd AŞ PA-nın rəsmi sənədləri kimi yayılmışdır. "Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Laçın, Qubadlı, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan) ekoloji vəziyyət" adlı birinci sənəddə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində ekoloji vəziyyətin düşünülmüş şəkildə korlanması məsələsi, "Azərbaycanın mədəni irsinin qəsb olunması və dağılması" adlı ikinci sənəddə isə

[284] Ecological situation in the Republic of Azerbaijan (Mountainous Karabakh, Shusha, Lachin, Gubatly, Zangilan, Kalbajar, Agdam, Fizuli, Jabrayil). PACE. Doc.9148. 2001, 27 June; Azərbaycan Respublikası XİN-in cari arxivi. Avropa Şurası yanında Daimi nümayəndəliklə yazışma, 27 aprel 2001-ci il, s. 2.



Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində yerləşən mədəni abidə və sərvətlərin dağıdılması məsələsi Avropa ictimaiyyətinin diqqətinə çatdırılmışdır[285].

Bundan əlavə, AŞ PA-nın 2001-ci il sentyabrın 24-28-də keçirilən plenar sessiyasında Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanmış "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlı digər mühüm sənəd yayılmışdır. Qəbul edilən sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanı ərazi bütövlüyü nəzərə alınmaqla həll olunmasının zəruriliyi qeyd edilirdi[286].

Azərbaycan nümayəndə heyətin rəhbəri, millət vəkili İlham Əliyevin rəhbərliyi ilə hazırlanmış və Nazirlər Komitəsinə ünvanlanmış "Azərbaycnın ərazi bütövlyünün Ermənistan tərəfindən tanınması" yazılı sənəd 43 ölkənin nümayəndələrinin iştirakı ilə müzakirəyə çıxarıldı. Ermənistan və ona dəstək verən bəzi qüvvələrin qərarın qəbul olunmasına maneçilik törətməsinə baxmayaraq, Nazirlər Komitəsi yeddi bənddən ibarət qərar qəbul etdi. Sənəddə qeyd edilirdi ki, Nazirlər bütün Avropada beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə, eləcə də BMT Nizamnaməsində, ATƏM-in Helsinki Yekun Aktında və digər müvafiq mətnlərdə əks olunmuş beynəlxalq hüquq prinsiplərinə hörmət edilməsinə dəstəklərini bir daha təsdiq edirlər.

[285] Azərbaycan Respublikası XİN-in cari arxivi. Avropa Şurası yanında Daimi nümayəndəliklə yazışma, 29 iyun 2001-ci il, s. 2.
[286] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s.100-101.

Parlament nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyev özünün məntiqi çıxışları, konkret təklifləri ilə bu nüfuzlu beynəlxalq təşkilatda tez bir zamanda diqqəti cəlb etmiş və Azərbaycanın nüfuzunu daha da qaldırmışdır. O, Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi ilk dəfə bu qurumun kürsüsündən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və daha 7 rayonunun işğal olunduğunu, işğal edilmiş ərazilərin terrorizm və narkotik maddələrin tranzitinə çevrildiyini bəyan etmişdir. Avropa Şurasının sənədlərində Ermənistan təcavüzkar dövlət kimi tanınmış, işğalçı qoşunların dərhal Azərbaycan torpaqlarından çıxarılması tələb edilmişdir. Söylənilən bu faktlar AŞ PA-nın sənədlərində öz əksini tapmışdır[287].
Məhz cənab İlham Əliyevin prinsipial və ardıcıl fəaliyyəti nəticəsində AŞ PA-nın 2002-ci ilin sentyabrında keçirilən

[287] Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin AŞ PA-nın sessiyasında çıxışı. – "Azərbaycan" qəz., 26 aprel 2001-ci il; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin Strasburqdan Azərbaycan televiziyasına birbaşa müsahibəsi. – "Azərbaycan" qəz., 27 sentyabr 2001-ci il; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin müsahibəsi. – "Azərbaycan" qəz., 30 yanvar 2001-ci il; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin Strasburqda Turkiyənin NTV kanalında müsahibəsi. – "Azərbaycan" qəz., 26 aprel 2001-ci il.



payız sessiyasında ilk dəfə olaraq bu beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapdı. Bu hadisə Azərbaycan nümayəndə heyətinin, xüsusilə, nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin qətiyyətli mövqeyinin nəticəsi idi[288].

Bütün bunların məntiqi davamı kimi 2003-ci il yanvarın 27-də siyasi qabiliyyəti, diplomatik məharəti və prinsipiallığı ilə xüsusi seçilən Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin AŞ PA-nın vitse-prezidenti və qurumun Büro üzvü seçilməsi ilə müstəqil Azərbaycan tarixinə yeni səhifə yazmış oldu. Milli Məclisin deputatı İlham Əliyevin AŞ PA-nın sədr müavini və büro üzvü seçilməsi ölkəmizin beynəlxalq münasibətlər sistemində öz yerinin möhkəmləndirilməsi və qloballaşan dünyaya inteqrasiyası istiqamətində atılan yeni bir uğurlu addım idi.

Azərbaycan nümayəndə heyətinin başçısı, Avropa Şurası Parlament Assambleyası sədrinin sədr müavini və büro üzvü İlham Əliyev Avropa Şurası ilə Azərbaycan arasında münasibətləri çox aydın görərək yüksək qiymətləndirmişdir:"Avropa Şurası tərəfindən Azərbaycana münasibət çox yüksəkdir, çox müsbətdir. Mənim AŞ PA sədrinin müavini və büro üzvü seçilməyim bir daha onu göstərir ki,

[288] Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin çıxışı. - "Xalq qəzeti", 27 sentyabr 2002-ci il.

Avropa Şurası ilə Azərbaycan arasında, eləcə də Azərbaycan nümayəndə heyətinin üzvləri arasında heç bir problem yoxdur. Əksinə, əməkdaşlıq, gözəl münasibət var. Biz birlikdə çalışacağıq ki, Azərbaycanda gedən demokratik prosesləri daha da genişləndirək. Eyni zamanda, Azərbaycan nümayəndə heyəti AŞ PA-da öz mövqeyini müdafiə edəcəkdir. Ermənistanı təcavüzkar, işğalçı dövlət kimi ifşa edəcək və bizim milli maraqlarımızı müdafiə edəcəkdir"[289].

2004-cü ilin fevralın 25-də Avropa Şurasının Parlament Assambleyasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Terri Devisin Azərbaycana səfəri zamanı prezident İlham Əliyev Ermənistanın hərbi təcavüzü faktlarını bir daha vurğulayaraq Avropa Şurasının bu məsələyə siyasi qiymət verməsinin vacibliyini bildirdi[290].

Avropa Şurasının Baş katibi Valter Şvimmer 2004-cü il aprelin 8-də Azərbaycana səfəri zamanı Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının vacibliyini qeyd edərək, bu problemin Avropada "dondurulmuş münaqişə" adlandırılmasının qəti əleyhinə olduğunu bildirmişdir. Eyni zamanda, Baş katib problemin yalnız Azərbaycan, Ermənistan və Cənubi Qafqaz regionunun deyil, bütün Avropanın problemi olduğunu və bu səbəbdən münaqişənin Avropa səviyyəsində, sülh yolu ilə birdəfəlik həll edilərək

[289] Azərbaycan və Avropa Şurası. Bakı, 2009, s. 112.
[290] "Azərbaycan" qəzeti, 20 fevral 2004-cü il



regionda daimi sülhün təmin edilməsinin zəruriliyini bəyan etmişdir[291].

2004-cü il aprelin 29-da AŞ PA-nın növbəti yaz sessiyasında artıq Azərbaycan Prezidenti kimi iştirak edən cənab İlham Əliyevin Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü haqqında ətraflı çıxışı böyük rezonansa səbəb oldu və Avropa ictimaiyyətində bu münaqişə haqqında geniş təsəvvür yaratdı. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü vəziyyət haqqında geniş məlumat verən dövlət başçısı özünün qətiyyətli və prinsipial mövqeyini bir daha nümayiş etdirdi:"...Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara-köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin-Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin-Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik"[292].

Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 2005-ci il mayın 16-17-də Varşavada keçirilən 3-cü zirvə toplantısında iştirak edən Azərbaycan

[291] "Azərbaycan" qəzeti, 9 aprel 2004-cü il
[292] Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il aprelin 29-da AŞ PA-nın yaz sessiyasında çıxışı – "Azərbaycan", 1 may 2004-cü il.

Prezidenti İlham Əliyev öz çıxışında təşkilata üzv ölkələrin təhlükəsizliyi sahəsində mühüm işlərin görülməsinin vacibliyini bildirərək, Ermənistanın hərbi təcavüzünün ağır nəticələrini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Cənubi Qafqazın Avropanın ayrılmaz hissəsi olduğunu vurğulayan dövlət başçısı İlham Əliyev bu regionda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişafı üçün bütün səylərin birləşdirilməsinin zəruriliyini bildirərək qeyd etdi ki, bu, azad, vahid və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı[293].

Ümumiyyətlə, ölkəmizin qanunverici orqanı olan Milli Məclisin AŞ PA-dakı nümayəndə heyəti Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə düzgün şəkildə çatdırılmasında eləcə də, Avropa Şurası ilə əməkdaşlığın genişləndirilməsi və inkişafında mühüm rol oynamışdır. Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyəti tərəfindən onlarla sənəd hazırlanmış və şuranın rəsmi sənədləri kimi yayılmışdır. Belə ki, "Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı haqqında", "Dağlıq Qarabağda, zəbt olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi haqqında", "Ermənistanda və Dağlıq Qarabağda olan hərbi əsirlər və girovlar haqqında", "Qaçqın və məcburi köçkün uşaqların təhsili haqqında", "Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Laçın, Qubadlı, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan) ekoloji vəziyyət haqqında", "Azərbaycanın mədəni irsinin qəsb olunması və dağıdılması", "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi", "Azərbaycanda qaçqın qadın və uşaqların humanitar vəziyyətinə dair" və s. mühüm əhəmiyyət kəsb edən sənədlər 2001-2003-cü illər ərzində, yəni İlham Əliyevin parlament nümayəndə heyətinə rəhbərlik etdiyi dövrdə və eləcə də, sonrakı dövrdə Avropa Şurasının Parlament Assambleyasında qəbul edilmişdir[294].

Azərbaycan Respublikasının Parlament nümayəndə heyətinin səyi ilə AŞ PA-da münaqişə haqqında obyektiv müsbət rəyin formalaşması nəticəsində 2005-ci ilin qış sessiyasında qəbul edilən sənəd ölkəmiz üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, 2005-ci il yanvarın 25-də Devid Atkinsonun hazırladığı və AŞ PA-da müzakirəyə çıxarılan "ATƏT-in Minsk qrupu tərəfindən araşdırılan Dağlıq Qarabağ münaqişəsi" adlı məruzəsi qətnamə və tövsiyə adlanan iki hissədən ibarət idi[295].

---

293 "Azərbaycan" qəzeti, 20 may 2005-ci il

294 Destruction of the historical cemeteries and creation of new permanent "cemeteries" of catastrophe by Armenians in the occupied territories of the Republic of Azerbaijan. PACE. Doc.9516.2002, 8 July; Ecological situation in the Republic of Azerbaijan (Mountainous Karabakh, Shusha, Lachin, Gubatly, Zangilan, Kalbajar, Agdam, Fizuli, Jabrayil). PACE. Doc.9148. 2001, 27 June; Network of terrorist organisations supported by Armenia on the occupied territories of the Republic of Azerbaijan. PACE.Doc.9489,2002, 14 June; Nuclear technologies and nuclear waste in the occupied territories of the Republic of Azerbaijan. PACE. Doc.9444. 2002, 7 May; Settlement of civilian population by Armenia in the occupied territories of the Republic of Azerbaijan. PACE.Doc.10239, 2004, 29 June.

295 PACE. REC. 1690/2005. The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference.

Məruzənin 1416 saylı qətnamə hissəsində Azərbaycan ərazisinin böyük bir hissəsinin Ermənistan qoşunlarının işğalı altında olduğu, eləcə də Dağlıq Qarabağ regionuna hələ də separatçı qüvvələrin nəzarət etdiyi göstərilirdi. Bununla yanaşı, sənəddə qeyd edilirdi ki, Avropa Şurasının üzvü olan bir ölkənin başqa ölkənin ərazilərini işğal altında saxlaması həmin ölkənin öz üzərinə götürdüyü öhdəliklərə açıq-aşkar ziddir və Assambleya öz yerlərindən qaçqın düşmüş insanların geri qaytarılması hüququnu bir daha təsdiqləyirdi. Eyni zamanda, Assambleya BMT Təhlükəsizık Şurasının məlum qətnamələrinə əməl etməyə, eləcə də erməni silahlı qüvvələrinin bütün işğal olunmuş Azərbaycan ərazilərinə çıxarılmasına çağırırdı. Bu tələblər AŞ PA-nın 1690 saylı tövsiyəsində də öz əksini tapmışdır[296].

AŞ PA-da qəbul olunan bu qətnamənin yerinə yetirilməsinə nəzarət etmək üçün Dağlıq Qarabağ üzrə Alt komitə yaradıldı və Böyük Britaniyadan olan deputat lord Rassel Conston bu komitənin ilk rəhbəri seçildi. 2006-cı il yanvarın 9-da Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ problemi üzrə Alt komitəsinin Strasburqda keçirilən növbəti iclasında lord Rassel Constonun hazırladığı yeni hesabatda Azərbaycan ərazilərinin işğalı, Dağlıq Qarabağdakı rejimin separatçı olması, bir milyon azərbaycanlının yurdundan didərgin düşməsi və s. faktlar öz əksini tapdı.

[296] PACE. REC. 1416/2005. The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference.



Bu komitənin yaradılmasına Ermənistan tərəfi öz etirazını bildirsə də, lakin komitəyə sədrlik edən lord Rassel Consonun dövründə Ermənistanın Azərbaycana qarşı təcavüzü və Dağlıq Qarabağ məsələsi daim diqqətdə saxlanılmış, işğal olunmuş ərazilərdəki real vəziyyətlə bağlı mütəmadi olaraq hesabatlar hazırlanaraq Assambleya üzvlərinin diqqətinə çatdırılmışdır. Lord Rassel Constonun 2009-cu ilin yayında vəfatından sonra, Alt komitə fəaliyyətini faktiki olaraq dayandırmışdır. Lakin 2010-cu ildə AŞ PA-nın yay sessiyasında qurumun prezidenti Mövlud Çavuşoğlu Dağlıq Qarabağa dair Alt komitənin fəaliyyətinin yenidən bərpa olunacağını bəyan etmişdir.

Avropa Şurasının rəsmi sənədlərində Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması faktı dəfələrlə qeyd edilmiş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar bir beynəlxalq təşkilat kimi Avropa Şurası da müntəzəm olaraq öz mövqeyini bildirmişdir. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin sədri qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilmiş "parlament seçkiləri" ilə əlaqədar 2010-cu il mayın 26-da Strasburqda bəyanat vermişdir[297]. Bəyanatda, Nazirlər Komitəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin səylərini tamamilə dəstəklədiyini

[297] "Azərbaycan", 28 may 2010-cu il

bildirmiş və "seçkilərin" beynəlxalq təşkilatlar tərəfindən tanınmadığını bəyan etmişdir.

Bununla yanaşı, sənəddə Nazirlər Komitəsi bütün partiyaları, o cümlədən Avropa Şurasına üzvlüyə qəbul edilərkən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qurum qarşısında öhdəlik götürmüş Ermənistan və Azərbaycanı münaqişənin həllini tapmaq yolunda səylərini əsirgəməməyə çağırmışdır.

Ümumiyyətlə, Azərbaycanın Avropa Şurası ilə diplomatik münasibətləri son illər yüksələn xətt üzrə inkişaf etmişdir. Azərbaycan nümayəndə heyəti qurumun müxtəlif strukturlarında keçirilən tədbirlərdə iştirak edərək müzakirə edilən məsələlərlə bağlı ölkəmizin mövqeyini bu mötəbər qurumun kürsüsündən Avropa ictimaiyyətinə çatdırır. Eləcə də, Azərbaycanda gedən proseslər Avropa Şurası tərəfindən diqqətlə izlənilir və buna adekvat münasibət bildirilir.

Azərbaycanın Avropa Şurasının müvafiq qurumları ilə müxtəlif sahələrdə bir sıra tədbirlərin keçirilməsi də bu təşkilatla əməkdaşlığın bütün istiqamətlərdə uğurla inkişaf etdiyinə sübutdur. Buna misal olaraq 2008-ci il dekabrın 2-də Bakıda "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilən konfransda 48 dövlətin və 10 beynəlxalq təşkilatın başçısının iştirakı çox mühüm əhəmiyyət kəsb edir[298]. Belə ki, Avropa və müsəlman ölkələrinin tarixində mədəniyyətlərarası dialoq mövzusunda keçirilən ilk beynəlxalq tədbirdə yeni əməkdaşlıq prosesinin əsası qoyuldu.

Tədbirdə iştirak edən dövlət başçısı cənab İlham Əliyev Azərbaycanın mədəniyyətlərarası dialoqun genişləndirilməsinə böyük töhfə verdiyini bildirmişdir: "Biz bu gün müxtəlif ölkələrdən olan mədəniyyət nazirlərinin konfransını keçirməklə bir daha onu göstəririk ki, son illər ərzində Azərbaycan dini, milli və etnik tolerantlıq məsələlərində çox böyük uğurlara nail olmuşdur. Əslində bizim ölkəmizdə bütün insanlar müxtəlif dövrlərdə, ictimai-siyasi quruluşundan asılı olmayaraq, həmişə bir ailə kimi yaşamışlar".

Azərbaycan hökumətinin və Avropa Şurasının birgə təşkilatçılığı ilə keçirilən bu konfransda Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün təmin edilməsində mədəniyyətlərarası münasibətlərin perspektiv imkanları da müzakirə edilmişdir.

Ölkəmizin Avropa Şurası qarşısında götürülmüş öhdəliklər kontekstində əməkdaşlığına gəldikdə isə, Azərbaycan Parlamenti 31 maddədən ibarət Avropa Sosial Xartiyasının 18 maddəsini artıq Avropa Şurasına üzv olduqdan 3 il sonra ratifikasiya etmişdir. Belə ki, Azərbaycan hökuməti 2004-cü il yanvarın 6-da Avropa Sosial Xartiyasına qoşulmuşdur. Əsas məzmunu üzv ölkələrin əhalisinin sosial hüquqlarını müəyyənləşdirən Xartiyada əmək və sosial məsələlərlə bağlı ümumilikdə 31 hüquq öz əksini tapmışdır. Bundan əlavə, ölkəmiz Avropa Şurasının 55 konvensiyası və 8 hissəvi sazişinə də qoşulmuşdur. Onu da

[298] "Azərbaycan", 3 dekabr 2008-ci il

qeyd etmək vacibdir ki, təşkilata üzv qəbul olduqdan sonra İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatı da yaradılmışdır.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasına daxil olarkən bildirdiyi "Azərbaycan Avropanın çox dəyərli üzvü olacaqdır" sözləri artıq reallığa çevrilmişdir. Avropa Şurasında bu günə qədər əldə edilmiş uğurlar və Azərbaycanın Avropa inteqrasiya proseslərində iştirakı ölkəmizin bu beynəlxalq təşkilatla əlaqələrinin mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

Avropa Şurası ilə əməkdaşlığın genişləndirilməsi, ölkəmizin Avropaya inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından əhəmiyyətli olduğu üçün bu sahədə fəaliyyət Azərbaycan dövlətinin xarici siyasət prioritetlərindən biridir. Hazırda Azərbaycan Respublikası Avropa Şurasının insan hüquqlarının qorunması, demokratik proseslərin inkişaf etdirilməsi, qlobal problemlərin həllinə yardım göstərmək, beynəlxalq öhdəliklərə vicdanla əməl etmək kimi prinsiplərini rəhbər tutaraq, bu təşkilatla əməkdaşlığı yüksələn xətt üzrə inkişaf etdirir.



# FƏSİL V. AZƏRBAYCANIN AVROPA INTEQRASIYA PROSESLƏRINƏ QATILMASI. AVROPA İTTIFAQI ILƏ MÜNASIBƏTLƏR

## 5.1. Avropa İttifaqının fəaliyyət istiqamətləri

Avropa Birliyi (AB) iqtisadi əməkdaşlığın yeni hüquqi forması kimi meydana çıxmışdır. AB özündə həm beynəlxalq təşkilatlara xas olan əlamətləri, həm də federativ dövlətə xas əlamətləri birləşdirir. Belə bir qurumun yaradılması təklifi Fransanın o zamankı Xarici İşlər Naziri Robert Şuman tərəfindən sülhün bərqərar olması naminə irəli sürülmüşdür.

Belə bir fikir daha öncə Fransanın Milli Planlaşdırma İnstitutunun Başçısı Jan Monne tərəfindən də söylənilmişdir. Aralarında ərazi, mədəni, sosial və milli ayrılıqların olmasına baxmayaraq, onlar faşist Almaniyasının işğalına qarşı müqavimət göstərmiş ümumi Avropa dövlətlərini təmsil edən nəslin nümayəndələri idilər[299].

Robert Şumanın 1950-ci il mayın 9-dakı məruzəsi tarixi baxımdan AB-nin doğum günü hesab olunur və hər il "Avropa günü" kimi qeyd edilir. Avropanın yenidən müharibə girdabına yuvarlanmasına yol verməmək qarşıya qoyulan ən başlıca məqsəd idi. Fransa və Almaniya əsas resursların – kömür və poladın birgə işlənməsinin Avropada gələcək inteqrasiyasının əsasını təşkil edə biləcəyi qənaətinə

[299] Fact sheets on the European Union. Luxembourg, 2004, p.9.

gəldilər. Buna görə də Şuman kömür və polad istehsalına nəzarət edən birgə Ali Hakimiyyət orqanının yaradılmasını təklif etdi. Bu orqan Almaniya və Fransanın kömür və polad sənayelərinin bir-birindən qarşılıqlı asılılığını və nəticə etibarilə bu iki ölkə arasında müharibənin qeyri-mümkünlüyünü təmin etməli idi.

Beləliklə, Avropa Kömür və Polad Birliyi (AKPB) Ali Hakimiyyət orqanının, Nazirlər Şurasının, habelə Ədalət Məhkəməsinin və Parlament Assambleyasının yaradılması planlaşdırıldı.

AKPB Avropada ümumi kömür və polad bazarını yaratmaq və həmin bazara birgə nəzarət etmək, bu sərvətlərdən birgə istifadə etmək məqsədləri ilə təsis edilmişdir. İtaliya, Belçika, Hollandiya, Lüksemburq da Fransa və Almaniyanın səylərinə qoşularaq, 1951-ci il aprelin 18-də "Paris müqaviləsi"ni imzaladılar. Müqavilə 1952-ci il iyunun 23-də qüvvəyə mindi[300]. 1952-ci il avqustun 10-da Avropa Kömür Birliyinin Ali Hakimiyyət orqanı fəaliyyətə başladı. Lüksemburq bu təşkilatın müvəqqəti mənzil-qərargahı seçildi. Bununla da Avropanın inteqrasiyasına gedən yolda ilk addımlar atıldı.

1957-ci il martın 25-də Avropa İqtisadi Birliyi (AİB) və Avropa Atom Enerji Birliyinin (AAEB) yaradılması haqqında "Roma müqaviləsi" imzalandı və 1958-ci il yanvarın 1-də qüvvəyə mindi[301]. AİB Avropada gömrük ittifaqını yaratmaq, həmçinin ümumi bazar çərçivəsində insanların, xidmətlərin, kapitalın sərbəst hərəkətini təmin etmək məqsədi güdürdü. Böyük Britaniya isə, dəvət olunmasına baxmayaraq, nəinki Roma müqaviləsinə qoşulmadı, əksinə ona alternativ olaraq Avstriya, Danimarka, Norveç, Portuqaliya, İsveç, İsveçrə və Böyük Britaniyanı birləşdirən Avropa Azad Ticarət Assosiasiyasının yaradılmasında fəal rol oynadı.

Beləliklə, Roma müqaviləsi AB-nin əsasını qoyan müqavilə hesab olunur. Müqavilə iqtisadi məsələləri əhatə edən və bu sahədə əməkdaşlığın təməlini qoyan 248 maddədən ibarətdir. Maddələrin hər biri azad bazarın yaradılmasına xidmət edir. Əsas məqsəd Avropaya iqtisadi səmərə gətirəcək, davamlı iqtisadi inkişafı təmin edəcək və nəhayət, kommunizmin çökməsinə öz töhfəsini verəcək qarşılıqlı faydalı-iqtisadi əməkdaşlığım təməlini qoymaqdan ibarət idi.

Bununla yanaşı, 1952-55-ci illərdə Avropadakı inteqrasiya proseslərinə siyasi çalarlar qatmaq cəhdləri oldu. Avropa Müdafiə Birliyinin və Avropa Siyasi Birliyinin yaradılması istiqamətində atılmış səmərəli addımlar dövlətlərin suverenliyi və ərazi bütövlüyü kimi ənənəvi prinsiplərlə müəyyən ziddiyyətlər təşkil edir. 1955-ci ilin iyulunda Mesina şəhərində keçirilmiş görüş 6 dövlətin birgə iqtisadi ittifaqının yaradılması kimi olduqca əhəmiyyətli bir qərarın

[300] Fact sheets on the European Union. Luxembourg, 2004, p.9.



[301] Fact sheets on the European Union. Luxembourg, 2004, p.10.

qəbul edilməsi ilə nəticələndi. Belçikalı dövlət xadimi Pol Spakın təqdim etdiyi məruzə Roma müqaviləsinin əsasını qoydu[302].

1958-ci ildə R.Şuman sonralar Avropa Parlamentinə çevrilən AB Parlament Assambleyasının ilk prezidenti oldu. Roma müqaviləsinin II maddəsi inteqrasiya proseslərinin hansı sahələrə və nə üçün şamil ediləcəyini aydın surətdə göstərir. Beləliklə, Avropada inteqrasiya prosesləri Avropanın siyasi, iqtisadi və sosial gələcəyini dəyişəcək miqyasda ciddi və dönməz xarakter aldı. Müqavilədə qeyd olunurdu ki, əsas məqsəd "Avropa xalqlarının çox sıx ittifaqını" yaratmaqdır.

Bununla belə qeyd etmək lazımdır ki, Roma Müqaviləsinin bu şəkildə qəbul edilməsini, yəni əsas səlahiyyətlərin Birliyin mərkəzi orqanlarında deyil, üzv dövlətlərdə qalması tərəfdarlarının qələbəsi kimi də yozmaq olar. Çünki AB-nin yaradıcıları sırasında elə siyasətçilər də var idi ki, onlar AB-nin nüvəsi kimi AB-nin mərkəzi orqanlarını görmək istəyirdilər. Müqavilədə təsbit olundu ki, iqtisadi inteqrasiyaya üstünlük verilir və gələcək siyasi ittifaqa gedən uğurlu yol iqtisadi əməkdaşlıqdan keçməlidir.

Avropa Birliyinin əldə etdiyi uğurlar başqa dövlətləri də bu quruma daxil olmağa rulandırdı. 1961-ci ildə İrlandiya, Danimarka və Böyük Britaniya, 1962-ci ildə Norveç AB-yə daxil olmaq üçün müraciət etdilər. Lakin Fransa prezidenti Şarl de Qol Böyük Britaniyanın bu niyyətinə şübhə ilə yanaşırdı. O hesab edirdi ki, AB-nin qapılarını Böyük Britaniyanın üzünə açmaq elə ABŞ-ı arxa qapıdan AB-yə daxil etmək deməkdir. Buna görə də məhz Ş. De Qolun təkidli səyləri nəticəsində Böyük Britaniyanın Birliyə daxil olmaq üçün etdiyi müraciət rədd edildi və Birliyin genişləndirilməsi 10 ildən çox müddətə təxirə salındı. Amma bu 10 il ərzində AB əsas diqqəti 6 üzv arasında münasibətlərin daha da genişləndirilməsinə yönəltdi.

1965-ci ildə Romada imzalanmış müqaviləyə əsasən, 6 dövlət 3 təşkilatın-Avropa İqtisadi Birliyi, AAEB və AKPB-nin vahid orqanlarının yaradılması və AİB adı altında vahid Avropa Birliyinin təsis edilməsi haqqında Brüssel müqaviləsi imzalandı[303].

1971-ci ildə Lüksemburq müqaviləsi imzalanmış, həyati əhəmiyyətli məsələlər üzrə birgə qərarların qəbul edilməsi barədə razılıq əldə edilmişdir. 1973-cü ildə Danimarka, İrlandiya, Böyük Britaniya, 1981-ci ildə Yunanıstan, 1986-cı ildə isə Portuqaliya və İspaniyanın Avropa Birliyinə qəbul olması ilə bu təşkilatın üzvlərinin sayı 12-yə çatdı[304]. 1979-cu il martın 13-də valyuta dəyişmə mexanizmlərini ümumiləşdirmək məqsədilə Avropa Valyuta Sistemi təsis edildi. Bu 3 yeni üzvün yerləşdiyi coğrafi məkan AB-nin cənuba doğru genişlənməsini göstərirdi.

---

302 Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton. 1996, p. 1140-1141.

303 Шреплер Х. Международныеорганизации. Спр. М., 1994. с.165.

304 Fact sheets on the European Union. Luxembourg, 2004, p.11.

1993-cü il yanvarın 1-ə kimi vahid daxili bazar yaratmaq və siyasi əməkdaşlığı genişləndirmək məqsədilə 1985-ci ildə Dövlət və hökumət başçılarının Milan sammitindən sonra Vahid Avropa Aktının imzalanması inteqrasiya proseslərini sürətləndirdi. Bunu Avropa inteqrasiya prosesində mühüm addımlardan biri kimi qiymətləndirmək olar. Bu akt 1992-ci ilin 31 dekabrına kimi Avropada vahid bazarın tamamlanmasını nəzərdə tuturdu. Avropa Parlamentinə Avropa Birliyinin qərarları üzərində veto qoymaq hüququ verilmişdir.

Bundan əlavə, 1990-cı il "Şengen sazişi" əsasında 1993-cü ildən hər hansı iştirakçı dövlətdən alınmış viza əsasında vətəndaşlar Avropa Birliyi üzvü olan ölkələrinin sərhədlərini keçmək hüququnu əldə edirdilər[305].

1992-ci il fevralın 7-də Hollandiyanın Maastrixt şəhərində Avropanın 12 dövlət başçısı tərəfindən Avropa İttifaqının yaradılması haqqında müqavilə imzalandı. Müqavilədə Roma müqaviləsinin müddəalarına bir sıra düzəlişlər olundu və bu sənəd 1993-cü il noyabrın 1-dən qüvvəyə mindi[306]. Müqaviləyə Avropa İqtisadi və Valyuta İttifaqının yaradılması, eləcə də bu qurum çərçivəsində vahid valyutaya keçmə prosesinə dair bir sıra maddələr daxil edildi. Həmin vaxtdan Avropa Birliyi Avropa İttifaqı (Aİ) adlanmağa başlandı.

---

[305] Rəcəbli H., İbayev V. Avropa beynəlxalq təşkilatları. Bakı.1999, s. 59.

[306] Шреплер X. Международные организации. Спр. М., 1994. с.151.



Aİ ilə bağlı müqavilə köklü dəyişikliklərə gətirib çıxardı. İttifaqın 2 səviyyədə inkişaf etdirilməsi barədə razılaşma Britaniyanı qane edirdi. Razılaşmaya görə dövlətlərə istəmədikləri sahələr üzrə əməkdaşlıqdan kənarda qalmaq hüququ verilirdi. Məsələn, Sosial Xartiyaya qoşulmayan dövlət vahid bazar ilə əlaqədar məsələlərdə iştirak edə bilərdi.

Beləliklə, Aİ-nin strukturu da "üçpilləli sistem" yaratmaqla dövlətlərüstü qurumlar ilə dövlətlərarası qurumlar arasında heç də rəvan olmayan rəqabəti özündə əks etdirirdi. Dövlət suverevliyinin itirilməsindən narahat olanlar üçün bu böyük müvəffəqiyyət idi. Aİ üçpilləli sistemə çevrildi və hər pillə, nəticədə dövlətlərüstü münasibətlərin hüdudlarını müəyyənləşdirmək hüququ qazanırdı.

Birinci pillə AKPB-ni birləşdirən AB-dən ibarət olacaqdı. Avropa İttifaqına geniş səlahiyyətlər veriləcəkdi və həm də Avropa Komissiyasının səlahiyyətlərindən doğan hüquqi aktlara görə, qərarların qəbul edilməsində Birlik metodu üstünlük təşkil edəcəkdi. Digər 2 pillə isə qərar qəbuletmə prosesində dövlətlərarası yanaşmanı qoruyub saxlayacaqdı. İkinci pillə İttifaqın xarici və təhlükəsizlik siyasətini əhatə edəcəkdi. Bu sahələrdə İttifaq ümumi mövqedən çıxış etsə də, müdafiə məsələlərində dövlətlər tam suverenliyini qoruyub saxlayacaqdı. Bütün qərarların qəbul olunması üçün yekdilliklə səsvermə prinsipi tətbiq ediləcəkdi. Üçüncü pilləyə gəldikdə isə, daxili işlər və ədliyyə sahələrində (o cümlədən, transmilli cinayətkarlığa qarşı mübarizə, qaçqınlara sığınacaq verilməsi sahələrində) əmək-

daşlıq məsələlərində üzv dövlətlər suverenliklərini hələlik qoruyub saxlayırlar.

Üçpilləli sistem İttifaq daxilində güc və səlahiyyətlərin kimdə olmasını aydın surətdə göstərir. Birinci pillədə Avropa Parlamenti və Avropa Komissiyası daha artıq rola malikdilər, lakin II və III pillələrdə səlahiyyətlərə nəzarət Aİ-nin Nazirlər Şurasında cəmləşir. Maastrixt Müqaviləsinin 36-cı maddəsi subsidiarlıq prinsipinə də aydınlıq gətirdi. Britaniya bu prinsipi əsas müdafiəçilərindən idi və belə hesab edirdi ki, subsidiarlıq Avropa Komissiyasının və İttifaqın digər orqanlarının səlahiyyətlərinə məhdudlaşdırıcı nəzarət qoyur. Maddədə aydın surətdə deyilir ki, İttifaq "Müqavilənin ona verdiyi səlahiyyətlər çərçivəsində və yalnız o hallarda qərar qəbul edəcəkdir ki, təklif olunan qərar üzv dövlətlərin özləri tərəfindən qaneedici səviyyədə qəbul edilə bilməsin".

Müqaviləyə razılaşmanın müxtəlif aspektləri üzrə 17 protokol və 33 müraciət əlavə edilmişdir[307]. Müqaviləyə əsasən XX əsrin axırında Avropada ümumi müdafiə və valyuta iqtisadi ittifaqı da daxil olmaqla siyasi ittifaq yaratmaq nəzərdə tutulmuşdur. Müqaviləyə Avropa İqtisadi və Valyuta İttifaqının yaradılması və bu qurumun çərçivəsində vahid valyutaya keçmə prosesinin cədvəlinə dair bir sıra maddələr daxil edilmişdi. Aİ barədə Müqavilə son 40 il ərzində Avropada inteqrasiya prosesləri sahəsində əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirdi və İttifaqın

[307] Fact sheets on the European Union. Luxembourg, 2004, p.15.



gələcəkdə genişlənməsi üçün yol açdı. Maastrixt müqaviləsi həm də ilk dəfə olaraq Avropada Ümumi Xarici Siyasət prinsiplərinin həyata keçirilməsini təsbit etməklə Avropa inteqrasiyasının dayağı sayılan ümumi xarici və təhlükəsizlik siyasətinin əsası qoyulmuş oldu.

1994-cü il yanvarın 1-də Frankfurt şəhərində Avropa Valyuta İnstitutunun təsis edilməsi ilə yanaşı, Avropa Mərkəzi Banklar Sisteminin və Avropa Mərkəzi Bankının nizamnaməsi tərtib edildi. 1995-ci ildə Avstriya, Finlandiya və İsveç Avropa İttifaqına qəbul olduqdan sonra təşkilatın üzvlərinin sayı 15-ə çatdı və İttifaqın genişlənməsinin əsası qoyuldu[308].

1999-cu il yanvarın 1-dən Avropa valyutalarının bir-birinə münasibətdə və təsdiq edilmiş ümumi pul vahidi olan-"Avro"-ya qarşı məzənnələr təsdiq edildi. Böyük Britaniya, Danimarka, İsveç və Yunanıstan istisna olmaqla, Avropa İttifaqının üzvü olan 11 dövlət Avropa İqtisadi və Valyuta İttifaqına daxil oldu.

Böyük Britaniyanın daha da dərinləşmənin əleyhinə olmasına baxmayaraq, 1997-ci il oktyabrın 2-də dövlətlərarası Amsterdam sazişi imzalandı. Saziş sosial sahədə əməkdaşlığın gücləndirilməsini və Avropa İttifaqı çərçivəsində əhalinin miqrasiyasının liberallaşdırılmasını nəzərdə tuturdu. Maastrixt müqaviləsinə əsasən Avropa İttifaqının Ümumi Xarici və Təhlükəsizlik siyasətinin təməli qoyuldusa, Amsterdam müqaviləsinə əsasən isə Ümumi Xarici və

[308] İbadov R. Avropa İttifaqının əsasları. Bakı, 2004, s.39.

Təhlükəsizlik siyasəti üzrə Ali Nümayəndə vəzifəsi də təsis edildi[309].

Amsterdam Müqaviləsinə əsasən birgə qərar qəbuletmə proseduru sadələşdirildi və Avropa Parlamentinin inteqrasiya proseslərində səlahiyyətləri genişləndirildi. Amsterdam Zirvə görüşünə toplaşan Dövlət və Hökumət başçıları belə qənaətə gəldilər ki, İttifaqın tarixində ən böyük genişlənməyə və vahid valyutanın qəbul edilməsinə hazırlıq bir sıra sahələr üzrə qərar qəbul edilməsi prosedurlarında dəyişiklik edilməsini zəruri edir.

Bundan başqa, bu müqavilə Maastrixt Müqaviləsində razılaşdırılmayan məsələlərə də yenidən qayıtmağı, ümumi təhlükəsizlik və müdafiə siyasətinin işlənib hazırlanması sahəsində indiyə qədər əldə edilmiş nailiyyətləri möhkəmləndirməyi, İttifaq daxilində qərarların qəbulu prosedurlarında islahat aparmağı və Avropa İttifaqını vətəndaşlara daha da yaxınlaşdırmaq barədə öhdəliklər götürməyi nəzərdə tuturdu.

Dövlətlərüstü qurumların səlahiyyətlərinin genişləndirilməsi tərəfdarları kimi çıxış edən qüvvələr üzv dövlətlər arasında siyasi, iqtisadi və sosial sahələrdə sıx əməkdaşlığa və daha çox federal ittifaqın qurulmasına çalışırdılar. Bunun əksinə olan və Böyük Britaniyanın liderlik etdiyi qüvvələr isə dövlətlərarası əməkdaşlığa, məhdud siyasi inteqrasiyaya üstünlük verir, dövlətlərin suverenliyinə xələl gətirən əməkdaşlıqdan qaçmağa çalışırdılar. Məhz elə buna görə də onlar

[309] Fact sheets on the European Union. Luxembourg, 2004, p.15.



vahid valyuta olan avro-ya və ümumi viza sistemini nəzərdə tutan Şengen Sazişinə qoşulmadılar. Onların fikrincə, bu müqavilələr dövlətlərin müstəqilliyinə və suverenliyinə təhlükə yaradırdı. Böyük Britaniyanı və İrlandiyanı çıxmaq şərtilə, Amsterdam Müqaviləsi Avropa İttifaqına üzv olan ölkələr arasında insanların sərbəst hərəkətinin təmin edilməsi istiqamətində ciddi tərəqqiyə gətirib çıxardı.

XX əsrin sonu – XXI əsrin əvvəllərində NATO Avropa dövlətlərini hərbi və təhlükəsizlik məsələləri baxımından bir araya gətirə bildiyi halda, Avropa İttifaqının genişlənməsi təkcə Avropanın bütövləşməsinə xidmət etmirdi, eyni zamanda ümumavropa siyasi və iqtisadi məkanına Avropanın şərqində və cənubunda yeni qonşuların birliyə qoşulması perspektivlərini açırdı ki, bunun nəticəsində müdafiə və siyasi məkanın hüdudları üst-üstə düşməklə regional təhlükəsizliyin yeni forması təşəkkül tapmağa başladı[310].

2001-ci il fevralın 26-da Nis müqaviləsi imzalandıqdan sonra Yunanıstan avro zonasının sayca 12-ci üzvü oldu. 2002-ci il yanvarın 1-dən avro sərbəst olaraq dövriyyəyə buraxıldı və milli valyutalar həmin ilin iyul ayına qədər tam olaraq dövriyyədən çıxarıldı[311]. 2003-cü il fevralın 1-də Avropa İttifaqına üzvlüyə namizəd olan 10 ölkə ilə müqavilələr imzalandı və Nis müqaviləsi qüvvəyə mindi. Qeyd etmək lazımdır ki, Nis Müqaviləsi müəyyən irəlilə-

[310] Европейский Союз на пороге XXI Века /Под ред. Ю. А. Борко. М., 2001, с.164.

[311] Fact sheets on the European Union. Luxembourg, 2004, p.17.

yişlərə təkan versə də, dərin, köklü islahatların axıra qədər aparılmasına nail ola bilmədi. Nis Müqaviləsi ilə əlaqədar çağırılmış Dövlət və Hökumət Başçılarının Nis Zirvə görüşündə aparılan müzakirələr aydın göstərdi ki, hələ də üzv dövlətlər arasında müxtəlif məsələlərlə bağlı ciddi fikir ayrılıqları qalır.

2004-cü il may ayının 1-də Kipr, Malta, Polşa, Çex Respublikası, Slovakiya, Sloveniya, Macarıstan, Latviya, Litva və Estoniya, 2007-ci il yanvarın 1-də isə Bolqarıstan və Rumıniya İttifaqa üzv qəbul oldular. Beləliklə, Avropa İttifaqının genişlənməsi nəticəsində təşkilatın üzvlərinin sayı 27-yə çatmış oldu. Türkiyə Avropa İttifaqına namizəd kimi tanınmasına baxmayaraq, İttifaq bu dövlətlə qəbul məsələsi ilə əlaqədar heç bir danışıqlara başlamamışdır. Avropa İttifaqı yeni siyasi xətti – "Genişləndirilmiş Avropa" layihəsi ilə (2003-cü il) 25 üzv dövləti və 450 milyon insanı əhatə etmiş oldu.

## 5.2. Azərbaycanın Avropa İttifaqı ilə əlqələrinin yaranması

Cənubi Qafqazda öz geosiyasi və geoiqtisadi maraqlarını, enerji, nəqliyyat-kommunikasiya və tranzit təhlükəsizliyini təmin etmək məqsədilə fəal siyasət yürüdən, bölgə



ölkələrilə tərəfdaşlıq münasibətlərinə xüsusi can atan dünya güc mərkəzlərdən biri də Avropa İttifaqı hesab olunur[312].

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə islahatların həyata keçirilməsi və dünya inteqrasiya proseslərinə daha sıx cəlb olunması prosesində qısa müddət ərzində bir sıra beynəlxalq və regional təşkilatlarla çoxtərəfli əlaqələr yaratmışdır.

Müstəqilliyin ilk illərində Avropa İttifaqı ilə münasibətlər "MDB ölkələrinə texniki yardım" (TASIS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRASEKA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (INOGATE), "humanitar yardım" (ECHO) və digər proqramlar çərçivəsində inkişaf etdirilmişdir[313].

SSRİ süqut etdikdən sonra, 1991-ci ildə Avropa İttifaqı yeni müstəqil dövlətlərə texniki yardım və ekspert köməyi vasitəsilə demokratik islahatlar keçirmək, bazar iqtisadiyyatı infrastrukturlarını yaratmaq, ölkələr arasında ticarət, nəqliyyat, gömrük işlərini inkişaf etdirmək üçün xüsusi TASİS proqramı hazırlamışdır. 1993-cü ilin sonlarında Bakıda Avropa İttifaqının MDB ölkələrinə texniki yardım proqramı nümayəndəliyinin açılması ilə Azərbaycan iqtisadiyyatının bütün sahələrinin Avropa modeli üzrə yenidən qurulması prosesi başlanmışdır.

---

[312] Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, s.245.
[313] Yenə orada, s.245.

TASİS proqramının Azərbaycanla bağlı hissəsində əməkdaşlığın üç əsas istiqamətinə üstünlük verilir: infrastruktur, özəl sektor və insan resurslarının inkişafı. Bundan başqa, TASİS-in Azərbaycanla əlaqədar əsas çoxtərəfli şəbəkə layihələri mövcuddur. Bunlar 1995-ci ildən başlayaraq ali təhsil müəssisələrinə və onların əməkdaşlarına yardım göstərən TEMPUS proqramı, neft və qaz kəmərləri sisteminin regional inteqrasiyasını təmin etmək məqsədilə yaradılan İNOQEYT proqramı və TRASEKA-dır.

TASİS proqramı bir çox proqram və layihələrə maliyyə və texniki dəstək göstərməkdədir. Bundan əlavə, sözügedən maliyyə yardımı həmçinin Yoxsulluğun Azaldılması üzrə Milli Proqramın həyata keçirilməsində də istifadə olunur. Bu sahədə ölkəmiz idarəetmə, iqtisadi inkişaf, investisiya mühitinin yaradılması, ətraf mühitin qorunması sahəsində bir sıra qanun islahatları aparmışdır. Əsas məqsədlərdən sayılan yoxsulluğun azaldılmasına dair, orta müddətli iqtisadi inkişaf, maliyyə siyasətindəki yeni addımlar TASİS qarşısında həyata keçirilən öhdəliklərdəndir. Ölkəmizin bu sahədə TASİS Milli Koordinatoru İqtisadi inkişaf naziridir. İndiyə qədər Avropa İttifaqı tərəfindən ölkəmizə aşağıdakı sahələrdə 2004-cü ilə qədər 430 mln avro məbləğində maliyyə yardımı edilmişdir:

- Qaçqın və məcburi köçkünlərə ərzaq yardımı;
- Enerji layihələri, nəqliyyat, nüvə və ərzaq təhlükəsizliyi, infrastruktur islahatları;
- Müharibə nəticəsində ziyan çəkmiş bəzi ərazilərin bərpa olunması (Füzuli rayonundakı dəmiryol stansiyası,



elektrik ötürücülərinin yenidən qurulması, içməli su və suvarma sisteminin bərpası, məktəblərin təmiri).

Bununla əlaqədar yoxsulluqla mübarizə və iqtisadi inkişafa dair (2003-2005) dövlət proqramı, turizmin inkişafı (2002-2005), müxtəlif regionların sosial-iqtisadi inkişafı (2004-2008) və həmçinin informasiya texnologiyalarının inkişafına dair (2003-2012) dövlət proqramlarını qeyd etmək olar. Bu proqramların başlıca məqsədi qeyri-neft sektorunun inkişafı və Azərbaycandakı müxtəlif regionların iqtisadi inkişafını nəzərdə tutur.

2004-2006-cı illər üçün TASİS proqramı çərçivəsində Azərbaycana 30 mln. avro məbləğində yardım nəzərdə tutulubdur. Bu xüsusda, təşkilatı, hüquqi, idarəçilik islahatları üçün 17 mln avro və iqtisadi inkişaf və özəl sektora dəstək sahəsində isə 13 mln avro məbləğində maliyyə yardım edilməsi planlaşdırılır. Bundan əlavə, 2004-2006-cı illər üçün Avropa İttifaqı tərəfindən yalnız ərzaq təhlükəsizliyi məqsədləri üçün əlavə 30 mln. avro məbləğində vəsait ayrılacaqdır.

Ümumiyyətlə, 2000-2006-cı illər üçün nəzərdə tutulan texniki yardım proqramı 2 sahəni – dövlət və özəl sektor (sosial məsələlər daxil olmaqla) – əhatə edən bir proqramdır. Dövlət sahəsində proqram çərçivəsində gömrük və vergi sisteminin müasirləşdirilməsi, idarəçilik, demokratiya və insan hüquqları sahəsində islahatların davam etdirilməsi, ekologiya və ətraf mühitin davamlı inkişafının təmin etdirilməsi, pensiya sisteminin beynəlxalq standartlar ilə uyğunlaşdırılması, sosial vəziyyətin yaxşılaşdırılması kimi

məsələlər nəzərdə tutulur. Əlavə olaraq TEMPUS proqramı çərçivəsində təhsil sistemində də islahatların aparılmasına yardım planlaşdırılır.

"Yeni İpək Yolu" adlandırılan TRASEKA proqramı Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirən bir proqramdır. TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Brüsseldə 1993-cü il may 3-də keçirilmiş 8 təsisçi dövlətin (5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri) ticarət və nəqliyyat nazirlərinin Konfransında təsis olunmuşdur. "Brüssel Bəyannaməsi" adlanan iki rəsmi sənəddə qədim Şərq-Qərb "İpək yolu" dəhlizinin yeni şəraitdə bərpası, nəqliyyat-kommunikasiya infrastrukturlarının yenidən qurulması və inkişaf etdirilməsi qərara alınmışdır[314].

Proqramın məqsədi qeyd edilən dövlətlərin siyasi və iqtisadi müstəqilliyini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək və Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə ən tez və ən ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir.

1998-ci il sentyabrın 8-də Bakıda Azərbaycan və Gürcüstan Prezidentlərinin təşəbbüsü və Avropa İttifaqının TRASEKA proqramının dəstəyi ilə "Tarixi İpək Yolunun bərpası" adlı Beynəlxalq Konfrans keçirilmişdir. 32 ölkə və 12 beynəlxalq təşkilat nümayəndələri bu konfransda iştirak

[314] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.494-495.



etmişlər. Konfransın sonunda "Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizinin inkişafına dair çoxtərəfli saziş" adlanan mühüm bir sənədlə yanaşı, iştirakçılar adından Avrasiya ölkələri arasında hərtərəfli əməkdaşlığı və regional inteqrasiyanın əsas prinsiplərini əks etdirən "Bakı Bəyannaməsi" də imzalanmışdır[315].

Konfransda əldə edilmiş ən mühüm nailiyyət Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkiyə, Ukrayna, Moldova, Rumıniya və Bolqarıstanın imzaladığı "Avropa-Qafqaz-Asiya Dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə Əsas Çoxtərəfli Saziş" (Əsas Saziş) və onun Texniki Əlavələri olmuşdur.

Texniki Əlavə sənədlər bunlardır:

- beynəlxalq dəmiryolu nəqliyyatı
- beynəlxalq yol nəqliyyatı
- beynəlxalq kommersiya dəniz gəmiçilik naviqasiyası
- gömrük prosedurları və sənədlərin təhvili

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əsas razılaşma və Texniki Əlavələrin Depozitarıdır.

Əsas razılaşmanın müddəalarının tətbiqi və icrası ilə bağlı məsələlərin tənzimlənməsi üçün üzv dövlətlər Hökumətlərarası Komissiyanın (HK) yaradılması razılığına gəlmişlər. HK üzv-dövlətlərin nümayəndələrinin təmsilçiliyi əsasında Əsas razılaşmaya əsasən yaradılmış və qərar qəbul etmək səlahiyyətinə malik olan orqandır.

[315] Yenə orada, s.495.

TRASEKA layihəsi Azərbaycanla 25 texniki və 11 investisiya layihəsinin həyata keçirilməsini dəstəkləyir ki, bu layihələrin 26-da Azərbaycanın payı ümumilikdə 100 milyon avro məbləğindən də artıqdır[316].

2001-ci il fevralın 21-də Avropa İttifaqının yüksək rəsmilərinin iştirakı ilə Hökumətlərarası Komissiyanın TRASEKA Daimi Katibliyinin Ofisinin Bakıda açılışı keçirilmişdir. İştirakçılar arasında Xarici İşlər Naziri, İsveçin Avropa İttifaqındakı sədrliyinin nümayəndəsi Anna Lind, Avropa İttifaqının Xarici Münasibətlər üzrə Komissarı Kristofer Patten, Avropa İttifaqının Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Xavyer Solana olmuşdur.

INOGATE (Avropaya dövlətlərarası neft və qazın ixracı) Aİ-nin yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirilən əsas regional təşəbbüslərdən biridir. 1999-cu ilin iyul ayında Azərbaycan Respublikası da daxil olmaqla 15 dövlətin iştirakı ilə imzalanan dövlətlərarası neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi INOGATE-in hüquqi bünövrəsini təşkil edir.

Proqramın 1-ci fazası ümumi məbləği 50 milyon avrodan artıq olan 10 layihənin həyata keçirilməsini nəzərdə tutur ki, bu layihələrdən 5-i bilavasitə Azərbaycanla əlaqədardır. İNOGATE yeni müstəqil dövlətlər və Azərbaycana münasibətdə trans-sərhəd layihələrinin həyata keçirilməsi üçün yeni perspektivlər yaradır və hidrokarbon mənbələrinin tranziti ilə bağlı beynəlxalq razılaşmalarm üstünlükləri əsasında beynəlxalq maliyyə institutları və xüsusi investisiya fondları tərəfindən investisiyanın cəlb edilməsi məqsədləri üçün katalizator rolunu oynayır.

[316] Əhmədov E. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı Avroatlantik institutlara inteqrasiya prizmasında. – "Diplomatiya aləmi" – № 29, 2010-cu il, s.51-56.



INOGATE çərçivəsində həyata keçirilən texniki əməkdaşlığa əlavə olaraq, Avropa İttifaqının zəngin təbii ehtiyatlara və strateji coğrafi əraziyə malik olan Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinin enerji təminatını və tranzit potensialının səmərəli istifadəsinə yönəlmiş fəaliyyətində AQS-a daxil olan ölkələr daxil olmaqla bütün maraqlı tərəfdaşların dəstəyi ilə enerji əməkdaşlığı prosesini genişləndirməkdədir. Bu əməkdaşlıq "Bakı Prosesi" təşəbbüsü ilə gücələnmişdir. "Bakı Prosesi" (və ya Bakı Təşəbbüsü) 2004-cü il noyabr 13-də Bakıda Enerji Nazirliklərinin Konfransında Avropa İttifaqı, Qara Dəniz və Xəzər dəniz hövzəsi ölkələri arasında enerji sahəsində əməkdaşlığın gücləndirmək məqsədi daşıyan siyasi dialoq şəklində başladılmışdır.

Avropa İttifaqının 10 üzv ölkəsinin 18 qeyri-hökumət təşkilatından ibarət olan ECHO humanitar təşkilatı Azərbaycanda humanitar sahədə həyata keçirilən layihələrin maliyyələşdirilməsi ilə məşğul olur[317]. Bu günə qədər ECHO-nun maliyyə dəstəyi vasitəsilə səhiyyə, sanitariya, ərzaq yardımı və digər sahələr üzrə 25-dən çox layihə həyata keçirilmişdir. ECHO vasitəsilə 1993-ci ildən bəri

[317] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.497.

Azərbaycana 100 milyon avrodan çox yardım göstərilmişdir.

XİN-in Avropa Komissiyası ilə apardığı iş nəticəsində 1993-cü ildə ərzaq yardımı çərçivəsində Azərbaycana 68 milyon ekyu həcmində kredit açılmışdır ki, bu da ərzaq və tibbi ləvazimatların alınması məqsədilə istifadə olunmuşdur. Aİ Şurası Avropa Komissiyasının tövsiyəsi əsasında Azərbaycana, Beynəlxalq Valyuta Fondunun dəstəyi ilə həyata keçirilən iqtisadi proqramlar zamanı yaranmış sosial problemləri həll etmək üçün 30 milyon ekyu həcmində maliyyə yardımı ayrılması haqqında qərar vermişdir. Yardımın 1998-ci ildən 2000-ci ilə qədər 3 bərabər tranşda (10 milyon ekyu) verilməsi razılaşdırılmışdır.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlərin hüquqi əsası "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" (TƏS) ilə qoymuşdur. Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan bu sənəd 1996-cı il aprelin 22-də Lüksemburq şəhərində imzalanmışdır. Sənədi imzalamış bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1999-cu il iyulun 1-də qüvvəyə minmişdir. Mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüququ baza rolunu oynayır[318].

Müqavilənin məqsədləri aşağıdakılardır:

[318] "Xalq qəzeti", 14 avqust 2009-cu il.



• Müvafiq siyasi dialoq çərçivəsində tərəflər arasında siyasi münasibətlərin inkişafının təmin edilməsi;

• Azərbaycanda demokratiyanın möhkəmlənməsi, iqtisadi inkişaf və bazar iqtisadiyyatına keçid cəhdlərinin dəstəklənməsi;

• Ticarət və investisiyanın inkişafı, iqtisadi, sosial, maliyyə, elmi, texniki və mədəni əməkdaşlıq

TƏS əməkdaşlığı möhkəmləndirmək üçün müvafiq mexanizmlər təmin etməklə, Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlərə yeni təkan vermişdir. Bu Saziş siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər əməkdaşlıq sahələrində genişmiqyaslı əməkdaşlığı nəzərdə tutur. Onun əsas məqsədlərindən biri Azərbaycan qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması təşkil edir.

TƏS-ə əsasən, Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında ikitərəfli mütəmadi dialoqun aparılması məqsədilə Əməkdaşlıq Şurası, Əməkdaşlıq Komitəsi, Parlamentlərarası Əməkdaşlıq Komitəsi, Ticarət, İqtisadiyyat və Əlaqədar hüquqi məsələlər üzrə Alt komitə və enerji, nəqliyyat və ətraf mühit məsələləri üzrə Alt-komitə kimi strukturlar yaradılmışdır. Əməkdaşlıq Şurası əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirir, Əməkdaşlıq Komitəsi isə Şuraya tövsiyələr verməklə yardım edir. Ticarət, iqtisadi və əlaqədar hüquqi məsələlər, həmçinin enerji, nəqliyyat və ətraf mühit məsələləri üzrə Alt komitələr Əməkdaşlıq Komitəsinin nəzdində fəaliyyət göstərir.

2004-cü il mayın 17-19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Brüsselə rəsmi səfəri zamanı Avropa İttifaqına 10 üzvün qoşulması ilə əlaqədar olaraq "Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş"ə Əlavə Protokol imzalanmışdır.[319]

Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişin 43-cü maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunlaşdırılması sahəsində üzərinə götürdüyü öhdəliyinin icra edilməsi məqsədilə Avropa İttifaqının hüquq ekspertlərinin dəstəyi ilə "Azərbaycan qanunvericiliyinin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması üzrə 2010-2012-ci illər üçün Tədbirlər Planı" hazırlanmış və Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının 23 oktyabr 2009-cu ildə keçirilmiş 3-cü iclasında təsdiq edilmişdir.

Avropa İttifaqının Azərbaycanla əlaqələri təkcə TRASEKA layihəsi və "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" çərçivəsində deyil, həm də Cənubi Qafqazda həyata keçirilən ümumi regional əməkdaşlıq layihəsi, eyni zamanda bölgədə sülhün və sabitliyin təmin olunmasına dair digər proqramlar çərçivəsində reallaşır.

Cənubi Qafqazda mövcud olan münaqişələrin aradan qaldırılması, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli, region dövlətləri arasında vahid əməkdaşlıq və təhlükəsizlik sisteminə inteqrasiya mühitinin yaradılması da Avropa İttifaqının əsas şərtlərindəndir.

---

319 "Azərbaycan", 20 may 2004-cü il.



Avropa İttifaqı öz nümayəndəsini 1998-ci ildə Azərbaycana göndərmiş, 2000-ci ildə isə Brüsseldə Azərbaycanın Avropa İttifaqında Daimi Nümayəndəliyi açılmışdır. Bundan əlavə, 2008-ci il fevralın 4-dən Bakıda Avropa Komissiyasının Azərbaycan Respublikasındakı Nümayəndəliyi fəaliyyət göstərir.

2003-cü il iyulun 7-də Avropa İttifaqı Cənubi Qafqaz üzrə Xüsusi nümayəndəsini təyin edilməsi təşkilatın regionda fəallığının artmasını göstərən addım kimi qiymətləndirilməlidir[320]. Eyni zamanda, Avropa Parlamenti də Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsinə mane olan Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının vacibliyini bildirmişdir.

Avropa Parlamentinin sessiyasında "Avropa İttifaqının Cənubi Qafqaz siyasəti" mövzusunda Pyer Qartonun məruzəsi əsasında qəbul edilmiş qətnamədə ermənilərin işğal etdikləri ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə apardıqları göstərilmişdir[321]. Bununla yanaşı, Avropa Parlamenti Cənubi Qafqazda təhlükəsizliyin bərqərar olmasına mane olan münaqişənin nizama salınması üçün işğal olunmuş Azərbaycan ərazilərinin (Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) azad edilməsi təklifi ilə də çıxış etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il martın 22-də Avropa İttifaqının Cənubi Qafqaz

---

320 Comission of the European Communities. "European Neigbourhood Policy", Country Report Azerbaijan. Brussels, 2005, p.3.

321 "Xalq qəzeti", 13 mart 2004-cü il.

üzrə xüsusi nümayəndəsi Heyki Talvityenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir[322]. Görüşdə Heyki Talvitye beynəlxalq ictimaiyyətin bu məsələ ilə əlaqədar öz ədalətli mövqeyini bildirəcəyinə və münaqişənin öz həllini tapacağına ümid etdiyini bildirdi.

Dövlət başçısı cənab İlham Əliyev 2004-cü il martın 17-də Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda keçirilən beynəlxalq konfransda Ermənistanın işğalçılıq siyasətinin bütünlüklə Avropada, xüsusilə, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsinə ciddi maneə olduğunu vurğulayaraq, təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizdən çoxunun işğal olunduğunu, nəticədə bir milyondan artıq insanın acınacaqlı vəziyyətdə yaşadığını bildirməklə ölkəmizin prinsipial mövqeyini bəyan etmişdir[323].

2004-cü il mayın 12-də Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçisi Pyer Qarton Ermənistanda "Genişlənmiş Avropa – yeni qonşular" proqramı çərçivəsində keçirilən müzakirələrdə "Ermənistan işğal altında saxladığı ərazilərdən öz qoşunlarını tədricən çıxarmalıdır" deməklə

[322] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etmişdir – Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı, 2011, s.110-112.

[323] Azərbaycan prezidenti İlham Əliyevin 2004-cü il martın 17-də Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda keçirilən beynəlxalq konfransda çıxışı – "Azərbaycan", 23 mart 2004-cü il.



Avropa İttifaqının Cənubi Qafqaz regionunda münaqişənin tezliklə aradan qaldırılmasının tərəfdarı olduğunu bildirdi[324].

Ümumiyyətlə bu beynəlxalq təşkilat müxtəlif vaxtlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar öz mövqeyini bildirmişdir. Belə ki, ilk dəfə Avropa Birliyi kimi 1993-cü il aprelin 7-də bəyanatla çıxış etmişdir[325]. Bəyanatda deyilirdi ki, Birlik və onun üzvü olan ölkələr Ermənistan və Azərbaycan Respublikaları arasında Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar münasibətlərin pisləşməsindən ciddi təşviş keçirir, Kəlbəcər və Füzuli rayonlarında döyüş əməliyyatlarının genişlənməsindən təəssüflənirlər. Birlik üzvləri ATƏM-in Minsk Qrupu çərçivəsində danışıqları davam etdirməyə çağırırdılar.

Bundan əlavə, Avropa Birliyi 1993-cü il iyunun 24-də Dağlıq Qarabağa dair bəyanatla çıxış etmişdir. Bəyanatda qeyd edilirdi ki, Birlik və ona üzv olan dövlətlər regionda hərtərəfli atəşkəs, BMT Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il tarixli 822 saylı qətnaməsinin həyata keçirilməsi və Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə həlli istiqamətində əsil irəliləyiş üçün ən yaxşı ümid yaratmışdır[326].

[324] "Xalq qəzeti", 14 may 2004-cü il.

[325] "Azərbaycan", 9 aprel 1993.

[326] Avropa İttifaqı. Brüssel, 24 iyun 1993-cü il. Dağlıq Qarabağa dair bəyanat – Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı, 2011, s.192.

Bundan sonra, 1993-cü il sentyabrın 3-də Avropa Birliyi Dağlıq Qarabağa dair daha bir bəyanat vermişdir[327]. Sənəddə Avropa Birliyinə üzv olan dövlətlər yerli erməni qüvvələrinin hücumlarını pisləyir və BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə ümid bəsləyirdilər. Bəyanatda deyilirdi ki, Birlik və onun üzvləri bölgədə dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipini təsdiqləyirlər. Sənəddə göstərilirdi ki, Birlik üzvləri atəşin müvəqqəti dayandırılmasını möhkəmlətmək üçün ATƏM çərçivəsində Minsk Qrupunun göstərdiyi səylərə tamamilə tərəfdar çıxırlar.

Avropa Birliyinin 1993-cü il noyabrın 9-da Dağlıq Qarabağa dair verdiyi bəyanat əvvəlkilərdən prinsipcə o qədər də fərqlənmirdi. Bəyanatda deyilirdi ki, Avropa Birliyi ATƏM-in prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyir və Dağlıq Qarabağ münaqişəsini siyasi vasitələrlə aradan qaldırmaq məqsədilə ATƏM-in Minsk Qrupunun göstərdiyi səyləri müdafiə edir[328].

## 5.3. Avropa İttifaqının "Yeni Qonşuluq Siyasəti" və Azərbaycan

Avropa İttifaqı tərəfindən 2004-cü ildə üzvlüyə namizəd ölkələrin ittifaqa tam qəbulu ərəfəsində onun Şərq

[327] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s.89-90.
[328] "Azərbaycan", 20 noyabr 1993.



siyasətinin yeni alətləri hazırlandı. Avropa İttifaqının Cənubi Qafqaz ölkələri də daxil olmaqla, Cənub və Şərq qonşularına münasibətdə ümumi Avropa Qonşuluq Siyasətinin (AQS) reallaşması ilə Avropa və MDB-nin, o cümlədən, Cənubi Qafqaz dövlətlərinin Avropa İttifaqının kompleks xarici əlaqələrində əhəmiyyətli statusu möhkəmləndi[329].

Belə ki, Mərkəzi və Şərqi Avropa ölkələrinin Avropa İttifaqına qoşulması nəticəsində onun sərhədlərinin şərqə doğru irəliləməsi MDB ölkələrinə münasibətdə siyasətin güclənməsi üçün vacib faktor olur. Avropa İttifaqının ətrafında subregional təşkilatların, transsərhəd əməkdaşlığının dəstəklənməsi, Cənubi Qafqaz regionundakı problemlərin, xüsusilə də, münaqişələrin nizama salınması üçün siyasi – diplomatik yardım göstərilməsi Avropa İttifaqının regiona münasibətdə həyata keçirdiyi siyasətin əlamətləridir.

Bu və digər səbəblər Avropa İttifaqı üzv- dövlətlərinin Cənubi Qafqaz ölkələri ilə ənənəvi əlaqələrinin yenidən dirçəlməsi, eləcə də regional təhlükəsizliyin təmin edilməsi, yeni çağırışlara və hədələrə cavab kontekstində Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin formalaşması və bu prosesin inkişafının öyrənilməsinin xüsusi aktuallıq kəsb etdiyini göstərir.

[329] Comission of the European Communities. "European Neigbourhood Policy", Country Report Azerbaijan. Brussels, 2005, p.3.

Avropa İttifaqının tarixi əhəmiyyətli sonuncu genişlənmə prosesləri Cənubi Qafqaz ölkələrinin Avropa ilə daha sıx əməkdaşlığının inkişafına şərait yaradır. Avropa İttifaqının Cənubi Qafqaz dövlətləri ilə qarşılıqlı əlaqələrinin həyata keçirilməsi vasitələrindən biri məhz Avropa Qonşuluq Siyasətidir. AQS-də yeni qonşuların Avropa İttifaqının layihələrində daha geniş iştirakı və daha proqressiv inteqrasiyası nəzərdə tutulur.

2004-cü ildə Avropa Qonşuluq Siyasəti haqqında rəsmi sənədin meydana çıxmasını Avropa ittifaqının ondan şərqdə və cənubda yerləşən, onunla yaxın qonşu olan ölkələrə münasibətdə strategiyasının siyasi aspekti kimi qiymətləndirmək olar.

Avropa İttifaqının Cənubi Qafqaz ölkələri ilə sıx ikitərəfli və çoxtərəfli münasibətlərdə siyasi, iqtisadi və humanitar əlaqələrə əsaslanması iqtisadi və təhlükəsizlik maraqlarının üstünlük təşkil etdiyini göstərir. Müasir dövrdə Cənubi Qafqaz dövlətlərinin fəaliyyətinin əksər sahələrində Avropa istiqamətinin özünəməxsus yer tutması müstəqillik əldə etdikdən sonra region ölkələrinin Avropa dövlətləri və Avropa ittifaqının rəhbər orqanları ilə qarşılıqlı əlaqələrinin inkişafının göstəricisidir.

Avropa İttifaqının ümumi xarici siyasi fəaliyyət mexanizminin öyrənilməsi, onun xarakterik cəhətlərinin aydınlaşdırılması, Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti çərçivəsində Cənubi Qafqaz siyasətinin tədqiq edilməsi mühüm əhəmiyyət daşıyır. Hazırda Azərbaycan Respublikası Avropa İttifaqı ilə münasibətlərdə öz xarici priori-



tetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional layihələrində iştirak etməklə yanaşı, Cənubi Qafqazdakı ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan ittifaqın xarici əlaqələrində müəyyən mövqe tutmağa çalışır.

Bu baxımdan Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin təhlili region dövlətlərinin daxili və xarici siyasət xəttinin, eyni zamanda, Cənubi Qafqazda dövlətlərarası münasibətlərin inkişafının öyrənilməsi üçün önəmlidir. Avropa İttifaqı ilə Cənubi Qafqaz ölkələri arasında qarşılıqlı əlaqələrin başlıca istiqamətlərinin formalaşması zəminində Avropa İttifaqının Yeni Qonşuluq Siyasətində Azərbaycanın yeri və rolunun tədqiqi xüsusi maraq və əhəmiyyət kəsb etdiyindən buraxılış işində bu məsələlərin öyrənilməsinə diqqət yetirilmişdir.

Avropa İttifaqının dərin transformasiyası ilə bərabər onun genişlənməsi də dəyişilmiş ittifaqın ətraf ölkələrlə və Şərq qonşuları ilə münasibətlərinin, müasir dünyanın və beynəlxalq münasibətlərin fəaliyyət mərkəzi kimi möhkəmlənməsi strategiyasının araşdırılmasını ön plana çəkdi. Avropa geosiyasətçiləri bir çox hallarda bütün dünyada beynəlxalq stabilliyin birləşmiş Avropanın geosiyasi istiqamətindən asılı olduğunu başa düşdülər. 2004 və 2007-ci illərdə Avropa İttifaqının genişlənməsi Avropa liderləri qarşısında XXI əsrdə Avropa geosiyasətinin müəyyənləşdirilməsi ilə bağlı mühüm qərarların qəbul edilməsini tələb etdi.

Avropa İttifaqının genişlənməsi onun strategiyasında və cari fəaliyyətində bir sıra dəyişikliklərə gətirib çıxardı. Təbii ki, genişlənmiş ittifaq öz siyasətini dəyişilmiş tələblərə və imkanlara uyğunlaşdırmalı oldu. Bu istiqamətlərdən biri xüsusilə, Avropa İttifaqının ən yaxın qonşu – Şərq ölkələri – Rusiya, Ukrayna, Belarus və Moldova, Cənubi Qafqaz ölkələri ilə xarici əlaqələridir. Avropa İttifaqının Şərq siyasətini yenidən müəyyənləşdirmək ehtiyacı bir sıra real səbəblərdən yaranmışdır. Son tarixi genişlənmələr ilk növbədə Avropa İttifaqını adı çəkilən dövlətlərə coğrafi cəhətdən yaxınlaşdırdı.

Avropa İttifaqı sülh və güclü inkişaf naminə birgə fəaliyyət göstərməyi öhdəsinə götürmüş Avropa ölkələri ailəsidir. Müasir Avropa inteqrasiyasının tərkibinə daxil olan bütün proseslər dünya inteqrasiya proseslərinin inkişafında, onun geniş miqyas almasında mühüm yer tutur. Avropa İttifaqının genişlənməsi, vahid Avropa valyutasının dövriyyədə olması siyasi, hərbi, hüquq – mühafizə və digər sahələrdə yeni inteqrasiya strukturlarının formalaşması kimi proseslər bütün qitə miqyasındakı vəziyyətin inkişafında özünü göstərir və onun əhəmiyyətli rolunu müəyyənləşdirir. Təbii ki, belə şəraitdə Cənubi Qafqaz ölkələri Avropada inkişaf edən bu proseslərdən kənarda qalmamış və Avropa İttifaqının region ölkələri ilə qurduğu qarşılıqlı əlaqələrdə müəyyən uğurlar əldə edilmişdir.

Postsovet məkanında müstəqillik əldə etmiş bütün ölkələr kimi Cənubi Qafqaz dövlətlərinin də xarici siyasətində ilk növbədə beynəlxalq əlaqələrin qurulmasının, dünya



iqtisadiyyatına və siyasi proseslərinə inteqrasiyanın təmin edilməsi üçün zəruri addımların atılması vacib idi. Cənubi Qafqaz regionu ölkələri qonşu və digər xarici dövlətlərin, eyni zamanda, beynəlxalq təşkilatların maraq dairəsində cəmləşərək onlar tərəfindən qarşılıqlı münasibətlərin obyektinə çevrildilər.

Avropa İttifaqının ümumi xarici siyasi fəaliyyət mexanizminin öyrənilməsi, onun xarakterik cəhətlərinin aydınlaşdırılması, Avropa İttifaqının Şərq siyasəti çərçivəsində Cənubi Qafqaz siyasətinin tədqiq edilməsi mühüm əhəmiyyət daşıyır.

Avropa İttifaqının region dövlətləri ilə həm ikitərəfli, həm də regional inteqrasiya kontekstində çoxtərəfli münasibətlər qurması və gələcəkdə onların təşkilatla daha sıx əməkdaşlığı üçün ciddi fəaliyyət göstərməsi nəticəsində son illərdə adı çəkilən təşkilat öz sərhədlərini bir qədər də genişləndirmişdir. Bununla da, sərhədləri genişlənən İttifaq Avropada yeni qonşular qazanmış və 2003-cü ildə "Daha geniş qonşuluq: Şərq və Qərb qonşularla yeni çərçivə təşəbbüsü" adlı proqram qəbul etmişdir. Avropa İttifaqının xarici işlər nazirləri 2004-cü ilin yanvarında üç Cənubi Qafqaz respublikasını bu təşəbbüsə qoşmaq üçün Avropa Komissiyasına təkliflər hazırlamaq haqqında tapşırıq vermişlər.

2004-cü il mayın 12-də Avropa Komissiyası Avropa Qonşuluq Siyasətinə dair Strategiya sənədini qəbul etdi. Adı çəkilən sənəddə Avropa Komissiyası Azərbaycan, Gürcüstan və Ermənistanın bu siyasətə daxil edilməsi üçün

Avropa İttifaqı Şurasına tövsiyə etmişdir. 2004-ci il iyunun 14-də Avropa Komissiyasının tövsiyəsinə təşkilatın Ümumi Məsələlər və Xarici Əlaqələr üzrə Şurasında baxılmış və Şura Cənubi Qafqaz dövlətlərini qeyd edilən siyasətə daxil etməyi qərara aldı[330].

Azərbaycan Prezidenti İlham Əliyev 2004-cü il mayın 19-da Brüsseldə Avropa Siyasi Mərkəzinin təşkilatçılığı ilə "Avropa Birliyi və Azərbaycan-tərəfdaşlıq üçün yeni üsullar" mövzusunda keçirilən siyasi brifinqdə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün öz qətiyyətli mövqeyini növbəti dəfə bəyan etdi. Dövlət başçısının nitqində bu son dərəcə mürəkkəb və tale yüklü problemin Azərbaycanın xarici siyasət kursunun mühüm tərkib hissəsinə çevrildiyi bir daha öz təsdiqini tapdı[331]. Prezident İlham Əliyevin Brüsselə bu səfəri Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərində tamamilə yeni mərhələ oldu və ölkəmizin adı çəkilən İttifaqla "Yeni qonşuluq siyasəti" proqramı çərçivəsində genişmiqyaslı əməkdaşlığına dair razılaşmalar əldə edildi.

Avropa İttifaqının tarixi əhəmiyyətli sonuncu genişlənmə prosesləri Cənubi Qafqaz ölkələrinin Avropa ilə daha

[330] Comission of the European Communities. "European Neigbourhood Policy", Country Report Azerbaijan. Brussels, 2005, p.2-3

[331] Azərbaycan prezidenti İlham Əliyevin 2004-cü il mayın 19-da Brüsseldə "Avropa Birliyi və Azərbaycan-tərəfdaşlıq üçün yeni üsullar" mövzusunda keçirilən siyasi brifinqdə nitqi. – "Azərbaycan", 22 may 2004-cü il.



sıx əməkdaşlığının inkişafına şərait yaradır. Avropa İttifaqının Cənubi Qafqaz dövlətləri ilə qarşılıqlı əlaqələrinin həyata keçirilməsi vasitələrindən biri məhz Avropa Qonşuluq Siyasətidir. AQS-də yeni qonşuların Avropa İttifaqının layihələrində daha geniş iştirakı və daha proqressiv inteqrasiyası nəzərdə tutulur. AQS Avropa İttifaqının öz sərhədlərini dəqiq müəyyənləşdirmək yolunda atdığı ən uğurlu addımlarından biri hesab olunmalıdır. Hər halda bu siyasət Avropa İttifaqına müəyyən müddətə, yəni gələcək genişlənməyə qədər sərhədlərinin hüdudlarını dəqiqləşdirməyə imkan verir. Stabil enerji təchizatı Avropa İttifaqı üzv-dövlətlərinin müasir iqtisadiyyatının fəaliyyət mexanizminin başlıca şərtlərindən biridir.

Avropa İttifaqı-Azərbaycan Fəaliyyət Planının Giriş hissəsində deyilir: "Avropa İttifaqının 1 may 2004-cü il tarixli genişlənməsi nəticəsində İttifaqın tarixi dəyişikliyi siyasi, coğrafi və iqtisadi istiqamətlərdə irəliləyişə, Avropa İttifaqı və Azərbaycan arasında siyasi və iqtisadi qarşılıqlı asılılığa səbəb olmuşdur. Bu, Avropa İttifaqı və Azərbaycan arasında əməkdaşlıq istiqamətində irəliləyən, iqtisadi inteqrasiya və dərinləşən siyasi əməkdaşlıq ölçüləri qazanan, genişlənməkdə olan qarşılıqlı sıx əlaqələrin inkişafı üçün yeni imkanlar təklif edir. Avropa İttifaqı və Azərbaycan bu imkanları və aralarındakı münasibətləri, stabilliyi, təhlükəsizliyi və rifahı genişləndirmək qərarına gəlirlər. Bu yaxınlıq

tərəfdaşlığa, birgə fəaliyyətə əsaslanır..."[332]. Qeyd etmək lazımdır ki, digər iki Cənubi Qafqaz ölkələri tərəfindən qəbul edilmiş AQS çərçivəsində Fəaliyyət Planlarının girişi müvafiq ölkələrin adları çəkilməklə eyni məzmunlu mətndən ibarətdir və orada həmin ölkə ilə Avropa İttifaqı arasında qarşılıqlı əməkdaşlığın əhəmiyyəti vurğulanır[333].

Avropa İttifaqı ilə əlaqələrdə daha yüksək səviyyəli siyasi və iqtisadi inteqrasiya vəd edən AQS ona daxil olan ölkələr üçün tərəfdaşlığın gələcək inkişafı baxımından yeni bir mərhələ olmuşdur. Avropa Qonşuluq Siyasətinin strategiya sənədinə əsasən Avropa İttifaqının tərəfdaş ölkələrlə münasibətlərini yaxın gələcək üçün tənzimləyən əsas sənəd Fəaliyyət planları olacaqdır ki, bu sənəddə İttifaq ilə ikitərəfli münasibətlərin prioritetlərinin müəyyənləşdirilməsi nəzərdə tutulur. AQS ölkəmiz üçün aşağıdakı imkanlar yaratmışdır:

– siyasi, iqtisadi və inzibati islahatların həyata keçirilməsi və birgə dəyərlərə hörmət edilməsində konkret irəli-

[332] European Neighbourd Policy EU /Azerbaijan Action Plan 14 november 2006. – http://ec.europa.eu/environment/enlarg/pdf/ /enp_action_plan_azerbaijan.pdf

[333] European Neighbourd Policy EU / Armenia Action Plan 14 november 2006. – http://www.armeniaforeignministry.com/perspectives/061114_armenia_ enp_ap_fmal_en.pdf

European Neighbourd Policy EU / Georgia Action Plan 14 november 2006. – http://ec.europa.eu/environment/enlarg/pdf/ enp_action_plan _georgia.pdf



ləyişə nail olunması müqabilində Avropa İttifaqının daxili bazarında müəyyən paya sahib olma imkanı;

– vətəndaşların, əmtəələrin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya və liberalizasiya proseslərində iştirak;

– Avropa İttifaqının üzvü olan ölkələrlə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, sərmayələrin təşviqi, yeni maliyyə mənbələrinin əldə edilməsi, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olmasının dəstəklənməsi və s.

Həmçinin, AQS tərəfdaş ölkələr, o cümlədən Azərbaycan Respublikası üçün mədəni, təhsil və ətraf mühit kimi sahələr üzrə əlaqələri təşviq edən müəyyən Avropa İttifaqı proqramlarında daha çox iştirak və texniki yardım imkanları təqdim etmişdir. Bu kontekstdə, xüsusilə Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) çərçivəsində Tvinninq, Texniki yardım və Məlumat mübadiləsi (TAİEX), Büdcəyə dəstək, Tempus, Erasmus Mundus kimi proqramlar qeyd oluna bilər.

AQS-in mərkəzi elementi isə Avropa İttifaqı ilə hər bir tərəfdaş ölkə arasında razılaşdırılmış və ölkə üzrə bir sıra qısa və orta müddətli prioritetlərin əks olunduğu Fəaliyyət Planlarıdır. AQS Strategiya Sənədinə əsasən, Avropa İttifaqı tərəfdaş ölkələrlə münasibətlərini yaxın gələcək üçün tənzimləyən əsas sənəd Fəaliyyət Planlarıdır. 3-5 illik müddət üçün nəzərdə tutulan bu sənədlər hər bir ölkənin ehtiyac və

imkanları, o cümlədən qarşılıqlı dəyər və maraqlar nəzərə alınaraq hazırlanmışdır.

Azərbaycan Respublikası-Avropa İttifaqı Fəaliyyət Planı 2006-cı il noyabrın 14-də Brüsseldə Azərbaycan Respublikası-Avropa İttifaqı Əməkdaşlıq Şurasının iclası zamanı qəbul edilmişdir. Beləliklə, daha əvvəl TƏS ilə tənzimlənən Azərbaycan-Avropa İttifaqı münasibətlərinin gələcək inkişafının istiqamətləri AQS çərçivəsində Azərbaycan Respublikası-Avropa İttifaqı Fəaliyyət Planı ilə müəyyən olunmuşdur. Fəaliyyət Planının həyata keçirilməsi üçün Avropa İttifaqı 92 mln. avro vəsait ayırmışdır[334].

2004-cü ilin may ayında Avropa İttifaqı Qonşuluq Siyasətinin həyata keçirilməsi üçün 255 milyon avro vəsait ayıraraq, Cənubi Qafqaz dövlətləri ilə bu istiqamətdə məqsədyönlü iş aparır[335]. Adı çəkilən proqrama qoşulan ölkələr İttifaq institutlarına insan hüquqlarına hörmətlə yanaşmaq, qanunların aliliyini təmin etmək, səmərəli və şəffaf idarəçilik yaratmaq, bazar iqtisadiyyatı tələblərinə hörmət bəsləmək və xarici siyasət sahəsində beynəlxalq hüquq normalarına əməl etmək əzmində olduqlarını nümayiş etdirməlidirlər.

Azərbaycan Respublikası da bu sahədə qarşıda duran vəzifələrin həlli istiqamətində ardıcıl addımlar atmaqla öz mövqeyini ifadə etmişdir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci il iyunun 1-də

[334] Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı, 2011, s.180.

[335] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.498.



"Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında" imzaladığı sərəncamda Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da gücləndirilməsi, İttifaqın Azərbaycan üzrə Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi üzrə səmərəli, əlaqələndirilmiş işin təmin edilməsi məsələləri öz əksini tapdı[336]. Bununla yanaşı, qəbul edilmiş sənəddə Avropa İttifaqı ilə siyasi, iqtisadi, hüquqi, nəqliyyat və enerji, təhlükəsizlik, insan hüquqları və demokratikləşmə, humanitar elm-təhsil və digər əməkdaşlıq sahələri üzrə işçi qrupun yaradılması nəzərdə tutulmuşdur.

Hazırda Avropa İttifaqının regionda həyata keçirdiyi "Yeni qonşuluq siyasəti" layihəsinin əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarətdir. Təbii ki, Cənubi Qafqaz ölkələri də bu məsələdə maraqlıdırlar və Avropa İttifaqı ilə ikitərəfli münasibətləri genişləndirməyə çalışırlar.

## 5.4. Avropa İttifaqının Cənubi Qafqaz siyasətində Azərbaycanın yeri və rolu: problemlər və prespektivlər

1992-2006-cı illərdə Avropa İttifaqının TASİS və digər yardım proqramları çərçivəsində Azərbaycana 414 milyon avrodan çox məbləğdə humanitar, texniki və ərzaq yardımı göstərilmişdir.

[336] Yenə orada, s.498-499.

2007-ci il yanvarın 1-dən etibarən TASİS proqramı Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) ilə əvəz olunmuşdur. Bu alət çərçivəsində 2007-2009-cu illər üçün Azərbaycan üzrə illik Fəaliyyət Proqramları çərçivəsində 61 milyon avro məbləğində yardım ayrılmışdır. Daha geniş mandat və əhatə dairəsinə malik olan AQTA Avropa Qonşuluq Siyasətinin Fəaliyyət Planlarının həyata keçirilməsi üçün əsas maliyyə alətidir. AQTA 3 başlıca strateji məqsədi ehtiva edir: demokratiya və insan hüquqlarının təşviqi, bazar iqtisadiyyatına keçidin asanlaşdırılması və davamlı inkişafın təşviqi, habelə qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığın inkişafı.

AQTA çərçivəsində 2007-2013-cü illər üçün nəzərdə tutulmuş Azərbaycan üzrə Strategiya Sənədi Avropa İttifaqının yardım məqsədlərini və siyasət məsuliyyətini əks etdirərək prioritet olan əməkdaşlıq sahələrini dəqiqləşdirir. Bu prioritetlər Azərbaycanın bazar iqtisadiyyatına və demokratik idarəetmənin təşviqinə yardım, Fəaliyyət Planının həyata keçirilməsi və təhlükəsizlik məsələlərini əhatə edir.

Bu mənada Prezident İlham Əliyevin 2006-cı il oktyabrın 6-8-də Brüsselə rəsmi səfəri mühüm əhəmiyyət daşıyır. Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi, xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana ilə keçirdiyi görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələsinin başladığını bildirən dövlət başçısı İlham Əliyev bu səfərin İttifaqın Cənubi Qafqaz regionuna dair Yeni qonşuluq siyasətinin gələn beş il ərzində ölkəmizdə siyasi və iqtisadi inkişaf meyarlarının



Avropa İttifaqındakı göstəricilərinə uyğunlaşdırılmasının əsasını qoyacağını bəyan etdi: "Avroatlantik məkana inteqrasiya sahəsində Azərbaycanın neçə illər ərzində apardığı siyasət həm ölkəmiz, həm də bütövlükdə regional əməkdaşlıq üçün çox böyük nəticələr vermiş və verəcəkdir"[337].

Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu 2006-cı il noyabrın 7-də Brüsseldə Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzaladılar[338].

Bu sənədin imzalanması Azərbaycanın Avropa İttifaqının enerji bazarlarına daha tez inteqrasiyasına kömək etməklə yanaşı, Xəzərin enerji daşıyıcılarının nəqli nəticəsində İttifaqın enerji təhlükəsizliyi daha da güclənəcəkdir. Bunun regional təhlükəsizlik, eləcə də əməkdaşlıq və ümumiyyətlə, Avroatlantik məkana inteqrasiya, xüsusilə, Azərbaycanın böyük neft, qaz ehtiyatları və ölkəmizin gələcək inkişafı üçün böyük əhəmiyyəti vardır.

Həmin gün Brüsseldə Kral Beynəlxalq Əlaqələr İnstitutunda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə siyasi brifinq keçirildi[339]. "Avropa İttifaqı-Azərbaycan:

---

[337] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Birliyi Şurasının baş katibi, Xarici Siyasət və Təhlükəsizlik Siyasəti Üzrə Ali Nümayəndəsi Xavyer Solana ilə görüşü – "Azərbaycan", 11 noyabr 2006-cı il.

[338] Azərbaycan ilə Avropa Birliyi arasında anlaşma memorandumunun imzalanması – "Xalq qəzeti", 12 noyabr 2006-cı il.

[339] Kral Beynəlxalq Əlaqələr İnstitutunda siyasi brifinq – 7 noyabr 2006-cı il – Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı, 2011, s.140.

enerji sahəsində və digər sahələrdə əməkdaşlıq" mövzusuna həsr olunmuş tədbirdə çıxış edən dövlət başçısı İlham Əliyev Azərbaycan-Avropa İttifaqı münasibətlərinin artıq yeni səhifəsinin açıldığını bəyan edərək, əmin olduğunu bildirdi ki, səfər çərçivəsində imzalanan enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu əsasında bir çox sahələrdə əməkdaşlığımızı daha da məqsədyönlü və hərtərəfli formada qurmaq mümkün olacaqdır. Bununla yanaşı, birgə səylər nəticəsində Avropa İttifaqının Cənubi Qafqaza dair "Yeni qonşuluq siyasəti" çərçivəsində yeni addımlar atılacaq və bu da Azərbaycanın gələcək inkişafına böyük təsir göstərəcəkdir.

Cənubi Qafqaz çox mühüm geosiyasi və geoiqtisadi əhəmiyyətə malik bir regiondur. Bu bölgə ümumavropa təhlükəsizlik məkanının sərhəddində yerləşir. Bura mühüm nəqliyyat koridoru və işlənməmiş təbii ehtiyatlarla zəngin ərazidir. Bununla əlaqədar olaraq Cənubi Qafqazda sabitliyin əldə edilməsi və onun dünya birliyinə, eləcə də dünya iqtisadi sisteminə qoşulması beynəlxalq siyasi proseslərin bütün iştirakçıları üçün mühüm vəzifədir. Elə Cənubi Qafqazda sülhün bərqərar edilməsi üzrə müxtəlif layihələrin mövcudluğu da bununla izah oluna bilər.

Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun Brüsseldə Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanması ilə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji dialoqunun genişləndirilməsi istiqamətində yeni



imkanlar açılmışdır. Bu Memorandumun əsas məqsədləri Avropa İttifaqının enerji təchizatının diversifikasiyası və təhlükəsizliyi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerjidən səmərəli istifadə, enerjiyə qənaət və bərpa olunan enerji mənbələrinin istifadəsidir. Bu sənədin imzalanması Azərbaycanın Avropa İttifaqının enerji bazarlarına daha tez inteqrasiyasına kömək etməklə yanaşı, Xəzərin enerji daşıyıcılarının nəqli nəticəsində İttifaqın enerji təhlükəsizliyi daha da güclənəcəkdir. Bunun regional təhlükəsizlik, eləcə də əməkdaşlıq və ümumiyyətlə, Avroatlantik məkana inteqrasiya, xüsusilə, Azərbaycanın böyük neft, qaz ehtiyatları və ölkəmizin gələcək inkişafı üçün böyük əhəmiyyəti vardır[340].

Bu sənəddə Avropa İttifaqının enerji təchizatının diversifikasiyası və təhlükəsizliyi, Azərbaycanın enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerjiyə qənaət və bərpa olunan enerji mənbələrindən istifadə edilməsi və s. layihələr nəzərdə tutulur. Avropa İttifaqı bu sənədi imzalamaqla özünün Mərkəzi Asiya enerji strategiyasında yeni mərhələnin əsasını qoydu[341].

Bundan əlavə, 2008-ci il mayın 26-da Avropa İttifaqının Xarici İşlər Nazirlərinin Brüsseldə keçirilmiş görüşü zamanı Polşa və İsveç tərəfindən Şərq Tərəfdaşlığı təşəb-

---

[340] Azərbaycan ilə Avropa İttifaqı arasında anlaşma memorondumunun imzalanması – Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı, 2011, s.138.

[341] Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, s.249.

büsü irəli sürülmüşdür. Şərqi Avropa Qonşuluq Siyasəti ölkələri üçün vahid formatın təsis edilməsini nəzərdə tutan bu təşəbbüs Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belarusu (Şərq tərəfdaş ölkələri) əhatə edir.

2008-ci il dekabrın 3-də Şərq Tərəfdaşlığı təşəbbüsü üzrə məlumat sənədi və onu müşayiət edən işçi sənəd Avropa Komisiyyası tərəfindən Avropa Parlamentinə və Avropa İttifaqının dövlət və hökumət Başçılarının Şurasına təqdim olunmuşdur. Bu iki sənəd Şərq Tərəfdaşlığına dair Avropa Komissiyasının mövqeyi və təkliflərini əks etdirərək, Avropa Qonşuluq Siyasəti çərçivəsində Avropa İttifaqının Şərq tərəfdaş ölkələri ilə gələcək əməkdaşlıq istiqamətlərini, eləcə də iqtisadi inteqrasiyanın möhkəmləndirilməsi kimi məqsədlər müəyyən etmişdir[342]. Proqram çərçivəsində vizaların ləğvi, azad ticarət zonasının yaradılması və üzv ölkələrlə strateji sazişlərin imzalanması, eyni zamanda, tələbə mübadiləsi, ətraf mühitin müdafiəsi, enerji təhlükəsizliyi üzrə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Avropa Komissiyasının rəsmi sənədində həm də qeyd olunur ki, "Şərq Tərəfdaşlığı" tərəfdaş ölkələrdə demokratiya və bazar münasibətlərinin inkişafına, onların dövlət və ərazi bütövlüyünün möhkəmləndirilməsinə istiqamətlənmiş islahatların keçirilməsinə əhəmiyyətli dəstəyin gücləndirilməsi yolunda Avropa İttifaqının həmrəyliyinin göstəricisi

[342] Eastern partnership: Communication from the European Commission to the European Parliament and the Council», № COM (2008) 823 from 3 December 2008.



olmalıdır. Bu, İttifaqının, tərəfdaş ölkələrin və ümumilikdə qitənin sabitlik maraqlarına, təhlükəsizliyinə və tərəqqisinə cavab verir. Şərq tərəfdaşlığının mühüm cəhəti tərəfdaş ölkələrdə ayrı-ayrı islahatların keçirilməsinə fəal yardım edilməsi prosesində Avropa İttifaqının vəzifələrinin daha da artırılmasıdır[343].

Avropa İttifaqı ilə əlaqələrin genişləndirilməsi baxımından Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il aprelin 28-29-da Belçika Krallığına işgüzar səfəri mühüm əhəmiyyət kəsb edir. Səfər zamanı Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşündə dövlət başçısı İlham Əliyev Avropa İttifaqı ilə ölkəmiz arasında əlaqələrin müxtəlif sahələr üzrə uğurla inkişaf etdiyini diqqətə çatdıraraq Azərbaycanın Avropaya inteqrasiyasının bundan sonra da davam etdiriləcəyini bildirdi[344].

Eyni zamanda, Azərbaycan Prezidenti Brüsseldə Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə "Azərbaycan: Avropa İttifaqı üçün getdikcə əhəmiyyəti artan tərəfdaş" mövzusunda keçirilən görüşündə ölkəmizin Avropa İttifaqı üçün əhəmiyyəti artan ölkə olduğunu xüsusi qeyd edərək, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadığını diqqətə çatdırdı[345].

[343] Yenə orada.

[344] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşü – "Xalq qəzeti", 1 may 2009-cü il.

[345] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Siyasi Mərkəzində görüş zamanı nitqi. – "Azərbaycan" qəz., 2 may 2009-cu il.

Bununla yanaşı, görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması əsas məsələlərdən biri kimi müzakirə mövzusuna çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev bu məsələnin həllində qətiyyətli mövqeyini növbəti dəfə bəyan edərək, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəyini, münaqişənin həlli yolunun Ermənistanın işğal altında saxladığı torpaqları azad etməsinin vacibliyini və işğal siyasətinin sonunun olmadığını xüsusi vurğuladı[346].

Dövlət başçısı İlham Əliyevin Avropa İttifaqı Nazirlər Şurasının Baş katibi, xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana ilə keçirdiyi görüşdə Avropa İttifaqı ilə ölkəmiz arasında əlaqələrin qarşılıqlı şəkildə faydalı olduğunu və "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində yaranacaq yeni formatın bu əlaqələri daha da möhkəmləndirəcəyini bəyan etdi[347].

2009-cu il mayın 7-də Praqada Şərq Tərəfdaşlığı üzrə Zirvə görüşü keçirilmişdir. Zirvə görüşündə bu təşəbbüsün əsas məqsədləri və prinsipləri, həmçinin gələcək əməkdaşlıq prosesinin ümumi konturlarını müəyyən edən Birgə Bəyannamə qəbul edilmiş və bununla da Şərq Tərəfdaşlığı rəsmi səviyyədə başlanılmışdır[348].

[346] Yenə orada.
[347] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa İttifaqı Nazirlər Şurasının baş katibi Xavyer Solana ilə görüşü – "Azərbaycan", 2 may 2009-cü il.
[348] "Azərbaycan", 8 may 2009-cü il.



Şərq Tərəfdaşlığı Avropa İttifaqı və Şərq tərəfdaş ölkələri arasında münasibətlərin daha yüksək səviyyəyə qaldırılması, mövcud əməkdaşlığın ikitərəfli və çoxtərəfli formatda davam etdirilərək genişləndirilməsini nəzərdə tutur. Belə ki, Avropa İttifaqı və hər bir tərəfdaş ölkə arasında daha sıx əlaqələrin yaradılması məqsədilə ikitərəfli format çərçivəsində mövcud Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri əvəzinə yeni Assosiasiya Sazişlərinin imzalanması, tərəfdaş ölkənin Ümumdünya Ticarət Təşkilatına üzv olduğu təqdirdə onunla dərin və müfəssəl azad ticarət zonasının yaradılması, həmçinin vizaların tədricən liberallaşdırılması, tərəfdaş ölkələrin və Avropa İttifaqının enerji təhlükəsizliyinin gücləndirilməsi məqsədilə daha dərin əməkdaşlığın həyata keçirilməsi və s. planlaşdırılır.

Bu format çərçivəsində Şərq Tərəfdaşlığına daxil olan ölkələrin dövlət və hökumət başçılarının hər iki ildən bir görüşünün, hər il Avropa İttifaqına üzv dövlətlərin və Şərq tərəfdaş ölkələrinin Xarici İşlər Nazirlərinin illik iclasının keçirilməsi nəzərdə tutulur[349].

Ümumiyyətlə, "Şərq tərəfdaşlığı" proqramı Avropa İttifaqının son illərdə Şərq qonşuları ilə inkişaf etdirdiyi əlaqələrinin dərinləşməsinə xidmət edir. Proqramda tərəflər arasında əlaqələr (məsələn, Assosiasiya Sazişləri, Dərin Azad Ticarət Məkanları, vizaların liberallaşdırılması) aydın təsvir edilir və iqtisadi tənəzzülə qarşı mübarizə aparmaq üçün əməkdaşlıq sahəsini yenidən diqqət mərkəzinə çevir-

[349] Yenə orada.

məklə ona çoxtərəfli istiqamət verir. Bununla yanaşı, proqrama əsasən, Avropa İttifaqı tərəfdaş ölkələrdə aparılan islahat və müasirləşdirmə prosesini dəstəkləmək və tərəfdaşların müstəqilliyi və onların sabitliyinə töhfə vermək üçün qonşularına sərmayə qoymağı öz üzərinə götürür[350].

"Şərq tərəfdaşlığı" proqramı irəli sürülərkən ilkin olaraq beş ölkə üçün əməkdaşlıq nəzərdə tutulmuşdu. Bunlar Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna və Moldova idi. Lakin sonradan Avropa İttifaqı Belarusu da bu proqrama qatmaq niyyətində olduğunu açıqladı və rəsmi Minsklə aparılan danışıqlar müsbət nəticə verdi. Bütün bunlardan sonra əməli işə keçmək məqsədilə ötən ilin dekabrın əvvəllərində Avropa Komissiyasının beynəlxalq əlaqələr və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Benita Ferrero-Valdner təmsil etdiyi qurumun "Şərq tərəfdaşlığı" kommunikesini Avropa Parlamentinə və Avropa İttifaqı Şurasına təqdim etdi. Kommunikeyə əsasən, Avropa Komissiyası Azərbaycan, Belarus, Gürcüstan, Moldova, Ukrayna və Ermənistanla yaxın illər ərzində assosiativ saziş imzalanmasını və bu ölkələrin Avropa İttifaqına inteqrasiyası meyllərini dəstəkləməyi təklif edirdi.

Kommunikedə o da qeyd olunurdu ki, bu sazişlər 2004-cü ildə genişləndirmə siyasətindən əvvəl Polşa və Litva ilə imzalanmış sazişin təkrarı olacaq. Düzdür, burada o da bildirilirdi ki, "Şərq tərəfdaşlığı" proqramına daxil olan

[350] Eastern partnership: Communication from the European Commission to the European Parliament and the Council, № COM (2008) 823 from 3 December 2008.



ölkələrin gələcəkdə Avropa İttifaqına qəbuluna dair vədlər öz əksini tapmayacaq. Lakin bu vədlərin olmamasına rəğmən, əslində, "Şərq tərəfdaşlığı" proqramının mahiyyəti elə bunun üçün təşəbbüslə çıxış edən dövlətlərin Avropa İttifaqına inteqrasiyasını sürətləndirməkdən ibarətdir.

"Şərq tərəfdaşlığı" proqramına daxil edilən ölkələrə, o cümlədən Azərbaycana xeyli üstünlüklər vəd edilir. Məsələn, yuxarıda qeyd olunan kommunikedə "Şərq tərəfdaşlığı" proqramında iştirak edən ölkələrlə ümumi daxili bazarın formalaşdırılması məqsədilə tədbirlər planının hazırlanması nəzərdə tutulur. Bu tədbirlər öncə vahid və hərtərəfli azad ticarət zonalarının yaradılmasını özündə ehtiva edir. Bildirilir ki, həmin zonalar ümumi daxili bazarın inkişafı üçün baza olmalı və Avropa İttifaqının İslandiya, Norveç və Lixtenşteynlə mövcud xüsusi iqtisadi zonasına bənzəməlidir.

Kommunikedə daha bir maraqlı məqam isə Azərbaycan, Belarus, Gürcüstan, Moldova, Ukrayna və Ermənistanla Avropa İttifaqının dəqiq və uzunmüddətli həmrəyliyə yönəlmiş birgə tədbirlər həyata keçirməsi, həmçinin tərəfdaş ölkələrin vətəndaşları üçün müəyyən imtiyazların verilməsidir. Belə imtiyazlara misal olaraq "Şərq tərəfdaşlığı"nın perspektivdə tərəfdaş ölkələrin vətəndaşları üçün vizasız rejimin tətbiqinin nəzərdə tutulması göstərilə bilər[351].

Bütün bunlar "Şərq tərəfdaşlığı" proqramının Azərbaycan üçün nə qədər vacib olduğunu, həmçinin Avropa

[351] Eastern partnership: Communication from the European Commission to the European Parliament and the Council», № COM (2008) 823 from 3 December 2008.

İttifaqı ilə əməkdaşlıqda yeni səhifələr açdığını aydın göstərir. Məhz bu səbəbdən Avropa İttifaqına üzv ölkələrin, o cümlədən də Latviyanın sözügedən proqram çərçivəsində Azərbaycana tam dəstək verməsi mühüm əhəmiyyət kəsb edir. Belə dəstək qazanılması isə öz növbəsində Azərbaycanın xarici siyasətinin uğurlarının daha bir göstəricisi hesab olunur.

Avropa Komissiyasının beynəlxalq əlaqələr və Avropa Qonşuluq Siyasəti üzrə komissarı tərəfindən təqdim edilən kommunikedə yer alan bəzi məqamlar isə, həm də Avropa İttifaqının Azərbaycanla qarşılıqlı əməkdaşlığını gücləndirməkdə nə dərəcədə maraqlı olduğunu göstərir. Belə ki, sənəddə enerji sahəsində əməkdaşlıq üzrə Avropa İttifaqının bu sahədə təhlükəsizliyinin məninə xidmət edəcək qarşılıqlı anlaşma haqqında memorandumlar imzalamaq təklif olunur.

2009-cu il mayın 7-də Praqada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitində iştirak edən Prezident İlham Əliyev bu proqramın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin daha da yaxınlaşmasına və genişlənməsinə təkan verəcəyini qeyd edərək, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynadığını diqqətə çatdırdı[352]. Mayın 8-də Praqada "Cənub dəhlizi-Yeni İpək yolu" Sammitində dövlət başçısı İlham Əliyev Azərbaycanın təşəbbüsü və iştirakı ilə qlobal enerji layihələrinin, neft boru kəmərlərinin, sonra isə qaz kəmərlərinin

352 "Xalq qəzeti", 8 may 2009-cı il.



inşasının uzaqgörən bir strategiya olduğunu və ölkəmizdən müxtəlif istiqamətlərdə neft-qaz kəmərlərinin fəaliyyət göstərməsini çoxşaxəliliyin təmin olunmasına töhfə kimi qiymətləndirdi[353].

2009-cu ilin iyun ayında iştirakçı dövlətlər tərəfindən təsdiq edilmiş "Şərq Tərəfdaşlığı" proqramı Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Ukrayna, Belarusun Avropa İttifaqına müəyyən mənada alternativ üzvlüyünü nəzərdə tutur. Belə bir qərar Cənubi Qafqaz regionunun Avropa İttifaqının təhlükəsizliyi və sabitliyi üçün "müstəsna əhəmiyyəti" nəzərə alınmaqla qəbul edilmişdir.

Çoxtərəfli struktura malik olan "Şərq Tərəfdaşlığı" Avropa İttifaqının və onun tərəfdaşları arasındakı münasibətləri tamamlayacaq, tərəfdaşların İttifaqla ikitərəfli münasibətlərin inkişafına yardım edəcək. "Şərq Tərəfdaşlığı" proqramı AQS-dən daha yüksək nəticələr verməlidir. Bu tərəfdaşlığın rəhbər prinsipi siyasi və iqtisadi reallıqları, eləcə də müvafiq tərəfdaş ölkədə islahatların keçirilməsi prosesinin vəziyyətini nəzərə alaraq daha çox sayda imkanların təklif edilməsi və beləliklə, hər bir ölkənin vətəndaşlarına hiss olunacaq dərəcədə üstünlüklər verilməsindən ibarətdir.

Bununla yanaşı, Avropa İttifaqı ilə daha geniş əməkdaşlıq proqramlarına və qonşuluq siyasətinin siyasi planlarına baxmayaraq, Cənubi Qafqaz regionunda Rusiya siyasətinə görə bəzən Avropa İttifaqının şərq qonşuluğuna

353 "Azərbaycan", 9 may 2009-cı il

münasibətdə qərarsızlığı özünü göstərir. Cənubi Qafqaz xalqları və liderləri Avropaya, onun təqdim etdiyi dəyərlərə və inkişaf cəmiyyətinə daha yaxın olmağa səy göstərirlər. Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz regionuna münasibətdə hərtərəfli strategiyanın işlənməsi zamanı Avropa İttifaqının onun səlahiyyətində olan bütün mövcud təsir vasitələrini diqqətlə qiymətləndirməsi və regionda arzu olunan islahatların dəstəklənməsi üçün onlardan ədalətli və ardıcıl şəkildə istifadə etməsi mühüm əhəmiyyət kəsb edir.

Bütün bunlarla yanaşı, Avropa İttifaqı regionda sabitliyin bərqərar olunması, xüsusilə, təhlükəsizliyə maneə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında daha çox maraqlıdır. Bu səbəbdən, Avropa Parlamenti də Cənubi Qafqazda təhlüksizliyin təmin edilməsinə mane olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının vacibliyini bildirmişdir.

Belə ki, 2010-cu il mayın 20-də Avropa Parlamenti Avropa İttifaqının Cənubi Qafqaz strategiyasına dair qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələlərinə xüsusi yer verilmişdir. Avropa Parlamentinin Dağlıq Qarabağa dair qəbul etdiyi qətnamədə birmənalı şəkildə göstərilir ki, Azərbaycan torpaqları işğal altındadır. Sənəddə Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü tanıdığı və Dağlıq Qarabağ probleminin tezliklə beynəlxalq hüquq



prinsipləri çərçivəsində həll olunmasına tərəfdar olduğu öz əksini tapmışdır[354].

Bununla yanaşı, sənəddə Avropanın enerji təhlükəsizliyi baxımından Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlığı yüksək qiymətləndirilmiş və ölkəmizin enerji resurslarının Avropa ölkələri üçün böyük əhəmiyyət kəsb etdiyi xüsusi qeyd edilmişdir.

Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin əsas istiqamətini enerji əməkdaşlığı təşkil edir. Hələ bir neçə il əvvəl Qərbin siyasi analitikləri və iqtisadçıları bildirirdilər ki, bu əməkdaşlıq Avropa İttifaqının enerji təhlükəsizliyini daha da gücləndirəcək, İttifaqın enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər hövzəsindən nəql olunan neft-qaz daha böyük rol oynayacaqdır. Çünki Azərbaycan qazı artıq neçə vaxtdır ki, Avropa İttifaqı üzvü olan bəzi ölkələrə ixrac olunur.

Avropa bazarı böyük olduğundan onun enerjiyə olan tələbatının ödənməsi üçün yeni nəql sistemlərinin yaradılması Avropa İttifaqının gündəmində olan məsələlərdən biridir. Azərbaycan hər zaman yeni nəql sistemlərinin yaradılması təşəbbüslərinə, o cümlədən "Cənub qaz dəhlizi"nə müsbət yanaşmışdır. Digər tərəfdən, Azərbaycanda qaz hasilatının çoxalması, aşkar edilən yeni qaz yatağının gələn illər üçün ölkəmizin təchizat potensialını və proqnozlaş-

---

[354] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, 2012, s.858-859; "Azərbaycan", 23 may 2010-cu il.

dırma imkanlarını artırdığından "Cənub qaz dəhlizi" Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, qaz potensialımızı realizə etməkdə bizə yardımçı olacaq.

Bunun məntiqi nəticəsi olaraq, 2011-ci il yanvarın 13-də Avropa Komissiyasının prezidenti Xose Manuel Barrozunun Azərbaycana səfəri zamanı bir sıra mühüm sənədlərin imzalanması ikitərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində atılan mühüm addım oldu[355]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu tərəfindən "Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə" imzalandı[356]. Bununla yanaşı, "Azərbaycan Respublikası və Avropa Komissiyası arasında 2011-2013-cü illər üzrə Milli İndikativ Proqrama dair Anlaşma memorandumu" və "Azərbaycan Respublikası və Avropa Komissiyası arasında hərtərəfli institusional quruculuq proqramının çərçivə sənədi üzrə Anlaşma memorandumu"nun imzalanması ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin müxtəlif sahələrdə inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir[357].

Xose Manuel Barrozunun Bakıya rəsmi səfəri zamanı keçirilən danışıqlarda əsas müzakirə mövzularından birinin

[355] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun geniş tərkibdə görüşü – "Azərbaycan", 14 yanvar 2011-ci il.
[356] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun mətbuat konfransı – "Xalq qəzeti", 14 yanvar 2011-ci il.
[357] "Azərbaycan", 15 yanvar 2011-ci il.



enerji təhlükəsizliyi məsələsinin olması, eləcə də "Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə"nin imzalanması hər iki tərəfin enerji əməkdaşlığından məmnunluğunun və bu sahədə əlaqələrin daha geniş miqyasda davam etdirilməsindəki iradəsinin ifadəsidir.

Bir sözlə, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin daha da dərinləşdirilməsi hər iki tərəfin maraqlarına cavab verir. Odur ki, Avropa Komissiyası sədrinin ölkəmizə rəsmi səfərinin də bu əlaqələrin inkişafına yeni töhfələr verəcəyi şübhəsizdir.

Müasir dövrdə ölkəmiz Avropa İttifaqı ilə münasibətlərində öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional layihələrində iştirak etməklə yanaşı, Cənubi Qafqazdakı ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan İttifaqın xarici əlaqələrində müəyyən mövqe tutmağa çalışır. Odur ki, Azərbaycan dövləti Avropa İtifaqı ilə ikitərəfli əlaqələrin yeni formatlarını yaradır, onunla yaxınlaşmaq üçün zəruri olan bütün təsisatları inkişaf etdirərək İttifaqın ümumavropa iqtisadi, siyasi və təhlükəsizlik məkanına inteqrasiya olunmaq istəyini nümayiş etdirir.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə daim böyük əhəmiyyət verdiyini vurğulayan cənab İlham Əliyev respublikamızın gələcəkdə bu mötəbər qurumun sıralarına qoşulmaq istəyini də bəyan etmişdir: "Avropa İttifaqının Cənubi Qafqaz regionuna aid Yeni qonşuluq siyasəti gələn beş il ərzində ölkəmizdə siyasi və iqtisadi inkişaf meyar-

larının Avropa İttifaqındakı göstəricilərə uyğunlaşdırılmasının əsasını qoyacaqdır. Bu, bizim məqsədimiz və gündəliyimizdə duran məsələlərdir. Avroatlantik məkana inteqrasiya sahəsində Azərbaycanın neçə illər ərzində apardığı siyasət həm ölkəmiz, həm də bütövlükdə regional əməkdaşlıq üçün çox böyük nəticələr vermişdir".

Müasir dünyanın reallıqlarına əsaslanaraq deyə bilərik ki, hər bir dövlətin həyata keçirdiyi enerji siyasəti onun milli təhlükəsizliyinin əsaslarından biridir. Bu gün Azərbaycan yeritdiyi enerji planında tam müstəqildir və şübhə yoxdur ki, bu sahədə bundan sonra da yeni-yeni addımlar atılacaq, bölgədə sabitliyin, əməkdaşlığın, təhlükəsizliyin, o cümlədən enerji təhlükəsizliyinin təmin olunması üçün bütün lazımi tədbirlər görüləcəkdir.

Hazırda ölkəmiz Avropa İttifaqı ilə münasibətlərdə öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional layihələrində iştirak etməklə yanaşı, Cənubi Qafqazdakı ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan İttifaqın xarici əlaqələrində müəyyən mövqe tutmağa çalışır.

Qeyd edək ki, Avropa İttifaqı Azərbaycanda baş verən ictimai-siyasi hadisələrdən, həyata keçirilən demokratik islahatlardan, ölkəmizin iqtisadi, siyasi və mədəni həyatındakı inkişafdan məmnunluğunu ifadə edir. Biz Avropa Komissiyası və Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsinin 2011-ci il mayın 26-da "Qonşuluq paketi" adlanan illik hesabatında da bunun



şahidi olduq. Buraya Avropa Qonşuluq Siyasətinin qiymətləndirilməsinə dair Azərbaycan da daxil olmaqla 12 ölkə üzrə hesabat, sektor hesabatı və "Şərq tərəfdaşlığı"na dair hesabat daxildir[358].

Sənədin ölkəmizlə bağlı hissəsində göstərilir ki, Azərbaycan 2010-cu ildə Avropa Qonşuluq Siyasətinin Fəaliyyət Planının icrası üzrə müəyyən irəliləyiş (xüsusilə, makroiqtisadi sabitlik və yoxsulluğa qarşı mübarizə ilə əlaqədar sahələrdə) əldə edilmişdir. Dünyanın üzləşdiyi qlobal maliyyə və iqtisadi böhrana baxmayaraq, Azərbaycan ili normal başa vurmuş və energetika sektorunda müsbət irəliləyiş baş vermişdir. Belə ki, 2011-ci ilin yanvarında "Cənubi qaz dəhlizinə dair Avropa İttifaqı-Azərbaycan Birgə Bəyannaməsi" imzalanması bir daha təsdiqləyir ki, Azərbaycanla Avropa İttifaqı arasındakı əlaqələr uğurla inkişaf edir.

1993-cü ildən başlayaraq Cənubi Qafqazda və Avrasiyada yenicə müstəqillik əldə etmiş Azərbaycan, Gürcüstan və Ukrayna kimi ölkələrin müstəqilliyinin və milli təhlükəsizliyinin təminatının yaxşılaşdırılmasına, geosiyasi mövqelərinin möhkəmlənməsinə daim xüsusi dəstək vermişlər. Mütəxəssislərin fikrincə, Xəzərin karbohidrogen ehtiyatlarının istismarı və dünya bazarlarına nəqli ilə bağlı Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ və Avropa Birliyinin eyni mövqedən çıxış etməsi onlar arasında digər sahələrdə, o cümlədən regional təhlükəsizlik sahəsində də strateji

[358] "Xalq qəzeti", 28 may 2011-ci il

tərəfdaşlıq münasibətlərinin yaranmasını şərtləndirmişdir. Bu tərəfdaşlığın nəticəsində Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi layihələrin həyata keçməsi və təhlükəsizliyinin təmin edilməsi mümkün olmuşdur.

Avropa İttifaqı başqa sahələrdə olduğu kimi, Cənubi Qafqazın təhlükəsizliyi məsələsində də əsas diqqətini hər hansı bir bölgə ölkəsinin konkret regional və beynəlxalq təhlükəsizliyinin təmin edilməsinə deyil, hər üç ölkə ilə tərəfdaşlıq münasibəti quraraq, əslində İttifaqın məxsusi iqtisadi və təhlükəsizlik maraqlarının təmin edilməsinə yönəldir. Bu maraqlar regional sabitlik, enerji-nəqliyyat və kommunikasiyaların beynəlxalq təhlükəsizliyinin, Xəzər-Qara dəniz hövzəsinə Qərb ölkələrinin Rusiya iradəsindən asılı olmayan sərbəst çıxışının təmin edilməsi üzərində qurulmuşdur[359].

Avropa İttifaqından şərqdə yerləşən ölkələrdə sabitliyin, daha effektiv dövlət idarəçiliyinin və iqtisadi inkişafın təmin edilməsi onun mühüm həyati maraqlarına daxildir. Eyni zamanda, Şərqi Avropa və Cənubi Qafqazdakı bütün tərəfdaş Ölkələr Avropa İttifaqı ilə öz münasibətlərini dərinləşdirməyə səy göstərirlər. Avropa İttifaqı bu ölkələrə qarşı fəal siyasət həyata keçirməklə, bu tərəfdaşlarının onunla daha da yaxınlaşmaq cəhdlərinə böyük dəstək verir, eləcə də, bu yaxınlaşma üçün vacib islahatların həyata keçirilməsinə yardım edir. Bütün bunlar isə Avropa İtti-

[359] Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, s.247.



faqının Şərq ölçülərinin dəqiq müəyyənləşdirilməsi, Cənubi Qafqaz regionuna münasibətdə ümumi, konkret siyasətin həyata keçirilməsi yolu ilə daha da inkişaf edə bilər.

Hazırda Cənubi Qafqaz geoiqtisadi və geosiyasi münasibətlərdə beynəlxalq birlik tərəfindən qəbul edilmiş müstəqil region kimi formalaşır. Avropa İttifaqının Şərq siyasəti çərçivəsində həyata keçirilən Cənubi Qafqaz siyasəti, region dövlətlərinin milli maraqlarına cavab verən, eləcə də Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsinə şərait yaradan optimal xarici siyasət strategiyası regionda baş verən mürəkkəb proseslərə müsbət təsir göstərə bilər.

Azərbaycanın NATO və Avropa İttifaqı ilə həyata keçirdiyi təhlükəsizlik siyasətinin əsasında ölkənin beynəlxalq və regional təhlükəsizliyinə, ərazi bütövlüyü və suveren dövlət hüquqlarının qorunmasına beynəlxalq təminat almaq, Dağlıq Qarabağ probleminin həllinə, pozulmuş ərazi bütövlüyünün bərpasına, malik olduğu enerji ehtiyatlarının sərbəst istifadəsinə, dünya bazarlarına azad və əlverişli marşrutlarla çıxarılmasına və s. həyati əhəmiyyət kəsb edən milli siyasət məsələlərinə əlavə dəstək qazanmaq vəzifəsi dayanır[360].

Avropa İttifaqının region dövlətləri ilə həm ikitərəfli, həm də regional inteqrasiya kontekstində çoxtərəfli münasibətlər qurması və gələcəkdə onların təşkilatla daha sıx

[360] Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, s.249-250.

əməkdaşlığı üçün ciddi fəaliyyət göstərməsi nəticəsində son illərdə adı çəkilən təşkilat öz sərhədlərini bir qədər də genişləndirmişdir. Bununla da, sərhədləri genişlənən İttifaq Avropada yeni qonşular qazanmış və 2003-cü ildə "Daha geniş qonşuluq: Şərq və Qərb qonşularla yeni çərçivə təşəbbüsü" adlı proqram qəbul etmişdir.

Avropa İttifaqının tarixi əhəmiyyətli sonuncu genişlənmə prosesləri Cənubi Qafqaz ölkələrinin Avropa ilə daha sıx əməkdaşlığının inkişafına şərait yaradır. Avropa İttifaqının Cənubi Qafqaz dövlətləri ilə qarşılıqlı əlaqələrinin həyata keçirilməsi vasitələrindən biri məhz Avropa Qonşuluq Siyasətidir. AQS-də yeni qonşuların Avropa İttifaqının layihələrində daha geniş iştirakı və daha proqressiv inteqrasiyası nəzərdə tutulur. AQS Avropa İttifaqının öz sərhədlərini dəqiq müəyyənləşdirmək yolunda atdığı ən uğurlu addımlarından biri hesab olunmalıdır. Hər halda bu siyasət Avropa İttifaqına müəyyən müddətə, yəni gələcək genişlənməyə qədər sərhədlərinin hüdudlarını dəqiqləşdirməyə imkan verir.

Hazırda Avropa İttifaqının regionda həyata keçirdiyi "Yeni qonşuluq siyasəti" layihəsinin əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarətdir. Təbii ki, Cənubi Qafqaz ölkələri də bu məsələdə maraqlıdırlar və Avropa İttifaqı ilə ikitərəfli münasibətləri genişləndirməyə çalışırlar.

1992-2006-cı illərdə Avropa İttifaqının TASİS və digər yardım proqramları çərçivəsində Azərbaycana 414



milyon avrodan çox məbləğdə humanitar, texniki və ərzaq yardımı göstərilmişdir.

Avropa İttifaqının yeni müstəqil dövlətlərə dəstək çərçivəsində reallaşdırdığı çoxsaylı təşəbbüslər, onların çərçivəsində həyata keçirdiyi tədbirlər, göstərdiyi maliyyə-texniki yardımlar və s. zəngin təbii ehtiyatlara və strateji coğrafi əraziyə malik olan Cənubi Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrinin regional və milli təhlükəsizliyinin qorunmasına, enerji təminatının və tranzit potensialının səmərəli istifadəsinə yönəlmiş fəaliyyətin dəstəklənməsinə, bu sahədə geniş istifadə olunan infrastrukturların yenidən qurularaq genişləndirilməsinə müsbət təsir göstərmişdir.

Bu proqramların nəticəsində Avropadan Qara dəniz və Cənubi Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə yeni, daha müstəqil, təhlükəsiz və səmərəli nəqliyyat-kommunikasiya, enerji ixracı dəhlizi və s. yaradıldı.

Həm bu layihələr, həm də Avropa İttifaqının 2004-cüildən bölgədə reallaşdırdığı "Avropa Qonşuluq siyasəti" və 2008-ci ildən həyata keçirdiyi "Şərq tərəfdaşlığı" proqramı beynəlxalq və regional təhlükəsizliyin təmin olunmasına müəyyən təsir göstərmiş və indi də öz təsirini davam etdirir[361].

Müasir dövrdə ölkəmiz Avropa İttifaqı ilə münasibətlərində öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional

---

361 Yenə orada, s.249.

layihələrində iştirak etməklə yanaşı, Cənubi Qafqazdakı ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan İttifaqın xarici əlaqələrində müəyyən mövqe tutmağa çalışır. Odur ki, Azərbaycan dövləti Avropa İtifaqı ilə ikitərəfli əlaqələrin yeni formatlarını yaradır, onunla yaxınlaşmaq üçün zəruri olan bütün təsisatları inkişaf etdirərək İttifaqın ümumavropa iqtisadi, siyasi və təhlükəsizlik məkanına inteqrasiya olunmaq istəyini nümayiş etdirir.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə daim böyük əhəmiyyət verdiyini bildirən dövlət başçısı İlham Əliyev respublikamızın gələcəkdə bu mötəbər qurumun sıralarına qoşulmaq istəyini də bəyan etmişdir: "Avropa İttifaqının Cənubi Qafqaz regionuna aid Yeni qonşuluq siyasəti gələn beş il ərzində ölkəmizdə siyasi və iqtisadi inkişaf meyarlarının Avropa İttifaqındakı göstəricilərə uyğunlaşdırılmasının əsasını qoyacaqdır. Bu, bizim məqsədimiz və gündəliyimizdə duran məsələlərdir. Avratlantik məkana inteqrasiya sahəsində Azərbaycanın neçə illər ərzində apardığı siyasət həm ölkəmiz, həm də bütövlükdə regional əməkdaşlıq üçün çox böyük nəticələr vermişdir".

Müasir dünyanın reallıqlarına əsaslanaraq deyə bilərik ki, hər bir dövlətin həyata keçirdiyi enerji siyasəti onun milli təhlükəsizliyinin əsaslarından biridir. Bu gün Azərbaycan yeritdiyi enerji planında tam müstəqildir və şübhə yoxdur ki, bu sahədə bundan sonra da yeni-yeni addımlar atılacaq, bölgədə sabitliyin, əməkdaşlığın, təhlükəsizliyin, o cümlə-



dən enerji təhlükəsizliyinin təmin olunması üçün bütün lazımi tədbirlər görüləcəkdir.

Hazırda ölkəmiz Avropa İttifaqı ilə münasibətlərdə öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional layihələrində iştirak etməklə yanaşı, Cənubi Qafqazdakı ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan İttifaqın xarici əlaqələrində müəyyən mövqe tutmağa çalışır. Qeyd edək ki, Avropa İttifaqı Azərbaycanda baş verən ictimai-siyasi hadisələrdən, həyata keçirilən demokratik islahatlardan, ölkəmizin iqtisadi, siyasi və mədəni həyatındakı inkişafdan məmnunluğunu ifadə edir.

Avropa İttifaqı ilə qurulan bütün bu əlaqələr Azərbaycanın bütövlükdə milli təhlükəsizliyinə etibarlı beynəlxalq təminat yaratmaqla yanaşı, Avratlantik məkanın enerji təminatçılarından biri kimi ölkəmizin mövqelərini daha da möhkəmləndirir.

Yeni neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın müstəqil dövlət kimi digər dünya ölkələri ilə əməkdaşlığının genişlənməsinə, Avropa İttifaqına və digər mötəbər strukturlara inteqrasiyasına əlverişli imkan və münbit zəmin yaranmaqdadır.

Bütün dünyanın diqqət mərkəzinə çevrilən Azərbaycan artıq qlobal məkanda özünün statusunu müəyyənləşdirməyə nail olmuş və dövlət müstəqilliyinə dayanıqlı bu status əksər dövlətlərdən fərqli olaraq, Azərbaycanın beynəlxalq subyektlərdən asılı tərəf kimi deyil, əksinə, dünya

birliyinin bərabərhüquqlu üzvü olması ilə şərtlənir. Eyni zamanda, Avratlantik məkana inteqrasiyanı xarici siyasətdə əsas prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirən Azərbaycan Respublikası həm Avropanın nüfuzlu təşkilatları, həm də əksər dövlətləri ilə uğurlu siyasi əməkdaşlığın qurulmasına nail olmuşdur.



# NƏTİCƏ

Azərbaycan dövlətinin xarici siyasət kursu ölkənin müstəqilliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün təmin olunması, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması, digər dövlətlərlə formalaşmış bərabərhüquqlu və faydalı münasibətlərin sərhədlərinin genişlənməsi və balanslaşdırılmış praqmatik xarici siyasətin həyata keçirilməsindən ibarətdir.

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə islahatların həyata keçirilməsi və dünya inteqrasiya proseslərinə daha sıx cəlb olunması prosesində iştirak etmək üçün qısa müddət ərzində bir sıra beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə çoxtərəfli əlaqələr yaratmışdır.

1993-cü ildən ümummilli lider Heylər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə də böyük diqqət yetirilmişdir. Beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm və fəal surətdə iştirak etmək və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edir.

Avroatlantik strukturlara inteqrasiya istiqamətində Azərbaycan çoxtərəfli Avroatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir. Belə ki, ölkəmiz 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan ilk dövlətlərdən

olmuş və bu təşkilatın əksər qurumlarının işində fəal iştirak edərək NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir.

Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüququ baza rolunu oynayır.

Azərbaycanın Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması – respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilməsi haqqında qərar ümummilli liderin uzaqgörən, daxili və xarici siyasətinin və bu istiqamətdə görülmüş məqsədyönlü fəaliyyətinin nəticəsi idi. Az sonra, yəni yanvarın 25-də Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə Strasburqda ölkəmizin bu təşkilata üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilmiş və dövlətimizin üçrəngli bayrağı ucaldılmışdır.



Dövlət başçısı Heydər Əliyev Avropa Şurasının tribunasından Azərbaycanın mənafeyinə uyğun şəkildə istifadə edilməsi üçün uğurlu bir addım atdı. Belə ki, Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinə millət vəkili İlham Əliyevin rəhbərlik etməsi və daha sonra millət vəkili İlham Əliyevin AŞ PA-dakı fəaliyyəti ümummilli liderimiz Heydər Əliyevin qarşıya qoyduğu bütün vəzifələri reallaşdırdı.

Azərbaycanın Avropaya inteqrasiya proseslərinə qoşulmaqda maraqlı olması qısa müddətdə ölkədə yaradılmış siyasi sabitlik, respublikamızda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, bazar iqtisadiyyatının bərqərar olmasına yönəldilmiş siyasi-iqtisadi islahatlar, insan hüquqlarının qorunması sahəsində həyata keçirilmiş tədbirlər Azərbaycanın Avropaya inteqrasiya proseslərinə qoşulması üçün əlverişli zəmin yaradırdı. Azərbaycanın əlverişli geosiyasi mövqeyi və zəngin təbii ehtiyatları Avropanı Azərbaycana cəlb edirdi. Bu baxımdan, Avropa beynəlxalq təşkilatlarının Azərbaycanla əməkdaşlığa meylli olmaları təbii qəbul edilməli idi.

Ümumiyyətlə, Azərbaycanın Avropa Şurası ilə diplomatik münasibətləri son illər yüksələn xətt üzrə inkişaf etmişdir. Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə düzgün şəkildə çatdırılmasında bu qurumun mühüm rolu olmuşdur. Xüsusilə, ölkəmizin qanunverici orqanı olan Milli Məclisin AŞ PA-dakı nümayəndə heyətinin fəaliyyəti Avropa Şurası ilə əməkdaşlığın genişləndirilməsi və inkişafında mühüm rol oynamışdır. 2001-2003-cü illər ərzində,

Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyəti tərəfindən onlarla sənəd hazırlanmış və şuranın rəsmi sənədləri kimi yayılmışdır.

Qazanılan bu uğurlarla yanaşı, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Bu məqsədlə 1993-cü ilin ikinci yarısından başlayaraq Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzü məsələlərini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Bu məqsədlə Azərbaycan Prezidenti Heydər Əliyev ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərində ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə danışıqlarda göstərdiyi səylər ümummilli liderin apardığı məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması ümummilli liderimiz Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Yalnız onu qeyd etmək kifayətdir ki, 1993-2003-cü illər ərzində Azərbaycanın dövlət başçısı Heydər Əliyev Ermənistan Prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə



150-yə qədər görüş keçirmişdir. Azərbaycan Prezidenti bu dövrdə 80-dək ölkənin dövlət başçıları ilə keçirdiyi 500-dən çox görüşdə, eləcə də nüfuzlu beynəlxalq təşkilatların ən yüksək səviyyəli nümayəndələri ilə, ATƏT-in, NATO-nun, Avropa Şurasının, Zirvə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur.

Ümumiyyətə, 1993-2003-cü illər ölkəmiz üçün həlledici illər olmuş, məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmiş, Azərbaycan dünya birliyinə qovuşmuşdur. Azərbaycan Avroatlantik təhlükəsizlik institutlarının işlərində müntəzəm, eləcə də fəal suratdə iştirak etməklə səmərəli əməkdaşlığın genişləndirilməsi ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Həmin illərdə çox ciddi islahatlar aparılmış, bazar iqtisadiyyatı prinsipləri üstünlük təşkil etmiş, Azərbaycana böyük həcmdə investisiyaların cəlb olunması geniş vüsət almışdır. Müstəqil Azərbaycanın Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, siyasi sistem möhkəmləndirilmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Bu illər ərzində görülmüş işlər hazırda ölkəmizin uğurlu inkişafını şərtləndirmiş, o dövrdə başlanmış layihələr bu gün çox uğurla davam etdirilir.

Əsası ümummilli lider tərəfindən qoyulmuş və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurlu həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional

və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə də əxz edərək, dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçmişdir. Bu seçimi reallaşdırmaq üçün Azərbaycan dövləti bir tərəfdən dünya təcrübəsini öyrənərək, özünün iqtisadi və siyasi inkişaf modelini müəyyənləşdirir, digər tərəfdən isə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə uyğun olaraq öz milli maraqlarını qoruyaraq dövlətlərarası əlaqələrə girir.

Hazırda regionda və dünyada baş verən əsas iqtisadi siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkə daxilində gedən demokratik proseslər və iqtisadi yüksəlişlə yanaşı, uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəltmiş və bu da beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

Müasir dövrdə Azərbaycanın hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Belə ki, keçən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq sənədlərə imza atmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir.

Bu gün dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın regionda və dünyada müttəfiqlərinin



sayını xeyli artmışdır. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatarcasına və dinamik şəkildə davam etdirən cənab İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirmişdir. Nəticədə, Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Ona görə də bu gün dünyanı narahat edən və həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar.

Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Hazırda bu istiqamətdə əsas diqqət Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Xəzər dənizi hövzəsinin demilitarizasiyası, Avroatlantik strukturlara inteqrasiya və s. məsələlərə yönəldilmişdir. Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısı cənab İlham Əliyev qeyd etdiyi kimi "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz".

Müasir dövrdə ölkəmiz Avropa İttifaqı ilə münasibətlərində öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional layihələrində iştirak etməklə yanaşı, Cənubi Qafqazdakı ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan İttifaqın xarici əlaqələrində müəyyən mövqe tutmağa çalışır. Buna görə də Azərbaycan dövləti Avropa İtifaqı ilə ikitərəfli əlaqələrin yeni formatlarını yaratmaqla, onunla yaxınlaşmaq üçün zəruri olan bütün təsisatları inkişaf etdirərək İttifaqın ümumavropa iqtisadi, siyasi və təhlükəsizlik məkanına inteqrasiya olunmaq istəyini nümayiş etdirir.

Son on il ərzində Azərbaycan xalqı və dövləti sözün əsl mənasında sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük hissəsi öz həllini tapmış, istənilən istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir. Dünya sisteminə fəal inteqrasiya yolu seçən Azərbaycanın qazandığı nailiyyətləri şərtləndirən mühüm faktorlardan biri də enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin edilməsi, iqtisadiyyatın diversifikasiyası, bütün sahələrdə davamlı inkişaf strategiyası uğurla həyata keçirilməkdədir.

Azərbaycanın yeni neft strategiyasının işə düşməsi, xüsusilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac



boru kəmərinin, daha sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, Xəzərin karbohidrogen ehtiyatlarının ixrac infrastrukturunun yenilənməsi və şaxələndirilməsi Azərbaycan neftinin və qazının birbaşa Avropa və dünya bazarına çıxışını təmin etdi ki, bu da təkcə keçən ilin deyil, bütövlükdə müstəqillik tariximizin ən önəmli hadisələri sırasına daxil olmuşdur.

Bu illər ərzində ölkəmizin təhlükəsizlik strategiyası uğurla həyata keçirilmiş, ilk növbədə, Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olunmuş, xarici enerji mənbələrindən asılılıq aradan qaldırılmışdır. Azərbaycan bu gün iqtisadi potensial baxımından regionun lider ölkəsidir. Cənubi Qafqaz iqtisadiyyatında onun payı 80 faizdən artıqdır. "Əsrin müqaviləsi"nin imzalanması ilə dünyada neft ölkəsi kimi tanınan Azərbaycanın təchizatçısı olduğu Bakı-Tbilisi-Ceyhan layihəsi ilə ölkəmiz qlobal enerji bazarında mühüm iştirakçıya çevrilmişdir. Hazırda Azərbaycandan neft və neft məhsulları dünyanın 30-dək ölkəsinə ixrac edilir.

Eyni zamanda, ölkəmiz son illərdə təbii qaz ehtiyatlarına görə də diqqəti cəlb edir. Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan ölkədir. Bir sıra Avropa ölkələrinin qaz bazarında Azərbaycanın payı 40 faizədək artmışdır. Azərbaycanın müəllifi olduğu və Türkiyə ilə birlikdə reallaşdırılan TANAP layihəsi həyata keçirildikdən, yəni 2017-ci ildən sonra Avropanın təbii qaz bazarında ölkənin rolu daha da yüksələcəkdir. Bu layihə bizim uzunmüddətli inkişafımızı,

onilliklər ərzində Azərbaycanın iqtisadi və digər maraqlarını təmin etmək üçün ciddi vasitə olacaqdır. Azərbaycanın mövcud qaz ehtiyatları bundan sonrakı 100 il ərzində respublikanın və tərəfdaş dövlətlərin mavi yanacağa olan tələbatının ödənməsinə imkan verəcək.

Ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan "Avropa Qonşuluq Siyasətinə" qoşulmuş, 2006-cı ildə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunu imzalamış, 2008-ci ildə isə İttifaqın "Şərq tərəfdaşlığı" proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycan xarici ölkələrin iqtisadiyyatına sərmayə yatıran, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə, sivilizasiyalararası dialoqun, qlobal siyasi, iqtisadi, mədəni problemlərin müzakirə olunduğu məkana çevrilmişdir.

Bununla yanaşı, Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətinin dəstəyini qazanaraq inamlı qələbə qazanmışdır. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya



tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu olaraq qəbul edilməlidir. Belə ki, Azərbaycan, ötən on il ərzində stabil inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki əməlləri ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdir. Digər tərəfdən, bu hadisə son illərdə Azərbaycanın dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilməsidir. Çünki beynəlxalq münasibətlər sisteminin böyük miqyaslı məsələlərinin müzakirəsi prosesində ölkəmizin artan fəallığı danılmaz faktdır. Bu müstəqillik illərində ölkəmizin davamlı inkişafına, dünyada qazandığı hörmətə, qlobal təhlükəsizliyə töhfələrinə verilən beynəlxalq qiymət olmuşdur.

BMT Təhlükəsizlik Şurasında təmsil olunmaqla yanaşı, Qoşulmama Hərəkatının üzvü oldu. MDB ölkələrindən yeganə olaraq Azərbaycan Meksikada keçirilən "Böyük iyirmilik"in (G-20) üzvü olan ölkələrin Xarici İşlər Nazirlərinin işçi toplantısına dəvət aldı. Seulda keçirilən nüvə təhlükəsizliyinə qarşı mübarizəyə həsr olunmuş Sammitdə, NATO-nun Çikaqo zirvə toplantısında Prezident İlham Əliyevin məntiqli çıxışı çox maraqla qarşılanmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, ərazilərimizin işğalı faktını nəzərə alaraq ordu quruculuğu prioritet vəzifələrdən biri kimi müəyyənləş-

dirilmiş və bu gün Azərbaycan ordusu maddi-texniki, silah-sursat təchizatı, döyüş qabiliyyəti parametrlərinə görə Cənubi Qafqazın ən güclü ordusudur.

2003-cü ildə bizim hərbi büdcəmiz 163 milyon dollar idisə, 2012-ci ildə bu rəqəm 3,6 milyarda, bu il isə 3,7 milyard dollara çatmışdır. Yəni, bu, onu göstərir ki, ordu quruculuğu Azərbaycan dövlətinin prioritet məsələsidir. 2005-ci ildə Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi təsis olunmuş, hərbi təyinatlı müəssisələr işə salınmış və həmin müəssisələrdə artıq 750 çeşiddə məhsul istehsal edilir. Müqayisə üçün qeyd etmək olar ki, təcavüzkar Ermənistanın bütün büdcəsi 2 milyard dollara yaxındır. Yəni, bizim ancaq hərbi məqsədlər üçün istifadə olunan vəsaitimiz Ermənistanın bütövlükdə bütün xərclərindən təxminən iki dəfə çoxdur.

Ümummili lider Heydər Əliyevin siyasi kursunu layiqincə və çox uğurla davam etdirərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirən dövlət başçısı İlham Əliyev bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirmişdir.

Ümummili lider tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalan dövlət başçısı İlham Əliyev ölkəmizin xarici siyasətinin əsas prioriteti olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmiş və beynəlxalq təşkilatların bu



sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir. Azərbaycan Prezidenti bütün xarici səfərlərdə, eləcə də Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, ehtiyac yarandığı halda hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulamışdır. Azərbaycan Prezidenti İlham Əliyev dövlətimizin xarici siyasətinin əsas prioritetlərindən biri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmiş və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir.

Ölkəmizin artan bu siyasi fəallığının nəticəsi kimi, 2004-cü il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclaslarında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edilmişdir.

Həmin sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması, həmin ərazilərdə yanğınların törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad edilməklə erməni silahlı

qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Bununla yanaşı, qətnamələrdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyünə hörmət ifadə olunur, eləcə də öz torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququ bir daha təsdiqləndi.

Ümumiyyətlə, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Bu baxımdan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası və İslam Konfransı Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır. Son zamanlar isə, Avropa Parlamenti və NATO-nun Zirvə toplantılarında qəbul olunan qərarlarda birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir.

Münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüquq normaları və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır. Münaqişənin dinc vasitələrlə nizamlanması üzrə



aparılan danışıqlar məhz bu prinsiplərdən irəli gələn detalların razılaşdırılmasına yönəldilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə və birmənalı olaraq "Azərbaycan ərazi bütövlüyü danışıqların mövzusu ola bilməz" fikrini irəli sürməsi ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla münaqişənin ədalətli şəkildə həll olunacağı ilə bağlı ümidləri daha artırmışdır. Eyni zamanda, dövlət başçısı bəyan etmişdir ki, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, dünya birliyi heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır.

Bununla yanaşı, Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti ilə heç vaxt barışmayacağını və torpaqlarımızı azad etmək üçün əsasımızın olduğunu və bunun beynəlxalq hüquq normaları ilə təsdiq edildiyini vurğulamışdır. Ona görə ancaq Azərbaycan xalqının iradəsinə, gücünə arxalanmağı bildirən dövlət başçısı bu məqsədlə iqtisadiyyatımızı və ordumuzu gücləndirməyin vacibliyini bildirməklə yanaşı qeyd etmişdir ki, "Biz danışıqlar aparırıq, ancaq bununla bərabər, hər an torpaqlarımızı işğalçılardan hərbi yolla azad etməyə hazır olmalıyıq".

Ümummili lider tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalan dövlət başçısı İlham Əliyevin münaqişənin nizama salınması prosesində hücum taktikasına üstünlük verməsi və bu istiqamətdə ardıcıl, qətiyyətli diplomatik addımların atılması problemin Azərbaycanın milli maraqları təmin olunmaqla aradan qaldırılması və uğurlu nəticələrin əldə edilməsinə möhkəm zəmin yaratmışdır.

Əsası ümummilli lider tərəfindən qoyulmuş və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurlu həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə də əxz edərək, dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçmişdir. Bu seçimi reallaşdırmaq üçün Azərbaycan dövləti bir tərəfdən dünya təcrübəsini öyrənərək, özünün iqtisadi və siyasi inkişaf modelini müəyyənləşdirir, digər tərəfdən isə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə uyğun olaraq öz milli maraqlarını qoruyaraq dövlətlərarası əlaqələrə girir. Bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, həyata keçirilən qlobal miqyaslı tədbirlər bu gün Azərbaycanın dünya miqyasında nüfuzunu xeyli artırmış, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirmişdir.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına və dinamik şəkildə davam etdirən dövlət başçısı İlham Əliyev yüksək diplomatik fəaliyyəti sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirmişdir. Nəticədə, Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Azərbaycanın artıq dünyanın 70-dən artıq ölkəsində diplomatik nümayəndəliyi fəaliyyət göstərir.



Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Bu istiqamətdə əsas diqqət Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Xəzər dənizi hövzəsinin demilitarizasiyası, Avroatlantik strukturlara inteqrasiya və s. məsələlərə yönəldilmişdir. Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısı cənab İlham Əliyev qeyd etdiyi kimi "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz".

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursun son on ildə dinamik şəkildə inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin etmiş, bu gün dövlətimiz və xalqımız üçün çox vacib olan problem – işğal olunmuş torpaqlarımızın tezliklə azad ediləcəyinə və ərazi bütövlüyünün bərpa olunacağına olan ümidləri daha da artıraraq perspektivdə Azərbaycanın ən qüdrətli dövlətlər sırasında duracağını şərtləndirmişdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

### I FƏSİL


1. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin BMT Təhlükəsizlik Şurasının sədrinə yazılı müraciəti, 26 iyul 1993-cü il. – "Azərbaycan" qəz., 27 iyul 1993-cü il.
2. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin BMT Təhlükəsizlik Şurasının sədrinə və BMT-nin Baş katibinə məktubu, 18 avqust 1993-cü il. – "Azərbaycan" qəz., 19 avqust 1993-cü il.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasındakı çıxışı. 29 sentyabr 1994-cü il. – "Azərbaycan" qəz., 30 sentyabr 1994-cü il.
4. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin 50 illiyi yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında çıxışı, 22 oktyabr 1995-ci il. – "Azərbaycan" qəz., 24 oktyabr 1995-ci il.
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibəti ilə Bəyanatı. – "Azərbaycan" qəz., 25 oktyabr 2011-ci il.
6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 59-cu sessiyasında çıxışı, 24 sentyabr 2004-cü il. – "Azərbaycan" qəz., 26 sentyabr 2004-cü il.
7. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. II cild. /Kitabın ideya rəhbəri: akademik R. Mehdiyev, redaktor: professor Ə.Həsənov, buraxılışa məsul: B. Sadıqov / Bakı, 2012, s.276-282.
8. Əhmədov E. Ermənistanın Azərbaycan təcavüzü və beynəlxalq təşkilatlar. Bakı 1998, 137 s.
9. Əhmədov E. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi ölkəmizin diplomatiya tarixində böyük nailiyyətdir. – "Xalq qəzeti", 28 oktyabr 2011-ci il.
10. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı, 2012, 912 s.
11. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, 752 s.
12. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996, 140 s.
13. "Azərbaycan", 29 oktyabr 1993-cü il.
14. "Azərbaycan", 8 aprel 1993-cü il.
15. "Azərbaycan", 8 yanvar 2012-ci il.
16. "Həyat", 12 may 1992-ci il.
17. "Həyat", 14 mart 1992-ci il.
18. "Həyat", 14 may 1992-ci il.
19. "Həyat", 14 may 1992-ci il.
20. "Həyat", 28 mart 1992-ci il.
21. "Xalq qəzeti", 14 mart 1992-ci il.
22. "Xalq qəzeti", 14 may 1992-ci il.

23. "Xalq qəzeti", 20 oktyabr 1993-cü il.
24. "Xalq qəzeti", 30 oktyabr 1993-cü il.
25. "Xalq qəzeti", 31 iyul 1993-cü il.
26. "Xalq qəzeti", 4 may 1993-cü il.
27. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. – http://www.mfa.gov.az/
28. Armenia-Azerbaijan conflict. GRS. Issue Brief. September 24, 1997, 15 p.
29. Azerbaijan International. California, September, 1993 p.22-25.
30. Azerbaijan: Seven years of conflict in Nagorno-Karabakh. In: Human Rights Watch /Helsinki. New York, 1994, 114 p.
31. Charter of the United Nations and Statute of the International Court of Justice. United Nations. New York, 1999, 87 p.
32. Resolution 822 (1993) – Adopted By the- UN Security Council at its 3505th meeting, on 30 April 1993.
33. Resolution 853 (1993) – Adopted By the UN Security Council at its 3259th meeting, on 29 July 1993.
34. Resolution 874 (1993) – Adopted By the UN Security Council at its 3292th meeting, on 14 October 1993.
35. Resolution 884 (1993) – Adopted By the UN Security Council at its 3313th meeting, on 12 November 1993.
36. The Work of the International Law Commission. United Nations. New York, 1996, 38 p.
37. United Nations Peace-keeping. United Nations. New York, 1993, 57 p.



38. Заключительный Акт Совещания по безопасности и сотрудничеству в Европе. 30 июля – 1 августа 1975 г. Москва, Международные отношения, 1987, 96 с.
39. Официальные отчеты Генеральной Ассамблеи. XXIX сессия. Приложение к резолюции 3314 (XXIX) Генеральной Ассамблеи, документ A/9890.

## II FƏSIL

1. ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş. - "Azərbaycan" qəz., 21 fevral 2001-ci il.
2. ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş.- "Azərbaycan" qəz., 21 fevral 2001-ci il.
3. ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında. – "Azərbaycan" qəz., 21 fevral 2001-ci il.
4. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, 280 s.
5. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivi. Beynəlxalq təşkilatlar idarəsi. 1991-1998.
6. Dövlət başçılarının Helsinki görüşü. Helsinki, 8-10 iyul 1992: Sənədlər və materiallar, Bakı, 1992, 40 s.
7. Əhmədov E. Ermənistanın Azərbaycan təcavüzü və beynəlxalq təşkilatlar. Bakı 1998, 137 s.
8. Əhmədov E. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, 912 s.

9. Rəcəbli H., İbayev V. Avropa beynəlxalq təşkilatları. Bakı. 1999, 92 s.
10. Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, 2005, 192 s.
11. Həsənov Ə. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, 80 s.
12. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, 752 s.
13. "Azərbaycan", 13 mart 2004-cü il.
14. "Azərbaycan", 17 iyul 2009-cu il.
15. "Azərbaycan", 18 noyabr 2009-cu il.
16. "Azərbaycan", 28 may 2009-cu il.
17. "Azərbaycan", 5 fevral 2004-cü il.
18. "Azərbaycan", 27 may 2011-ci il.
19. "Azərbaycan", 23 dekabr 1997-ci il.
20. "Xalq qəzeti", 07 aprel 2009-cu il.
21. "Xalq qəzeti", 17 oktyabr 2009-cu il.
22. "Xalq qəzeti", 28 sentyabr 1999-cu il.
23. "Xalq qəzeti", 17 mart 2004-cü il.
24. "Xalq qəzeti", 4 yanvar 2005-ci il.
25. "Ayna", 27 sentyabr 1997-ci il.
26. "Ayna", 11 iyul 2009-cu il.
27. "Ayna", 12 aprel 1997-ci il.
28. "Azərbaycan", 19 iyul 1997-ci il.
29. "Xalq qəzeti", 1 mart 1996-cı il.
30. "Azərbaycan", 1 mart 1996-cı il .
31. "Panorama", 6 mart 1996-cı il.



32. "Azərbaycan", 26 avqust 1995-ci il.
33. "Azərbaycan", 3 mart 1993-cü il.
34. "Azərbaycan", 10 may 1995-ci il.
35. Adjusted Timetable of Urgent Steps to Implement U.N. Security Council Resolutions 822, 853 and 874. November 12, 1993.
36. CSCE Seventh meeting of the Committee of Senior Officials. Prague, 27-28 February, 1992, CSO. Journal N 2, p.1-4.
37. CSCE. Budapest Document 1994. Towards a Genuine pornership in a new era. Budapest, 1994, 35 p.
38. Maresca J.J. Agony of Indifference in Nagorno-Karabakh. "The Christian Science Monitor". Boston. June 27, 1994, p.19.
39. OSCE. Handbook. Vienna, Published by the Secretariat of the Organization for Security and Co-operation in Europe, 1999, 197 p.
40. OSCE.Istanbul Summit Declaration. Istanbul, 1999, 15 p.
41. Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton. 1996, 1311 p.
42. Report of the Second CSCE Mission on Nagorno Karabakh. CSCE. Helsinki, 24 March, 1992.
43. United States Information Agency (USIA), 8 January, 1997.
44. Armenia-Azerbaijan conflict. GRS. Issue Brief. September 24, 1997, 15 p.

45. CSCE. First Additional meeting of the Council. Helsinki, 24 March, 1992, CSO. Journal, N 3, p.1-3.
46. OSCE. Lisbon Document 1996. Lisbon, 1996, p.1-5.
47. Будапештские решения. II. Региональные вопросы. Активизация действий СБСЕ в связи с Нагорно-Карабахским конфликтом. Встреча на высшем уровне. Будапешт, 5-6 декабря 1994 года.
48. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г. – декабрь 1996 г.). Баку, 1997, 110 с. ОБСЕ.
49. ОБСЕ. Двенадцатая встреча Совета министров. София, 6-7 декабря 2004 года. Заявление Совета министров о Нагорно-Карабахском конфликте.
50. Лиссабонский документ 1996 года. Приложение 1: Заявление ДП ОБСЕ; Приложение 2: Заявление делегации Армении. Встреча на высшем уровне. Лиссабон, 2-3 декабря 1996 года.
51. Маммадов И., Мусаев Т. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Тула, 2006, 192 с.
52. ОБСЕ. Девятая встреча Совета министров. Бухарест, 3-4 декабря 2001 года. Решения 2. Заявление Совета министров (5).
53. ОБСЕ. Десятая встреча Совета министров. Порто, 6-7 декабря 2002 года. Заявление Совета министров (4); Приложение 3. Дополнение 3. Интерпретирующее заявление Азербайджана.



54. ОБСЕ. Одинадцатая встреча Совета министров. Маастрихт, 1-2 декабря 2003 года. Заявление о понимании председателя; Заявление делегации Азербайджана.
55. ОБСЕ. Пятнадцатая встреча Совета министров. Мадрид, 29-30 нояабря 2007 года. Заявление Министров.
56. ОБСЕ. Тринадцатая встреча Совета министров. Любляна, 5-6 декабря 2005 года. Заявление Совета министров о конфликте, являющемся предметом рассмотрения в Минской группе ОБСЕ.
57. ОБСЕ. Четырнадцатая встреча Совета министров. Брюссель, 4-5 декабря 2006 года. Заявление о Нагорному Карабаху.
58. “Независимая газета”, 11 января 1996 г.
59. “Независимая газета”, 2 июля 1996 г.
60. “Независимая газета”, 13 июля 1996 г.
61. “Независимая газета”, 1 ноября 1996 г.

## III FƏSİL

1. “Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlıq üzrə Komissiyası haqqında” Əsasnamə, 1999. Maddə 2. – http://e-qanun.az/
2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivi. Beynəlxalq təşkilatlar idarəsi. 1991-1997.

3. Azərbaycan Respublikası Xarici İşlər nazirliyinin 2011-ci il üçün yekun mətbuat buraxılışı. – www.mfa.gov.az
4. Azərbaycan Respublikası Xarici İşlər nazirliyinin 2010-cu il üçün yekun mətbuat buraxılışı. – www.mfa.gov.az
5. Azərbaycan Respublikası Xarici İşlər nazirliyinin 2012-ci il üçün yekun mətbuat buraxılışı. – www.mfa.gov.az
6. Azərbaycan Respublikası XİN-in arxivi. Beynəlxalq təşkilatlar idarəsi. Arayış, 1991-1997, s. 2.
7. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2198 saylı fərmanı ilə 23 may 2007-ci ildə təsdiq edilmişdir. – "Azərbaycan" qəz., 2007, 4 avqust.
8. Azərbaycan-NATO 15 illik tərəfdaşlıq. Azərbaycan Respublikasının NATO yanında Nəmayəndəliyi. Brüssel, 2009, 78 s.
9. Azərbaycan-NATO: *tərəfdaşlıqdan başlanan yol* (1994-2009). Bakı, 2009, 340 s.
10. Babayev Z. Azərbaycan-NATO münasibətlərinin beynəlxalq hüquqi nizamlanması. "Dirçəliş-XXI əsr". 2008, № 126-127. s.232-242.
11. Əliyeva A. NATO-da hərbi siyasi islahatlar və Azərbaycan Respublikası. Bakı, 2012, 279 s.
12. Əhmədov E. Azərbaycanın Avroatlantik strukturlara inteqrasiyası NATO ilə əməkdaşlıq konteksində. – "Dövlət İdarəçiliyi": nəzəriyyə və təcrübə. Elmi-nəzəri və praktiki jurnal. 2009, №1 (25), s.156-165.



13. Əzimli A. Azərbaycan-NATO münasibətləri (1991-2000). Bakı, 2001, 226 s.
14. Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, 440 s.
15. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, 752 s.
16. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı, 1998, 280 s.
17. Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, 2013, 264 s.
18. Rəcəbli H., İbayev V. Avropa beynəlxalq təşkilatları. Bakı. 1999, 92 s.
19. Tərəfdaşlıq vasitəsilə təhlükəsizlik. Brüssel, 2005, 36 s.
20. Sümərinli C. İrəliyə, NATO-ya doğru! Bakı, 2007, 152 s.
21. "Azərbaycan", 21 may 2004-cü il.
22. "Ayna", 29 aprel 2006-cı il.
23. "Xalq qəzeti", 01 dekabr 2006-cı il.
24. "Xalq qəzeti", 10 aprel 2008-ci il.
25. "Xalq qəzeti", 7 aprel 2009-cu il.
26. "Xalq qəzeti", 10 may 1994-cü il.
27. "Azərbaycan", 12 noyabr 2006-cı il.
28. Lisbon Summit Declaration of NATO. Lisbon, 2010.
29. NATO Handbook. NATO office of information and press. 1110 Brussels. Belgium, 2001, 536 p.
30. NATO Public Diplomacy Division. 1110 Brussels, Belgium, 2005. – web site: www.nato.int

31. NATO Transformed. Public Diplomacy Division. 1110 Brussels, Belgium, 2005, 44 p.
32. The NATO Summitat Prague, by Paul Gallis, 2002, p.4
33. http://azertag.com/newsarchive?mod=1&date=2011-12-30&id=901321&partition=0
34. http://nisa.az/content/view/90/675/lang,en/
35. http://novaonline.nvcc.edu/eli/evans/his135/Events/nato49/nato49.html
36. http://www.history.com/topics/formation-of-nato-and-warsaw-pact
37. http://www.nato.int/cps/en/natolive/official_texts_17120.htm
38. Справочник НАТО. Брюссель, 2001, 672 с.
39. Чернявский С. Южный Кавказ в планах НАТО. – "Международная жизнь",1998, №9, s.102.

## IV FƏSİL

1. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin AŞ PA-nın sessiyasında çıxışı. – "Azərbaycan" qəz., 26 aprel 2001-ci il.
2. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin Strasburqdan Azərbaycan televiziyasına birbaşa müsahibəsi. – "Azərbaycan" qəz., 27 sentyabr 2001-ci il.



3. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin müsahibəsi. – "Azərbaycan" qəz., 30 yanvar 2001-ci il.
4. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin Strasburqda Turkiyənin NTV kanalında müsahibəsi. – "Azərbaycan" qəz., 26 aprel 2001-ci il.
5. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin çıxışı. – "Xalq qəzeti", 27 sentyabr 2002-ci il.
6. Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il aprelin 29-da AŞ PA-nın yaz sessiyasında çıxışı – "Azərbaycan", 1 may 2004-cü il.
7. Azərbaycan Respublikası XİN-in cari arxivi. Avropa Şurası yanında Daimi nümayəndəliklə yazışma, 27 aprel 2001-ci il, s. 2.
8. Azərbaycan Respublikası XİN-in cari arxivi. Avropa Şurası yanında Daimi nümayəndəliklə yazışma, 29 iyun 2001-ci il, s. 2.
9. Azərbaycan və Avropa Şurası. Bakı, 2009, 240 s.
10. Əhmədov E. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı 2012, 912 s.
11. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, 137 s.

12. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, 752 s.
13. Rəcəbli H., İbayev V. Avropa Şurası, Bakı, 1999, 118 s.
14. Rəcəbli H., İbayev V. Avropa beynəlxalq təşkilatları. Bakı. 1999, 92 s.
15. Vəliyev A. Azərbaycan-Avropa Şurası: demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. Bakı, 2006, 236 s.
16. "Azərbaycan", 14 oktyabr 1997-ci il.
17. "Azərbaycan", 17 iyun 1998-ci il.
18. "Azərbaycan", 20 fevral 2004-cü il.
19. "Azərbaycan", 20 may 2005-ci il.
20. "Azərbaycan", 20 aprel 1993-cü il.
21. "Azərbaycan", 20 noyabr 1994-cü il.
22. "Azərbaycan", 21 iyul 1994-cü il.
23. "Azərbaycan", 28 may 2010-cu il.
24. "Azərbaycan", 28 yanvar 2001-ci il.
25. "Azərbaycan", 3 dekabr 2008-ci il.
26. "Azərbaycan", 9 aprel 2004-cü il.
27. "Həyat", 14 mart 1992-ci il.
28. "Xalq qəzeti", 23 yanvar 1998-ci il.
29. "Xalq qəzeti" 10 noyabr 2000-ci il.
30. Destruction of the historical cemeteries and creation of new permanent "cemeteries" of catastrophe by Armenians in the occupied territories of the Republic of Azerbaijan. PACE. Doc.9516.2002, 8 July.
31. Ecological situation in the Republic of Azerbaijan (Mountainous Karabakh, Shusha, Lachin, Gubatly, Zangilan, Kalbajar, Agdam, Fizuli, Jabrayil). PACE. Doc.9148. 2001, 27 June.
32. Ecological situation in the Republic of Azerbaijan (Mountainous Karabakh, Shusha, Lachin, Gubatly, Zangilan, Kalbajar, Agdam, Fizuli, Jabrayil). PACE. Doc.9148. 2001, 27 June.
33. Network of terrorist organisations supported by Armenia on the occupied territories of the Republic of Azerbaijan. PACE.Doc.9489,2002, 14 June.
34. Nuclear technologies and nuclear waste in the occupied territories of the Republic of Azerbaijan. PACE. Doc.9444. 2002, 7 May.
35. PACE. REC. 1416/2005. The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference.
36. PACE. REC. 1690/2005. The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference.
37. Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton.1996, p. 1128.
38. Resolution 1047 (1994) on the conflict in Nagorno-Karabakh. Parliamentary Assembly of the Council of Europe, 10 November, 1994.
39. Settlement of civilian population by Armenia in the occupied territories of the Republic of Azerbaijan. PACE.Doc.10239, 2004, 29 June.
40. The Statesman's Year – Book. Statistical and historical annual of the states of the world for the year 1995-1996.

(ed: Brian Hunter), St. Martin's press – New York, 1996, p. 38.
41. Устав Совета Европы. В книге: Международное публичное право / Сборник документов. М., т. 1., 1996, с. 322.
42. Шреплер Х.-А. Международные организации. Спр. М., 1995, 324 с.

## V FƏSİL

1. Avropa İttifaqı. Brüssel, 24 iyun 1993-cü il. Dağlıq Qarabağa dair bəyanat – Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı, 2011, s.192.
2. Azərbaycan ilə Avropa Birliyi arasında anlaşma memorandumunun imzalanması. – "Xalq qəzeti", 12 noyabr 2006-cı il.
3. Azərbaycan ilə Avropa İttifaqı arasında anlaşma memorondumunun imzalanması – Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı, 2011, s.138.
4. Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il martın 17-də Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda keçirilən beynəlxalq konfransda çıxışı – "Azərbaycan", 23 mart 2004-cü il.
5. Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il mayın 19-da Brüsseldə "Avropa Birliyi və Azərbaycan-tərəfdaşlıq üçün yeni üsullar" mövzusunda keçirilən siyasi brifinqdə nitqi – "Azərbaycan", 22 may 2004-cü il.



6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul etmişdir – Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı, 2011, s.110-112.
7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşü – "Xalq qəzeti", 1 may 2009-cü il.
8. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa İttifaqı Nazirlər Şurasının baş katibi Xavyer Solana ilə görüşü – "Azərbaycan", 2 may 2009-cü il.
9. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Birliyi Şurasının baş katibi, Xarici Siyasət və Təhlükəsizlik Siyasəti Üzrə Ali Nümayəndəsi Xavyer Solana ilə görüşü – "Azərbaycan", 11 noyabr 2006-cı il.
10. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Siyasi Mərkəzində görüş zamanı nitqi. – "Azərbaycan" qəz., 2 may 2009-cu il.
11. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun geniş tərkibdə görüşü – "Azərbaycan", 14 yanvar 2011-ci il.
12. Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı, 2011, 404 s.
13. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, 137 s.
14. Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, 440 s.

15. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.752.
16. İbadov R. Avropa İttifaqının əsasları. Bakı, 2004, 212 s.
17. Rəcəbli H., İbayev V. Avropa beynəlxalq təşkilatları. Bakı. 1999, 92 s.
18. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun mətbuat konfransı. – "Xalq qəzeti", 14 yanvar 2011-ci il.
19. "Azərbaycan", 15 yanvar 2011-ci il.
20. "Azərbaycan", 20 may 2004-cü il.
21. "Azərbaycan", 20 noyabr 1993-cü il.
22. "Azərbaycan", 23 may 2010-cu il.
23. "Azərbaycan", 8 may 2009-cu il.
24. "Azərbaycan", 9 aprel 1993-cü il.
25. "Azərbaycan", 9 may 2009-cu il.
26. "Xalq qəzeti", 13 mart 2004-cü il.
27. "Xalq qəzeti", 14 avqust 2009-cu il.
28. "Xalq qəzeti", 14 avqust 2009-cu il.
29. "Xalq qəzeti", 14 may 2004-cü il.
30. "Xalq qəzeti", 28 may 2011-ci il.
31. "Xalq qəzeti", 8 may 2009-cu il.
32. Comission of the European Communities. "European Neigbourhood Policy", Country Report Azerbaijan. Brussels, 2005, p.3.



33. Eastern partnership: Communication from the European Commission to the European Parliament and the Council», № COM (2008) 823 from 3 December 2008.
34. European Neighbourd Policy EU / Azerbaijan Action Plan 14 november 2006. http://ec.europa.eu/environment/enlarg/pdf/enp_action_plan_azerbaijan.pdf
35. European Neighbourd Policy EU / Georgia Action Plan 14 november 2006. http://ec.europa.eu/environment/enlarg/pdf/enp_action_plan _georgia .pdf
36. European Neighbourd Policy EU/Armenia Action Plan 14 november 2006. http://www.armeniaforeignministry.com/pcrspectives/061114_armenia_enp_ap_fmal_en.pdf
37. Fact sheets on the European Union. Luxembourg, 2004, 219 p.
38. Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton. 1996, 1311 p.
39. Европейский Союз на пороге XXI Века/Под ред. Борко Ю.А. М., Междунар. Отношение, 2001, 480 с.
40. Шреплер Х.-А. Международные организации. Спр. М., 1994, 324 с.

## Əlavə III. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi

## SƏNƏDLƏR

**III.1.** BMT-nin sənədləri
**III.2.** ATƏT-in sənədləri
**III.3.** Avropa Şurasının sənədləri
**III.4.** Avropa İttifaqının sənədləri
**III.5.** Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) sənədləri



### III.1. BMT-nin sənədləri

*Əlavə III.1.1*

**BMT Təhlükəsizlik Şurası sədrinin BƏYANATI**

*12 may 1992-ci il*

Təhlükəsizlik Şurasının üzvləri arasında məsləhətləşmələrdən sonra Şuranın sədri Şuranın adından 1992-ci il mayın 12-də onun 3072-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurasının üzvləri Dağlıq Qarabağa dair vəziyyətin pisləşməsi və atəşkəs barədə sazişlərin pozulması ilə bağlı böyük insan tələfatına və xeyli maddi ziyan vurulmasına gətirib çıxaran son məlumatlardan, eləcə də bunların region ölkələri üçün nəticələrindən dərin narahatlıq keçirirlər.

Təhlükəsizlik Şurasının üzvləri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində görülən səyləri, eynilə tərəflərə sülh yolu ilə nizamlanma əldə etməyə və humanitar yardım göstərilməsinə yönələn digər səyləri yüksək qiymətləndirir və dəstəkləyirlər.

Onlar Baş Katib tərəfindən bu bölgəyə təcili olaraq faktların araşdırılması və tərəflərə sülh yolu ilə nizamlanma əldə etmək üçün ATƏM çərçivəsində göstərilən səylərə tezliklə kömək edilməsi yollarının və vasitələrinin öyrənilməsi üçün missiya göndərilməsini alqışlayır. Bu missiya həmçinin beynəlxalq birlik tərəfindən təxirəsalınmaz humanitar yardım göstərilməsinin mümkün yollarının öyrənilməsi üçün özünə müvafiq texniki elementi daxil edəcəkdir.

Təhlükəsizlik Şurasının üzvləri bütün maraqlı tərəfləri zorakılığa son qoymaq, Baş Katibin missiyasının işini asanlaşdırmaq və onun personalının təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirləri görməyə çağırır. Onlar Şuranın Sədri adından 1992-ci il yanvarın 23-də (S/23496) və fevralın 14-də (S/23597) müvafiq olaraq Ermənistanın və Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunması barədə edilən bəyanatlarını və xüsusilə də Nizamnamənin mübahisələrin dinc yollarla və güc tətbiq etmədən nizamlanmasına aid prinsiplərinə istinadları xatırlayırlar".

---

*Əlavə III.1.2*

**BMT Təhlükəsizlik Şurası sədrinin**
**BƏYANATI**

*26 avqust 1992-ci il*

Təhlükəsizlik Şurasının üzvləri arasında məsləhətləşmələrdən sonra Şuranın Sədri Şuranın adından "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndlə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Dağlıq Qarabağda vəziyyətin pisləşməsi, çoxlu insan tələfatına və geniş miqyasda maddi zərərə səbəb olması haqqında məlumatlar Təhlükəsizlik Şurasının üzvlərini dərindən narahat etmişdir.

Təhlükəsizlik Şurasının üzvləri bütün tərəfləri və digər əlaqədar tərəfləri atəşi dərhal dayandırmağa və ATƏM çərçivəsində Dağlıq Qarabağ məsələsinə dair Minsk Konfransının səylərinə,



habelə Romada keçirilən hazırlıq danışıqlarına yardım göstərməyə qətiyyətlə çağırırlar. Onlar bütün tərəfləri və digər əlaqədar tərəfləri ATƏM ilə sıx əməkdaşlıq etməyə və öz mübahisələrinin dinc yolla aradan qaldırılmasına mümkün qədər tez nail olmaq məqsədilə danışıqlarda müsbət mövqelərdən iştirak etməyə təkidlə çağırırlar. Onlar qeyd etmişlər ki, Baş Katib faktları müəyyən etmək üçün həmin bölgəyə nümayəndələr göndərmiş və ATƏM-in yuxarıda adı çəkilən danışıqlarına nümayəndələr göndərməyə hazırdır. Şuranın üzvləri Dağlıq Qarabağda vəziyyətin inkişafı ilə əlaqədar olaraq həmin rayonlarda Birləşmiş Millətlər Təşkilatının rolunu sonralar, lazımi vaxtda müzakirə edəcəklər".

---

*Əlavə III.1.3*

**BMT Təhlükəsizlik Şurası sədrinin**
**BƏYANATI**

*27 oktyabr 1992-ci il*

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələr apararaq Şuranın sədri Şuranın adından onun 1992-ci il sentyabrın 27-də keçirilmiş 3127-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurası 1992-ci il sentyabrın 21-də Soçidə atəşkəs barədə sazişin bağlanılmasına baxmayaraq, Dağlıq Qarabağda və onun ətrafında ciddi vəziyyətin qalmasından, eləcə də bununla əlaqədar insan tələfatı və maddi itkilər olmasından dərin narahatdır.

Təhlükəsizlik Şurası özünün 1992-ci il 26 avqust (S/24493) tarixli "Dağlıq Qarabağda vəziyyətə dair bəyanat"ının məzmununu, xüsusilə də ATƏM-in Dağlıq Qarabağa Minsk Konfransının səylərinə dəstəyini təsdiq edir. O, qətiyyətlə bütün tərəfləri və bu məsələyə aid olan digərlərini dərhal atəşi dayandırmağa və blokadanın bütün növlərini aradan qaldırmağa çağırır. O, Minsk Konfransının işinin dərhal yenidən başlanılmasına və Sədrin təklif etdiyi qayda və proseduralar əsasında siyasi danışıqların açılmasına çağırır. O, təkidlə bu məsələyə aidiyyatı olan bütün tərəfləri və digərlərini onların mübahisələrinin tezliklə hərtərəfli nizamlanmasını əldə etmək üçün ATƏM-lə sıx əməkdaşlığa və Konfransın işində əsaslı iştirak etməyə çağırır.

Təhlükəsizlik Şurası Baş Katibin Birləşmiş Millətlər Təşkilatının ATƏM-in səylərinin dəstəklənməsi planına, eləcə də humanitar yardım göstərilməsinə nə kimi töhfə verə biləcəyi məsələsinin öyrənilməsi üçün bu regiona öz nümayəndəsini göndərməyə dair niyyətindən məmnun olduğunu bildirir".

---

*Əlavə III.1.4*

**BMT Təhlükəsizlik Şurası sədrinin**
**BƏYANATI**

*29 yanvar 1993-cü il*

Təhlükəsizlik Şurasının Sədri 1993-cü ilin 29 yanvarında keçirdiyi məsləhətləşmələrdən sonra Şuranın üzvləri adından kütləvi informasiya vasitələrinin nümayəndələrinə aşağıdakıları bəyan etmişdir:



"Ermənistan və Azərbaycanın Naxçıvan Muxtar Respublikasına malların və materialların göndərilməsi, xüsusilə elektrik enerjisi verilməsindəki fasilələrin dağıdıcı nəticələri ilə əlaqədar Təhlükəsizlik Şurasının üzvləri dərin narahatlıq keçirdiklərini bildirirlər. Qeyri-adi dərəcədə sərt qışın genişləndirdiyi bu fasilələr həmin bölgələrin iqtisadiyyatını və infrastrukturunu iflas həddinə gətirib çıxarmış və real aclıq təhlükəsi yaratmışdır.

Şuranın üzvləri təkidlə bütün kömək edə biləcək ölkələri yanacaq və humanitar yardımın göndərilməsinə kömək etməyə və region ölkələrinin hökumətlərini humanitar vəziyyətin gələcəkdə daha da pisləşməsinin qarşısını almaq məqsədilə humanitar yüklərin, xüsusilə də yanacağın Ermənistana və Azərbaycanın Naxçıvan bölgəsinə maneəsiz çatdırılmasını təmin etməyə çağırır.

Şuranın üzvləri tərəfləri bir araya gətirmək və ATƏM-in bu regionda sülhün bərqərar olmasına yönələn bütün səylərini tam dəstəklədiklərini bir daha bəyan edirlər. Onlar tərəfləri dərhal atəşkəsə və tezliklə ATƏM çərçivəsində danışıqların yenidən başlanılmasına razılaşmağa çağırırlar.

Təhlükəsizlik Şurasının üzvləri bu məsələyə baxmağı davam etdirəcəklər".

---

*Əlavə III.1.5*

**BMT Təhlükəsizlik Şurası sədrinin**
**BƏYANATI**

*6 aprel 1993-cü il*

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələrdən sonra Şuranın Sədri Şuranın adından 1993-cü il aprelin 6-da onun 3194-cü iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsindən və Dağlıq Qarabağ münaqişəsində düşmənçilik hərəkətlərinin güclənməsindən, xüsusilə yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna müdaxiləsindən ciddi narahat olduğunu bildirir. Şura sülh və bölgənin təhlükəsizliyi üçün qorxu törədən belə düşmənçilik hərəkətlərinin hamısına dərhal son qoymağı və bu qüvvələri oradan çıxarmağı tələb edir.

Bununla əlaqədar Təhlükəsizlik Şurası bölgənin bütün dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, onların sərhədlərinin pozulmazlığını təsdiq edərək ATƏM çərçivəsində sülh prosesinə tərəfdar olduğunu bildirir. O ümid etdiyini bildirir ki, Minsk Qrupunun bu yaxınlarda əldə etdiyi ilkin sazişdən sonra yaxın vaxtlarda atəşi dayandırmaq, müşahidəçilərin yerləşdirilməsi cədvəli, siyasi bəyannamənin layihəsi barədə sazişlər də əldə olunacaq və Minsk Konfransı tezliklə çağırılacaqdır.

Təhlükəsizlik Şurası müvafiq tərəfləri ATƏM çərçivəsində sülh prosesində irəliləyiş olması üçün əllərindən gələni əsirgəməməyə və problemin siyasi həllini çətinləşdirə bilən heç bir hərəkətə yol verməməyə təkidlə çağırır.



Şura həmçinin mülki əhalinin iztirablarını azaltmaq məqsədi ilə bölgədə, o cümlədən münaqişəyə cəlb olunmuş bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır.

Təhlükəsizlik Şurası Baş Katibdən xahiş edir ki, ATƏM ilə məsləhətləşərək faktları müvafiq şəkildə müəyyənləşdirsin və təcili olaraq Şuraya hadisə yerində vəziyyətə qiymət verilən məruzə təqdim etsin.

Şura bu məsələ ilə məşğul olmaqda davam edəcəkdir".

---

*Əlavə III.1.6*

**BMT Təhlükəsizlik Şurasının 3505-ci iclası**
**822 saylı QƏTNAMƏ**

*30 aprel 1993-cü il*

Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi barədə Təhlükəsizlik Şurası sədrinin 1993-cü il yanvarın 29-da (S/25199) və aprelin 6-da (S/25539) verdiyi bəyanatlara istinad edərək,

Baş Katibin 1993-cü il aprelin 14-dəki məruzəsini (S/26600) nəzərə alaraq,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlıq izhar edərək, silahlı hərbi əməliyyatların güclənməsi, qismən də Azərbaycan Respublikasının Kəlbəcər rayonuna yerli erməni qüvvələrinin son təcavüzünü narahatlıqla qeyd edərək,

eləcə də vəziyyətin bölgədəki əmin-amanlığı və təhlükəsiz-

liyi qorxu altına aldığından narahat olaraq, çoxlu sayda mülki şəxsin yerdəyişməsi və bölgədə, o cümlədən Kəlbəcər rayonunda yaranmış fövqəladə durumla bağlı ciddi narahatlıq ifadə edərək, bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörməti bir daha təsdiq edərək, eləcə də beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyini bir daha təsdiqləyərək, ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bildirərək və silahlı hərbi əməliyyatların güclənməsinin bu proses üçün dağıdıcı nəticələr verə biləcəyindən dərin narahatlıq keçirərək:

1. Atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edir;

2. Bu işdə maraqlı olan tərəfləri münaqişəni ATƏM-in Minsk Qrupunun sülh prosesi çərçivəsində həll etmək məqsədilə dərhal danışıqları bərpa etməyə və problemin dinc yolla həllini çətinləşdirə biləcək hər cür fəaliyyətdən imtina etməyə israrla dəvət edir;

3. Bölgədə, o cümlədən münaqişənin əhatə etdiyi bütün rayonlarda mülki əhalinin iztirablarını yüngülləşdirmək üçün humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

4. Baş Katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə, habelə ATƏM-in Minsk Qrupunun sədri ilə məsləhətləşmə keçirib bölgədəki, o cümlədən Azərbaycanın Kəlbəcər rayonundakı vəziyyətə qiymət versin və Şuraya yeni məruzə təqdim etsin;



5. Qərara alır ki, bu məsələ ilə fəal məşğul olunmasını davam etdirsin.

---

*Əlavə III.1.7*

**BMT Təhlükəsizlik Şurasının 3259-cu iclası**
**853 saylı QƏTNAMƏ**

*29 iyul 1993-cü il*

Təhlükəsizlik Şurası

1993-cü il 30 aprel tarixli öz 822 (1993) saylı qətnaməsini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Minsk Qrupunun sədri tərəfindən 1993-cü il iyulun 27-də (S/26184) baxılmış məruzəni nəzərdən keçirərək,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onların arasındakı gərginliklə əlaqədar olaraq ciddi narahatlıq keçirdiyini ifadə edərək,

əlaqədar tərəflərin onun 822 (1993) saylı qətnaməsinin həyata keçirilməsi sahəsində təxirəsalınmaz tədbirlər cədvəlini qəbul etməsini alqışlayaraq,

hərbi əməliyyatların güclənməsini, o cümlədən Azərbaycan Respublikasında Ağdam rayonunun işğal olunmasını təşvişlə qeyd edərək,

bu vəziyyətin bölgədə sülh və təhlükəsizlik üçün qorxu törətməsindən narahat olaraq,

Azərbaycan Respublikasında çox böyük miqdarda mülki şəxslərin didərgin düşməsi və bölgədəki fövqəladə humanitar

vəziyyətlə əlaqədar yenə də ciddi narahatlıq keçirdiyini ifadə edərək:

1. Azərbaycan Respublikasının Ağdam rayonunun və bu yaxınlarda zəbt olunmuş bütün digər rayonlarının işğalını pisləyir;

2. Bölgədə gələcəkdəki bütün düşmənçilik hərəkətlərini, o cümlədən mülki şəxslərə hücumları və yaşayış rayonlarının bombalanmasını və top atəşlərinə tutulmasını pisləyir;

3. Bütün hərbi əməliyyatların təxirə salınmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal qüvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir;

4. Əlaqədar tərəfləri atəşin dayandırılması haqqında razılığa gəlməyə və bu razılaşmalara əməl etməyə çağırır;

5. Bölgədə iqtisadi, nəqliyyat və energetika əlaqələrini bərpa etməyə dair özünün əvvəlki çağırışlarını yuxarıdakı 3 və 4-cü bəndlər baxımından bir daha təsdiq edir;

6. Münaqişənin dinclikla aradan qaldırılmasına nail olmaq sahəsində ATƏM-in Minsk Qrupunun davam etdirdiyi səyləri, o cümlədən 822 (1993) saylı qətnamənin həyata keçirilməsi sahəsində səyləri bəyənir və hərbi əməliyyatların gücləndirilməsinin bu səylər üçün fəlakətli nəticələr verə biləcəyi ilə əlaqədar ciddi narahatlıq keçirdiyini ifadə edir;

7. ATƏM-in müşahidə üzrə nümayəndə heyətinin, həmçinin onun yerləşdirilməsi cədvəlinin hazırlanması sahəsində tədbirləri, habelə bölgədə ATƏM-in nümayəndələrinin olmasının təmin edilməsinə dair təkliflərə ATƏM çərçivəsində baxılmasını alqışlayır;

8. Əlaqədar tərəfləri münaqişənin dincliklə aradan qaldırılmasına maneçilik törədən hər hansı hərəkətlərdən çəkinməyə və



vəziyyətin qəti şəkildə nizama salınmasına nail olmaq məqsədilə danışıqları ATƏM-in Minsk Qrupu çərçivəsində, habelə əlaqədar tərəflər arasında birbaşa görüşlər vasitəsilə davam etdirməyə təkidlə çağırır;

9. Ermənistan Respublikasının hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin 822 (1993) saylı qətnamənin müddəalarına əməl etməsi və ATƏM-in Minsk Qrupunun təkliflərini həmin tərəfin qəbul etməsi məqsədilə öz təsirini göstərməyi davam etdirməyə təkidlə çağırır;

10. Dövlətləri münaqişənin güclənməsinə və ya ərazinin işğalının davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və ləvazimat göndərməkdən çəkinməyə təkidlə çağırır;

11. Mülki əhalinin artmış iztirablarını yüngülləşdirmək üçün bölgədə, xüsusən münaqişənin əhatə etdiyi bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə yenidən çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

12. Baş Katibdən və müvafiq beynəlxalq idarələrdən xahiş edir ki, zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərsin və didərgin düşmüş şəxslərə öz evlərinə qayıtmağa kömək etsinlər;

13. Baş Katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə məsləhətləşərək yaranmış vəziyyət haqqında Şuraya məruzələr təqdim olunmasını davam etdirsin;

14. Bu məsələ ilə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

---

*Əlavə III.1.8*

BMT Təhlükəsizlik Surası sədrinin

**BƏYANATI**

*18 avqust 1993-cü il*

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələr apararaq Şuranın sədri Şuranın adından onun 1993-cü il avqustun 18-də keçirilmiş 3264-cü iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə və onların arasındakı gərginliklə əlaqədar ciddi narahatlıq keçirdiyini bildirir. Şura Ermənistan Respublikasının hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin Şuranın 822 və 853 saylı qətnamələri ilə razılaşmalarına nail olmaq məqsədilə öz təsirindən istifadə etməyə çağırır.

Şura habelə bu günlərdə Füzuli rayonunda döyüş əməliyyatlarının güclənməsindən dərin narahatlıq keçirdiyini bildirir. Şura əvvəllər Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarına müdaxiləni və onların işğalını pislədiyi kimi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindən Füzuli rayonuna edilən hücumları da pisləyir. Şura bütün hücumların dayandırılmasını və bölgədə sülh və təhlükəsizlik üçün qorxu törədən hərbi əməliyyatların və bombardmanların dərhal dayandırılmasını tələb edir, habelə işğalçı qüvvələrin Füzuli zonasından, həmçinin Azərbaycan Respublikasının Kəlbəcər, Ağdam rayonlarından və bu yaxınlarda işğal olunmuş başqa rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Şura Ermənistan Respublikasının hökumətini bu məqsədlə öz təsirindən istifadə etməyə çağırır.



Şura Azərbaycan Respublikasının və regionun bütün başqa dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, habelə onların sərhədlərinin pozulmazlığını bir daha təsdiq edir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail olmağa dair ATƏM-in Minsk Qrupunun səylərinə döyüş əməliyyatlarının göstərdiyi təsirdən dərin narahatlıq keçirdiyini bildirir. Şura ATƏM-in sülh prosesini tamamilə müdafiə etdiyini qeyd edir və Minsk Qrupunun danışıqlarının indiki mərhələsində öz baxışlarını və mövqelərini bilavasitə ifadə etmək üçün münaqişədə iştirak edən tərəflərə verilmiş imkanı xüsusilə nəzərə çarpdırır. Bu baxımdan Şura bütün tərəfləri avqustun 13-də Minsk Qrupunun təqdim etdiyi "BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair təxirəsalınmaz tədbirlər cədvəli"nin dəqiqləşdirilmiş variantına müsbət cavab verməyə və məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırır. Şura yaranmış vəziyyətin bütün cəhətləri barədə məruzə hazırlamaq üçün bölgəyə missiya göndərmək haqqında ATƏM-in niyyətini alqışlayır.

Son günlərdə münaqişənin genişlənməsi ilə əlaqədar Şura dövlətləri münaqişənin güclənməsinə və ya Azərbaycan Respublikası ərazisinin işğalının davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və döyüş sursatı göndərməkdən çəkinmək barədə 853 saylı qətnamədəki çağırışını bir daha təkidlə təsdiq edir. Şura Ermənistan Respublikasının hökumətini cəlb olunmuş qüvvələrin gələcəkdə hərbi əməliyyatı genişləndirmək üçün vəsait almamalarını təmin etməyə çağırır.

Şura habelə mülki əhalinin getdikcə artan iztirablarını yüngülləşdirmək məqsədilə bölgəyə, münaqişədən zərər çəkmiş bü-

tün zonalara beynəlxalq humanitar yardımın maneəsiz çatdırılmasını təmin etməyə dair 822 və 853 saylı qətnamələrdə olan çağırışları bir daha təkrar edir. Şura tərəflərə xatırladır ki, onlar beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar və əməl etməlidirlər.

Təhlükəsizlik Şurası bu məsələ ilə fəal məşğul olmaqda davam edəcək və özünün qətnamələrinə bütün tərəflərin tamamilə razı olmasını və əməl etməsini təmin etməkdən ötrü müvafiq tədbirləri nəzərdən keçirməyə hazır olacaqdır".

---

*Əlavə III.1.9*

**BMT Təhlükəsizlik Şurasının 3292-ci iclası**
**874 saylı QƏTNAMƏ**

*14 oktyabr 1993-cü il*

Təhlükəsizlik Şurası

Özünün 1993-cü il 30 aprel tarixli 822 saylı və 1993-cü il 29 iyul tarixli 853 saylı qətnamələrini təsdiq edərək və Şuranın sədrinin Şura adından 1993-cü il avqustun 18-də oxunmuş bəyanatına (S/26326) istinad edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Dağlıq Qarabağa dair Minsk Konfransı sədrinin Təhlükəsizlik Şurası sədrinin adına göndərilmiş məktubunu (S/26522) nəzərdən keçirərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətlərdəki gərginliyin bölgədə sülh və təhlükəsizlik üçün qorxu yarada biləcəyindən ciddi narahat olduğunu bildirərək,



1993-cü il oktyabrın 8-də Moskvada yüksək səviyyədə keçirilmiş görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına kömək edəcəyinə ümid bəsləyərək,

Azərbaycan Respublikasının və regiondakı bütün başqa dövlətlərin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

habelə, beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyini bir daha təsdiq edərək, münaqişənin adamlara gətirdiyi müsibətlərdən ciddi narahat olduğunu bir daha bildirərək və o cümlədən Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin köçkün vəziyyətə düşməsi ilə əlaqədar özünün ciddi narahatlığını ifadə edərək:

1. Əlaqədar tərəfləri ATƏM-in Minsk Qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin köməyi ilə birbaşa əlaqələr nəticəsində müəyyən olunmuş atəşkəsi səmərəli və daimi etməyə çağırır;

2. ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini, habelə ATƏM-in Minsk Qrupunun daimi səylərini tamamilə dəstəklədiyini bir daha bəyan edir;

3. 1993-cü il sentyabrın 28-də ATƏM-in Minsk Qrupunun müşavirəsində hazırlanmış və qrupun sədri tərəfindən əlaqədar tərəflərə təqdim olunmuş və həmin qrupun digər doqquz üzvünün hərtərəfli dəstəklədiyi "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli"ni alqışlayır və tərəflərin buna diqqət yetirməsini tövsiyə edir və tərəfləri həmin cədvəli qəbul etməyə çağırır;

4. Əmin olduğunu bildirir ki, münaqişədən doğan və "yeniləşdirilmiş cədvəl"də bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll edilməmiş məsələləri ATƏM-in Minsk prosesi baxımından tezliklə sülh danışıqları çərçivəsində həll etmək lazımdır;

5. Qüvvələrin bu yaxınlarda işğal edilmiş ərazilərdən çıxarılması, kommunikasiya və nəqliyyat üçün olan bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk Qrupunun "Yeniləşdirilmiş cədvəl"də nəzərdə tutulmuş qarşılıqlı və təxirəsalınmaz tədbirləri dərhal həyata keçirməyə çağırır;

6. Habelə cədvəldə nəzərdə tutulduğu kimi, münaqişənin danışıqlar yolu ilə aradan qaldırılmasına nail olmaq məqsədilə ATƏM Nazirlər Şurasının 1992-ci il 24 mart tarixli mandatına uyğun olaraq ATƏM-in Minsk Konfransını tezliklə keçirməyə çağırır;

7. Baş Katibdən ATƏM-in Minsk Konfransında iştirak etmək üçün nümayəndə göndərmək təklifinə müsbət yanaşmağı və konfransın açılışından sonra danışıqların mətləbdən kənara çıxmaması üçün mümkün olan hər cür kömək göstərməyi xahiş edir;

8. ATƏM-in müşahidə üçün yaratdığı missiyanı dəstəkləyir;

9. Bütün tərəfləri beynəlxalq humanitar hüququ hər hansı şəkildə pozmaqdan çəkinməyə çağırır və münaqişənin toxunduğu bütün rayonlarda humanitar yardım göstərilməsinə dair beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etmək barədə 822 (1993) və 853 (1993) saylı qətnamələrdəki çağırışını bir daha təkrar edir;

10. Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə, bölgədə sülh və təhlükəsizliyin pozulmasına səbəb ola biləcək hər hansı düşmənçilik hərəkətlərindən, işə hər hansı şəkildə qarışmaqdan və ya hərbi müdaxilədən çəkinməyə təkidlə çağırır;



11. Baş Katibdən və müvafiq beynəlxalq idarələrdən xahiş edir ki, zərər çəkmiş mülki əhaliyə fövqəladə humanitar yardım göstərsinlər, qaçqınlara və köçkün şəxslərə öz evlərinə ləyaqətlə və təhlükəsizlik şəraitində qayıtmağa kömək etsinlər;

12. Habelə Baş Katibdən ATƏM-in indiki sədrindən və ATƏM-in Minsk Konfransının sədrindən xahiş edir ki, Minsk prosesinin gedişi haqqında və yerlərdə vəziyyətin bütün cəhətlərinə dair, habelə bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcəkdəki əməkdaşlıq haqqında Şuraya məruzələr təqdim olunmasını davam etdirsinlər;

13. Bu məsələ ilə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

---

*Əlavə III.1.10*

**BMT Təhlükəsizlik Şurasının 3313-cü iclası**
**884 saylı QƏTNAMƏ**

*11 noyabr 1993-cü il*

Təhlükəsizlik Şurası

Özünün 30 aprel 1993-cü il tarixli 822 saylı (1993), 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 saylı (1993) qətnamələrini təsdiq edərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gərgin olaraq qalmasının regionda sülhü və təhlükəsizliyi təhdid edəcəyinə görə ciddi narahatlıq ifadə edərək, atəşkəsin

pozulması nəticəsində hərbi əməliyyatların eskalasiyasının və bu pozuntulara cavab olaraq həddindən artıq güc tətbiq edilməsini, o cümlədən Azərbaycan Respublikasının Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını təşvişlə qeyd edərək,

Azərbaycan Respublikasını və regiondakı bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü təsdiq edərək,

həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyini bir daha təsdiq edərək,

böyük sayda mülki şəxsin ən sonuncu yerdəyişmə hadisəsinə və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar şəraitin yaranmasına görə ciddi narahatlıq ifadə edərək

1. Tərəflərin qəbul etdiyi atəşkəsin bu yaxında hərbi əməliyyatların yenidən başlanmasına səbəb olmuş pozulmasını, o cümlədən Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını, dinc sakinlərə hücumları və Azərbaycan Respublikası ərazilərinin atəşə tutulmasını məhkum edir;

2. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda ermənilər tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq və hərbi kompaniyaya cəlb olunmuş qüvvələrin onu davam etdirmək üçün vəsaitlə təchiz olunmasını təmin etməmək məqsədi ilə Ermənistan dövlətini öz təsirindən istifadə etməyə çağırır:

3. ATƏM-in Minsk Qrupunun 9 üzvünün 4 noyabr 1993-cü il tarixli (S/26718) bəyanatını məmnunluqla qeyd edir, orada əks olunmuş atəşin dayandırılması barədə birtərəfli bəyannamələrə aid təklifləri yüksək qiymətləndirir;

4. ATƏM-in Minsk Qrupunun 2-8 noyabr 1993-cü il tarixli Vyana müşavirəsində edilmiş müraciətlər də nəzərə alınmaqla



Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993), (S/26522, əlavə) saylı qətnamələrinin yerinə yetirilməsi üzrə "Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli"nə əsasən hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılmasını, işğalçı qüvvələrin Zəngilan rayonundan və Horadiz şəhərindən birtərəfli surətdə çıxarılmasını və Azərbaycan Respublikasının bu yaxında işğal olunmuş rayonlarından qəsbkar qüvvələrinin çıxarılmasını maraqlı tərəflərdən tələb edir;

5. Ən təkidli surətdə maraqlı tərəfləri ATƏM-in Minsk Qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin yardımçılığı ilə qurulmuş birbaşa əlaqələrin nəticəsində əldə olunmuş atəşkəsin təcili bərpa olunmasına, onun səmərəli və daimi olmasına, münaqişənin danışıqlar yolu ilə ATƏM-in Minsk prosesi və ATƏM-in Minsk Qrupunun 1993-cü il 2-8 noyabrında Vyanada keçirilmiş müşavirəsində "Yeniləşdirilmiş cədvəli»nə edilən düzəlişlər kontekstində nizamlanmasının imkanlarını axtarmağı davam etdirməyə çağırır;

6. Yenidən təkidlə regionun bütün dövlətlərini münaqişənin böyüməsinə, regionda sülhü və təhlükəsizliyi poza biləcək hər hansı bir düşmənçilik aktından, hər hansı bir müdaxilədən çəkinməyə çağırır;

7. Baş Katibdən və müvafiq beynəlxalq təsisatlardan zərər çəkmiş mülki əhaliyə, o cümlədən Zəngilan rayonunun və Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədlərinin əhalisinə təcili humanitar yardım göstərilməsini, qaçqınlara və məcburi köçkünlərə öz evlərinə ləyaqətlə və təhlükəyə məruz qalmadan qayıtmasına kömək etməyi xahiş edir;

8. Yenidən Baş Katibə, ATƏM-in fəaliyyətdə olan sədrinə və ATƏM-in Minsk Konfransının sədrinə müraciət edərək gələcəkdə Minsk prosesinin gedişatı barədə və yerdə vəziyyətin

bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi, ATƏM və BMT arasında bu münasibətlərdə indiki və gələcək əməkdaşlıq barədə məlumat vermələrini xahiş edir;

9. Bu məqsədlə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

---

*Əlavə III.1.11*

**BMT Təhlükəsizlik Şurası sədrinin**
**BƏYANATI**

*26 aprel 1995-ci il*

Təhlükəsizlik Şurasının 1995-ci il aprelin 26-da 3525-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndə baxılması ilə əlaqədar Təhlükəsizlik Şurasının sədri Təhlükəsizlik Şurasının adından aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurası özünün 884 saylı qətnaməsinin 8-ci bəndinə uyğun olaraq ATƏT-in Dağlıq Qarabağa dair Minsk Konfransının həmsədrlərinin təqdim etdiyi məruzələrə (S/1995/249 və S/1995/321) baxmışdır. Təhlükəsizlik Şurası 1994-cü il mayın 12-də Rusiya Federasiyasının vasitəçiliyi və ATƏT-in Minsk Qrupu ilə qarşılıqlı fəaliyyət sayəsində razılaşdırılmış atəşkəsin bir ilə yaxın müddətdə saxlanılmasından məmnunluğunu bildirir.

Eyni zamanda, Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişədən və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası



arasında gərginlikdən təkrarən narahatlığını bildirir. Təhlükəsizlik Şurası, xüsusilə bu yaxınlarda baş vermiş zorakı hadisələrlə əlaqədar narahat olduğunu bildirir və 1995-ci il fevralın 6-da razılaşdırıldığı kimi hadisələrin nizamlanmasında birbaşa əlaqələr mexanizmindən istifadə edilməsinin vacibliyini vurğulayır. O, qətiyyətlə tərəfləri belə hadisələrin gələcəkdə qarşısının alınması üçün bütün zəruri tədbirləri görməyə çağırır.

Şura, regionun bütün dövlətlərinin suverenliyi və ərazi bütövlüyünə əsaslanan özünün bütün qətnamələrini təsdiq edir. O, həmçinin beynəlxalq sərhədlərinin toxunulmazlığını və ərazi zəbt edilməsi üçün gücdən istifadənin yolverilməzliyini təsdiqləyir.

Təhlükəsizlik Şurası qoşunların geri çəkilməsini təmin etməklə münaqişənin bütün tərəflər üçün əsas nəticələrini aradan qaldıracaq və Minsk Konfransının çağırılmasına imkan yaradacaq silahlı münaqişənin dayandırılmasına dair siyasi sazişin bağlanılması üçün sürətli danışıqların keçirilməsinə yönələn Minsk Konfransının həmsədrlərinin bütün səylərinə özünün tam dəstəyini yenidən başlayır.

Təhlükəsizlik Şurası vurğulayır ki, sülh nizamlanmasını əldə etmək üçün əsas məsuliyyəti münaqişə tərəfləri daşıyırlar. Təhlükəsizlik Şurası silahlı münaqişənin dayandırılmasına dair siyasi sazişin BMT Nizamnaməsi və ATƏT-in müvafiq prinsipləri əsasında bağlanılmasının zəruriliyini bildirir. O, qətiyyətlə tərəfləri hər hansı bir ilkin şərtlərsiz və prosedur manеələrsiz, konstruktiv danışıqlar aparmağa, sülh prosesini sarsıda biləcək istənilən hərəkətlərdən çəkinməyə çağırır. O vurğulayır ki, belə sazişin əldə edilməsi ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi üçün ilkin şərtdir.

Təhlükəsizlik Şurası ATƏT-in Budapeşt sammitinin 1994-cü il 6 dekabr tarixli "Dağlıq Qarabağ münaqişəsilə əlaqədar

ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" qərarını alqışlayır. O, tərəflər arasında silahlı münaqişələrin dayandırılmasına dair saziş olarsa, ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin mümkün yerləşdirilməsinə dair lazımi qətnamələrlə davamlı siyasi dəstək verməyə hazır olduğunu təsdiqləyir. BMT həmçinin texniki məsləhətlər və ekspert rəyi verməyə hazırdır.

Təhlükəsizlik Şurası tərəflərin Minsk Qrupu çərçivəsində 1994-cü il aprelin 15-də razılaşdırıldığı kimi etiraf yaradılmasına dair tədbirləri, xüsusilə də humanitar sahədə, o cümlədən bütün hərbi əsirləri və mümkün saxlanılmaları atəşkəsin birinci ildönümünə azad edilməsinin yerinə yetirilməsinin zəruriliyini vurğulayır. O, tərəfləri silahlı münaqişə ilə toxunulmuş mülki əhalinin iztirablarının qarşısının alınmasına çağırır.

Təhlükəsizlik Şurası Baş Katibə, ATƏT-in sədrinə və ATƏT-in Minsk Qrupunun həmsədrliyinə öz tələbini yeniləşdirir ki, Minsk prosesinin irəliləyişi, yerlərdə vəziyyəti, xüsusilə müvafiq qətnamələrin yerinə yetirilməsi, ATƏT və BMT arasında indiki və gələcək qarşılıqlı fəaliyyət haqqında Şuraya məruzə etməyi davam etdirsinlər.

Şura bu məsələyə baxmaqda davam edəcək".

---



*Əlavə III. 1.12*

**BMT Baş Assambleyası**
**60-cı sessiya, 98-ci plenar iclas,**
**Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət,**
**QƏTNAMƏ**

*7 sentyabr, 2006-cı il*

Baş Assambleya,

Ətraf mühitə geniş miqyaslı ziyan vurmuş, məruz qalmış ərazilərdə baş vermiş yanğınlarla bağlı ciddi narahatçılıq keçirərək:

1. Məruz qalmış ərazilərdə yanğınların qarşısını almaq və onların zərərli nəticələrini aradan qaldırmaq məqsədilə təcili olaraq ekoloji əməliyyatın keçirilməsinin zəruriliyini vurğulayır,

2. Bu məqsədlə tərəflərin əməkdaşlığa hazır olmalarını alqışlayır və bu əməliyyatın vacib etimad quruculuğu tədbiri olduğunu hesab edir,

3. Ekoloji əməliyyatın hazırlanmasında bir addım kimi yanğınların ətraf mühitə qısa müddətli və uzun müddətli təsirini qiymətləndirmək üçün ATƏT-in bölgəyə missiya təşkil etmək niyyətini nəzərə alır,

4. Bununla əlaqədar, BMT sisteminin təşkilat və proqramlarını, xüsusilə Ətraf Mühit üzrə BMT Proqramını, ATƏT ilə əməkdaşlıqda bölgənin ətraf mühitinin tənəzzülünün qısa və uzun müddətli təsirinin qiymətləndirilməsi və öhdəsindən gəlməsi və həmçinin onun bərpası daxil olmaqla bütün zəruri yardım və ekspert təcrübəsini təmin etməyə çağırır,

5. ATƏT-in fəaliyyətdə olan sədrindən 30 aprel 2007-ci il tarixinədək bu məsələ üzrə Baş Assambleyanın Üzv Dövlətlərinə məruzə təqdim etməyi xahiş edir.

---

*Əlavə III.1.13*

**BMT Baş Assambleyası**
**62-ci sessiya, 86-cı plenar iclas,**
**Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət,**
**QƏTNAMƏ**

*14 mart, 2008-ci il*

Baş Assambleya,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsədlərini, prinsiplərini və müddəalarını rəhbər tutaraq,

Təhlükəsizlik Şurasının 822 (1993) saylı 30 aprel 1993-cü il tarixli, 853 (1993) saylı 29 iyul 1993-cü il tarixli, 874 (1993) saylı 14 oktyabr 1993-cü il tarixli və 884 (1993) saylı 12 noyabr 1993 tarixli qətnamələrini və Assambleyanın "Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardım" adlanan 48/114 saylı 20 dekabr 1993-cü il tarixli və "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlanan 60/285 saylı 7 sentyabr 2006-cı il tarixli qətnamələrini bir daha xatırladaraq,

Dağlıq Qarabağ ətrafındakı Azərbaycanın işğal olunmuş əraziləri üzrə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının fakt-araşdırıcı missiyasının hesabatını və Dağlıq Qarabağ ətrafındakı Azərbaycanın işğal olunmuş əraziləri üzrə Minsk Qrupunun fakt-araşdırıcı missiyasına dair Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk Qrupu Həmsədrlərinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Daimi Şurasına ünvanlanmış məktubunu[1] həmçinin yada salaraq,



Yanğınlara məruz qalmış Dağlıq Qarabağ regionu və onun ətraf ərazilərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı tərəfindən aparılmış ətraf mühitin qiymətləndirmə missiyasının hesabatını[2] nəzərə alaraq,

Münaqişə tərəflərinin beynəlxalq humanitar hüququn qaydalarına dürüstcəsinə riayət etməyə dair götürdüyü öhdəlikləri bir daha təsdiqləyərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətraf ərazilərində mövcud olan münaqişənin beynəlxalq sülh və təhlükəsizliyə təhdid olmasından ciddi narahatlıq duyaraq və onun Cənubi Qafqaz ölkələrindəki humanitar vəziyyətə və inkişafa etdiyi təsiri nəzərə alaraq:

1. Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə davam edən hörmət və dəstəyi bir daha təsdiqləyir;
2. Ermənistanın bütün qüvvələrinin Azərbaycan Respublikasının işğal altında olan bütün ərazilərini dərhal, tam və qeyd-şərtsiz tərk etmələrini tələb edir;
3. Azərbaycan Respublikasının işğal edilmiş ərazilərindən qovulmuş əhalinin öz evlərinə qayıtmasına dair ayrılmaz hüquqlarını bir daha təsdiq edir və münaqişədən zərər görmüş ərazilərin bütünlüklə bərpası da daxil olmaqla bu qayıdış üçün müvafiq şəraitin yaradılmasının zəruriliyini vurğulayır;
4. Azərbaycan Respublikasının tərkibində qalacaq Dağlıq Qarabağ bölgəsində effektiv demokratik özünüidarə sisteminin yaradılması üçün imkan yaradacaq Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində azərbaycanlı və erməni icmalarının

normal, təhlükəsiz və bərabər şərtlər əsasında yaşamasının təmin edilməsinin zəruriliyini tanıyır;

5. Bir daha təsdiq edir ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğalının nəticələrindən gələn vəziyyəti hüquqi olaraq tanımamalı, eləcə də bu vəziyyətin saxlanması üçün hər hansı yardım və dəstək göstərməməlidir;

6. Beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə münaqişənin sülh yolu ilə həlli məqsədi daşıyan beynəlxalq vasitəçilik səylərinə, xüsusilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk Qrupunun səylərinə dəstək ifadə edir və yuxarıda qeyd olunan müddəalara uyğun şəkildə davamlı və dönməz sülhə nail olmaq məqsədilə bu səylərin intensivləşdirilməsi zəruriliyini tanıyır;

7. Üzv dövlətlər, beynəlxalq və regional təşkilatlar və strukturları öz səlahiyyətləri çərçivəsində münaqişənin tənzimlənməsi prosesinə səmərəli şəkildə töhfə verməyə çağırır;

8. Baş Katibdən Baş Assambleyanın altmış üçüncü sessiyasında bu qətnamənin həyata keçirilməsinə dair müfəssəl hesabat təqdim etməyi xahiş edir;

9. Altmış üçüncü sessiyanın ilkin gündəliyinə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndin daxil edilməsini qərara alır.

------------------------

[1]A/59/747-S/2005/187

[2]A/61/696



## III.2. ATƏT-in sənədləri

*Əlavə III.2.1*

**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) Xarici İşlər Nazirlərinin birinci əlavə görüşü**
**Yekun Qərar**

*Helsinki, 24 mart 1992*

1. 1992-ci il martın 24-də ATƏM-in Şurası öz birinci iclasını Helsinkidə keçirdi.

2. Nazirlər onların hər birinin ATƏM-in öhdəlik və vəzifələrini qəbul etmələri haqda məktubları aldıqdan sonra Xorvatiya, Gürcüstan və Sloveniyanı üzv dövlətlər kimi salamladılar.

Nazirlər Xorvatiya və Sloveniyanın üzvlüyə qəbulunun heç bir halda nə Yuqoslaviyaya dair Konfransa təsir edəcəyini, nə də ki bu Konfransın nəticələrinə zərər vuracağını hesab etmirlər.

Nazirlər Yuqoslaviyaya dair Brüssel Konfransının Yuqoslav böhranının tam siyasi həlli axtarışlarındakı cəhdlərini dəstəkləyir.

3. Nazirlər Dağlıq Qarabağda və onun ətrafında əzabların artması və əhali arasında insan tələfatının çoxalması ilə nəticələnən hərbi münaqişənin davam etməsi ilə bağlı öz dərin təşvişlərini bildirirlər. Münaqişənin davam etməsi və genişlənməsinin regional və beynəlxalq təhlükəsizlik üçün törədə biləcəyi nəticələri xatırladaraq münaqişənin dayandırılması yollarının və vasitələrinin geniş müzakirəsini apardılar. Onlar bütün tərəfləri dözümlülük göstərməyə çağırdılar.

4. Nazirlər yerlərdə atəşkəs həyata keçirməyə cavabdeh olan komandirlərin fəal iştirakı ilə təcili olaraq və effektli şəkildə

atəşin kəsilməsini qəti olaraq tələb etdilər. Onlar inam mühitinin və siyasi və iqtisadi təzyiq tədbirlərinin qəbul olunmasının dayandırılması da daxil olmaqla konstruktiv dialoq üçün şərtlərin bərpası ilə bağlı çağırışla müraciət etdilər.

5. Nazirlər ATƏM çərçivəsindəki hazırki fəaliyyətin xülasəsini nəzərdən keçirdilər və Yüksək Vəzifəli Şəxslər Komitəsinin qəbul etdiyi qərara bütövlükdə razılıqlarını bildirdilər. Nazirlər ATƏM-in fəaliyyətdə olan Sədrinə bu məsələ ilə əlaqədar onlar tərəfindən qəbul olunmuş addımlara görə minnətdarlıqlarını bildirdilər və zərurət yaranarsa, ona bütün mümkün olan köməyi göstərməyə hazır olduqlarını bildirdilər.

6. Nazirlər Avropa Birliyi və onun üzv dövlətləri, Müstəqil Dövlətlər Birliyinin üzv dövlətləri tərəfindən göstərilən qarşılıqlı tamamlayıcı səyləri, xüsusilə də BMT-nin Baş Katibi tərəfindən göstərilən səyləri alqışlayır.

Onlar ATƏM-in fəaliyyətdə olan Sədrindən bu məsələ ilə bağlı BMT ilə möhkəm əlaqələr qurmağı və mütəmadi informasiya mübadiləsi aparmağı xahiş etdilər.

Nazirlər razılaşdılar ki, bu məsələyə münasibətdə sülh prosesinin inkişaf işində ATƏM mühüm rol oynamalıdır. Onlar razılaşdılar ki, Dağlıq Qarabağ və onun ətrafındakı vəziyyət ATƏM tərəfindən ardıcıl fəaliyyət tələb edir.

7. Nazirlər ATƏM-in Nazirlər Şurasının Sədri cənab İrji Dinstbirə atəşin kəsilməsinin effektivliyini əldə etmək və dəstəkləmək, həmçinin hər tərəfli dinc vasitələrlə nizamlamaq üçün şəraitin yaradılmasına kömək məqsədilə yaxın günlərdə regiona səfər etməsini həvalə etdilər.

8. Nazirlər ATƏM-in başçılığı altında Dağlıq Qarabağ üzrə Konfransın ATƏM-in müddəaları, vəzifələri və prinsipləri əsasında böhranın dinc vasitələrlə nizamlanması məqsədi ilə



danışıqların aparılması üçün daimi fəaliyyət göstərən forumu təmin edəcəyini qəti əminliklə bildirdilər. Bununla əlaqədar olaraq, nazirlər təcili olaraq belə bir konfransın çağrılmasını ATƏM-in Nazirlər Şurasının fəaliyyətdə olan sədrindən xahiş etdilər.

9. Bundan başqa, nazirlər Minskdə təşkil olunacaq konfransın iştirakçılarının Azərbaycan, Ermənistan, Belarusiya, Almaniya, İtaliya, Rusiya Federasiyası, ABŞ,Türkiyə, Fransa, Çexiya və Slovakiya Federativ Respublikası və İsveç dövlətlərinin olması ilə razılaşdılar. Dağlıq Qarabağdan seçilmiş nümayəndələr isə Konfransın üzvü olan dövlətlərlə məsləhətləşmələr aparıldıqdan sonra Konrfransın sədri tərəfindən maraqlı tərəf kimi dəvət olunacaqlar. ATƏM-in Nazirlər Şurasının fəaliyyətdə olan sədri ATƏM-in başçılığı altında olan Dağlıq Qarabağ Konfransının sədrini təyin edir.

10. Nazirlər ATƏM-in bütün üzv dövlətlərini və maraqlı tərəfləri beynəlxalq nəzarət altında olan təhlükəsizlik dəhlizi də daxil olmaqla təcili və effektli vasitələrdən istifadə etməklə bütün ehtiyacı olan şəxslərə humanitar yardım göstərilməsinin təmin edilməsi üçün bütün zəruri olan addımların atılmasına təkidlə çağırdılar.

11. Nazirlər ATƏM-in fəaliyyətdə olan sədrinin regiondakı missiyasına, həmçinin ATƏM-in Şurasının razılığı ilə əldə olunmuş digər fəaliyyətlərə tam dəstək verməyin Ermənistanın və Azərbaycanın vəzifələri olduğunu nəzərə çatdırdılar.

*Əlavə III.2.2*

**ATƏM-in Budapeşt Zirvə Toplantısı**
**Regional məsələlər**
**Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar**
**ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi haqqında**

*Budapeşt, 5 dekabr 1994-cü il*

1. İştirakçı dövlətlər münaqişə və onun nəticəsi kimi insan faciəsinin davam etməsini pisləyərək münaqişədə iştirak edən tərəflərin 1994-cü il may ayının 12-də ATƏM-in Minsk Qrupu ilə birgə əməkdaşlıqda Rusiya Federasiyasının vasitəçiliyi ilə razılaşdırılmış atəşkəsi təsdiq etmələrini alqışladılar. İştirakçı dövlətlər BMT Təhlükəsizlik Şurasının əlaqədar qətnamələrinə dair öhdəliklərini təsdiq etdilər və Təhlükəsizlik Şurasının münaqişənin sülh yolu ilə həll edilməsinə yönəlmiş ATƏM-in səylərinə verdiyi siyasi dəstəyi alqışladılar. Bununla əlaqədar, onlar münaqişədə iştirak edən tərəfləri, birbaşa əlaqələr də daxil olmaqla, intensiv daimi danışıqlara çağırdılar. Bundan çıxış edərək onlar ATƏM-in səylərini və yardımını gücləndirəcəklərinə əmin etdilər. Onlar ATƏM-in Minsk Qrupunun vasitəçilik səylərini tamamilə müdafiə etdilər və Rusiya Federasiyasının çox mühüm yardımını və Minsk Qrupunun digər ayrılıqda götürülmüş üzvlərinin səylərini yüksək qiymətləndirdilər. Onlar bütün bunları ATƏM çərçivəsi daxilində vahid, uzlaşdırılmış səylər şəklində uyğunlaşdırmağa razılaşdılar.

2. Bununla əlaqədar, onlar fəaliyyətdə olan sədrə iştirakçı dövlətlərlə məsləhətləşərək və mümkün qədər tez bir zamanda fəaliyyət göstərərək, danışıqlar üçün ümumi və razılaşdırılmış əsasın təmin olunması və bütün vasitəçilik və danışıqlara dair fəaliyyətlərin tam uyğunlaşdırılmasının həyata keçirilməsindən ötrü Minsk Konfransının həmsədrlərini təyin etməyi tapşırdılar. ATƏM prinsiplərini və razılaşdırılmış mandatı əldə rəhbər tutan həmsədrlər Minsk Qrupunun iclaslarında birgə sədrlik edəcək və fəaliyyətdə olan sədrə birgə hesabat verəcəklər. Onlar mütəmadi olaraq Daimi Şuraya öz işlərindəki irəliləyişlər barədə ətraflı məlumat verəcəklər.

3. Bu səylərdə birinci addım kimi onlar Minsk Konfransının həmsədrlərinə Rusiya Federasiyasının və Minsk Qrupunun digər ayrı-ayrılıqda dövlətlərinin köməyi və onlarla əməkdaşlıq edərək mövcud atəşkəsin davam etdirilməsinə kömək etmək üçün dərhal addımlar atmağı və ötən vasitəçilik fəaliyyətində artıq əldə edilmiş irəliləyişlərə əsaslanaraq silahlı münaqişə bitdikdən sonra siyasi sazişin imzalanması üçün intensiv danışıqlar keçirməyi tapşırdılar. Bu sazişin həyata keçirilməsi bütün tərəflər üçün münaqişənin əsas nəticələrini aradan qaldıracaq və Minsk Konfransının çağırılmasına imkan verəcəkdir. Bundan başqa onlar Minsk Konfransının həmsədrlərindən inam yaradılması sahəsində, xüsusən humanitar sahədə tədbirlərin gələcəkdə də həyata keçirilməsi yolunda tərəflərlə birgə işi davam etdirməyi xahiş etdilər. Onlar iştirakçı dövlətlərin həm ayrı-ayrılıqda, həm də əlaqədar beynəlxalq təşkilatlar çərçivəsində qaçqınların vəziyyətinin yüngülləşdirilməsinə xüsusi diqqət yetirərək regiondakı əhaliyə humanitar yardımın təmin olunması sahəsində fəaliyyət göstərmələrinin vacibliyini qeyd etdilər.

4. Onlar belə razılaşdılar ki, münaqişədə iştirak edən tərəflərin nöqteyi-nəzərinə əsasən yuxarıda göstərilən sazişin imzalanması sazişin özünün həyata keçirilməsi üçün mühüm element olan çoxmillətli sülhməramlı qüvvələrin yerləşdirilməsinə imkan verəcəkdir. Onlar, BMT Təhlükəsizlik Şurasının uyğun qətnaməsilə

silahlı münaqişə bitərkən tərəflər arasında bağlanacaq sazişdən sonra ATƏM-in çoxmillətli sülhməramlı qüvvələri göndərmək barədə siyasi iradələrini bəyan etdilər. Onlar fəaliyyətdə olan sədrdən xahiş etdilər ki, o, mümkün qədər tez bir zamanda, 1992-ci il Helsinki sənədinin üçüncü bəndinə əsasən və BMT Nizamnaməsinə tam uyğun şəkildə təşkil olunacaq belə qüvvələrin yaradılması, tərkibi və əməliyyatlarına dair plan hazırlasın. Bununla əlaqədar, fəaliyyətdə olan sədrə Minsk konfransının həmsədrləri və Minsk qrupu, Baş Katib tərəfindən köməklik və yardım göstəriləcək, o, həmçinin müvafiq məsləhətləşmələrdən sonra sülhməramlı qüvvələri yaradan dövlətlərə bu qüvvələrin xarakteristikası və həcmi, onlara rəhbərlik və nəzarət, arxa təminat hissələrin və ehtiyatların paylanması, davranış və sazişlərin qaydalarına dair tövsiyələr vermək üçün Vyanada yüksək səviyyəli planlaşdırma qrupu yaradacaq. O, BMT-nin texniki məsləhət və ekspertiza təminatına hazır olduğu barədə bəyanatına əsasən BMT-dən yardım almağa çalışacaqdır. O, həmçinin BMT TŞ-dən ATƏM-in sülhməramlı qüvvələrinin mümkün yerləşdirilməsi barədə davamedici siyasi dəstəyə çalışacaqdır.

5. 1992-ci il Helsinki sənədinin üçüncü bəndinin müvafiq maddələrinə və hazırlıq işlərinə, sonrakı saziş və tərəflərin Minsk Konfransının həmsədrləri vasitəsilə fəaliyyətdə olan sədrə rəsmi müraciətinə əsasən Daimi Şura ATƏM-in sülhməramlı əməliyyatlarının təşkilinə dair qərar qəbul edəcəkdir.

---



*Əlavə III.2.3*

**ATƏT-in Nazirlər Şurasının 5-ci görüşü**
**ATƏT-in Minsk prosesi üzrə**
**Q Ə R A R I**

*Budapeşt, 8 dekabr 1995-ci il*

Nazirlər Şurası

– ATƏT-in Minsk prosesinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında yeganə forum olmasını təsdiqləyir;

– münaqişə tərəflərinin 1994-cü il mayın 12-də bərqərar edilən atəşkəsə riayət etməyi davam etdirmək əzmlərini alqışlayır;

– tərəfləri bütün hərbi əsirləri və münaqişə ilə bağlı saxlanılan bütün şəxsləri dərhal azad etməyə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin şəxslərin saxlanıldığı bütün yerlərə və bütün saxlanılanlara maneəsiz baş çəkməsini təmin etməyə çağırır;

– fəaliyyətdə olan sədrlə koordinasiyada təxirə salınmadan silahlı münaqişənin dayandırılması haqqında siyasi sazişin əldə edilməsi yolunda Minsk konfransının Həmsədrlərinin səylərini dəstəkləyir. Belə sazişin yerinə yetirilməsi bütün tərəflər üçün münaqişənin əsas nəticələrini aradan qaldıracaq və qısa vaxt ərzində Minsk konfransını çağırmağa imkan yaradacaq. Sazişin imzalanması Daimi Şuraya fəaliyyətinin davam etdirilməsi lazım olan Yüksək Səviyyəli Planlaşdırma Qrupunun dəyərli tövsiyələrinə əsaslanaraq ATƏT-in sülhməramlı əməliyyatının keçirilməsi haqqında qərar qəbul etməyə imkan yaradacaq;

– münaqişənin nizamlanması prinsipləri üzrə razılaş-

manın əldə edilməsi məqsədilə, həmsədrlərlə koordinasiyada birbaşa əlaqələrin qurulmasına dair ifadə olunmuş öhdəlikləri alqışlayır və bunu tez bir zamanda gerçəkləşdirməyə təkidlə çağırır;

– kompromisin tezliklə əldə edilməsi məqsədilə tərəflərin ən vacib məsələləri nəzərdən keçirməyə ifadə olunmuş hazırlıqlarını nəzərə alır.

---

*Əlavə III.2.4*

**ATƏT-in Lissabon Zirvə Toplantısının sənədlərinə Əlavə 1**
**ATƏT-in Fəaliyyətdə olan Sədrinin**
**BƏYANATI**

*Lissabon, 3 dekabr 1996-cı il*

Hamınız bilirsiniz ki, son iki il ərzində Dağlıq Qarabağ münaqişəsinin həllində və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində heç bir tərəqqi əldə edilməmişdir. Mən təəssüf edirəm ki, Minsk Konfransı həmsədrlərinin tənzimləmə prinsipləri məsələsində tərəflərin mövqelərini yaxınlaşdırmağa yönəldilən səyləri uğursuz olmuşdur.

Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin tərkib hissəsi olacaq 3 prinsipi tövsiyə etmişlər. Bu prinsipləri Minsk Qrupunun üzvü olan bütün ölkələr müdafiə edirlər. Onlar aşağıdakılardır:

– Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi bütövlüyü;



– Dağlıq Qarabağın Azərbaycan tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu;

– Məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla, Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyi.

Mən təəssüf edirəm ki, Ermənistan bununla razılaşa bilmədi. Bu prinsiplər bütün digər iştirakçı dövlətlər tərəfindən müdafiə edilir.

Bu bəyanat Lissabon sammitinin sənədləri sırasına daxil ediləcəkdir.

---

*Əlavə III.2.5*

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin irəli sürdükləri təkliflər**
**ATƏT-in Minsk qrupunun sədarəti**
**Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli**
**SAZİŞ***

*18 iyul 1997-ci il*

**PREAMBULA**

Tərəflər onların xalqlarının tərəqqisi və firavanlığı üçün regionda sülhün və əməkdaşlığın əhəmiyyətini tamamilə dərk edərək uzun sürən Dağlıq Qarabağ münaqişəsini dincliklə aradan

qaldırmaq əzmindədirlər. Aşağıda şərh edilən nizamasalma Qafqazın birgə iqtisadi inkişafı üçün zəmin yaradacaq, demokratik təsisatlar, rifahın yüksəlməsi və gələcəyə böyük ümidlər bəslənməsi şəraitində bu regionun xalqlarına normal və səmərəli həyat sürməyə imkan verəcəkdir. Bu sazişə uyğun olaraq aparılan əməkdaşlıq bütün regionda ticarət, nəqliyyat və rabitə sahəsində normal münasibətlərə gətirib çıxaracaq, beynəlxalq təşkilatların köməyi ilə insanlara öz şəhər və kəndlərini bərpa etməyə, regionda xarici kapital qoyuluşlarının xeyli artırılması üçün lazımi sabitlik yaratmağa və müqəddəm şərtləri Qafqaz regionunun özündə olan təbii tərəqqinin bütün insanlar üçün əldə edilməsinə doğru aparan qarşılıqlı surətdə faydalı ticarətə yol açmağa imkan verəcəkdir. İnsanlar arasında barışıq və əməkdaşlıq onların çox böyük potensialını öz qonşularının və dünya xalqlarının rifahı üçün sərbəstləşdirəcəkdir.

Ona görə tərəflər BMT nizamnaməsinin müddəalarına, ATƏT-in əsas prinsiplərinə və qərarlarına, beynəlxalq hüququn hamılıqla tanınmış normalarına sadiq qalaraq və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin tamamilə yerinə yetirilməsinə kömək göstərmək əzmində olduqlarını bildirərək silahlı münaqişənin dayandırılmasına nail olmağa və normal münasibətlərin bərpasına dair I sazişdə şərh edilmiş tədbirləri həyata keçirmək və Dağlıq Qarabağın qəti statusu haqqında II sazişdə şərh olunmuş razılığa gəlmək barədə razılaşırlar.

**I.** SAZİŞ – silahlı münaqişənin dayandırılması:

Tərəflər razılığa gəlirlər:

I. Onların arasında mübahisələrin, o cümlədən bu sazişin həyata keçirilməsi ilə əlaqədar mübahisələrin nizama salınması üçün silahlı qüvvədən istifadə olunmasından imtina etmək.



**II.** Silahlı qüvvələri iki mərhələdə çıxarmaq:

Birinci mərhələdə Dağlıq Qarabağdan şərqə və cənuba doğru indiki təmas xətti boyunca olan qüvvələr I əlavədə razılaşdırılmış xətlərə tərəf bir neçə kilometr geri çəkiləcəkdir, bu zaman ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsində təhlükəsizliyin təmin edilməsinə imkan yaratmaq məqsədi ilə yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri lazımınca nəzərə alınmalıdır.

İkinci mərhələdə qüvvələr I əlavədə razılaşdırılmış cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılacaqdır:

A. Ermənistan qüvvələri Ermənistan Respublikasının sərhədləri daxilinə aparılır.

B. Dağlıq Qarabağ qüvvələri Dağlıq Qarabağ Muxtar Vilayətinin 1988-ci ildəki hüdudları daxilinə aparılır (aşağıdakı VIII və IX bəndlərdə göstərilmiş istisnalarla).

C. Azərbaycan qüvvələri yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri əsasında I əlavədə razılaşdırılmış xətlərə çəkilir.

D. Ağır silahlar uzağa, şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməsi şərti ilə yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri əsasında I əlavədə razılaşdırılmış yerlərə aparılacaqdır.

E. Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası I əlavədəki xəritədə göstərildiyi kimi, DQMV-nin 1988-ci ildəki hüdudları və Ermənistan – Azərbaycan sərhədinin şimal hissəsi boyunca yerləşəcəkdir.

**III.** Qüvvələrin çıxarılması nəticəsində azad edilmiş ərazilər ayırıcı zona əmələ gətirir. Bu zonada təhlükəsizliyə nəzarəti ATƏT-in sülhü müdafiə qüvvələri daimi qarışıq komissiya ilə

birlikdə həyata keçirəcəklər. ATƏT-in sülhü müdafiə qüvvələrinin və daimi qarışıq komissiyanın II əlavənin həyata keçirilməsi qaydasında razılığı olmadan tərəflərdən heç birinə bu zonaya öz qüvvələrini yeritməyə imkan verilməyəcəkdir; həmin əlavədə sərhəd xidməti, minalardan təmizləmə və mülki polis funksiyaları üçün razılaşdırılmış bölmələr nəzərdə tutulacaqdır. Tərəflər ayırıcı zonada və bufer zonasında bütün hərbi uçuşlara yol verilməməsi barədə razılığa gəlirlər.

**IV.** Daimi qarışıq komissiya ilə birlikdə təhlükəsizliyə təminat verilməsi üçün ATƏT-in çoxmilli sülhü müdafiə qüvvələrinin bufer zonasında yerləşdirilməsinə kömək etmək. ATƏT-in sülhü müdafiə qüvvələri ATƏT tərəfindən təyin edilmiş qüvvələrdən ibarət olacaq və onların mandatı BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə müəyyənləşdiriləcək, həm də mandat ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə yenidən qüvvəyə minəcəkdir.

**V.** Köçkün şəxslərin ayırıcı zonadakı əvvəlki daimi yaşayış yerlərinə qayıtmasını həyata keçirmək. ATƏT-in sülhü müdafiə qüvvələri daimi qarışıq komissiya ilə birlikdə qayıdan əhalinin təhlükəsizliyinə nəzarət edəcək və bu zonanın silahsızlaşdırılmış rejiminə bütün tərəflərin inamını təmin edəcəklər.

**VI.** Qüvvələrin çıxarılması ilə eyni vaxtda yolların, dəmir yollarının, elektrik və rabitə xətlərinin açılması, ticarət münasibətlərinin və digər münasibətlərin bərpası məqsədləri ilə tədbirlər, o cümlədən bu məqsədlər üçün lazım olan bütün işlər həyata keçiriləcəkdir. Tərəflər, etnik azlıqlar da daxil olmaqla, həmin əlaqələrdən hamının istifadə etməsinə təminat verir, bu azlıqların regionun digər yerlərindəki öz etnik qrupları ilə ünsiyyətdə olmasına təminat verirlər. Tərəflərdən hər biri bütün blokadaları aradan qaldırmağı və yüklərin və adamların bütün digər tərəflərə



maneəsiz daşınmasını təmin etməyi öhdəsinə götürür. Ermənistan və Azərbaycan öz aralarında, o cümlədən Bakı – Horadiz – Mehri-Ordubad – Naxçıvan – Yerevan xəttində sərbəst və təhlükəsiz dəmir yol əlaqəsinə təminat verirlər.

**VII.** Münaqişə ilə əlaqədar tutulub saxlanılan bütün şəxslərin qayıtmasının, itkin düşmüş şəxslərin taleyinin araşdırılmasının və bütün cənazələrin qaytarılmasının təmin olunması üçün Beynəlxalq Qızıl Xaç Komitəsi, BMT-nin qaçqınların işləri üzrə ali komissarı ilə və digər beynəlxalq humanitar təşkilatlarla əməkdaşlıq etmək.

**VIII.** Laçın dəhlizinə aid aşağıdakı tədbirlər barəsində:

A. Azərbaycan dəhlizi ATƏT-ə icarəyə verir, ATƏT dəhlizdən yalnız Dağlıq Qarabağın hakimiyyət orqanlarının istifadəsi üçün müqavilə bağlayır (tranzit üçün aşağıda, E bəndində göstərilən istisnalarla).

B. ATƏT Dağlıq Qarabağın hakimiyyət orqanları ilə əməkdaşlıq şəraitində təhlükəsizliyə nəzarət edir.

C. Laçın dəhlizinin hüdudları yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri, lazımınca nəzərə alınmaqla, II əlavədə razılaşdırılmışdır.

D. ATƏT Laçın şəhərindən yan keçən yolun çəkilməsinə nəzarət edir. Yolun tikintisi başa çatdıqdan sonra Laçın şəhəri Laçın dəhlizindən çıxarılır. O, (ayırıcı zonanın bir hissəsi kimi) Azərbaycanın inzibati nəzarəti altına qaytarılır və onun əvvəlki sakinləri qayıda bilərlər.

E. Dəhlizdə daimi məskənlər salınmasına və təhlükəsizlik qüvvələrinin icazə verilmiş kontingentləri istisna olmaqla, silahlı qüvvələr yerləşdirilməsinə yol verilmir. Rəsmi şəxslər, müşahidəçilər və ATƏT-in sülhü müdafiə qüvvələrinin üzvləri, eləcə də Laçın rayonundan Qubadlı rayonuna gedən və ya geriyə qayıdan

regionun azərbaycanlı sakinləri qabaqcadan xəbər verildikdə istənilən istiqamətdə tranzit hüququna malikdirlər. Laçın rayonunun dəhlizin çərçivəsindən kənardakı ərazisi ayırıcı zonanın bir hissəsidir.

**IX.** Şuşa şəhərinə və Şaumyan rayonuna aid aşağıdakı tədbirlər barəsində:

A. Tərəflər, məhdud xidməti heyəti olan hava hücumundan müdafiə bölmələri istisna olmaqla, öz silahlı bölmələrini hər iki məntəqədən çıxarırlar.

B. Yerli hakimiyyət orqanları ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu müşahidəçilərinin yerləşdirilməsinə yardım göstərəcəklər.

C. Köçkün şəxslər özlərinin əvvəlki daimi yaşayış yerlərinə qayıda bilərlər. Onların təhlükəsizliyinə müvafiq yerli hakimiyyət orqanları təminat verəcəklər.

D. Qayıdan sakinlər, siyasi partiyalar yaratmaq hüququ da daxil olmaqla, bütün vətəndaş hüquqlarına malikdirlər. Onlar müvafiq surətdə Bakının və Stepanakertin parlamentlərində və bu yerlərdə seçkili şuralarda, polisdə və təhlükəsizlik qüvvələrində həmin yerlərin əhalisi arasında sayına uyğun olaraq təmsil ediləcəklər.

E. Daimi qarışıq komissiya beynəlxalq yardımın bu yerlərdə ədalətli əsasda və əhalinin hər iki qrupuna sərfəli şəkildə bölüşdürülməsini əlaqələndirir.

F. Şuşa *şəhərinin Şaumyan rayonunun sakinləri yollardan*, Azərbaycanın qalan hissəsi ilə və Dağlıq Qarabağla rabitədən və digər vasitələrdən təminatlı istifadə edə biləcəklər.

**X.** Bu sazişin Azərbaycanla və Dağlıq Qarabağla bağlı problemlərə aid müddəalarının həyata keçirilməsinə nəzarət üçün Daimi Qarışıq Komissiya (DQK) təsis etmək. DQK-nın üç həmsədri var: biri azərbaycanlı, biri Dağlıq Qarabağdan və ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsi. Azərbaycanlı və Dağlıq Qarabağdan olan həmsədrlərin əsas vəzifəsi sazişi həyata keçirməkdən ibarətdir; ATƏT-dən olan həmsədrin əsas vəzifəsi isə fikir ayrılıqları təqdirində vasitəçi və arbitraj olmaqdır. DQK-nın hərbi, iqtisadi, humanitar ve mədəni yardımçı komissiyaları var. DQK və onun yardımçı komissiyalarının funksiyaları II əlavədə şərh edilmişdir.



**XI.** Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında tam diplomatik münasibətlər yaratmaq.

**XII.** Bir həmsədri Ermənistan Respublikasından və digər həmsədri Azərbaycan Respublikasından olmaqla Ermənistan-Azərbaycan İkitərəfli Komissiyası (EAİK) yaratmaq. ATƏT-in fəaliyyətdə olan sədri bu komissiyada təmsil edilir.

EAİK sərhəd toqquşmalarının qarşısının alınmasına kömək edir, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqəni həyata keçirir və yolların, dəmir yollarının, rabitə xətlərinin, boru kəmərlərinin açılması, ticarət münasibətlərinin və digər münasibətlərin bərpası tədbirlərinə nəzarət edir.

**XIII.** BMT Təhlükəsizlik Şurası bu sazişin təminatçısı olacaqdır.

**XIV.** Bu saziş ATƏT-in Minsk konfransında hərtərəfli nizamasalma haqqında saziş bağlanılan vaxtadək qüvvədə qalacaqdır. Həmin saziş indiki sazişdə nəzərdə tutulan təhlükəsizlik və sülhü müdafiə mexanizmlərinin əvəzinə daimi belə mexanizmlər yaradacaqdır.

## II SAZİŞ: status
## Preambula

Dağlıq Qarabağın statusu və onun əsas etnik və mədəni xarakterinin saxlanılması, Ermənistan Respublikası da daxil olmaqla, beynəlxalq birlik üçün maraq doğurur. O istər Azərbaycan Respublikasının, istərsə də Dağlıq Qarabağın hakimiyyət orqanlarının birtərəfli hərəkəti ilə müəyyən edilə bilməz. Status aşağıdakı parametrlərlə müəyyən olunur:

I. Münaqişədə iştirak edən bütün tərəflərin Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıması.

II. Dağlıq Qarabağ Azərbaycanın tərkibində dövlət və ərazi qurumudur və onun öz müqəddəratını təyin etməsi Azərbaycan Respublikası ilə Dağlıq Qarabağın hakimiyyət orqanları arasında sazişdə rəsmiləşdirildikdən, Minsk konfransı tərəfindən bəyənildikdən, Azərbaycanın və Dağlıq Qarabağın Konstitusiyalarında inkorporasiya olunduqdan sonra aşağıdakı hüquqları və imtiyazları əhatə edəcəkdir.

III. Dağlıq Qarabağ və Naxçıvan Ermənistanla və Azərbaycanla sərbəst və maneəsiz nəqliyyat və rabitə əlaqəsi saxlamaq hüququna malik olacaq.

IV. Dağlıq Qarabağın inzibati sərhədləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədləri üzrə müəyyən edilir.

V. Dağlıq Qarabağın referendumda "Dağlıq Qarabağ xalqı" tərəfindən qəbul edilmiş öz konstitusiyası olacaqdır. Həmin Konstitusiya bu sənəd əsasında öz müqəddəratını təyin etmək forması haqqında Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan arasında rəsmi sazişi inkorporasiya edəcəkdir. Azərbaycan bu sazişlərin inkorporasiyası üçün öz Konstitusiyasına müvafiq dəyişikliklər edəcəkdir.

Dağlıq Qarabağın öz bayrağı, gerbi və himni olacaqdır.

VI. Dağlıq Qarabağın ərazisində Dağlıq Qarabağın Konstitusiyası və qanunları işləyir. Əgər Azərbaycanın qanunları, qaydaları və icra qərarları Dağlıq Qarabağın Konstitusiyasına və qanunlarına zidd deyildirsə, onlar sonuncunun ərazisində qüvvəyə malikdir.

VII. Dağlıq Qarabağ özünün qanunvericilik, icra və məhkəmə orqanlarını müstəqil surətdə formalaşdırır.

VIII. Dağlıq Qarabağ əhalisi Azərbaycan parlamentinə nümayəndələr seçir və Azərbaycan prezidentinin seçkilərində iştirak edir.

IX. Dağlıq Qarabağ xaricdə müvafiq nümayəndəliyi olmaq şərti ilə iqtisadiyyat, elm, mədəniyyət, idman sahələrində və humanitar məsələlərdə əcnəbi dövlətlərlə və beynəlxalq təşkilatlarla bilavasitə xarici əlaqələr saxlamaq hüququna malik olacaqdır. Dağlıq Qarabağın siyasi partiyalarının digər ölkələrdəki siyasi partiyalar ilə əlaqələr yaratmaq hüququ olacaqdır.

X. Dağlıq Qarabağ vətəndaşlarının üzərində xüsusi olaraq "Dağlıq Qarabağ" yazılmış Azərbaycan pasportu olacaqdır. Dağlıq Qarabağ vətəndaşları Ermənistan qanunlarına uyğun olaraq əcnəbilər hesab edilməyəcəklər, istənilən vaxt Ermənistana mühacirət edə və Ermənistan Respublikasına daimi mühacirət təqdirində Ermənistan vətəndaşlığını qəbul edə bilərlər.

XI. Dağlıq Qarabağ valyutaların sərbəst işləndiyi azad iqtisadi zona olacaqdır.

XII. Dağlıq Qarabağın milli qvardiyası və polis qüvvələri olacaqdır. Dağlıq Qarabağ vətəndaşlarının Dağlıq Qarabağ ərazisində xidmət etmək hüququ olacaqdır.

XIII. Azərbaycanın ordusu, təhlükəsizlik və polis qüvvələri Dağlıq Qarabağ ərazisinə yalnız Dağlıq Qarabağ hakimiyyət orqanlarının icazəsi ilə daxil olmaq hüququna malik olacaqdır.

XIV. Dağlıq Qarabağın büdcəsi onun öz ehtiyatları hesabına əmələ gələn daxilolmalardan tərtib edilir. Dağlıq Qarabağ hökuməti Azərbaycanın və xarici ölkələrin şəxslərini və şirkətlərini kapital qoyuluşuna həvəsləndirəcək və buna təminat verəcəkdir.

XV. Dağlıq Qarabağ çox etnik xarakterə malikdir; hər bir vətəndaş bütün rəsmi və qeyri-rəsmi hallarda öz milli dilindən istifadə hüququna malikdir.

XVI. BMT Təhlükəsizlik Şurası bu sazişin təminatçısı olacaqdır.

## Dağlıq Qarabağ münaqişəsi üçün etimadın möhkəmləndirilməsi tədbirləri

Münaqişənin dinclikl̇ə aradan qaldırılmasına nail olmaq niyyətini nümayiş etdirmək üçün tərəflər hər hansı bir digər sazişi gözləmədən etimadın və təhlükəsizliyin möhkəmləndirilməsinə dair aşağıdakı tədbirlərdən istənilənləri və ya onların hamısını həyata keçirə bilərlər:

– Azərbaycan və Ermənistan İcevan – Qazax sektorunda öz aralarındakı sərhəd boyunca atəşkəs rejimini dərhal bərpa etmək barədə öhdəlik götürə bilər. 1992-ci ildə tətbiq olunmuş bu rejim təcili telefon rabitəsi xəttindən və sərhəddə birgə keşik çəkilməsindən ibarət idi;

– tərəflər Dağlıq Qarabağla əlaqədar, məsələn, İcevan-Qazax sektorunda, Ermənistan-Azərbaycan sərhədi boyunca əlavə müşahidənin həyata keçirilməsi üçün ATƏT-in fəaliyyətdə olan sədrinin müşahidə üzrə missiyasının genişləndirilməsi haqqında sazişə gələ bilərlər;

– humanitar tələbatların (istər Azərbaycanın köçkün şəxsləri üçün, istərsə də Dağlıq Qarabağın daxilində) müəyyənləşdirilməsi məqsədi ilə BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin köməyi ilə dialoq. Bu, ya BMT Ali Komissarının, ya da Beynəlxalq Qızıl Xaç Komitəsinin razılığı ilə həyata keçirilə bilər;

– Dağlıq Qarabağ regionunda həm ermənilər üçün, həm də azərbaycanlılar üçün açıq olan həftəlik və ya gündəlik bazarların təşkili. Bu, sərhədi keçmək üçün məntəqələr yaradılmasını, bazar meydançalarına gələn yolların açılmasını və minalardan təmizlənməsini, tranzit rejimlərinin və ticarət qaydalarının modallığı haqqında sazişlər bağlanmasını tələb edəcəkdir.

-------------------

* ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin dinc yolla aradan qaldırılması üçün indiyə qədər üç təklif irəli sürmüşlər. Bunlardan birincisi 1997-ci il iyulun 18-də təqdim edilmiş və şərti olaraq daha çox "paket həll" adı ilə tanınan təklifdir. Həmin təklif müəyyən qeyd-şərtlərlə münaqişənin həllində əsas kimi Azərbaycan tərəfindən qəbul edilmişdir. Lakin Ermənistan bu təkliflə razılaşmamışdır.

*Əlavə III.2.6*

**ATƏT-in Minsk qrupunun sədarəti Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında SAZİŞ ***

*2 dekabr 1997-ci il*

## PREAMBULA

Tərəflər uzun sürən Dağlıq Qarabağ münaqişəsini dinc-liklə nizama salıb mövcud atəşkəsi möhkəm sülhə çevirmək əzmində olaraq;

regionda sülhün və əməkdaşlığın onların xalqlarının tərəqqisi və firavanlığı üçün əhəmiyyətini təsdiqləyərək;

Qafqaz xalqlarına demokratik təsisatlar, rifahın yüksəlməsi və gələcəyə böyük ümid bəslənməsi şəraitində normal və səmərəli həyat sürmək imkanı verməklə bu regionun birgə iqtisadi inkişafı üçün zəmin yaratmaq istəyərək;

bu sazişə uyğun olaraq əməkdaşlığın bütün regionda ticarət, nəqliyyat və rabitə sahəsində normal münasibətlərə gətirib çı-xaracağını, beynəlxalq təşkilatların köməyi ilə insanlara öz şəhər və kəndlərini bərpa etməyə, regionda xarici kapital qoyuluşlarının xeyli artması üçün lazımi sabitlik yaradılmasına və müqəddəm şərtləri Qafqaz regionunun özündə olan təbii tərəqqinin bütün insanlar üçün əldə edilməsinə doğru aparan qarşılıqlı surətdə faydalı ticarətə yol açmasına və insanlar arasında barışığın və əməkdaşlığın onların çox böyük potensialını qonşularının və dünya xalqlarının firavanlığı üçün sərbəstləşdirməyə imkan verəcəyini dərk edərək;



BMT nizamnaməsinin müddəalarına, ATƏT-in əsas prinsip-lərinə və qərarlarına, beynəlxalq hüququn hamılıqla tanınmış normalarına və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin tamamilə həyata keçirilməsinə sadiq qalaraq;

ATƏT-in üzvü olan dövlətlərin münaqişənin dincliklə niza-ma salınmasında səylərini gücləndirmək və ATƏT-ə kömək etmək barədə 1994-cü ildə Budapeşt sammitində öhdəlik götür-düklərini və onların Minsk konfransının həmsədrlərinə operativ danışıqlar aparmağa dair tapşırıq verdiklərini və silahlı müna-qişənin dayandırılması haqqında tərəflər arasında saziş əldə edildikdən sonra BMT Təhlükəsizlik Şurasının müvafiq qətna-məsinin qəbul olunacağı təqdirdə sülhün qorunması üzrə ATƏT-ə çoxmilli qüvvələr verməyə siyasi cəhətdən hazır olduqları barədə bəyanatını xatırladaraq;

Dağlıq Qarabağın qəti statusunu müəyyənləşdirəcək hərtə-rəfli nizamasalmaya təxirə salınmadan nail olmaq məqsədi ilə sülh prosesini vicdanla davam etdirmək əzmində olaraq aşağı-dakılar barədə öz üzərlərinə öhdəliklər götürürlər:

I. Tərəflər öz aralarındakı mübahisələrin həlli üçün zor işlətməklə hədələməkdən və ya zor işlətməkdən imtina edir və çəkinirlər. Onlar bütün belə mübahisələri, o cümlədən bu sazişin həyata keçirilməsi ilə əlaqədar yarana biləcək mübahisələri dinc vasitələrlə, ilk növbədə danışıqlar yolu ilə, o cümlədən ATƏT-in Minsk prosesi çərçivəsində danışıqlar yolu ilə həll edirlər.

II. Tərəflər öz silahlı qüvvələrini aşağıdakı müddəalara uy-ğun olaraq və 1-ci əlavədə müfəssəl şərh edildiyi kimi çıxarırlar:

A) birinci mərhələdə qüvvələr Dağlıq Qarabağdan şərqə və cənuba doğru uzanan indiki təmas xətti boyunca 1-ci əlavədə göstərilmiş xətləri və bu əlavədə olan cədvələ müvafiq surətdə,

ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış müvəqqəti bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsi zamanı təhlükəsizliyi təmin etməyə imkan yaradılması məqsədi ilə yüksək səviyyədə planlaşdırma qrupunun (YSPQ) tövsiyələri lazımınca nəzərə alınmaqla çəkilirlər.

B) ikinci mərhələdə qüvvələr eyni vaxtda və 1-ci əlavədə göstərilmiş cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılır:

(1) Ermənistan Respublikasının sərhədləri xaricində yerləşdirilmiş Ermənistanın hər hansı qüvvələri bu sərhədlərin hüdudları daxilinə aparılır.

(2) Dağlıq Qarabağın qüvvələri, Laçın rayonu istisna olmaqla, Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) 1988-ci il hüdudları daxilinə aparılır.

(3) Azərbaycanın qüvvələri YSPQ-nin tövsiyələrinə əsasən, 1-ci əlavədə göstərilmiş xətdən kənara çıxarılır və Ermənistanın hər hansı ərazisindən çıxarılır.

(4) Ağır silahlar YSPQ-nin tövsiyələrinə əsasən, ATƏT-in sülhü müdafiə qüvvələrinin müşahidəsi altında, 1-ci əlavədə şərh edilmiş şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməklə bu əlavədə göstərilmiş yerlərə aparılır.

III. Qüvvələrin bu cür çıxarılması və yerdəyişməsinin aid olduğu ərazi, 2-ci əlavədə müfəssəl şərh olunduğu kimi, bufer zonasını və ayırıcı zonanı əmələ gətirir:

A. Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası DQMV-nin 1988-ci il hüdudları, Laçın rayonunun şimal və cənub hüdudları boyunca yerləşir. Bufer zonasında əhali məskunlaşdırılmır və ATƏT-in sülhü müdafiə əməliyyatının elementləri istisna olmaqla, tamamilə silahsızlaşdırılır.



B. 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi, daimi qarışıq komissiya ilə əməkdaşlıq şəraitində fəaliyyət üçün icazə verilmiş qüvvələr, o cümlədən aşağıda göstərilən qüvvələr istisna olmaqla, ayırıcı zona silahsızlaşdırılır:

(1) – sülhü müdafiə əməliyyatının elementləri;

(2) – sərhəddə keşik çəkmək və minalardan təmizləmə üçün bölmələr;

(3) – say tərkibi və icazə verilmiş silahı 2-ci əlavədə müəyyən edilmiş mülki polis.

C. 2-ci əlavədə şərh edildiyi kimi, bufer zonasında və ayırıcı zonada uçuşsuz zona yaradılır, ATƏT-in sülhü müdafiə əməliyyatının nəzarəti altında tərəflər bu zonada hərbi uçuşlar keçirilməsinə yol vermirlər.

D. II maddəyə uyğun olaraq qüvvələr çıxarıldıqdan sonra Dağlıq Qarabağın hakimiyyət orqanlarının nəzarət etdikləri bütün yerlərdə təhlükəsizlik Dağlıq Qarabağın mövcud hərbi strukturları və təhlükəsizlik strukturları tərəfindən təmin olunur.

IV. ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarlarına uyğun olaraq, tərəflər ATƏT-in çoxmilli sülhü müdafiə əməliyyatına ("SMƏ") dəvət edir və onun yerləşdirilməsinə kömək göstərirlər. O, 7-ci maddədə müəyyən olunduğu kimi, daimi qarışıq komissiya və Ermənistan-Azərbaycan hökumətlərarası komissiyası ilə əməkdaşlıqda fəaliyyət göstərəcəkdir.

SMƏ qüvvələrin və ağır silahların çıxarılmasına, hərbi uçuşlara yol verilməməsinə, silahsızlaşdırma rejiminin qoruyub saxlanmasına və 2-ci əlavədə şərh olunduğu kimi, Ermənistan-Azərbaycan sərhədində vəziyyətə nəzarət edir. Tərəflər bu mövqelərdən ötrü BMT Təhlükəsizlik Şurasını bir ildən az olmayaraq ilkin dövr üçün müvafiq qətnamə qəbul etməyə və lazım gəldikdə ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə

həmin qətnamənin müddəalarını bərpa etməyə çağırırlar. Tərəflər razıdırlar ki, çoxmilli sülhü müdafiə əməliyyatının ümumi müddəti regiondakı vəziyyətdən və münaqişənin hərtərəfli həllinin sürətindən asılı olaraq minimum zərurət həddində olacaqdır. Tərəflər bu sazişin həyata keçirilməsini təmin etmək və sülhü müdafiə əməliyyatının hər hansı şəkildə pozulmasının və ya dayandırılmasının qarşısını almaq üçün SMƏ ilə tam əməkdaşlıq edirlər.

V. Tərəflər, 2-ci əlavədə şərh olunduğu kimi, şəxslərin ayırıcı zonadakı öz əvvəlki daimi yaşayış yerlərinə təhlükəsiz və könüllü qayıtmasına kömək edirlər. Bu zonada silahsızlaşdırma rejiminə əməl olunacağına bütün tərəflərdə inam yaratmaq üçün daimi qarışıq komissiya ilə əməkdaşlıq şəraitində SMƏ qayıdan əhalinin təhlükəsizliyinə göz qoyur. Tərəflər bu sazişlə və ya hərtərəfli nizamasalma ilə əhatə olunmuş və Ermənistanla Azərbaycan arasında münaqişə və gərginlik nəticəsində 1987-ci ildən sonra köçmüş şəxslərdən savayı, qalan digər bütün şəxslərin tezliklə təhlükəsiz şəraitdə və könüllü şəkildə qayıtmasının həyata keçirilməsi haqqında danışıqlar aparırlar.

VI. Qüvvələrin çıxarılması ilə eyni vaxtda tərəflər yolların, dəmir yollarının, elektrik və rabitə xətlərinin açılması, ticarətin və digər münasibətlərin bərpası məqsədi ilə bütün tədbirləri buna mümkün qədər qısa müddətdə nail olmaq üçün bütün lazımi işləri 3-cü əlavədə şərh olunmuş cədvələ və konkret müddəalara müvafiq olaraq dərhal həyata keçirirlər. Tərəflər etnik azlıqlar da daxil olmaqla, bu əlaqələrdən hamının istifadə etməsinə təminat yaradacaq, onların regionun başqa yerlərindəki öz etnik icmaları ilə maneəsiz ünsiyyətini təmin edəcəklər. Tərəflərdən hər biri bütün blokadaları aradan götürməyi və yüklərin, insanların bütün digər tərəflərə maneəsiz olaraq çatdırılmasını təmin etməyi



öhdəsinə götürür. Tərəflər öz aralarında sərbəst və təhlükəsiz dəmiryol əlaqəsini təmin edəcəklər.

VII. Tərəflər münaqişə ilə bağlı tutulub saxlanılan bütün şəxslərin tezliklə və təhlükəsiz qayıtmasını təmin etmək, itkin düşənlərin taleyini araşdırmaq, bütün cənazələrin qaytarılmasını və humanitar yardımın, bərpa məqsədli yardımın münaqişənin gedişində zərər çəkmiş rayonlara özlərinin nəzarət etdikləri ərazi vasitəsilə ayrı-seçkilik qoyulmadan daşınmasını təmin etmək üçün Beynəlxalq Qızıl Xaç Komitəsi, BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığı və digər beynəlxalq təşkilatlarla tam əməkdaşlıq edirlər. Tərəflər etimadı möhkəmlətmək tədbirlərinin həyata keçirilməsində Daimi Qarışıq Komissiya vasitəsilə ATƏT-in sülhü müdafiə əməliyyatı ilə əməkdaşlıq edirlər.

VIII. Tərəflər bu sazişin Azərbaycana və Dağlıq Qarabağa aid problemlər barəsində müddəalarının həyata keçirilməsinə nəzarət etmək üçün dərhal Daimi Qarışıq Komissiya (DQK) yaradırlar. DQK-nın əsas vəzifəsi sazişin həyata keçirilməsinə nəzarət etməkdən ibarətdir; ATƏT-dən olan sədrin vəzifələrinə fikir ayrılıqları zamanı vasitəçilik etmək və təbii fəlakətlər kimi fövqəladə hallarda tədbirlər görülməsinə sanksiya verilməsi də daxildir. DQK-nın hərbi, iqtisadi, humanitar və mədəni yardımçı komissiyaları və rabitə üzrə yardımçı komissiyası olur. DQK-nın strukturu, funksiyaları və ona aid başqa təfərrüatlar 4-cü əlavədə şərh edilmişdir.

IX. Tərəflər Ermənistanla Azərbaycan arasında sərhəd toqquşmalarının qarşısının alınmasına kömək edilməsi, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqələr qurulması və yolların, dəmir yollarının, rabitənin, boru kəmərlərinin açılmasına, ticarət münasibətlərinin və başqa münasibətlərin bərpası tədbirlərinə nəzarət olunması və

bu tədbirlərə kömək göstərilməsi üçün dərhal Ermənistan-Azərbaycan Hökumətlərarası Komissiyası (EAHK) yaradırlar. EAHK-ın iki həmsədri olur: biri Ermənistandan, digəri Azərbaycandan. Komissiyaya ATƏT-in fəaliyyətdə olan sədrinin təyin etdiyi nümayəndə daxildir. EDHK-ın strukturu, funksiyaları va ona aid digər təfərrüatlar 5-ci əlavədə şərh olunmuşdur. Azərbaycan Respublikası və Ermənistan Respublikası bir-birlərinin paytaxtlarında əlaqə büroları yaradırlar.

X. Azərbaycan Respublikası və Ermənistan Respublikası hərbi tarazlıq və Avropada adi silahlı qüvvələr haqqında müqaviləyə tam əməl edilməsi də daxil olmaqla, regionda təhlükəsizliyin artmasını təmin etmək məqsədi ilə müvafiq beynəlxalq və regional forumlarda ikitərəfli və çoxtərəfli danışıqlara qoşulurlar.

XI. Bu müqavilədə üç tərəf; beləliklə, münaqişənin hərbi cəhətinə son qoyaraq Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsini və Laçın, Şuşa və Şaumyan problemlərinin həllini əhatə edən siyasi cəhət də daxil olmaqla, münaqişənin bütün başqa cəhətlərinin hərtərəfli həllinə təxirəsalınmadan nail olmaq üçün Minsk konfransı həmsədrlərinin və müvafiq surətdə ATƏT-in fəaliyyətdə olan sədrinin dəvət etdiyi digər tərəflərin köməyi ilə danışıqları vicdanla davam etdirməyə razılaşırlar; bu danışıqlar yolu ilə nizamasalmaya nail olduqdan sonra belə nizamasalma mümkün qədər tezliklə çağırılan Minsk konfransında beynəlxalq birlik tərəfindən tanınmalıdır.

XII. Tərəflərdən hər biri digər tərəflərin və onların əhalisinin təhlükəsizliyinə tamamilə hörmət edir. Tərəflər öz xalqları arasında ticarətə və normal qarşılıqlı fəaliyyətə kömək göstərərək onların arasında mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyi və bu sazişi, yaxud xoş münasibətləri sarsıda biləcək bəyanatlardan və ya hərəkətlərdən çəkinməyi öhdələrinə götürürlər.

XIII. Sülhün qorunması və qoşunların çıxarılmasına nəzarət barədə yuxarıda şərh edilmiş konkret müddəalara əlavə olaraq və ATƏT-in müvafiq prinsiplərini və öhdəliklərini, o cümlədən 1992-ci ilin Helsinki sənədində və 1994-cü ilin Budapeşt sənədində əksini tapmış prinsipləri və öhdəlikləri xatırladaraq ATƏT bu sazişin bütün cəhətlərinin tamamilə həyata keçirilməsinə müvafiq mexanizmlər vasitəsilə nəzarət edir və sazişin şərtlərinin pozulmasının qarşısını almaq və belə hallara mane olmaq üçün həmin prinsiplərə və qərarlara uyğun olaraq müvafiq tədbirlər görür. Bu sazişin şahidləri ATƏT-in Daimi Şurası və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası vasitəsilə fəaliyyət göstərərək onun tam şəkildə həyata keçirilməsinə kömək edirlər. Bu saziş ciddi şəkildə pozulduğu təqdirdə, onlar zəruri tədbirlər barəsində öz aralarında məsləhətləşir, ATƏT-in fəaliyyətdə olan sədrinə, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası sədrinə və Birləşmiş Millətlər Təşkilatının baş katibinə dərhal məlumat verir və ATƏT-in Daimi Şurasından, yaxud BMT-nin Təhlükəsizlik Şurasından bununla əlaqədar müvafiq hərəkətləri nəzərdən keçirməyi xahiş edirlər.

XIV. Tərəflər Dağlıq Qarabağın, onun əhalisinin və qayıdan köçkün şəxslərin təhlükəsizliyinə təminat da daxil olmaqla, bu sazişin müddəalarına əməl olunmasını təmin etmək və bu sazişdən irəli gələn bütün öhdəliklərin yerinə yetirilməsi üçün lazımi tədbirlər görmək barədə öz üzərilərinə qarşılıqlı öhdəliklər götürürlər.

XV. Bu saziş imzalandıqdan və ratifikasiya olunduqdan sonra qüvvəyə minir və hərtərəfli nizamasalma barədə XI bənddə xatırladılan istisnalarla birlikdə qüvvədə qalır. Bu saziş bütün

tərəflərin razılığı ilə dəyişdirilə, ona əlavələr edilə və dayandırıla bilər.

-------------------

*ATƏT-in Minsk qrupu həmsədrlərinin ikinci təklifi 1997-ci il dekabrın 2-də münaqişə tərəflərinə təqdim olunmuşdur. Bu variant daha çox "mərhələli həll" kimi tanınır. Azərbaycan tərəfi həmin təklifə də razılıq vermişdir. Lakin Ermənistan tərəfi bu təklifi də qəbul etməmişdir.

---

*Əlavə III.2.7*

**Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında***

*7 noyabr 1998-ci il*

Dağlıq Qarabağ münaqişəsini, dövlətlərin ərazisi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi prinsipləri də daxil olmaqla, beynəlxalq hüququn normalarına və prinsiplərinə müvafiq surətdə həll etmək əzmində olan Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ aşağıdakılar barədə razılığa gəlirlər:

**I. Dağlıq Qarabağın statusu haqqında saziş**

Tərəflər Dağlıq Qarabağın statusu haqqında saziş imzalayacaqlar və o, aşağıdakı müddəalardan ibarət olacaqdır:.



Dağlıq Qarabağ respublika formasında dövlət və ərazi qurumudur və Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində onunla ümumi dövlət yaradır.

Azərbaycan və Dağlıq Qarabağ müvafiq dövlət hakimiyyəti orqanları arasında səlahiyyətlərin həyata keçirilməsi və qarşılıqlı surətdə həvalə olunması predmetlərinin hüdudlarını müəyyənləşdirmək haqqında saziş imzalayacaq və onun Konstitusiya qanunu qüvvəsi olacaqdır.

Azərbaycan və Dağlıq Qarabağ birgə səlahiyyətlər sahəsinə aid siyasəti və fəaliyyəti müəyyənləşdirmək üçün prezidentlərin, baş nazirlərin, parlament sədrlərinin nümayəndələrinin daxil olacağı birgə komitə yaradırlar.

Əlaqə saxlamaq və birgə tədbirləri əlaqələndirmək üçün Bakıda və Stepanakertdə müvafiq olaraq Dağlıq Qarabağın və Azərbaycanın nümayəndəlikləri yaradılır.

Dağlıq Qarabağ xaricdə müvafiq nümayəndəliyi olmaq şərtilə iqtisadiyyat, ticarət, elm, mədəniyyət, idman və humanitar sahələrdə əcnəbi dövlətlərlə, bu problemlərlə bağlı olan regional və beynəlxalq təşkilatlarla birbaşa xarici əlaqələr saxlamaq hüququna malik olacaqdır. Dağlıq Qarabağdakı siyasi partiyaların və ictimai təşkilatların xarici dövlətlərin siyasi partiyaları və ictimai təşkilatları ilə əlaqələr yaratmaq hüququ olacaqdır.

Dağlıq Qarabağ özünün mənafeləri ilə bağlı məsələlər üzrə Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində iştirak edir. Belə məsələlər haqqında qərarlar iki tərəfin razılığı olmadan qəbul edilə bilməz.

Dağlıq Qarabağ hökuməti özünün xüsusi maraqları olan xarici dövlətlərdəki Azərbaycan səfirliklərində və ya konsul idarələrində öz nümayəndələrinə malik ola, habelə beynəlxalq danışıqlarda, əgər bunlar Dağlıq Qarabağın mənafelərinə aiddirsə,

iştirak etmək üçün Azərbaycan nümayəndə heyətlərinin tərkibində öz ekspertlərini göndərə bilər.

Dağlıq Qarabağın sərhədləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərinə uyğun olacaqdır. Onların mümkün olan dəqiqləşdirilməsi və ya dəyişdirilməsi Azərbaycanla Dağlıq Qarabağ arasında xüsusi qarşılıqlı razılaşmaların mövzusu ola bilər.

Azərbaycanla Dağlıq Qarabağ arasında sərhədlər bir-birinin silahsız vətəndaşlarının sərbəst hərəkəti üçün qarşılıqlı surətdə açıq olacaqdır. Gediş-gəliş və işgüzar əlaqələr zamanı onlardan gömrük rüsumu və ya başqa rüsumlar tutulmayacaqdır. Daimi yaşayış hüququ verilməsi müvafiq hökumətlərin səlahiyyətlərinə aid ediləcəkdir.

Azərbaycan və Dağlıq Qarabağ mübahisələrin nizama salınması üçün zor işlətməyəcək və ya zor işlətməklə hədələməyəcəklər.

Birgə komitə çərçivəsində aradan qaldırıla bilməyən mübahisələr və ya fikir ayrılıqları yarandıqda tərəflər ATƏT-in fəaliyyətdə olan sədrinin məsləhətçi rəyini soruşa bilərlər və o, qəti qərar qəbul edilərkən nəzərə alınacaqdır.

Dağlıq Qarabağın statusuna Dağlıq Qarabağın statusu haqqında Minsk konfransı tərəfindən bəyənilmiş sazişdə rəsmiləşdiriləcək aşağıdakı hüquqlar və imtiyazlar da daxildir:

1. Dağlıq Qarabağın referendumda Dağlıq Qarabağ xalqı tərəfindən qəbul edilmiş öz Konstitusiyası olacaqdır. Bu Konstitusiya Dağlıq Qarabağın statusu haqqında sazişin müddəalarını inkorporasiya edəcəkdir. Müvafiq olaraq Azərbaycan bu sazişin inkorporasiyası üçün öz Konstitusiyasına dəyişikliklər edəcəkdir.

Bu sazişin va ya Dağlıq Qarabağ və Azərbaycan konstitusiyalarının onu inkorporasiya edən hissələrinin müddəaları hər üç tərəfin razılığı olmadan dəyişdirilə bilməz.



2. Dağlıq Qarabağ ərazisində Dağlıq Qarabağın Konstitusiyası və qanunları işləyir. Əgər Azərbaycan qanunları, qaydaları və icra qərarları Dağlıq Qarabağın Konstitusiyasına və qanunlarına zidd deyilsə, onun ərazisində qüvvəyə malikdir.

3. Dağlıq Qarabağın öz bayrağı, gerbi və himni olacaqdır.

4. Dağlıq Qarabağ öz Konstitusiyasına müvafiq olaraq qanunvericilik, icra və məhkəmə orqanlarını müstəqil surətdə formalaşdırır.

5. Dağlıq Qarabağ vətəndaşlarının şəxsiyyət vəsiqəsi kimi üzərində xüsusi olaraq "Dağlıq Qarabağ" yazılmış Azərbaycan pasportu olacaqdır. Yalnız Dağlıq Qarabağ hökumətinin belə pasportları vermək hüququ olacaqdır.

Dağlıq Qarabağın erməni mənşəli vətəndaşları Ermənistana mühacirət edəndə və oraya daimi yaşamağa köçdükdə həmin ölkənin qanunlarına müvafiq olaraq Ermənistan vətəndaşlığı ala bilərlər.

6. Dağlıq Qarabağ əhalisinin Azərbaycan parlamentinə öz nümayəndələrini seçmək və Azərbaycan prezidenti seçkilərində iştirak etmək hüququ var.

7. Dağlıq Qarabağ azad iqtisadi zona olacaq, Azərbaycan pul nişanları ilə yanaşı işlənən öz pul nişanlarını buraxmaq hüququna, habelə öz markalarını buraxmaq hüququna malik olacaqdır.

8. Dağlıq Qarabağın Ermənistanla və Azərbaycanla azad və maneəsiz nəqliyyat və rabitə əlaqəsi saxlamaq hüququ olacaqdır.

9. Dağlıq Qarabağın könüllülük əsasında formalaşdırılan milli qvardiyası, (təhlükəsizlik qüvvələri) və polis qüvvələri olacaqdır. Bu qüvvələr Azərbaycan hökumətinin razılığı olmadan Dağlıq Qarabağdan kənarda fəaliyyət göstərə bilməz.

10. Azərbaycanın ordusunun, təhlükəsizlik qüvvələri və polisinin Dağlıq Qarabağın hakimiyyət orqanlarının razılığı olmadan Dağlıq Qarabağın ərazisinə daxil olmaq hüququ olmayacaqdır.

11. Erməni dili Dağlıq Qarabağın əsas rəsmi dili, Azərbaycan dili isə ikinci rəsmi dilidir. Onun vətəndaşları bütün rəsmi və qeyri-rəsmi hallarda digər doğma dillərdən də istifadə edə bilərlər.

12. Dağlıq Qarabağın büdcəsi öz mənbələrindən alınan vəsaitdən ibarət olacaqdır. Dağlıq Qarabağ hökuməti Azərbaycan şirkətlərini və xarici şirkətləri, şəxsləri kapital qoymağa həvəsləndirəcək, buna təminat verəcəkdir.

## II. Laçın dəhlizi barədə

Azərbaycanın və Dağlıq Qarabağın razılığı ilə əgər Laçın rayonunun xüsusi rejiminə dair digər qərarlar qəbul edilməsə, Dağlıq Qarabağla Ermənistan arasında maneəsiz əlaqələri təmin etmək məqsədi ilə Dağlıq Qarabağın Laçın dəhlizindən istifadə etməsi məsələsi ayrıca razılaşmanın mövzusu olacaqdır. Laçın rayonu daim tam silahsızlaşdırılmış zona olaraq qalmalıdır.

## III. Şuşa şəhəri və Şaumyan şəhəri barədə

Tərəflər razılaşırlar ki, bütün Azərbaycan qaçqınları Şuşa şəhərinə, öz daimi yaşayış yerlərinə qayıda bilərlər. Onların təhlükəsizliyi Dağlıq Qarabağın müvafiq hakimiyyət orqanları tərəfindən təmin ediləcəkdir. Onlar Dağlıq Qarabağın bütün vətəndaşları ilə eyni hüquqa, o cümlədən siyasi partiyalar yaratmaq, bütün səviyyələrdə seçkilərdə iştirak etmək, dövlət qanunvericilik orqanlarına və yerli özünüidarə orqanlarına seçilmək,



dövlət qulluğuna, o cümlədən hüquq-mühafizə orqanlarına işə qəbul edilmək hüququna malik olacaqlar.

Erməni qaçqınları da Şaumyan şəhərinə qayıdarkən eyni hüquqları alacaqlar.

Şuşa şəhərinin və Şaumyan şəhərinin sakinləri yollardan, Azərbaycanın və Dağlıq Qarabağın qalan yerləri ilə rabitədən və digər əlaqələrdən heç bir məhdudiyyət olmadan istifadə edə biləcəklər.

Dağlıq Qarabağın və Azərbaycanın hakimiyyət orqanları müvafiq olaraq Şuşa və Şaumyan şəhərlərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun nümayəndəliklərinin yerləşdirilməsinə və fəaliyyətinə kömək göstərəcəklər.

* * *

Dağlıq Qarabağın statusu haqqında sazişi üç tərəf imzalayacaq və o, Minsk konfransı tərəfindən bəyənildikdən sonra qüvvəyə minəcəkdir.

## IV. Silahlı münaqişənin dayandırılması haqqında saziş

Tərəflər razılaşırlar ki, silahlı münaqişənin dayandırılması haqqında saziş aşağıdakı müddəaları əhatə edəcəkdir:

I. Tərəflər öz aralarında mübahisələrin həlli üçün zor işlətməklə hədələməkdən, yaxud zor işlətməkdən imtina edirlər. Onlar silahlı münaqişənin dayandırılması haqqında sazişin həyata keçirilməsi ilə əlaqədar meydana çıxa biləcək mübahisələr daxil olmaqla, bütün belə mübahisələri dinc vasitələrlə, ilk növbədə birbaşa danışıqlar yolu ilə, yaxud ATƏT-in Minsk prosesi çərçivəsində həll edirlər.

II. Tərəflər öz silahlı qüvvələrini aşağıdakı müddəalara müvafiq olaraq və 1-ci əlavədə ətraflı şərh edildiyi kimi çıxarırlar:

A. Birinci mərhələdə Dağlıq Qarabağdan şərqə və cənuba doğru indiki təmas xətti boyunca olan qüvvələr I əlavədə razılaşdırılmış xətlərə tərəf bir neçə kilometr geri çəkiləcəkdir, bu zaman ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsində təhlükəsizliyin təmin edilməsinə imkan yaratmaq məqsədi ilə Yüksək Səviyyədə Planlaşdırma Qrupunun (YSPQ) tövsiyələri lazımınca nəzərə alınmaqla çəkilirlər.

B. İkinci mərhələdə qüvvələr eyni vaxtda və 1-ci əlavədə razılaşdırılmış cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılacaqdır:

(1) Ermənistan Respublikasının sərhədləri xaricində yerləşən Ermənistanın hər hansı qüvvələri bu sərhədlərin hüdudları daxilinə aparılır.

(2) Dağlıq Qarabağın qüvvələri Dağlıq Qarabağla Ermənistan arasında maneəsiz gediş-gəliş haqqında saziş əldə edilənədək Laçın rayonu istisna olmaqla, Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) 1988-ci ildəki hüdudları daxilinə aparılır.

(3) Azərbaycanın qüvvələri YSPQ-nin tövsiyələrinə əsasən 1-ci əlavədə göstərilmiş xətdən kənara çıxarılır və Ermənistanın hər hansı ərazisindən çıxarılır.

(4) Ağır silahlar YSPQ-nin tövsiyələrinə əsasən, ATƏT-in sülhü müdafiə əməliyyatının nəzarəti altında, 1-ci əlavədə şərh olunmuş şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməklə bu barədə göstərilmiş yerlərə çıxarılır.



III. Qüvvələrin bu cür çıxarılması nəticəsində azad olunmuş ərazi aşağıdakı müddəalara müvafiq olaraq və 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi, bufer zonası və ayırıcı zona təşkil edir:

A. Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası DQMV-nin 1988-ci il hüdudları boyunca yerləşir. Əlavə razılaşma əldə edilərsə, o Laçın rayonu hüdudları boyunca da keçə bilər. Bufer zonası məskunlaşdırılmır, ATƏT-in sülhü müdafiə əməliyyatının elementləri istisna olmaqla, tamamilə silahsızlaşdırılır.

B. 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi, sülhü müdafiə əməliyyatının daimi qarışıq komissiya ilə əməkdaşlıq fəaliyyəti üçün icazə verilmiş, o cümlədən qüvvələr istisna olmaqla, ayırıcı zona silahsızlaşdırılır:

(1) Sülhü müdafiə əməliyyatının elementləri,

(2) Azərbaycanın sərhəddə keşik çəkmək və minalardan təmizləməyə uyğun bölmələri,

(3) Azərbaycanın say tərkibi və icazə verilmiş silahlı, 2-ci əlavədə müəyyən edilmiş mülki polisi.

C. 2-ci əlavədə şərh edildiyi kimi, bufer zonasında və ayırıcı zonada ATƏT-in sülhü müdafiə əməliyyatının nəzarəti altında uçuşsuz zona yaradılır, tərəflər bu zonada hərbi uçuşlara yol vermirlər.

D. II maddəyə müvafiq olaraq qüvvələr çıxarıldıqdan sonra Dağlıq Qarabağın hakimiyyət orqanlarının nəzarət etdikləri bütün yerlərdə təhlükəsizlik Dağlıq Qarabağın mövcud təhlükəsizlik strukturları tərəfindən təmin olunur.

IV. ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarına uyğun olaraq tərəflər ATƏT-in çoxmilli sülhü müdafiə əməliyyatına ("SMƏ") dəvət edilir və onun yerləşdirilməsinə kömək göstərirlər, o, Daimi Qarışıq Komissiya (DQK) və Ermənistan-Azərbaycan Hökumətlərarası Komissiyası (EAHK) ilə əməkdaş-

lıqda fəaliyyət göstərəcəkdir. SMƏ qüvvələrin və ağır silahların çıxarılmasına, hərbi uçuşlara yol verilməməsinə, silahsızlaşdırma rejiminin qorunub saxlanmasına və 2-ci əlavədə şərh edildiyi kimi, Ermənistan-Azərbaycan sərhədində vəziyyətə nəzarət edir.

Sülhü müdafiə əməliyyatı BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinə əsasən ilkin mərhələdə bir ildən çox olmayan müddətə təsis edilir və zərurət olduqda ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə uzadılır. Tərəflər bununla razıdırlar ki, çoxmillətli sülhü müdafiə əməliyyatının ümumi müddəti regiondakı vəziyyətdən və münaqişənin hərtərəfli nizama salınmasının həyata keçirilməsi sürətindən asılı olaraq minimum zərurət həddində olacaqdır. Tərəflər bu sazişin həyata keçirilməsini təmin etmək və sülhü müdafiə əməliyyatının hər hansı şəkildə pozulmasının, yaxud dayandırılmasının qarşısını almaq üçün SMƏ ilə tam əməkdaşlıq edirlər.

V. Tərəflər, 2-ci əlavədə göstərildiyi kimi, qaçqınların və köçkünlərin təhlükəsiz və könüllü surətdə ayırıcı zonadakı daimi yaşayış yerlərinə qayıtmasına kömək edirlər. Bu zonada silahsızlaşdırma rejiminə əməl olunacağına bütün tərəflərdə inam yaratmağa kömək etmək məqsədi ilə SMƏ qayıdan əhalinin təhlükəsizliyinə daimi qarışıq komissiya ilə əməkdaşlıqda nəzarət edir. Tərəflər bu sazişlə əhatə olunanlardan savayı, Ermənistanla Azərbaycan arasında 1987-ci ildən sonra baş vermiş münaqişə və gərginlik nəticəsində qaçqın, yaxud köçkün düşmüş bütün digər şəxslərin təhlükəsiz şəraitdə və könüllü surətdə qayıtmasının həyata keçirilməsi haqqında danışıqlar aparırlar.

VI. Qüvvələrin çıxarılması ilə eyni vaxtda tərəflər yolların, dəmir yollarının, elektrik və rabitə xətlərinin açılması, ticarətin və digər münasibətlərin bərpası məqsədi ilə bütün tədbirləri buna mümkün qədər qısa müddətdə nail olmaq üçün bütün lazımi işləri



3-cü əlavədə şərh olunmuş cədvələ və konkret müddəalara müvafiq olaraq dərhal həyata keçirirlər. Tərəflər etnik azlıqlar da daxil olmaqla, bu əlaqələrdən hamının istifadə etməsinə təminat yaradacaq, onların regionun başqa yerlərindəki öz etnik icmaları ilə maneəsiz ünsiyyətini təmin edəcəklər. Tərəflərdən hər biri bütün blokadaları aradan qaldırmağı və yüklərin, adamların bütün digər tərəflərə maneəsiz daşınmasını təmin etməyi öhdəsinə götürür. Tərəflər öz aralarında sərbəst və təhlükəsiz dəmiryol əlaqəsini təmin edəcəklər.

VII. Tərəflər münaqişə ilə əlaqədar tutulub saxlanılan bütün şəxslərin tezliklə və təhlükəsiz qayıtmasının, itkin düşmüş şəxslərin taleyinin araşdırılması və bütün cənazələrin qalıqlarının qaytarılmasının, yenidənqurma məqsədləri ilə ayrı-seçkilik qoyulmadan humanitar yardımın və köməyin Beynəlxalq Qızıl Xaç Komitəsinin, BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının və digər beynəlxalq təşkilatların nəzarət etdikləri ərazidən münaqişə zamanı zərər çəkmiş rayonlara çatdırılmasının təmin olunması üçün onlarla tam əməkdaşlıq edirlər. Tərəflər etimadı möhkəmlətmək tədbirlərinin həyata keçirilməsində Daimi Qarışıq Komissiya vasitəsilə ATƏT-in SMƏ ilə əməkdaşlıq edirlər.

VIII. Tərəflər bu sazişin Azərbaycana və Dağlıq Qarabağa aid problemlərə dair müddəalarının həyata keçirilməsinə nəzarət etmək üçün dərhal Daimi Qarışıq Komissiya (DQK) yaradırlar. DQK-nın sədri ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsidir, sədrin bir müavini Azərbaycandan və bir müavini Dağlıq Qarabağdandır. DQK-nın əsas vəzifəsi sazişin həyata keçirilməsinə nəzarət etməkdən ibarətdir; ATƏT-dən olan sədrin vəzifələrinə fikir ayrılıqları zamanı vasitəçilik etmək və təbii fəlakətlər kimi fövqəladə hallarda tədbirlər görülməsinə sanksiyalar vermək də daxildir. DQK-nın hərbi, iqtisadi, humanitar və mədəni

yardımçı komissiyaları və rabitə üzrə yardımçı komissiyası var. DQK-nın strukturu, funksiyaları və ona aid digər təfərrüatlar 4-cü əlavədə şərh olunmuşdur.

IX. Tərəflər Ermənistanla Azərbaycan arasında sərhəd toqquşmalarının qarşısının alınmasına, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqələrin həyata keçirilməsinə yardım göstərmək və yolların, dəmiryollarının, rabitənin, boru kəmərlərinin açılmasına, ticarətin və digər münasibətlərin bərpasına dair tədbirlərə nəzarət və yardım etmək üçün dərhal Ermənistan-Azərbaycan hökumətlərarası Komissiyası (EAHK) yaradırlar. EAHK-nın iki həmsədri var: biri Ermənistandan, biri Azərbaycandan. Komissiyaya ATƏT-in fəaliyyətdə olan sədrinin təyin etdiyi nümayəndə daxildir. EAHK-nın strukturu, funksiyaları və ona aid digər təfərrüatlar 5-ci əlavədə şərh olunmuşdur.

X. Azərbaycan Respublikası və Ermənistan Respublikası hərbi tarazlıq və Avropada adi silahlar haqqında müqaviləyə tam əməl edilməsi də daxil olmaqla, regionda təhlükəsizliyin artmasını təmin etmək məqsədi ilə müvafiq beynəlxalq və danışıqlar aparırlar.

XI. Tərəflərdən hər biri digər tərəflərin və onların əhalisinin təhlükəsizliyinə hörmət edir. Tərəflər ticarətə və normal qarşılıqlı fəaliyyətə kömək etməklə öz xalqları arasında mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyi öhdələrinə götürür və bu sazişi, yaxud mehriban münasibətləri poza biləcək bəyanatlardan və ya hərəkətlərdən çəkinirlər.

XII. Sülhün qorunmasına va qoşunların çıxarılmasına nəzarət barədə yuxarıda şərh edilmiş konkret müddəalara əlavə olaraq və ATƏT-in müvafiq prinsiplərini və öhdəliklərini, o cümlədən 1992-ci ilin Helsinki sənədində və 1994-cü ilin Budapeşt



sənədində əksini tapmış prinsipləri və öhdəlikləri xatırlayaraq ATƏT bu sazişin bütün cəhətlərinin tam həyata keçirilməsinə müvafiq mexanizmlər vasitəsilə nəzarət edir və sazişin şərtlərinin pozulmasının qarşısını almaq və belə hallara mane olmaq üçün həmin prinsiplərə və qərarlara uyğun olaraq müvafiq tədbirlər görür.

XIII. Silahlı münaqişənin dayandırılması haqqında sazişi üç tərəf imzalayacaq və o, Minsk konfransı tərəfindən bəyənildikdən və üç tərəfin parlamentlərində ratifikasiya olunduqdan sonra qüvvəyə minəcəkdir.

XIV. Sazişlər imzalandıqdan və onlar Minsk konfransı tərəfindən bəyənildikdən sonra Azərbaycan Respublikası və Ermənistan Respublikası səfirlər səviyyəsində daimi diplomatik missiyalarla tam diplomatik münasibətlər yaradırlar.

## V. Təminatlar haqqında

1. Tərəflər Dağlıq Qarabağın, onun əhalisinin və əvvəlki yaşayış yerlərinə qayıdan qaçqın və köçkünlərin təhlükəsizliyinin təminatı daxil olmaqla, yuxarıda göstərilən sazişlərə əməl olunmasını təmin etmək üçün öz üzərlərinə qarşılıqlı öhdəliklər götürürlər.

2. BMT-nin Təhlükəsizlik Şurası hərtərəfli sazişin həyata keçirilməsini izləyəcəkdir.

3. Minsk konfransının həmsədrləri Dağlıq Qarabağın statusu haqqında sazişi və silahlı münaqişənin dayandırılması haqqında sazişi şahid kimi imzalaya bilərlər. Rusiya, ABŞ və Fransa prezidentləri sazişlərin həyata keçirilməsinin gedişinə ciddi nəzarət etmək və bu sazişin yerinə yetirilməsi üçün lazımi tədbirlər görmək məqsədi ilə üç ölkənin birgə fəaliyyət göstərmək niyyə-

tini təsdiqləyirlər. ATƏT və ya BMT-nin Təhlükəsizlik Şurası, lazım gələrsə, BMT-nin nizamnaməsinə uyğun olaraq diplomatik, iqtisadi, yaxud əlacsız qaldıqda, hərbi xarakterli tədbirlər görə bilər.

Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ ətrafında yaranan, çoxsaylı insan tələfatına, Azərbaycan torpaqlarının işğalına səbəb olan silahlı münaqişəni həll etmək üçün 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmışdır. Qrupun tərkibinə 11 ölkənin təmsilçiləri daxildir. Sonradan ümumi razılıq əsasında

ATƏT-in Minsk Qrupunun həmsədrlər institutu təsis olunmuşdur.

---

* ATƏT-in Minsk Qrupunun həmsədrlərinin üçüncü, sonuncu təklifi 1998-ci il noyabrın 7-də irəli sürülmüşdür və daha çox "ümumi dövlət" şərti adı ilə tanınır. Azərbaycan bu təklifi qəbul etməmiş, Ermənistan isə həmin təklif əsasında münaqişənin həllini məqbul saymışdır.

---

*Əlavə III.2.8*

**ATƏT-in İstanbul Zirvə Toplantısının**
**BƏYANNAMƏSİ**
(çıxarış)

*17-19 noyabr, 1999-cu il*

20. Biz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyət və son hadisələr haqqında ATƏT-in Minsk qrupunun həmsədrlərinin məruzəsini aldıq və onların səylərini müsbət qimətləndiririk. Mütəmadi görüşlərin problemin şəffaf və



hərtərəfli həllinin axtarılması prosesinə dinamiklik verilməsi üçün şərait yaradan Azərbaycan və Ermənistan prezidentləri arasında aparılan birbaşa danışıqlar bizi xüsusilə sevindirir. Danışıqların ATƏT-in Minsk qrupu çərçivəsində bərpasına ümid edərək prezidentlər arasında aparılan dialoqu qəti olaraq dəstəkləyirik və onun davam etdirilməsinə çağırırıq. Eyni zamanda biz təsdiq edirik ki, ATƏT və onun Minsk qrupu nizamlanma üçün ən münasib olan format olaraq qalır, sülh prosesinin bundan sonrakı inkişafına və onun gələcəkdə reallaşmasına kömək etməyə, o cümlədən tərəflərə bütün zəruri olan köməyin göstərilməsinə hazırdır.

---

*Əlavə III.2.9*

**ATƏT-in Nazirlər Şurasının 9-cu görüşü**
**Nazirlər Şurasının Bəyanatları**
**QƏRAR № 2**

*Buxarest, 4 dekabr 2001-ci il*

Biz tərəflər arasında intensivləşdirilmiş dialoqa və Minsk qrupunun həmsədrlərinin fəal köməyinə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının əldə edilməməsindən dərin təəssüf hissimizi bildiririk. Biz bir daha təsdiq edirik ki, bu uzanmış münaqişənin təcili nizamlanması Cənubi Qafqaz regionunda möhkəm sülh, təhlükəsizlik, sabitlik və əməkdaşlığa kömək edəcək.

Biz sülh dialoqunun davam etdirilməsinin vacibliyini yenidən bəyan edirik və tərəfləri münaqişənin beynəlxalq hüqu-

qun norma və prinsipləri əsasında tezliklə həll edilməsi istiqamətindəki səylərini davam etdirməyə çağırırıq. Biz həmçinin tərəfləri hərbi əsirlərin azad edilməsi də daxil olmaqla, qarşılıqlı etibar və inamın möhkəmləndirilməsinə səbəb olacaq əlavə tədbirlərin nəzərdən keçirilməsinə çağırırıq.

Biz tərəflərin atəşkəsə olan və məsələnin sülh yolu ilə və hərtərəfli nizamlanması öhdəliklərini alqışlayırıq. Biz tərəfləri həmsədrlərin fəal dəstəyi ilə ədalətli və möhkəm nizamlanmanın əldə edilməsinə yönəlmiş səylərini davam etdirməyə çağırırıq.

---

*Əlavə III.2.10*

**ATƏT-in Nazirlər Şurasının 10-cu görüşü**
**Nazirlər Şurasının Bəyanatları**

*Porto, 7 dekabr 2002-ci il*

Biz tərəflər arasında intensivləşdirilmiş dialoqa və Minsk qrupunun həmsədrlərinin fəal köməyinə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının əldə edilməməsindən dərin təəssüf hissi keçirməkdə davam edirik. Biz bir daha təsdiq edirik ki, bu uzanmış münaqişənin təcili nizamlanması Cənubi Qafqaz regionunda möhkəm sülh, təhlükəsizlik, sabitlik və əməkdaşlığa kömək edəcək.

Biz sülh dialoqunun davam etdirilməsi vacibliyini yenidən bəyan edirik və tərəfləri münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə həll edilməsi istiqamətindəki səylərini davam etdirməyə çağırırıq. Biz həmçinin tərəfləri



qarşılıqlı etibar və inamın möhkəmləndirilməsinə səbəb olacaq əlavə tədbirlərin nəzərdən keçirilməsinə çağırırıq.

Biz tərəflərin atəşkəsə olan və məsələnin sülh yolu ilə və hərtərəfli nizamlanması öhdəliklərini alqışlayırıq. Biz Ermənistan və Azərbaycan prezidentlərinin və onların şəxsi nümayəndələrinin davam edən görüşlərini xüsusilə alqışlayırıq. Biz tərəfləri həmsədrlərin fəal dəstəyi ilə ədalətli və möhkəm nizamlanmanın əldə edilməsinə yönəlmiş səylərini davam etdirməyə çağırırıq.

ƏLAVƏ

Azərbaycan Nümayəndə heyəti tərəfindən Helsinki məsləhətləşmələrinin Yekun tövsiyələrinin 79-cu Paraqrafına (Fəsil 6) müvafiq olaraq

İzahedici Bəyanat

ATƏT-in Nazirlər Şurasının 10-cu görüşünün indi qəbul edilmiş qərarı ilə əlaqədar mən Helsinki məsləhətləşmələrinin Yekun tövsiyələrinin Fəsil 6, 79-cu Paraqrafına müvafiq olaraq izahedici bəyanat vermək istərdim.

Azərbaycan Respublikası ATƏT-in aşağıdakı prinsiplərindən çıxış edərək Ermənistan və Azərbaycan arasında münaqişəyə dair bəyanat üzrə konsensusa qoşulmuşdur ki, bu prinsiplərə əsasən

"İştirakçı dövlətlər hər bir iştirakçı dövlətin ərazi bütövlüyünə hörmət edəcəklər.

Beləliklə, onlar istənilən iştirakçı dövlətin ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya birliyinə qarşı Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olmayan hər

hansı hərəkətdən və, xüsusilə hədə və ya gücdən istifadəni təşkil edən hər hansı belə hərəkətdən çəkinəcəklər.

İştirakçı dövlətlər eynilə bir-birinin ərazisini beynəlxalq hüquqa zidd olaraq hərbi işğal və ya digər birbaşa və ya dolayı yolla güc tədbirləri obyekti, yaxud belə tədbirlər və ya onlarla hədələmək vasitəsilə ələ keçirmək obyekti etməkdən çəkinəcəklər. Heç bir belə işğal və ya ələ keçirmə qanuni sayılmayacaq".

Azərbaycan tərəfi həmçinin vurğulamaq istərdi ki, xalqların öz müqəddəratını təyin etmək hüququ prinsipi Helsinki Yekun Aktının aşağıdakı prinsiplərinə müvafiq olaraq həyata keçiriləcək:

"İştirakçı dövlətlər, bütün zamanlarda Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsipləri və beynəlxalq hüququn müvafiq normalarına, o cümlədən dövlətlərin ərazi bütövlüyünə aid normalara uyğun hərəkət edərək xalqların bərabər hüquqlarına və onların öz müqəddəratını təyin etmək hüququna hörmət edəcəklər".

Bundan başqa, Azərbaycan Respublikası bildirir ki, Ermənistan və Azərbaycan arasında münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyünə tam hörmət edilməsi əsasında həll oluna bilər ki, bu da aşağıdakıları nəzərdə tutur:

– Ermənistan tərəfindən Dağlıq Qarabağ regionu onun ayrılmaz hissəsi olan Azərbaycanın ərazi bütövlüyünün birmənalı olaraq tanınması;

– erməni işğalçı qüvvələrinin Azərbaycanın bütün ərazilərindən, o cümlədən Dağlıq Qarabağ regionundan dərhal və qeyd-şərtsiz çıxarılması;

– zorla qovulmuş azərbaycanlı əhalinin öz torpaqlarına təhlükəsiz şəraitdə qayıtması üçün bütün əlverişli şərtlərin yaradılması.



Bundan əlavə, Azərbaycan Respublikası bildirir ki, Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan erməni icması üçün işlənib hazırlanacaq hər hansı özünüidarə statusu yalnız Azərbaycanın ərazi bütövlüyünə tam hörmət edilməsi əsasında mümkün olacaq.

Bu bəyanatı günün protokoluna əlavə etməyi xahiş edirəm.

**Azərbaycan Respublikasının nümayəndə heyəti**

---

*Əlavə III.2.11*

**ATƏT-in Nazirlər Şurasının 12-ci görüşü**
**Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar**
**B Ə Y A N A T**

*Sofiya, 6 dekabr 2004*

Biz 2004-cü ildə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı əldə edilmiş irəliləyişi, xüsusilə ATƏT-in Minsk Qrupu həmsədrlərinin himayəsi altında Ermənistan və Azərbaycan prezidentlərinin üç görüşünü müsbət qiymətləndiririk. Biz həmçinin, hər iki ölkənin Xarici işlər nazirlərinə məsələnin gələcək həll yolunun bütün parametlərini metodiki baxımdan yenidən nəzərdən keçirməyə imkan verən "Praqa prosesi" adlandırılan prosesin yaradılmasını alqışlayırıq.

Biz qeyd edirik ki, "Praqa prosesi"nin nəticələrinə əsaslanaraq ATƏT-in Minsk Qrupu həmsədrləri sentyabr ayında Astanada hər iki Prezidentə nizamlama prosesi üçün əsas ola biləcək çərçivəni təqdim etmişlər. Biz Ermənistan və Azərbaycan

Prezidentlərini həmin çərçivəni nəzərə almağa və ona əsasən irəli getməyə dəvət edirik. Biz tərəfləri Dağlıq Qarabağ münaqişəsini ATƏT-in Minsk Qrupu çərçivəsində tez bir zamanda həll etmək üçün öz səylərini ikiqat artırmağa çağırırıq.

---

*Əlavə III.2.12*

**ATƏT-in Nazirlər Şurasının 13-cü görüşü**
**ATƏT-in Minsk Qrupunun məşğul olduğu münaqişə üzrə**
**BƏYANAT**

*Lyublyana , 6 dekabr 2005-ci il*

Biz "Praqa prosesi" çərçivəsində 2005-ci il ərzində Dağlıq Qarabağa dair danışıqlardakı irəliləyişi, xüsusilə də Ermənistan və Azərbaycan Prezidentlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin himayəsi altında Varşava və Kazanda keçirilən iki görüşünü məmnuniyyətlə qeyd edirik.

Biz inanırıq ki, tərəflər hazırda danışıqlardan qərar qəbul etmə prosesinə keçməyə hazırdılar və bütün tərəflərin əldə edə biləcəyi ciddi səmərə artıq yaxındadır. Biz Ermənistan və Azərbaycan Prezidentlərini növbəti ildə ATƏT-in Minsk prosesi çərçivəsində münaqişənin həlli üzrə əhəmiyyətli nailiyyətlər əldə etmək üçün hazırkı ümidverici imkandan istifadə etməyə təşviq edirik.

---



*Əlavə III.2.13*

**ATƏT-in Nazirlər Şurasının 14-cü görüşü**
**Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar**
**BƏYANAT**

*Brüssel, 5 dekabr 2006-cı il*

ATƏT-in Minsk Qrupunun Həmsədrlərinin səyləri və ATƏT-in fəaliyyətdə olan Sədrinin dəstəyi ilə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi istiqamətində 2006-cı il ərzində aparılmış danışıqlar nəticəsində tərəflərin əsas prinsiplər üzrə razılığa gəlmələri üçün daha da yaxınlaşmaları bizi ruhlandırmışdır.

Biz Böyük Səkkizliyin (cari ilin) iyul ayında Sankt-Peterburq şəhərində keçirilmiş Sammitində Böyük Səkkizliyin liderləri tərəfindən bu səylərə ifadə edilmiş dəstəyi salamlayırıq.

Biz Ermənistan və Azərbaycan Prezidentlərinin bu əsas prinsiplər üzərində növbəti il ərzində mümkün qədər tez yekun razılığa gəlmələri üçün göstərdikləri səyləri daha da artırmalarını israr edirik.

Biz tərəfləri yanğınların yayıldığı ərazilərdə dayandırılması və onların fəsadlarının aradan qaldırılması məqsədi ilə beynəlxalq ictimaiyyətin köməyi ilə ekoloji əməliyyatın aparılması üçün əməkdaşlığın artırılmasına çağırırıq. Bu tədbirlərin aparılması tərəflər arasında inamın bərpa edilməsi üçün əhəmiyyətli addımlar ola bilər. ATƏT yardım göstərməyə hazırdır.

Biz eyni zamanda ATƏT-in Fəaliyyətdə olan Sədrinin Şəxsi Nümayəndəsi və onun regiondakı missiyasına, xüsusən də onların Ekoloji Dəyərləndirmə Missiyası və atəşkəsin davam etməkdə olan monitorinq fəaliyyətinə dəyişməz dəstəyimizi ifadə

edirik. Biz təəssüf edirik ki, vaxtaşırı olaraq cəbhə xətti boyunca insanların həyatının itirilməsi ilə nəticələnən insidentlər davam edir və hər iki tərəfi atəşkəsə sayıqlıqla riayət etməyə çağırırıq.

---

*Əlavə III.2.14*

**ATƏT-in Nazirlər Şurasının 15-ci görüşü Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar BƏYANAT**

*Madrid, 29 noyabr 2007-ci il*

Biz qarşıdan gələn seçki ilində Ermənistan və Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə hazırkı danışıqları davam etdirməyə razılaşmasını məmnuniyyətlə qeyd edirik.

Biz ATƏT-in Minsk qrupu Həmsədrlərinin vasitəçilik səylərini və onların tərəflərlə birgə münaqişənin sülh yolu ilə həlli üçün əsas prinsipləri müəyyənləşdirməsini dəstəkləyirik. Biz hər iki tərəfi son qalan müxtəliflikləri aşmağa və bununla da münaqişənin həllinin ümumi konsepsiyasını təsdiqləməyə və bu əsasda hərtərəfli Sülh Sazişini hazırlamağa təşviq edirik.

---



*Əlavə III.2.15*

**ATƏT-in Nazirlər Şurasının 16-cı görüşü Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar BƏYANAT**

*Helsinki, 5 dekabr 2008-ci il*

Biz Ermənistan və Azərbaycan Prezidentlərinin iyunun 6-sı San-Peterburqda və xüsusilə noyabrın 2-də Moskvada 2008-ci ildə baş tutan iki görüşündən sonra Dağlıq Qarabağ münaqişəsinin siyasi həlli üzrə sülh prosesindəki konstruktiv və müsbət məqamı alqışlayırıq. Ermənistan, Azərbaycan və Rusiya Prezidentləri tərəfindən imzalanmış Moskva Bəyannaməsi münaqişənin həlli prosesində ümidverici fazanın başlanğıcı olmuşdur.

Biz Minsk Qrupu Həmsədrləri ilə birlikdə 2007-ci il noyabrın 29-da Madriddə təklif olumuş Əsas Prinsiplərin hazırlanmasının davam etdirilməsi və daha sonra hərtərəfli Sülh Sazişinin hazırlanmasına başlanması üçün tərəflərin Moskva Bəyannaməsinin müddəalarına uyğun olaraq danışıqlar prosesini intensivləşdirmək cəhdlərini tam təşviq edirik. Biz onların etimad quruculuğu tədbirlərini inkişaf etdirmək və atəşkəsi gücləndirmək niyyətlərini yüksək qiymətləndiririk.

---

*Əlavə III.2.16*

**ATƏT-in Nazirlər Şurasının 17-ci görüşü**
**Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar**
**BƏYANAT**

*Afina, 1 dekabr 2009-cu il*

Biz Minsk qrupu Həmsədr ölkələrinin Xarici işlər naziri Lavrov, Xarici işlər naziri Kuşner və Dövlət Katibinin müavini Ştaynberq və Azərbaycanın Xarici işlər naziri Məmmədyarov və Ermənistanın Xarici işlər naziri Nalbandyanın birgə bəyanatını alqışlayırıq.

Biz tərəfləri danışıqların pozitiv dinamikasını saxlamağa çağırır və hərtərəfli sülh sazişinin layihəsinin hazırlanmasına vicdanla və təxirə salmadan başlamaq üçün Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə Madrid Sənədinə əsaslanan Əsas Prinsipləri tamamlamaq üzrə öhdəliklərini tam dəstəkləyirik.

Nazirlər qalan məsələləri həll etmək və Helsinki Yekun Aktının güc tətbiq edilməməsi və ya güclə hədələməmək, ərazi bütövlüyü, bərabər hüquqlar və xalqların öz müqəddəratını həll etməsi prinsiplərinə əsaslanan sazişə nail olmaq üçün daha intensiv işləmək üzrə öhdəliklərini bir daha təsdiq etmişlər.Biz əminik ki, bütün regionda gələcək sülh, sabitlik və çiçəklənmə üçün bu gün real imkan var.



## III.3. Avropa Şurasının sənədləri

*Əlavə III.3.1*

**Avropa Şurası**
**Nazirlər Komitəsi**
**Dağlıq Qarabağa dair**
**BƏYANAT ***

Nazirlər Komitəsi, insanların fərq qoyulmadan qətlə yetirilməsi və zorakılıq aktları haqqında son məlumatlardan dərindən narahat olaraq Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində mülki əhaliyə qarşı zorakılıq və hücumları kəskin şəkildə pisləyir. O qeyd edir ki, məsələnin güc vasitəsilə həlli beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilə bilməz.

Nazirlər Komitəsi fevralın 28-də Praqada ATƏM iştirakçı dövlətlərinin dərhal və effektli atəşkəs, regiona silahların daşınmasına embarqo qoyulması və humanitar yardımın göndərilməsi üçün təhlükəsiz dəhlizlərin yaradılmasına dair tövsiyələrini dəstəkləyir. O bir daha qeyd edir ki, Dağlıq Qarabağda böhranın istənilən həlli qanunun aliliyinə, demokratiya, insan hüquqları və azlıqların üzvlərinin hüquqlarına dair təminatlara və yalnız sülh yolu və ümumi razılıqla dəyişilə bilən bütün, istər daxili, istərsə də xarici sərhədlərin pozulmamağına hörmət edilməsinə əsaslanmalıdır.

Nazirlər Komitəsi Beynəlxalq Qırmızı Xaç Komitəsinin mübahisəyə kömək etməsinə dair münaqişə tərəflərinin razılığını alqışlayır və ümid edir ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər qeyri-hökumət təşkilatları bu mübahisənin qurbanlarına humanitar yardımın verilməsində aparıcı rol oynayacaqlar.

Nazirlər Komitəsi mübahisənin sülh yolu ilə həllinin əldə edilməsi üçün bütün vasitəçilik səylərini dəstəkləyir. Effektiv

atəşkəsə nail olunduqda, mübahisə bütün maraqlı tərəflər, o cümlədən Dağlıq Qarabağın yerli idarəetmə orqanları və nümayəndələri arasında danışıq vasitəsilə həll edilməlidir. Danışıqlar ATƏM çərçivəsində qəbul olunmuş Helsinki Yekun Aktı və Paris Xartiyasının hərf və ruhuna və xüsusilə mübahisələrin sülh yolu ilə tənzimlənməsi öhdəliyinə hörmət prinsipinə əsaslanmalıdır.

------------------

* Nazirlər Komitəsi tərəfindən 11 mart 1992-ci ildə Nazir müavinlərinin 471-ci iclasında qəbul edilmişdir.

---

*Əlavə III.3.2*

**Avropa Şurası**
**Nazirlər Komitəsi**
**Dağlıq Qarabağ münaqişəsinin**
**gərginləşməsinə dair**
**BƏYANAT ***

Nazirlər Komitəsi Dağlıq Qarabağ münaqişəsinin gərginləşməsi və xüsusilə döyüş ərazisinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna qədər genişlənməsi ilə əlaqədar ciddi narahatdır. Nazirlər Komitəsi BMT Təhlükəsizlik Şurası Sədrinin bütün hərbi əməliyyatların dərhal dayandırılması tələbini dəstəkləyir və regionun sülh və təhlükəsizliyinə təhlükə yaradan bütün qüvvələrin çıxarılmasına çağırır.

Münaqişənin uzunmüddətli həllinin yalnız beynəlxalq hüquq və Avropa Şurası və ATƏM-in prinsip və öhdəliklərinə hörmət, xüsusilə sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü,



azlıqların müdafiəsi və insan hüquqları və əsas azadlıqlarına hörmət edilməsi vasitəsilə əldə oluna biləcəyinə əmin olan Nazirlər Komitəsi:

– döyüş ərazisinin Azərbaycanın Kəlbəcər rayonunadək genişlənməsinin bütün regionun demokratik gələcəyi və sabitliyinə təhdid yaradacağı ilə əlaqədar artan təhlükəyə dair ciddi narahatçılığını ifadə edir;

– bu vəziyyətin ATƏM çərçivəsində siyasi danışıqlar prosesinə təhlükə olması faktına təəssüflənir;

– güc vasitəsilə həllin beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilə bilməyəcəyini bəyan edir;

– həmçinin mülki əhalinin əzablarını yüngülləşdirmək məqsədilə regiona və xüsusilə münaqişənin təsir etdiyi bütün ərazilərə beynəlxalq humanitar yardım səylərinin maneəsiz buraxılmasına çağırır;

– münaqişə tərəflərindən sülh yolu ilə tənzimlənməyə daha artıq təhlükə yaradacaq hər hansı hərəkətdən çəkinməyi təkidlə tələb edir;

– hərbi əməliyyatlara son qoyulmasının yeganə yolunun gücdən istifadə etməkdən imtina etməklə yanaşı, ATƏM-in Minsk qrupu çərçivəsində danışıqların vicdanla aparılması olduğunu qeyd edir.

------------------

* Nazirlər Komitəsi tərəfindən 15 aprel 1993-cü il tarixində Nazir müavinlərinin 492-ci iclasında qəbul edilmişdir.

---

*Əlavə III.3.3*

**Avropa Şurası**
**Parlament Assambleyası**
**Dağlıq Qarabağ münaqişəsinə dair**
**TÖVSİYƏ 1251 (1994) ***

1. Assambleya qeyd edir ki, Dağlıq Qarabağ münaqişəsi 1988-ci ildə başlamış və artıq təxminən 20 000 insanın ölməsi və bir milyondan artıq qaçqının olması ilə nəticələnmişdir.

2. Onun Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitəsi 1992-ci ildən etibarən Ermənistan və Azərbaycanın Parlamentləri, "Dağlıq Qarabağın rəhbərliyi" və "Dağlıq Qarabağın maraqlı Azərbaycan tərəfi"nin nümayəndələrinin qatıldığı dinləmələr silsiləsini təşkil etmişdir.

3. Assambleya razılıqla qeyd edir ki, 1994-cü il mayın 12-də qüvvəyə minmiş atəşkəsə nisbətən yaxşı riayət olunmuşdur və ümid edir ki, o, mümkün qədər tezliklə bütün maraqlı tərəflərin imzaladığı sülh sazişi ilə nəticələnəcək.

4. O, müharibə edən tərəflərin sülh sazişini imzalamağa həvəsləndirmək üçün ATƏM-in Minsk Qrupu, BMT Təhlükəsizlik Şurası, Rusiya Federasiyasının Hökuməti və MDB Parlamentlərarası Assambleyasının səylərini, həmçinin 26 iyul 1994-cü ildə Ermənistan və Azərbaycanın Müdafiə nazirləri və Dağlıq Qarabağ ordusunun komandiri tərəfindən imzalanmış, atəşkəsə riayət etmək öhdəliklərini və siyasi sazişin imzalanmasını sürətləndirmək səylərini təsdiq etdikləri sazişi alqışlayır.

5. Assambleya, beləliklə, tövsiyə edir ki, Nazirlər Komitəsi:

a. Avropa Şurasının üzv dövlətlərinin hökumətlərini ATƏM-in Minsk Qrupunun öz məqsədlərinə, xüsusilə müharibə zonasında beynəlxalq müşahidəçilərin yerləşdirilməsinə nail olması üçün lazımi vasitələri ona təqdim etməyə çağırsın;

b. Ermənistan və Azərbaycanın rəhbərliyi ilə siyasi dialoqu bərpa etsin;

c. şərtlər yerinə yetirilən kimi öz əməkdaşlıq proqramlarını Ermənistan və Azərbaycanın üzünə açsın və əgər bu tərəflər istəsələr, Dağlıq Qarabağ üçün siyasi statusu müəyyən etməyə kömək edə biləcək ekspertləri onların öhdəliyinə təqdim etsin.

-----------------

* Mətn Assambleyanın adından fəaliyyət göstərən Daimi Komitə tərəfindən 1994-cü ilin noyabrın 10-da qəbul edilmişdir. Bax: Sənəd 7182, Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitənin məruzəsi, məruzəçilər: cənab Pfuhl və cənab Sole Tura.

---

*Əlavə III.3.4*

**Avropa Şurası**
**Parlament Assambleyası**
**Dağlıq Qarabağ münaqişəsinə dair**
**QƏTNAMƏ 1047 (1994) ***

1. Assambleya razılıqla qeyd edir ki, 1994-cü ilin mayın 12-də qüvvəyə minmiş Dağlıq Qarabağda atəşkəsə nisbətən yaxşı riayət olunmuşdur və ümid edir ki, o, mümkün qədər tezliklə müharibə edən tərəflər arasında sülh sazişi ilə nəticələnəcək.

2. 1988-ci ildə başlamış bu münaqişə artıq 20 min insanın ölümü və bir milyondan çox qaçqınların olması ilə nəticələnmişdir.

3. Assambleya müharibə tərəflərini sülh sazişinin imzalanmasına həvəsləndirmək üçün ATƏM-in Minsk qrupu, Rusiya Federasiyası hökuməti, BMT Təhlükəsizlik Şurası, MDB Parlamentlərarası Assambleya və özünün Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitəsinin səylərini razılıqla qeyd edir.

4. O, Ermənistan və Azərbaycanın Müdafiə nazirləri və Dağlıq Qarabağ ordusunun komandanı tərəfindən 26 iyul 1994-cü ildə imzalanmış, atəşkəsə riayət etmək öhdəliklərini və siyasi sazişin imzalanmasını sürətləndirmək səylərini təsdiq etdikləri sazişi alqışlayır və bütün müharibə tərəflərini 12 may 1994-cü ildən qüvvədə olan qeyri-sabit atəşkəsə təhlükə yarada biləcək hər hansı düşmənçilik hərəkətindən çəkinməyə təkidlə çağırır.

5. O, *sülh sazişinin imzalanmasına bütün imkanları* çərçivəsində, xüsusilə maraqlı tərəflərin parlament nümayəndələri arasında dialoqun həvəsləndirilməsi yolu ilə, yardım etmək üçün hazır olduğunu bəyan edir.

6. Nəhayət, o, müharibə tərəflərini qaçqınların təcili əsasda evlərinə qayıtmasını təşkil etməyə və onun 1201 saylı Tövsiyəsində dəstəkləndiyi kimi azlıqların hüquqlarına hörmət etməyə çağırır və Azərbaycan və Türkiyəni onların Ermənistanla olan kommunikasiya vasitələrinin blokadasına dərhal son qoymağa təkidlə çağırır.

------------------

* Mətn Assambleyanın adından fəaliyyət göstərən Daimi Komitə tərəfindən 1994-cü il noyabrın 10-da qəbul edilmişdir.



Bax: Sənəd 7182, Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitənin məruzəsi, məruzəçilər: cənab Pfuhl və cənab Sole Tura

---

*Əlavə III.3.5*

**Avropa Şurası**
**Parlament Assambleyası**
**Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair**
**TÖVSİYƏ 1263 (1995)**

*Strasburq, 15 mart 1995-ci il*

1. Assambleya, Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair 1059 saylı (1995) Qətnaməsinə istinad edərək tövsiyə edir ki, Nazirlər Komitəsi:

I. Dağlıq Qarabağa görə amansız münaqişənin qurbanlarına və xüsusilə öz evlərindən qovulmuş şəxslərə beynəlxalq yardımın tamamilə qənaətbəxş olmamağından irəli gələn gərgin vəziyyəti təcili şəkildə nəzərdən keçirsin;

II. Avropa Şurasının genişlənməsinə dair 1247 saylı (1994) Qətnaməsindən sonra Avropa Şurasının Sosial İnkişaf Fondu və onun üzv dövlətlərini özünün fövqəladə hallar üçün nəzərdə tutulmuş hesabı vasitəsilə, Birləşmiş Millətlər Təşkilatı və cəlb olunmuş digər beynəlxalq təsisatlarla mümkün əlaqədə Ermənistan, Azərbaycan və Gürcüstanda qaçqın və məcburi

köçkünlərə fondun maliyyələşdirməsindən yararlanmaq imkanı verməyə dəvət etsin;

III. Bütün üzv dövlətlərin hökumətlərini:

a. Birləşmiş Millətlər Təşkilatının agentlikləri, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyası və qeyri-hökumət təşkilatları vasitəsilə edilən beynəlxalq yardıma Qafqazda qarşıdan gələn bir çox illər üçün ehtiyac duyulduğunu təsdiq etməyə və bunun nəticəsində onların gələcək müraciətlərinə səxavətlə cavab verməyə;

b. Qarabağ və onun ətrafındakı ərazinin minalardan təmizlənməsi üçün tələb olunan mütəxəssis və işçi qüvvəsini təklif etməyə;

c. Fələstində BMT-nin qaçqınlara yardım və işlər Agentliyinə (UNRWA) müvafiq Qafqaz üçün birləşmiş BMT agentliyinin yaradılması və Tbilisidə regional qərargahın və ya oxşar əlaqələndirmə mexanizminin təsis edilməsini nəzərdən keçirməyə;

d. xüsusilə insan hüquqları, parlament demokratiyasının tətbiq olunması və müvafiq olan zaman azlıqların hüquqlarının və mədəni xüsusiyyətlərinin müdafiəsi sahələrində Avropa Şurasının yardım, mütəxəssis və əməkdaşlıq təkliflərini təsdiq etməklə Ermənistan, Azərbaycan və Gürcüstanın hakimiyyətləri ilə siyasi dialoq təsis etməyə dəvət etsin.

---



*Əlavə III.3.6*

**Avropa Şurası Parlament Assambleyası**
**Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair**
**QƏTNAMƏ 1059 (1995) ***

*Strasburq, 15 mart 1995-ci il*

1. Assambleya 1988-ci ildə başlayan Dağlıq Qarabağ münaqişəsinin Ermənistan və Azərbaycanda ifadə edilə bilməyən insan əzabları, minlərlə həlak olanlar, on minlərlə yaralı və bir milyondan artıq qaçqın və məcburi köçkünlərlə nəticələndiyindən təəssüflənir.

2. Son rəqəm hədələr, törədilmiş vəhşiliklərə dair məruzələr və 1991-ci ildən öncə Sovet hakimiyyətinin əmrlərindən sonra öz evlərini tərk etməyə məcbur edilən yüz minlərlə insanı əhatə edir.

3. Ermənistan və Azərbaycanın 1991-ci ildə müstəqilliklərini elan etmələrindən sonra onların iqtisadiyyatları ciddi şəkildə tənəzzül etmişdir. Vəziyyət münaqişənin və qonşu ölkələrin tətbiq etdikləri iqtisadi blokadanın təsiri ilə pisləşmişdir.

4. Nəticədə, hər iki ölkənin əhalisi həyat səviyyəsinin ciddi şəkildə aşağı düşməsinə məruz qalmışdır və artmaqda olan çətinliklərlə, o cümlədən, yüksələn işsizlik və kəskin su, yanacaq və enerji qıtlığı ilə üzləşir. Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə, hər iki ölkədə bir milyondan artıq insan hazırda yoxsulluq səviyyəsindən aşağı yaşayır.

5. Əsasən qaçqınlar və xüsusilə Azərbaycanda tələblərə cavab verməyən çadırlarda yaşayanlar əsas istilik, qida və tibbi yardım qıtlığının olmasından kəskin çətinliklərlə üzləşirlər.

6. Birləşmiş Millətlər Təşkilatının yardım proqramları hər iki ölkədə 1992-ci ilin dekabrından təsis edilmişdir. Lakin onların maliyyələşdirilməsi vəziyyətin ehtiyaclarını təmin etməkdə yetərli deyil.

7. Bundan əlavə, BMT agentlikləri bazar iqtisadiyyatına keçid, mərkəzsizləşdirmə və səhiyyə və təhsil proqramları üçün məlumatlarla təminata dair hər iki hökumətə məsləhətlər verir və yardım göstərir. Buna baxmayaraq, aidiyyatı ölkələrdə, o cümlədən, Gürcüstandakı ayrı-ayrı qərargahlardan hazırda idarə olunan bu xidmətlər əməkdaşlıq yolunda müəyyən maneələrlə çətinləşmişdir və onların təqdim edilməsi təcrübə, idarəetmə və vəsaitlərin uzun müddətə ən effektiv şəkildə hərəkətə gətirilməsini əks etdirməyə bilər.

8. Assambleya 12 may 1994-cü ildə qüvvəyə minmiş atəşkəsi alqışlayan, bütün tərəfləri buna ziyan vura biləcək hər hansı düşmənçilik aktından çəkinməyə çağıran və xüsusilə maraqlı tərəflərin parlament nümayəndələri arasında dialoqu həvəsləndirməklə sülh sazişinin imzalanmasına bütün qüvvəsi ilə yardımını təklif edən 1251 saylı (1994) Qətnaməsini yada salır.

9. Assambleya müharibə edən tərəflərə geri qayıtmaq arzusunda olan qaçqınların, başqa yerdə məskunlaşmaq istəyənlərə kompensasiya vermək şərti ilə, öz evlərinə mümkün qədər erkən qayıtmasını təşkil etmək; azlıqların hüquqlarına hörmət etmək; və onlar arasında olan bütün nəqliyyat və rabitə vasitələri üzərində blokadaya və Rusiya və Türkiyənin tətbiq etdikləri blokadaya dərhal son qoymaq çağırışlarını təkrar qeyd edir.

10. Assambleya təkid edir ki:

a. Ermənistan, Azərbaycan və Gürcüstan hökumətləri təcili yardım və səhiyyə, təhsil, bərpa və inkişafa dair uzunmüddətli



proqramların təqdim edilməsində BMT agentlikləri və qeyri-hökumət təşkilatları ilə geniş əməkdaşlıq etsin;

b. Gürcüstan hökuməti BMT-nin yardımı ilə Məshəti türklərinin geri qayıtması və məskunlaşdırılmasını qəbul etsin və BMT-ni bu zəif qrupun vəziyyətinə xüsusi diqqət yetirməyə çağırır;

c. Avropa İttifaqı özünün Humanitar İdarəsi vasitəsilə, Cənubi Qafqaz əhalisinin zəif təbəqələrinə yardımını artırsın.

11. Nəhayət, Assambleya Qafqazda sülhün yenidən bərpasına yardım etmək və humanitar vəziyyəti yaxşılaşdırmaq üçün daha geniş beynəlxalq səylərin göstərilməsinə çağırır və bu məqsədlə üzv dövlətlərin hökumət və parlamentlərini yetmiş illik təcriddən çıxmaqda olan bu regiona öz yardım, təcrübə və əməkdaşlıq təkliflərini etməyə təşviq edir.

-----------------------

* Mətn Assambleyanın adından fəaliyyət göstərən Daimi Komitə tərəfindən 15 mart 1995-ci ildə qəbul edilmişdir. Bax: Sənəd 7250, Miqrasiya, Qaçqınlar və Demoqrafiya üzrə Komitənin məruzəsi, məruzəçi: cənab Atkinson; və Sənəd 7266, Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitəsinin rəyi, məruzəçi: cənab Jeszenszki.

*Əlavə III.3.7*

**Avropa Şurası**
**Parlament Assambleyası**
**Zaqafqaziyada münaqişələrə dair**
**QƏTNAMƏ 1119 (1997) ***

*Strasburq, 22 aprel 1997-ci il*

1. Assambleya hesab edir ki, Zaqafqaziya münaqişələrində, xüsusilə Abxaziya və Dağlıq Qarabağda 1994-cü ilin mayından etibarən atəşkəsin qüvvədə saxlanılması gərginlik zonalarında siyasi sabitliyin yaradılmasına kömək etməlidir.

2. Avropanın qeyri-üzv ölkələri ilə Əlaqələr üzrə Komitəsinin keçirdiyi müxtəlif dinləmələrdən sonra o ümid edir ki, bu münaqişələrin siyasi həlli istiqamətində sürətli, həlledici irəliləyiş əldə ediləcək.

3. Hər üç Zaqafqaziya ölkəsi – Ermənistan, Azərbaycan və Gürcüstan – xüsusi qonaq statusuna malikdirlər və Avropa Şurasının tam üzvlüyü üçün müraciət etmiş Assambleya hesab edir ki, bütün tərəflərin bu münaqişələri həll etmək üçün həqiqi siyasi iradəsi qəbul proseduralarını sürətləndirməyə kömək edəcək.

4. Assambleya bu münaqişələrə bilavasitə və ya dolayı yolla cəlb olunmuş bütün tərəfləri, xüsusilə Birləşmiş Millətlər Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının həyata keçirdiyi vasitəçilik işində konstruktiv şəkildə iştirak etməyə çağırır.

5. Bu iki münaqişənin xarakterinə görə fərqli olmasına baxmayaraq, Assambleya vurğulayır ki, cəlb olunan bütün tərəflər onların siyasi həllinə dair danışıqları, xüsusilə 1975-ci il Helsinki



Yekun Aktı və 1990-cı il Paris Xartiyasına əsaslanan aşağıdakı prinsiplər üzərində aparmalıdırlar:

a. sərhədlərin pozulmazlığı;

b. aidiyyatı ərazilərdə bütün xalqların, xüsusilə çoxmillətli sülhməramlı qüvvələr vasitəsilə təmin olunmuş təhlükəsizliyi;

c. Abxaziya və Dağlıq Qarabağ üçün bütün maraqlı tərəflərin razılaşdırdığı geniş muxtariyyət statusu;

d. qaçqın və məcburi köçkünlərin geri dönmək hüququ və insan hüquqlarına hörmət kimi onların vətəndaşlığının bərpa olunması.

6. Assambleya hesab edir ki, Zaqafqaziya ölkələrində qanunun aliliyi, plüralist demokratiya, insan hüquqlarının müdafiəsi və ictimai bazar iqtisadiyyatının yaradılmasında Avropa Şurası həqiqi töhfə verməlidir.

A. Abxaziya ilə əlaqədar,

7. Assambleya Tbilisi və Suxuminin mövqeləri arasında xoş münasibətlərin bərpa olunmasının müəyyən əlamətlərini qeyd etməkdə maraqlıdır və ümid edir ki, yuxarıda qeyd olunmuş prinsiplər əsasında məsələnin danışıqlar vasitəsilə əldə olunmuş siyasi həllinə tezliklə nail olunacaq.

8. O ümid edir ki, maraqlı tərəflər, həmçinin Birləşmiş Millətlər Təşkilatı, ATƏT və Rusiya Federasiyasının səyləri tezliklə Tbilisi və Suxumi üçün əlverişli təsisatı balansın yaradılmasına aparacaq ki, qaçqınlar yüksək təhlükəsiz şəraitdə geri dönə və region əhalisi sülh və iqtisadi çiçəklənməyə qayıda bilsin.

B. Dağlıq Qarabağa münasibətdə,

9. Assambleya Ermənistan və Azərbaycan parlament nümayəndələri arasında, xüsusilə onun Avropanın qeyri-üzv ölkələri ilə Əlaqələr üzrə Komitəsinin 26 yanvar 1997-ci ildə təşkil etdiyi Zaqafqaziyada münaqişələrə dair seminarının bir hissəsi kimi

davam edən dialoqu və bununla əlaqədar münaqişənin erkən həllinin təmin edilməsi məqsədilə danışıqları davam etdirməyə həvəsləndirən Dağlıq Qarabağ üzrə ATƏT-in Minsk Qrupunun fəaliyyətinin bərpa edilməsini alqışlayır.

10. O işğal edilmiş ərazilərin qaytarılması və qaçqın və köçkünlərin geri dönməsi, Dağlıq Qarabağın əlverişli alternativ statusu, həmçinin onun təhlükəsizliyinə təminat verən münaqişənin siyasi həllinə nail olmaq məqsədilə bütün münaqişə tərəflərini birbaşa danışıqları gücləndirməyə çağırır.

11. Nəhayət o, üç Zaqafqaziya ölkəsi – Ermənistan, Azərbaycan və Gürcüstanın – nəticə etibarı ilə, Zaqafqaziya dövlətləri birliyinin yaradılması və birgə parlament assambleyasının təsis edilməsini nəzərdən keçirəcəyinə dair arzusunu ifadə edir.

----------------------

* 22 aprel 1997-ci ildə Assambleyanın müzakirəsi (10 və 11-ci iclas) (bax: Sənəd 7793, Avropanın Qeyri-üzv Ölkələri ilə Əlaqələr üzrə Komitənin məruzəsi, məruzəçi: cənab Sietlinger).

Qətnamənin mətni 22 aprel 1997-ci ildə Assambleya tərəfindən qəbul edilmişdir (11-ci iclas).

---



*Əlavə III.3.8*

**Avropa Şurası**
**Nazirlər Komitəsi**
**KOMMÜNİKE***

Nazirlər Komitəsi İtaliyanın Xarici işlər naziri cənab Lamberto Dininin sədrliyi ilə 2000-ci il noyabrın 9-da Strasburqda 107-ci iclasını keçirdi.

Baş Katibin dəvəti ilə iclasdan öncə 2000-ci ilin noyabrın 8-də qeyri-rəsmi görüş keçirilmişdir.

Nazirlərin 9 noyabrda rəsmi görüşü Prezident Kaştunitsa ilə onun ölkəsində müsbət inkişafa dair fikir mübadiləsi ilə açıldı.

Fikir mübadiləsi Cənub-Şərqi Avropa, o cümlədən, Moldova və Qafqazda demokratik sabitliyin gücləndirilməsində Avropa Şurasının töhfəsinə dair müzakirələrlə davam etdirilmişdir.

Cənubi Qafqazın namizəd dövlətlərinə gəlincə isə hər iki ölkənin Avropa Şurasının tələb olunan standartlarının yerinə yetirilməsinə, o cümlədən Azərbaycanda 5 noyabr 2000-ci ildə keçirilən seçkilərə münasibətdə Nazirlər müəyyən narahatlıqla vəziyyəti nəzərə aldılar. Nazirlər Təşkilata daxil olmaq üçün Ermənistan və Azərbaycanı eyni vaxtda dəvət etməyi qərara aldılar (və bu ölkələrin Xarici işlər nazirlərinin bəyanatlarını razılıqla nəzərə aldılar) və bəyan etdilər ki, iki Dövlətin qəbul tarixi 2001-ci ilin yanvarında Nazir müavinlərinin görüşündə nəzərdən keçiriləcək. Onlar qeyd etdilər ki, Ermənistan və Azərbaycan öz demokratik təsisatlarını, insan hüquqlarına hörməti və qanunun aliliyini gücləndirməyi davam etdirməlidirlər. Nazirlər Avropa Şurasının bu məqsədlə əməkdaşlıq etməyə hazır olduğunu təkrarladılar. Onlar, həmçinin, Dağlıq Qarabağ münaqişəsinin

həllində təxirə salınmadan real nəticələr əldə etməyi Ermənistan və Azərbaycandan təkidlə tələb etdilər.

---------------------

* "Avropa Şurası Cənub-Şərqi Avropa və Qafqaza dair fəaliyyətini artırır" (9 noyabr 2000-ci il tarixində Nazirlər Komitəsinin 107-ci iclasında qəbul edilmişdir).

---

*Əlavə III.3.9*

## Ermənistanda və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar haqqında*

*Strasburq, 25 aprel 2001-ci il*

1. 1988-ci ildə başlanmış və sonralar Ermənistanın Azərbaycana qarşı hərbi müdaxiləsinə çevrilmiş Dağlıq Qarabağ münaqişəsi respublikamızın ərazisinin təxminən 20 faizinin işğalı ilə nəticələnmişdir.

2. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin 2001-ci il 10 aprel tarixli məlumatına əsasən, işğal nəticəsində 4959 nəfər itkin düşmüş, onlardan 1092 nəfəri 1992-2001-ci illər ərzində azad edilmişdir. Həmin məlumatda göstərildiyi kimi, onlardan 176 nəfəri xəstədir.

3. İndi Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazisində 783 nəfər əsir saxlanılır, onlardan 18-i uşaq, 43-ü qadın, 56 nəfəri qocadır. Ancaq Ermənistan tərəfi bu faktı inkar edir.

4. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin verdiyi məlumata görə, bu təşkilat altı aydan artıqdır ki, həmin əsirlərlə görüşə bilmir.



5. Azərbaycan və Ermənistanın Avropa Şurasının tamhüquqlu üzvü olmasından artıq üç ay keçir. Belə bir nüfuzlu təşkilatın üzvü olan ölkənin ərazisində hətta adi insan hüquqları qorunmayan bu qədər əsirin olması qəbuledilməzdir.

6. Azad edilmiş əsirlərin dediyinə görə, əsirlikdə olanlar qul kimi işlədilir, daim təhqir olunur və işgəncələrə məruz qalırlar. Onlar normal qidalanmır, lazımi tibbi yardım almırlar.

7. Assambleya Nazirlər Komitəsinə müraciət edərək Avropa Şurasının üzvü olan bir dövlətin – Ermənistanın işğal etdiyi Azərbaycan ərazisində insan hüquqlarına dair Avropa Konvensiyasının həyata keçirilməsini bütün imkanlardan istifadə etməklə təmin etməyə çağırır.

8. Assambleya Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsinə müraciət edərək problemin tezliklə həll olunması ilə bağlı xüsusi məruzə hazırlamasını xahiş edir.

---------------------

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9063

---

*Əlavə III.3.10*

## Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasətinin tanınması haqqında yazılı bəyannamə*

*Strasburq, 26 aprel 2001- ci il*

Azərbaycan torpaqlarının Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə parçalanmasından başlanan soyqırım Azərbaycan tarixinin tərkib hissəsidir.

Ermənilər "Böyük Ermənistan" yaratmaq iddiası ilə 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirdilər.

1918-ci ilin martında ermənilər Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və başqa ərazilərdə azərbaycanlılara qarşı qətliam törətdilər.

Sovet rejiminin köməyi ilə Ermənistan 1920-ci ildə Zəngəzuru və başqa Azərbaycan torpaqlarını öz ərazisinə birləşdirdi.

1948-1953-cü illərdə kommunist rejimi azərbaycanlıları onların Ermənistandakı tarixi torpaqlarından Azərbaycana deportasiya etdi.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsi başlanandan sonra yüz minlərlə azərbaycanlı yenidən öz tarixi torpaqlarından deportasiya edildi.

1992-ci il fevral ayının 26-da Xocalı əhalisi ermənilər tərəfindən bütünlüklə məhv edildi, şəhər xarabazara çevrildi.

Dağlıq Qarabağdakı erməni separatizmi və Azərbaycan torpaqlarının 20 faizinin işğalı nəticəsində minlərlə insan məhv oldu, bir milyondan artıq əhali evindən-eşiyindən didərgin düşdü.

Biz, Parlament Assambleyasının bütün digər üzvlərinə müraciət edərək XIX əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımını tanımaq üçün zəruri addımlar atmağı xahiş edirik.

----------------------

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9066



*Əlavə III.3.11*

**Azərbaycanın mədəni irsinin zəbt edilməsi və dağıdılması***

*Strasburq, 27 iyun 2001-ci il*

Azərbaycan Respublikasına qarşı erməni təcavüzünün faciəvi nəticələrindən biri də odur ki, Azərbaycan torpaqlarının 20 faizini işğal etməkdən əlavə, ermənilər ölkənin zəbt olunmuş bölgələrində Azərbaycanın milli- mənəvi irsini məhv edirlər. Bir çox beynəlxalq təşkilatların müraciətinə baxmayaraq, Ermənistan işğal olunmuş bölgələrdə Azərbaycanın mədəni sərvətlərinin təhlükəsizliyi üçün heç bir konstruktiv addım atmamışdır.

İşğal olunmuş ərazidə 500 tarixi-memarlıq və 100-dən çox memarlıq abidəsi, 22 muzey, 4 şəkil qalereyası, 927 kitabxana, 85 musiqi məktəbi, 4 dövlət teatrı qalmışdır.

İşğal nəticəsində tunc dövrünə aid nadir abidələr – 100-dən çox Xocalı kurqanı yerlə-yeksan edilmişdir. Parlament Assambleyası belə xəbəri təşviş hissi ilə qarşılamışdır ki, insan sivilizasiyasının qədim məskənlərindən biri olan Azıx mağarası silah anbarı kimi istifadə olunur.

Azərbaycanın ədəbiyyat və incəsənət nümunələrinin ermənilər tərəfindən təhqirə məruz qalması Azərbaycan xalqını ciddi narahat edir.

Uzun əsrlər boyu yaradılmış mədəni irsin yalnız bir xalqa və ya ölkəyə mənsub olmadığını, dünya mədəniyyətinin bir parçası olduğunu nəzərə alaraq Parlament Assambleyası Avropa Şurasının Nazirlər Komitəsinə müraciət edir,

Azərbaycanın mədəni irsinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almağa çağırır.

----------------------

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9147

*Əlavə III.3.12*

**Azərbaycan Respublikasında ekoloji vəziyyət (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl)***

*Strasburq, 27 iyun 2001-ci il*

Müasir dünyada ekoloji problemlərin ümumbəşəri əhəmiyyətini nəzərə alaraq Avropa Şurası Azərbaycan Respublikasının ərazisində (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) yaranmış ekoloji vəziyyətlə əlaqədar dərin təşviş hissi keçirir.

Azərbaycanın həmin ərazisində iki milli qoruq (Qarabağ və Bəsitçay) və dörd müvəqqəti qoruq (Laçın, Qubadlı, Arazətrafı, Cəbrayıl) var. Nadir təbii relyefi, zəngin fauna və florası ilə tanınan həmin milli qoruqlar nəzarətdən kənarda qaldığına görə aramsız olaraq ermənilər tərəfindən qarət edilir.

Adı çəkilən ərazilərdə meşələrin ümumi sahəsi 264.000 hektardır. Nadir ağac və heyvan növləri hər gün məhv edilir. Nəticədə təbii növlər arasında bioloji əlaqələr pozulur, bu isə ekoloji böhrana səbəb olur.

Azərbaycanın ən mühüm su arteriyalarından biri olan



Araz çayında suyun kimyəvi analizi göstərir ki, suyun çirklənməsi normadan bir neçə dəfə yuxarıdır. Araz çayının əsas qollarının (Oxçuçay, Razdan, Arpaçay) Ermənistan ərazisindən keçdiyini, habelə Ermənistanın "Sərhədlərarası su arteriyalarından və beynəlxalq sulardan istifadə edilməsi və onların mühafizəsi haqqında Konvensiya"nı (Helsinki, 2000-ci il) imzalamadığını nəzərə alaraq Parlament Assambleyası vəziyyətlə əlaqədar böyük narahatlıq hissi keçirir.

Qafqaz regionunda seysmoloji aktivliyin (Spitak, 1988, Bakı, 2000) yüksək olduğunu, Ermənistan Respublikasındakı atom stansiyasının təkcə region üçün deyil, bütün Şərqi Avropa və Yaxın Şərq ölkələri üçün potensial təhlükə olduğunu, Azərbaycan Respublikasının 2001-ci ildə "Zəhərli tullantıların sərhədlərarası daşınmasına nəzarət haqqında Bazel Konvensiyası"nı imzaladığını, həmçinin adı çəkilən ərazilərin tamamilə nəzarətsiz qaldığını nəzərə alaraq Parlament Assambleyası belə bir narahatlıq hissi keçirir ki, Azərbaycanın həmin ərazilərində Ermənistandakı atom stansiyasının nüvə tullantıları basdırıla bilər.

Yuxarıda deyilənləri nəzərə alaraq, Parlament Assambleyası Nazirlər Komitəsinə müraciət edir, Avropanın nadir torpaq sahələrindən olan həmin işğal zonasında mümkün ekoloji fəaliyyətin qarşısını almaq üçün təsirli tədbirlər görməyə çağırır.

----------------------

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9148

*Əlavə III.3.13*

**Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nüvə texnologiyası və nüvə tullantılarının basdırılması barədə***

*Strasburq, 7 may 2002- ci il*

Ermənistan-Azərbaycan münaqişəsinin nəticələrindən biri Ermənistan hərbi qüvvələri tərəfindən işğal edilmiş torpaqlarda, Qarabağ dağlarında və Azərbaycan Respublikasının digər yeddi rayonunda nəzarət edilməyən nüvə zonalarının yaradılması olmuşdur ki, bu da bütün Cənubi Qafqaz regionu üçün ciddi təhlükə törədir.

İşğal edilmiş ərazidə 29 nüvə mərkəzi vardır. Bu sahədə radiasiya və nüvə tullantıları 80000 hektar kənd təsərrüfatı torpağını, 150000 hektar meşəni, 22000 hektar şəxsi sahələri və iki yaşayış qəsəbəsini zəhərləmişdir.

Ermənistanın "Razdanmaş", "Armavir", "Akopyan", "Cak Mac Metals" və "Vartaniol" şirkətləri nüvə texnologiyalarını Dağlıq Qarabağdan keçirməklə İrana və İraqa ötürmüşlər. Sonuncu şirkət, həmçinin işğal edilmiş ərazidə "C-300" və "Tayfun" tipli raketlərin təkmilləşdirilməsi prosesinə cəlb edilmişdir.

Sankt-Peterburq Fizika İnstitutunun, Moskvanın Kurçatov adına Nüvə Texnologiyaları İnstitutunun və Minskin Nüvə Fizikası İnstitutunun laboratoriyaları Qarabağ dağlarında işləyirlər. Bu laboratoriyaların və Ermənistanın "Metsamor" atom stansiyasının nüvə tullantıları xüsusi çəlləklərdə Qarabağın dağlıq regionunda yerləşən Almalı, Kolatıq və Seyidbəyli yaşayış sahələrində basdırmışlar.

Baham adalarında yerləşmiş olan "Union Atomic Garbage Pic" adlı atom tullantılarının yerləşdirilməsi üzrə podratçı şirkəti Qarabağ dağlarında nüvə tullantılarının basdırılması üçün xüsusi beton çalalar tikmişdır.



Azərbaycanın işğal edilmiş Cəbrayıl rayonunun təxminən yarısı İran vətəndaşlarına icarəyə verilmişdir. Nüvə tullantıları bu rayonun şərq hissəsində basdırılmışdır və 219 kvadrat kilometrlik sahə yüksək radiasiya ilə əhatə edilmişdir. Bu rayonun İrana yaxın hissəsi (93 kvadrat kilometr) on illiyə İranın sərhəd qüvvələrinə icarəyə verilmişdir.

Regionda mövcud olan nüvə təhlükəsi, həmçinin ermənilər tərəfindən 1993-cü ildə Azərbaycanın Kəlbəcər rayonunun işğalı zamanı nüvə döyüş başlıqlarının istifadəsinin nəticəsi kimi özünü büruzə vermişdir və ekspertlərin rəyi belədir ki, bu zəhərlənmiş zona ən azı iyirmi beş il ərzində təmizlənə bilər (Rusiya Federasiyası Elmlər Akademiyasının Mikrobiologiya İnstitutu, "Messenger" 1997, 14 noyabr).

Azərbaycanın işğal edilmiş Laçın rayonunun 280 kvadrat kilometrlik meşə zonası Amerika vətəndaşı Q.Ohanyana icarəyə verilmişdir və o, bu ərazidə silah zavodu tikmişdir. Ermənistan Toksikologiya İnstitutunun 1996-cı il hesabatında göstərilmişdir ki, Laçın rayonunda olan 320 kvadrat kilometrlik sahə kütləvi qırğın zonasına çevrilmişdir.

Azərbaycan Respublikasının beynəlxalq nəzarətdən kənar olan işğal edilmiş ərazilərində nüvə silahlarının, nüvə texnologiyalarının və nüvə tullantılarının artması, Qafqazda sülhün və sabitliyin gələcəkdə yaradılması üçün ciddi maneəni və daha böyük fəlakətlərin baş verməsinin real təhlükəsini əks etdirir.

Assambleya belə hesab edir ki, Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz zonaların mövcudluğu bütün Qafqaz üçün real nüvə təhlükəsi yaradır.

Assambleya təkid edir ki, Ermənistan rəhbər dairələri

regionda nüvə təhlükəsinin genişləndirilməsinə son qoysunlar.

Assambleya Avropa Şurasına üzv olan ölkələri buna çağırır ki, işğal edilmiş Azərbaycan ərazilərində radiasiya zonaları yaradan Ermənistan və İranla hər hansı nüvə əməkdaşlığından çəkinsinlər.

Assambleya buna görə də özünün Siyasi İşlər Komitəsi və Ətraf mühit və Kənd Təsərrüfatı Komitəsindən xahiş edir ki, göstərilmiş məsələni nəzərdən keçirsin və bu barədə tövsiyələr tərtib etsin.

----------------------

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9444

---

*Əlavə III.3.14*

**Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində ermənilər tərəfindən dəstəklənən terrorçu təşkilatlar şəbəkəsi barədə***

*Strasburq, 14 iyun 2002- ci il*

Azərbaycan Respublikasının 20 faizi Ermənistan tərəfindən işğal edilmişdir. İşğal edilmiş ərazilərdə beynəlxalq hüquq normalarına daha hörmət edilmir və bu torpaqlar Avropa qitəsindən təcrid edilərək dünya ictimaiyyəti üçün ciddi qeyri-təhlükəsizlik zonası təşkil edir.

İşğal edilmiş ərazilərdə yerləşmiş olan terrorçu qruplarının maliyyə mənbələri narkotiklərin satışı, nüvə layihələri və həmçinin silahların daşınmasıdır. Dağlıq Qarabağ regionunda



narkotiklərin becərilməsi və istehsalı üçün zəruri olan şəraitin yaradılması barədə ABŞ Dövlət Departamentinin mart, 2000-ci il tarixli hesabatı və həmçinin işğal edilmiş torpaqlarda qanunsuz nüvə layihələrinin yerinə yetirilməsi ilə məşğul olan erməni təşkilatlarına qarşı sanksiyaların tətbiq edilməsi üzrə ABŞ Dövlət Departamentinin may, 2002-ci il tarixli qərarının qəbul edilməsi Ermənistan dövlətinin müdafiəsi ilə bu cinayət fəaliyyətini idarə edən terrorçu şəbəkəsinə xüsusi diqqət yetirilməsinə olan ehtiyacı çox yaxşı sübut edir.

İşğal edilmiş ərazilərdə nəzarətin olmaması nəinki erməni terror təşkilatları olan "Asala", "Haudud" təşkilatları üçün əlverişli şərait yaradır, həmçinin təlim düşərgələri yaratmaq və müvafiq fəaliyyət göstərmək üçün vəsaitə malik olan xarici terror təşkilatlarını da ruhlandırır.

İşğal edilmiş Kəlbəcər rayonunda Livanın "Qayıdan qəhrəmanlar təşkilatı" (rəhbəri: Ter-Qriqoryan, Beyrut mənşəli erməni), Laçın rayonunda kürdlərin PKK təşkilatı (rəhbəri: C.Samoyan) və "Vartan cəngavərləri" terrorist təşkilatı (rəhbəri: A.Babacanyan), Zəngilan rayonunda Livanın "Həmas" qrupunun "Ziyəddin Əl-Gissan" hərbi qolu, Xankəndində yunanların "Milli dirçəliş təşkilatı" terrorçu qrupu (rəhbəri: E.Qalustyan) geniş fəaliyyətdədir.

ABŞ vətəndaşı Monte Melkonyan, İran vətəndaşı Vazgen Sisliyan və Suriya vətəndaşı, 1970-80-cı illərdə Fransada törətdiyi terrorçuluq əməlləri ilə məşhur olmuş Varucan Qarbicyan kimi beynəlxalq terrorçulara Ermənistan prezidenti tərəfindən Qarabağ müharibəsinin milli qəhrəmanı adı verilməsi, onların dövlətin himayəsinə götürülməsi terrorizmin Ermənistanda dövlət səviyyəsində müdafiə edilməsini təkzibedilməz dərəcədə sübut edir.

Azərbaycanın işğal edilmiş ərazilərində olan "qanunsuz

sahənin" bütün Avropa üçün təhlükə yaratdığını vurğulamaqla, Assambleya üzv olan ölkələri problemin həllini tapmaqda öz səylərini daha da artırmağa çağırır.

Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionunda və bununla bitişik olan Azərbaycanın yeddi rayonunda cari vəziyyətin ciddi yoxlanılması üçün monitorinq qrupu yaradılmasına olan zəruri ehtiyacı xüsusi qeyd edir.

Assambleya bunu tövsiyə edir ki, Nazirlər Komitəsi zəruri olan addımlar atsın ki, işğal edilmiş və beynəlxalq nəzarət altında olmayan zonadan terrorçu qrupları və şəbəkələri yaratmaq, narkotikləri becərmək və daşımaq, məxfi nüvə layihələrini yerinə yetirmək üçün istifadə edən Ermənistan beynəlxalq hüquq normalarına və Avropa Şurasının Nizamnaməsinə zidd olan özünün bu fəaliyyətini dərhal dayandırsın.

----------------------

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9489

---

*Əlavə III.3.15*

**Ermənistan Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına yönəldilmiş blokada siyasəti təhlükəsinin aradan qaldırılması zərurəti barədə***

*Strasburq, 14 oktyabr 2002- ci il*

Sülhün yaradılması üzrə bütün cəhdlərə, o cümlədən son iki il ərzində Avropa Şurasının tövsiyə etdiyi cəhdlərə baxmayaraq, Azərbaycan Respublikası ərazilərinin Ermənistan Respublikası tərəfindən 1988-ci ildə başlamış olan işğalı indiyə qədər davam edir. Azərbaycan ərazisinin 20 faizini işğal etmiş Ermənistan silahlı qüvvələrinin öz ərazilərini genişləndirmək niyyətindən doğan böyük təhlükə mövcuddur və onlar bu məsələ ilə əlaqədar Naxçıvan Muxtar Respublikasına münasibətdə olan öz iddiaları haqda açıq-aşkar danışırlar.

1988-1994-cü illər ərzində sərhədə yaxın olan ərazilərdən Naxçıvan Muxtar Respublikasına bir neçə dəfə təcavüz cəhdi edilmişdir.

1991-ci ildən bəri Ermənistan Naxçıvan Muxtar Respublikasını tammiqyaslı iqtisadi, nəqliyyat və kommunikasiya blokadası şəraitində saxlayır. Bu cür dəhşətli blokadanın nəticəsi olaraq 45 istehsal və emal müəssisəsi öz fəaliyyətini dayandırmalı olmuşdur. 50 min insandan ibarət olan işçi qüvvəsi işsiz vəziyyətə düşmüş, onlar Dağlıq Qarabağdan (Naqorno Karabakh) zor gücünə qovulmuş və Naxçıvana qaçqın kimi gəlmiş 1400 ailəyə əlavə olunmuşlar.

Hal-hazırda Ermənistan rəsmi olaraq Naxçıvana olan iddialarını bəyan edir və hətta onu öz ərazisinə ilhaq edəcəyi ilə hədələyir. Bunu qeyd etmək zəruridir ki, bu gün Naxçıvan çox çətin şəraitdə yaşayır və Azərbaycanın qalan hissəsi ilə yalnız hava yolu ilə əlaqə saxlayır. Ermənistanın bu yeni bədnam planı hər bir yerdə – onun təhsil, elm, siyasi və hərbi dairələrində geniş və açıq şəkildə bəyan edilir.

Nazirlər Komitəsi Avropa Şurasının icraçı orqanı olmaqla və özünün nizamnaməsinə müvafiq olaraq hansı növ mexanizmlərdən istifadə edə bilər ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı iddialarının qarşısını alsın və bu kontekstdə Naxçıvan Muxtar Respublikasının Ermənistan Respublikası tərəfindən 11 il davam edən tammiqyaslı blokadasının

vurduğu ziyan Nazirlər Komitəsini narahat və məşğul edə biləcək bir sualdır.

-----------------------

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9586

---

*Əlavə III.3.16*

**Avropa Şurası Parlament Assambleyası**
**ATƏT-in Minsk Konfransının məşğul olduğu**
**Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə**
**TÖVSİYƏ 1690 (2005) ***

*Strasburq, 25 yanvar 2005-ci il*

Parlament Assambleyası ATƏT-in Minsk Konfransının məşğul olduğu münaqişəyə dair özünün 1416 (2005) saylı qətnaməsinə istinad edərək Nazirlər Komitəsinə aşağıdakıları tövsiyə edir:

**I.** Xüsusilə hərbi əməliyyatlardan çəkinmə və Azərbaycanın bütün işğal olunmuş ərazilərindən hərbi qüvvələrin geri çəkilməsi də daxil olmaqla, əlaqədar tərəfləri BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993), 884 (1993) saylı qətnamələrinə əməl etməyə çağırsın;

**II.** Azərbaycan və Ermənistan tərəfindən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT-in Nazirlər Şurasının münaqişəyə dair qərarlarının yerinə yetirilməsinin monitorinqini



aparsın və monitorinqin nəticələri barədə Assambleyaya hesabat versin;

**III.** BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, münaqişənin dinc yolla həll olunması üçün üzv dövlətlər tərəfindən göstərilən səylər barədə Assambleyaya hesabat versin. Bu hesabatda BMT Təhlükəsizlik Şurasının 853 (1993) saylı qətnaməsinin ziddinə olaraq üzv dövlətlərin münaqişənin intensivləşdirilməsinə və ya ərazinin işğalının davam etməsinə gətirib çıxara bilən silah və sursat təchizatından çəkinib-çəkinməmələri də öz əksini tapsın;

**IV.** Dağlıq Qarabağ münaqişəsi haqqında özünün 1251 (1994) saylı tövsiyəsini xatırladaraq Azərbaycan və Ermənistanın istədikləri təqdirdə, Dağlıq Qarabağın siyasi statusunun müəyyənləşdirilməsinə köməklik məqsədilə ekspertləri onların sərəncamına versin;

**V.** Azərbaycan və Ermənistanda xüsusi etimad yaradılması tədbirləri üzrə fəaliyyət planı üçün vəsait ayırsın;

**VI.** Hər iki ölkədən müəllimlər və jurnalistlər üçün daha yaxşı qarşılıqlı anlaşma, dözümlülük və barışıq məqsədi güdən xüsusi treninq proqramlarının həyata keçirilməsinə vəsait ayırsın;

**VII.** Xüsusilə təhsil müəssisələri və ictimai KİV-ə dair irqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyası tərəfindən hər iki ölkə üçün xüsusi fəaliyyətə vəsait ayırsın;

**VIII.** Səlahiyyətli rəhbər komitələri təlimatlandırsın ki, onlar Mübahisələrin sülh yolu ilə həll olunmasına dair Avropa Konvensiyasının Avropa Şurasının üzv dövlətləri arasında münaqişələrin aradan qaldırılmasının müasir tələblərini nə dərəcədə əks etdirməsi və Avropa Şurasının üzv dövlətləri arasında mübahisələrin sülh yolu ilə həll olunması üçün adekvat vasitənin tapılması

məqsədilə konvensiyanın hansı hissəsinə düzəlişlərin edilməsi ilə bağlı təhlil aparsın;

**IX.** İki ölkəyə dair fəaliyyətlə bağlı qərar verərkən 1416 (2005) saylı qətnaməni nəzərə alsın;

**X.** 1416 (2005) saylı qətnamənin və bu tövsiyənin milli, ikitərəfli və beynəlxalq səviyyədə dəstəklənməsi məqsədilə onları üzv dövlətlərin hökumətlərinə təqdim etsin.

-----------------

* 2005-ci il yanvarın 25-də Assambleyanın müzakirəsi (2-ci iclas).

(Bax: Siyasi məsələlər komitəsinin məruzəsi, Sənəd. 10364, məruzəçi: cənab Atkinson). 2005-ci il yanvarın 25-də Assambleya tərəfindən qəbul olunmuş mətn (2-ci iclas).

---

*Əlavə III.3.17*

**Avropa Şurası Parlament Assambleyası**
**ATƏT-in Minsk Konfransının məşğul olduğu**
**Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə**
**QƏTNAMƏ 1416 (2005) ***

*Strasburq, 25 yanvar 2005-ci il*

**1.** Parlament Assambleyası silahlı əməliyyatların başlamasından on ildən artıq bir müddətin keçməsinə baxmayaraq, Dağlıq Qarabağ bölgəsi üzərində münaqişənin həll olunmamış qalmasından təəssüflənir. Yüz minlərlə insan hələ də köçkündür



və acınacaqlı şəraitdə yaşayır. Azərbaycan ərazisinin əhəmiyyətli hissələri hələ də Erməni qüvvələri tərəfindən işğal altındadır və separatçı qüvvələr hələ də Dağlıq Qarabağ bölgəsinə nəzarət edirlər.

**2.** Assambleya hərbi əməliyyatların və bundan əvvəl başlamış kütləvi etnik düşmənçiliyin qorxunc etnik təmizləmə anlayışını xatırladan genişmiqyaslı etnik qovulmaya və mono-etnik ərazilərin yaranmasına gətirib çıxarması ilə bağlı öz narahatlığını ifadə edir. Assambleya bir daha təsdiq edir ki, bir dövlətin ərazisindən regional ərazinin ayrılması və müstəqilliyi etnik qovulmaya və bu cür ərazinin digər dövlətə de-fakto birləşdirilməsinə gətirib çıxaran silahlı münaqişə yolu ilə deyil, yalnız bu ərazinin əhalisinin demokratik dəstəyinə əsaslanan qanuni və dinc proses vasitəsilə əldə oluna bilər. Assambleya üzv dövlət tərəfindən xarici ərazinin işğalının həmin dövlətin Avropa Şurasının üzvü kimi öz üzərinə götürdüyü öhdəliklərin ciddi şəkildə pozulması demək olduğunu xatırladır və münaqişə ərazisindən köçkün düşmüş şəxslərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtması hüququnu bir daha təsdiq edir.

**3.** Assambleya Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı Qətnamələrini xatırladır və əlaqədar tərəflərin, xüsusilə silahlı əməliyyatlardan çəkinməklə və istənilən işğal olunmuş ərazilərdən silahlı qüvvələri çıxarmaqla, onlara riayət etməsini təkid edir. Assambleya Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 853 (1993) saylı Qətnaməsində ifadə olunmuş tələbə tərəfdar çıxır və beləliklə, bütün üzv dövlətlərin münaqişənin intensiv-

ləşdirilməsinə və ya ərazinin işğalının davam etməsinə gətirib çıxara bilən silah və sursat təchizatından çəkinməsini təkid edir.

**4.** Assambleya xatırladır ki, həm Ermənistan, həm də Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına daxil olarkən öz qonşularına qarşı zor tətbiq etmək hədəsindən çəkinməklə münaqişəni yalnız dinc vasitələrlə həll etmək öhdəliyini götürmüşlər. Eyni zamanda, Ermənistan münaqişənin həllini təşviq etmək üçün Dağlıq Qarabağ üzərində əhəmiyyətli təsirindən istifadə etməyi öz üzərinə götürmüşdür. Assambleya hər iki Hökumətin bu öhdəliklərə əməl etməsini, eləcə də bir-birinə qarşı silahlı qüvvələrdən istifadə etməkdən və hərbi əməliyyatları təbliğ etməkdən çəkinməsini təkid edir.

**5.** Assambleya Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Nazirlər Şurasının 1992-ci ilin mart ayında Helsinkidə münaqişənin dinc yolla həlli üzrə danışıqlar forumunun təmin edilməsi məqsədilə Minskdə konfrans keçirmək barədə razılıq əldə etdiyini xatırladır. Ermənistan, Azərbaycan, Belarus, keçmiş Çex və Slovak Federal Respublikası, Fransa, Almaniya, İtaliya, Rusiya Federasiyası, İsveç, Türkiyə və Amerika Birləşmiş Ştatları həmin vaxt Konfransda iştirak etməyə razılıq vermişdilər. Assambleya bu dövlətləri münaqişənin dinc yolla həllinə nail olmaq üçün öz səylərini artırmağa çağırır və onların Assambleyadakı milli nümayəndə heyətlərini bununla əlaqədar öz hökumətlərinin gördüyü tədbirlər barədə hər il Assambleyaya məruzə etməyə dəvət edir. Bu məqsədlə Assambleya öz Bürosundan bu milli nümayəndə heyətlərinin başçılarının da daxil olduğu ad hoc Komitə yaratmağı xahiş edir.



**6.** Assambleya, xüsusilə də 1994-cü ilin may ayında atəşkəsə nail olunmasına və həmin vaxtdan etibarən atəşkəsə riayət olunmasının monitorinqinə görə Minsk qrupunun həmsədrlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin səxsi nümayəndəsinin yorulmaq bilmədən göstərdikləri səylərini yüksək qiymətləndirir. Assambleya ATƏT-in Minsk Qrupu Həmsədrlərini silahlı münaqişənin dayandırılması barədə, həyata keçirilməsi münaqişənin bütün tərəflər üçün başlıca nəticələrini aradan qaldıracaq və Minsk Konfransının çağırılmasına imkan verəcək siyasi sazişin bağlanılması üzrə danışıqları sürətləndirmək üçün təcili addımlar atmağa çağırır. Assambleya Ermənistanı və Azərbaycanı ATƏT-in Minsk Prosesindən faydalanmağa və Minsk Qrupu vasitəsilə münaqişənin beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə uyğun olaraq dinc yolla həlli üçün öz konstruktiv təkliflərini bir-birinə fəal surətdə təqdim etməyə çağırır.

**7.** Assambleya Azərbaycan və Ermənistanın Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsini imzalamalarını və Nizamnamənin 93-cü Maddəsinin 1-ci bəndinə uyğun olaraq ipso facto Beynəlxalq Ədalət Məhkəməsinin Statutuna tərəfdar çıxmalarını xatırladır. Bununla əlaqədar olaraq Assambleya Minsk Qrupunun Həmsədrlərinin himayəsi altında keçirilən danışıqların uğursuzluqla nəticələnəcəyi təqdirdə, Azərbaycan və Ermənistanı Məhkəmənin Statutunun 36-cı Maddəsinin 1-ci bəndinə uyğun olaraq Beynəlxalq Ədalət Məhkəməsindən faydalanmağı nəzərdən keçirmələrini təklif edir.

**8.** Assambleya Azərbaycan və Ermənistanı Assambleya daxilində, eləcə də Qafqaz Dördlüyünün Parlament Spikerlərinin

görüşləri kimi digər forumlarda ikitərəfli parlamentlərarası əməkdaşlığı gücləndirməklə özləri arasında siyasi barışığı təşviq etməyə çağırır. O, hər iki nümayəndə heyətinin bu cür barışıq istiqamətində tərəqqini nəzərdən keçirmək üçün Assambleyanın hər hissəvi sessiyasında görüşməsini tövsiyə edir.

**9.** Assambleya Azərbaycan hökumətini bölgənin gələcək statusu ilə bağlı Dağlıq Qarabağ bölgəsinin hər iki icmasının siyasi nümayəndələri ilə qeyd-şərtsiz əlaqə qurmağa çağırır. O, bu cür əlaqələr üçün Strasburqda şərait yaradılmasına hazır olduğunu qeyd edir və bir neçə dəfə ermənilərin iştirakı ilə dinləmələr formasında bunu həyata keçirdiyini xatırladır.

**10.** Assambleya özünün Azərbaycan, Ermənistan və Gürcüstanda qaçqınların və məcburi köçkünlərin vəziyyətinə dair 1570 (2002) saylı Tövsiyəsini xatırladaraq bütün üzv və müşahidəçi dövlətləri etnik ermənilərin Azərbaycandan və etnik azərbaycanlıların Ermənistandan qovulması və silahlı əməliyyatlar nəticəsində köçkün düşmüş yüz minlərlə insana humanitar yardım və kömək göstərməyə çağırır.

**11.** Assambleya Ermənistan və Azərbaycan kütləvi informasiya vasitələrində əks olunan bütün nifrət ifadələrini mühakimə edir. Assambleya Ermənistan və Azərbaycana müraciət edərək məktəblər, universitetlər və KİV vasitəsi ilə öz xalqları arasında qarşılıqlı barışığı, etimad yaradılmasını və qarşılıqlı anlaşmanı təşviq etməyə çağırır. Belə bir barışığın olmadığı təqdirdə nifrət və etimadsızlıq bölgədə sabitliyə mane olacaq və yeni zorakılığa gətirib çıxaracaqdır. İstənilən davamlı həlldən əvvəl və həll zamanı bu cür barışıq prosesi həyata keçirilməlidir.



**12.** Assambleya Avropa Şurasının Baş Katibini Ermənistan və Azərbaycana qarşılıqlı barışıq prosesinə yönəlmiş xüsusi dəstək verilməsi üçün fəaliyyət planı hazırlamağa, eləcə də Ermənistan və Azərbaycana dair tədbirlər barədə qərar verərkən bu qətnaməni nəzərə almağa çağırır.

**13.** Assambleya Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresini Ermənistan və Azərbaycanda bələdiyyələrə seçilən nümayəndələrə qarşılıqlı əlaqələrin və bölgələrarası qarşılıqlı əməkdaşlığın qurulmasında yardım etməyə çağırır.

**14.** Assambleya insan hüquqlarına, sabitliyə və sülhə təhlükə törədən ikitərəfli münaqişələri və daxili mübahisələri yerli və regional ərazi icmalarını və hakimiyyətləri cəlb etməklə dinc yolla həll etmək üçün özünün üzv dövlətlərini daha yaxşı mexanizmlərlə təmin etmək məqsədilə Avropa Şurasının münaqişələrin həlli üzrə mövcud mexanizmlərini, xüsusilə də Mübahisələrin dinc yolla həlli üzrə Avropa Konvensiyasını təhlil etməkdə qərarlıdır.

**15.** Assambleya bu münaqişənin dinc yolla həllinin mütəmadi əsasda monitorinqini davam etdirməkdə qərarlıdır və bu məsələnin nəzərdən keçirilməsinə özünün 2006-cı ildə ilk hissəvi-sessiyasında qayıtmağa qərar verir.

------------------

* 2005-ci il yanvarın 25-də Assambleyanın müzakirəsi (2-ci iclas). (Bax: Siyasi məsələlər komitəsinin məruzəsi, Sənəd.10364, məruzəçi: cənab Atkinson). 2005-ci il yanvarın 25-də Assambleya tərəfindən qəbul olunmuş mətn (2-ci iclas).

## III.4. Avropa İttifaqının sənədləri

*Əlavə III.4.1*

**Avropa İttifaqı**
**Dağlıq Qarabağa dair**
**BƏYANAT**

*Brüssel, 22 may 1992-ci il*

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ regionunda döyüşlərin son vaxtlar intensivləşməsi ilə bağlı dərin narahatlığını bildirir və hər hansı bir tərəfdən güc tətbiq edilməsini qəti şəkildə pisləyir. Birlik və ona üzv olan dövlətlər davamlı döyüşlər nəticəsində əhalinin yenidən üzləşdiyi əzab-əziyyətdən və insan tələfatından təəssüflənir.

Dağlıq Qarabağın erməni və Azərbaycanlı əhalisi daxil olmaqla, Ermənistan və Azərbaycan xalqları, hər iki hökumətin ATƏM-in prinsip və öhdəliklərini qəbul etdikləri təqdirdə, eyni səviyyəli mühafizə ilə təmin olunmaq hüququna malikdirlər. Buna görə də Birlik və ona üzv olan dövlətlər qəbul edilmiş prinsip və öhdəliklərə zidd olaraq ərazi bütövlüyünə qarşı və ya mülki əhalinin daimi yaşayış yerlərindən qovulması da daxil olmaqla, siyasi məqsədlərə nail olmaq üçün gücə əsaslanan hərəkətləri pisləyir. Azərbaycan və erməni əhalisinin fundamental hüquqları mövcud sərhədlər məzmununda tam şəkildə bərpa edilməlidir.

Birlik və ona üzv olan dövlətlər Ermənistan və Azərbaycana müraciət edərək maksimal dərəcədə təmkinlilik nümayiş etdirməyə və ATƏM prosesinə konstruktiv töhfə verməyə çağırır. Bu mənada Birlik və ona üzv olan dövlətlər bütün tərəfləri Dağlıq



Qarabağ üzrə ATƏM-in Sülh Konfransının tezliklə keçirilməsi istiqamətində iş aparmağa və Dağlıq Qarabağ icmalarının təmsil olunmaları şərtlərinə dair razılıq əldə etməyə dəvət edir ki, onsuz davamlı sülhün bərqərar olması mümkün deyil.

---

*Əlavə III.4.2*

**Avropa İttifaqı**
**Dağlıq Qarabağa dair**
**BƏYANAT**

*Brüssel, 18 iyun 1992-ci il*

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağda davam edən döyüşlər ilə bağlı dərin narahatlığını bildirir. Birlik və ona üzv olan dövlətlər böhranın həllinə qətiyyən kömək etməyən hər hansı gücün tətbiq edilməsini ciddi şəkildə pisləyir. Onlar böhrana qatılan tərəfləri təmkinliliyə dəvət edir və növbəti əzab-əziyyət və ya insan tələfatı ilə nəticələnən hərəkətlərdən çəkinməyə çağırır.

Birlik və ona üzv olan dövlətlər aidiyyəti olan hökumətləri nüfuzlarından istifadə edərək baş verən dəhşətli zorakılığa son qoymağa və davamlı atəşkəsə nail olmağa çağırır.

Birlik və ona üzv olan dövlətlər Ermənistan və Azərbaycana bir daha müraciət edərək ATƏM-ə daxil olarkən götürdükləri öhdəliklərə əsasən insan hüquqlarına hörmət etməyə çağırır. Onlar tərəfləri regionda sülhü bərpa etməyin ən yaxşı yolunu təklif edən ATƏM-in himayəsi altında Minsk Konfransının

tezliklə keçirilməsinin zəruri şərtlərinin yaradılması üçün Romada ilkin fövqəladə görüş çərçivəsində göstərilən səylərə töhfə verməyə çağırır.

---

*Əlavə III.4.3*

**Avropa İttifaqı**
**Dağlıq Qarabağa dair**
**BƏYANAT**

*Brüssel, 7 aprel 1993-cü il*

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin son zamanlarda kəskin şəkildə pisləşməsindən dərin narahatlıq keçirir. Birlik və ona üzv olan dövlətlər hərbi əməliyyatların Kəlbəcər və Füzuli rayonları ərazisinə yayılmasından təəssüfləndiyini bildirir. Azərbaycan ərazilərindən dərhal çıxarılması və bu ərazilərdə döyüşlərin dayandırılması məqsədilə Ermənistan hökuməti Dağlıq Qarabağın hərbi birləşmələri üzərində olan təsirindən istifadə etməyə qətiyyətlə çağırılır. Cərəyan edən son hadisələrə baxmayaraq, bütün tərəflərdən ATƏM-in Minsk qrupunda aparılan danışıqları tərk etməməyi xahiş edilir.

---



*Əlavə III.4.4*

**Avropa İttifaqı**
**Dağlıq Qarabağa dair**
**BƏYANAT**

*Brüssel, 24 iyun 1993-cü il*

Birlik və ona üzv olan dövlətlər cənab Rafaellinin təqdim etdiyi ATƏM planının Dağlıq Qarabağ mübahisəsinin bütün iştirakçıları tərəfindən qəbul edilməsini alqışlayır. Onlar inanırlar ki, sözügedən plan regionda hərtərəfli atəşkəs, BMT TŞ-nin 30 aprel 1993-cü il tarixli 822 saylı qətnaməsinin həyata keçirilməsi və Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə həlli istiqamətində əsil irəliləyiş üçün ən yaxşı ümiddir. Onlar Dağlıq Qarabağda erməni icması nümayəndələrinin plana razılıqlarını təmin etmək məqsədilə Ermənistan prezidenti Ter Petrosyanın uğurlu şəxsi müdaxiləsini yüksək qiymətləndirirlər.

Birlik və ona üzv olan dövlətlər ümid edirlər ki, Ermənistan hökuməti Dağlıq Qarabağda sülh planını hələ qəbul etməyən elementlər tərəfindən onu tam şəkildə qəbul etmək və Azərbaycanda Dağlıq Qarabağ və onun ətrafındakı indiki daxili çətinliklərdən sui-istifadə etməkdən çəkinmək çağırışlarını davam etdirəcəkdir. Birlik və ona üzv olan dövlətlər xəbərdarlıq edirlər ki, hazırkı vəziyyətdə hər hansı bir tərəfin hücum əməliyyatı sülh planını təhlükə altına sala bilər.

Birlik və ona üzv olan dövlətlər münaqişə tərəflərini planı tam şəkildə dəstəkləməyə çağırır ki, bu, ATƏM-in müşahidəçi missiyasının yerləşdirilməsinin ilk mərhələsini asanlaşdırar. Onlar

həmçinin tərəfləri qoşunların işğal edilmiş ərazilərdən çıxarılmasını qəbul etməyə razılıq və ATƏM müşahidəçilərinin ərazilərdə yerləşdirildiyi andan təhlükəsizliyinə təminat verməyə təkid edirlər.

---

*Əlavə III.4.5*

**Avropa İttifaqı**
**Dağlıq Qarabağa dair**
**BƏYANAT**

*Brüssel, 3 sentyabr 1993-cü il*

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağda getdikcə genişlənən Azərbaycan ərazisini işğal edən yerli erməni qoşunlarının hücumlarını pisləyir. Onlar təəssüf hissi ilə qeyd edirlər ki, bu hərəkətlər döyüş bölgəsini genişləndirməklə daha böyük Azərbaycan ərazisini əhatə edir, Azərbaycanda çox ciddi qaçqın problemi meydana gətirir və qonşu ölkələri qatmaqla regional təhlükəsizliyi təhdid altına alır.

Birlik və ona üzv olan dövlətlər region dövlətlərinin ərazi bütövlüyü və suverenliyinə olan dəstəklərini bir daha bəyan edirlər.

Birlik və ona üzv olan dövlətlər Azərbaycan Hökuməti və Dağlıq Qarabağın rəhbərliyi arasında 31 avqust 1993-cü il tarixində əldə edilmiş müvəqqəti atəşkəsin davam etdirilməsi üçün ATƏM-in Minsk Qrupu çərçivəsində göstərilən səyləri tam dəstəkləyir. Birlik və ona üzv olan dövlətlər hər iki münaqişə tərəfini iyun ayının sonunda prinsip etibarı ilə razılaşdırılmış



cədvəli yerinə yetirməyi mümkün edən hər hansı bir formada əlavə dialoqa başlamağa çağırırlar.

Birlik və ona üzv olan dövlətlər həmçinin Dağlıq Qarabağın yerli erməni silahlı qüvvələrinin BMT TŞ-nin 822 və 853 saylı qətnamələrinə hörmət etdiyini və Kəlbəcər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarından geri çəkiləcəklərini görəcəklərinə ümid edirlər. Birlik və ona üzv olan dövlətlərin əlində Azərbaycanın bu ərazilərdən irimiqyaslı hücumlar həyata keçirmək iqtidarında olduğuna dair heç bir dəlil yoxdur.

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ ermənilərinin BMT TŞ-nin 822 və 853 saylı qətnamələrinə və ATƏM-in Minsk Qrupunun təkliflərinə əməl etmələri üçün Ermənistan hökumətini özünün həlledici təsirindən istifadə etməyə çağırır. Birlik və ona üzv olan dövlətlər Ermənistana müraciət edərək Azərbaycan ərazisində hücumlar həyata keçirən yerli erməni hərbi birləşmələrinin bu cür hücumlarını daha da genişləndirmək üçün onlara maddi yardımın verilməməyini təmin etməyə çağırır.

---

*Əlavə III.4.6*

**Avropa İttifaqı**
**Dağlıq Qarabağa dair**
**BƏYANAT**

*Brüssel, 9 noyabr 1993-cü il*

Avropa İttifaqı 24 oktyabr 1993-cü il tarixində Dağlıq Qarabağ regionunda əldə edilmiş atəşkəsin pozulmasını pisləyir və bütün qüvvələri son vaxtlarda işğal edilmiş ərazilərdən

geri çəkilməyə çağırır. Avropa İttifaqı ATƏM prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə verdiyi əhəmiyyəti bir daha vurğulayır.

Avropa İttifaqını döyüşlər nəticəsində yurdlarından didərgin salınmış insanların aqibəti xüsusilə narahat edir. Bu insanların qəbul edilməsi və qorunması beynəlxalq ictimaiyyətin əsas vəzifəsi olmalıdır. Bundan əlavə qaçqınların mövcudluğu münaqişənin beynəlxalq xarakter alması təhlükəsini artırır və bütün regionun sabitliyini təhdid edir.

Avropa İttifaqı zərər çəkmiş əhaliyə göstərilən yardımı davam etdirmək əzmindədir və region dövlətlərini həmin yardımların çatdırılması prosesini asanlaşdırmağa çağırır.

Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin uzun müddətli siyasi həllinə nail olmaq məqsədilə ATƏM-in Minsk Qrupu tərəfindən göstərilən səyləri tam şəkildə dəstəklədiyini bir daha bildirir. Avropa İttifaqı münaqişə tərəflərini 24 oktyabr 1993-cü il tarixində pozulmuş atəşkəsi bərpa etməyə çağırır.

---

*Əlavə III.4.7*

**Bülleten Aİ 01-1994 (fr): 1.3.7**
**Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (7/20)**

**Azərbaycan**

1.3.7. Avropa İttifaqının Sədrliyi adından Azərbaycandakı vəziyyət ilə bağlı 17 yanvar tarixində Afina və Brüssel şəhərlərində yayılmış kommünike:



"Avropa İttifaqı dekabr ayının ortalarından etibarən Dağlıq Qarabağ regionunda irimiqyaslı döyüşlərin yenidən başlanması ilə bağlı dərin narahatlıq hissi keçirir. Avropa İttifaqı mövcud *tərəfləri təmkinlilik nümayiş etdirməyə və artıq müharibə* nəticəsində əziyyət çəkmiş insanlara yenidən əzab verməməyə çağırır.

Avropa İttifaqı bir daha Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəklədiyini bildirir və münaqişənin sülh yolu ilə nizamlanmasına dəvət edir. Məsələnin beynəlxalq xarakter alması təhlükəsini nəzərə alaraq Avropa İttifaqı aidiyyəti olan tərəfləri döyüşləri dayandırmağa və BMT TŞ-nin müvafiq qətnamələrinə əməl etməyə çağırır. Avropa İttifaqı tam şəkildə dəstəklədiyi ATƏM-in Minsk Qrupu çərçivəsində münaqişə tərəfləri arasında aparılan danışıqları ən qısa zamanda yenidən başlamağa çağırır."

---

*Əlavə III.4.8*

**Bülleten Aİ 07-1994**
**Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (6/24)**

**Dağlıq Qarabağ**

1.3.5. Avropa İttifaqının Sədrliyi adından Dağlıq Qarabağa dair 5 avqust tarixində Brüssel və Bon şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı 12 may 1994-cü ildən etibarən qüvvədə olan atəşkəsin Ermənistan və Azərbaycan *Müdafiə nazirləri*, habelə Dağlıq Qarabağın hərbi birləşmələri tərəfindən 27 iyul 1994-cü il tarixində yazılı şəkildə təsdiq edilməsini təqdirələyiq

olduğunu bəyan edir. Münaqişə iştirakçılarının atdığı bu addım gələcəkdə məsələnin qarşılıqlı razılıq əsasında siyasi nizamlanmasına xidmət edəcəkdir.

Beləliklə, Avropa İttifaqı bu istiqamətdə tərəfləri ATƏM-in Minsk Qrupu ilə yaxından əməkdaşlıq etməyə və davamlı siyasi nizamlanmaya nail olmaq üçün üzərilərinə düşənləri yerinə yetirməyə çağırır. Fürsətdən istifadə edərək Avropa İttifaqı bir daha Minsk Qrupunun səylərini tam şəkildə dəstəklədiyini bəyan edir. Atəşkəsin təsdiq edilməsi təkcə ilk mərhələ deyil, eyni zamanda davamlı siyasi nizamlanmanın əldə edilməsi üçün danışıqların aparılması istiqamətində mühüm səy deməkdir. Avropa İttifaqı ATƏM müşahidəçilərinin regiona göndərilməsi üçün müvafiq razılaşmanın imzalanması məqsədilə avqust ayında danışıqların sürətləndirməsinə dair tərəflərin niyyətini alqışlayır. Belə ki, Avropa İttifaqı münaqişə tərəflərini ATƏM-in müşahidə missiyasının maksimum dərəcədə həyata keçirilməsindən ibarət olan ilk mərhələni dəstəkləməyə çağırır.

Bu kommünike dörd dövlətin mövqeyini bildirir.

---

*Əlavə III.4.9*

**Bülleten Aİ 09-1994**
**Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (5/6)**

**Dağlıq Qarabağ**

1.3.5. Avropa İttifaqının Sədrliyi adından Dağlıq Qarabağa dair 15 sentyabr tarixində Brüssel və Bon şəhərlərində yayılmış kommünike:



"Avropa İttifaqı son günlərdə Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ rəhbərləri tərəfindən ATƏM-in Minsk Qrupunun Sədri səfir Eliassonun regiona səfəri zamanı verilmiş bəyanatları böyük məmnuniyyətlə qarşılayır. Həmin bəyanatlarda tərəflər münaqişənin nizamlanmasına dair razılığın əldə edilməsinə qədər atəşkəsə riayət edəcəkləri ilə bağlı niyyətlərini vurğulamışlar. Bundan əlavə, Avropa İttifaqı məsələ ilə əlaqədar Ermənistan və Azərbaycan hökumətləri, habelə Stepanakert rəhbərliyi tərəfindən verilmiş rəsmi bəyanatları alqışlayır.

Avropa İttifaqı hesab edir ki, atəşkəsin gücləndirilməsi və məsələnin siyasi nizamlanması yolunda bu addım mühüm əhəmiyyətə malikdir. Avropa İttifaqı ATƏM-in Minsk Qrupuna sözügedən bəyanatlarla nəticələnən səylərinə görə minnətdarlığını bildirir və Qrupun Dağlıq Qarabağ regionunda sülhün bərqərar olunması naminə mühüm fəaliyyətini dəstəkləyir. Avropa İttifaqı Minsk Konfransının tezliklə çağırıla biləcəyinə səmimi şəkildə ümid edir.

Nəhayət, Avropa İttifaqı ümid edir ki, münaqişə tərəfləri özlərinin ictimaiyyət üçün nəzərdə tutulmuş bəyanatlarında təmkinlilik nümayiş etdirəcəkdir. Bundan əlavə, Avropa İttifaqı danışıqlar prosesi üçün münbit və psixoloji nöqteyi nəzərdən əlverişli şəraitin yaradılması üçün tərəflər arasında təmasların davam etdirilməsini tövsiyə edir.

Bu kommünike dörd dövlətin mövqeyini bildirir.

---

*Əlavə III.4.10*

**Almaniya sədrliyinin Avropa İttifaqı adından Dağlıq Qarabağa dair BƏYANATI**

*5 avqust, 1994-cü il*

12 may 1994-cü ildən etibarən əməl olunan atəşkəsin Ermənistan və Azərbaycan Müdafiə nazirləri, o cümlədən Dağlıq Qarabağın ordu komandiri tərəfindən 27 iyul 1994-cü ildə yazılı surətdə təsdiq edilməsini Avropa İttifaqı alqışlayır.

Müharibənin sülh və davamlı həllinə nail olmaqdan ötrü Avropa İttifaqı münaqişə tərəflərini bu məqsədlə ATƏM-in Minsk Qrupu ilə sıx əməkdaşlığa və onun təcrübəsindən istifadə etməyə çağırır. Avropa İttifaqı fürsətdən istifadə edərək Minsk Qrupunun səylərini tam olaraq dəstəklədiyini vurğulayır.

Atəşkəsin təsdiqi münaqişənin davamlı və siyasi üsulla həllinin təmin olunmasını nəzərdə tutan fasiləsiz danışıqlar yolunda atılan addımı ifadə edir. Avropa İttifaqı münaqişə tərəflərinin danışıqları avqustda davam etdirmək və ATƏM müşahidəçilərinin iştirakına yol verən sazişi imzalamaq niyyətini alqışlayır. Avropa İttifaqı münaqişə tərəflərini ATƏM-in müşahidə missiyasının ilk fazasının tezliklə başlamasına razı olmağa çağırır.

Avropa İttifaqına daxil olacaq ölkələr – Finlandiya, Avstriya və İsveç bu bəyanata qoşulurlar.

---



*Əlavə III.4.11*

**İrlandiya sədrliyinin Avropa İttifaqı adından Dağlıq Qarabağda vəziyyət barəsində BƏYANATI**

*Daimi Şura, Brüssel, 31 oktyabr 1996-cı il*

Avropa İttifaqı razılıq hissi ilə qeyd edir ki, 1996-cı il oktyabrın 28-dən 30-dək Moskvada Minsk Qrupu çərçivəsində danışıqların növbəti mərhələsi olmuş və sonrakı mərhələ noyabrın 18-dən başlayaraq Helsinkidə keçiriləcək. Biz Lissabon Zirvə Toplantısı zamanı çoxdan gözlənilən mühüm tərəqqi əldə olunması məqsədilə bu danışıqların müsbət nəticə verəcəyinə ümid bəsləyirik.

Avropa İttifaqı noyabrın 24-də Dağlıq Qarabağda seçkilər keçirilməsi niyyəti barədə Minsk Qrupunun 1996-cı il oktyabrın 30-da mətbuatda ifadə olunmuş bəyanatında onun ifadə etdiyi narahatlığa şərik çıxır. Belə seçkilər keçirilərsə, onlar cari danışıqlara mənfi təsir göstərə bilər. Biz təkid edirik ki, yerli hakimiyyət orqanları münaqişənin dincliklə həllinə nail olmağa kömək üçün öz qərarını dəyişdirsin.

---

*Əlavə III.4.12*

**Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin üçüncü iclası**

*12 iyul 2002-ci il*

**Gələcək ikitərəfli əməkdaşlığın yekunları və qiymətləndirilməsi**
**Xarici siyasət**

Avropa İttifaqı və Azərbaycan razıdırlar ki, Azərbaycanın və bütün Cənubi Qafqazın sabitliyi və tərəqqisi ilk növbədə regionda dondurulmuş münaqişələrin həll edilməsindən asılıdır.

Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünə tam hörmət əsasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinin zəruriliyini vurğulayır.

Avropa İttifaqı inanır ki, bu münaqişə və onun həll edilməməsi Azərbaycanın və bütün regionun siyasi və iqtisadi inkişafı və təhlükəsizliyinə güclü mənfi təsir göstərir.

Hər iki tərəf ərazilərin de-fakto işğal edilməsi prinsipinin (fait accompli) münaqişənin həll edilməsinin əsasını təşkil edə bilmədiyinə razılaşdı və Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində nə hazırkı vəziyyətin, nə də status-kvo vəziyyətinin gücləndirilməsinə yönəldilmiş tədbirlərin qanuni hesab edilə bilmədiyini vurğuladı.

Avropa İttifaqı işğal olunmuş Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının dirçəldilməsi ilə birlikdə Bakı-Naxçıvan-Yerevan dəmir yolunun bərpasına imkan verəcək Ermənistan silahlı qüvvələrinin bu rayonlardan çıxarılmasına dair münaqişənin həlli və əməkdaşlığın bərpa edilməsi istiqamətində mi-



silsiz tədbirlər paketi olan Azərbaycanın təklifini alqışladı və tərəfləri yaranmış çətin vəziyyətdən çıxmaq üçün bu fürsətdən istifadə etməyə dəvət etdi.

Hər iki tərəf ATƏT-in Minsk qrupunun münaqişənin həlli istiqamətindəki səylərinin əhəmiyyətini tanıyır və gələcəkdə də bu səyləri tam şəkildə dəstəkləyəcəklərinə dair öhdəlik götürür.

Avropa İttifaqı Ümumi Məsələlər Şurasının regionda daha fəal siyasi rol oynamaq niyyətinə dair 26 fevral 2001-ci il tarixli qərarını bir daha təsdiq edir. Avropa İttifaqı ATƏT-in Minsk qrupunun üzvləri, müvafiq beynəlxalq təşkilatlar və region ölkələri ilə sıx əməkdaşlıqda regionda mövcud olan münaqişələrin qarşısının alınması və həll edilməsinə yönəlmiş səyləri dəstəkləmək yollarını arayacaq və münaqişədən sonrakı bərpa işləri prosesində iştirak edəcək.

Avropa İttifaqı özünün regionda maraqlı olan bütün ölkələr, xüsusilə Rusiya və ABŞ ilə münasibətlərində Cənubi Qafqazda sülh və sabitliyin bərqərar edilməsinə yönəlmiş inkişafın təmin edilməsinə səy göstərəcək.

*Əlavə III.4.13*

**Avropa Parlamentinin Cənubi Qafqaz üçün Avropa İttifaqının strategiyasına ehtiyac üzrə**

**Q Ə T NA M Ə**

*20 may 2010-cu il*

**Dağlıq Qarabağ münaqişəsi**

*Avropa Parlamenti*

6. Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlarda Ermənistan və Azərbaycan Prezidentləri arasında Moskva Bəyannaməsi ruhunda 2009-cu il ərzində keçirilən altı görüşdə öz əksini tapan dinamik tempi alqışlayır; tərəfləri növbəti ayda münaqişənin həllinin məqsədləri üçün sülh danışıqları səylərini intensivləşdirməyə, daha konstruktiv yanaşma nümayiş etdirməyə və güc yolu ilə yaradılmış və heç bir beynəlxalq legitimliyi olmayan status-kvonu saxlamağa üstünlük verməkdən və bu yolla qeyri-sabitlik yaratmaq və müharibənin təsirlərinə məruz qalan insanların məşəqqətlərini uzatmaqdan çəkinməyə çağırır; hərb yolu ideyasını və artıq istifadə olunmuş hərbi gücün ağır nəticələrini pisləyir və hər iki tərəfi 1994-cü il atəşkəsini bundan sonra pozmaqdan çəkinməyə çağırır;

7. ATƏT-in Minsk Qrupunun vasitəçilik səylərini, Madrid sənədindəki Əsas Prinsipləri və Böyük səkkizlik ölkələrinin Aakuil Sammiti çərçivəsində ATƏT-in Minsk Qrupu Həmsədr ölkələrinin 2009-cu il iyulun 10-da verilmiş bəyanatını tam olaraq dəstəkləyir; beynəlxalq birliyi sazişin əldə edilməsinə mane olan məqamları aradan qaldırmağa yardım etmək üçün cəsarət və siyasi iradə nümayiş etdirməyə çağırır;



8. Dağlıq Qarabağ müharibəsi zamanı və ya onunla əlaqədar öz evlərini tərk etmiş minlərlə qaçqın və məcburi köçkündən yüzlərlə insanın hələ də köçkün qalması və hüquqlarının, o cümlədən geri qayıtmaq, mülkiyyət və şəxsi təhlükəsizlik hüquqlarının pozulmasından ciddi narahatdır; bütün tərəfləri bu hüquqları şərtsiz tanımağa, onların tez bir zamanda reallaşdırılmasına və bu problemin beynəlxalq hüququn prinsiplərinə hörmət əsasında tez bir zamanda həllinə çağırır; bu baxımdan bütün erməni qüvvələrinin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən geri çəkilməsini və bunun ardınca Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyini təmin edəcək, məcburi köçkünlərə öz evlərinə qayıtmağa imkan verəcək və evsizlikdən doğan münaqişələrin qarşısını alacaq keçid dövrü zamanı zəruri olan təhlükəsizlik təminatlarını təmin etmək üçün BMT Nizamnaməsinə əsasən təşkil edilmiş beynəlxalq qüvvələrin yerləşdirilməsini tələb edir; Ermənistan və Azərbaycanın rəhbərliklərini və müvafiq icmaların rəhbərlərini məcburi köçkünlərin geri qayıtması üçün praktiki hazırlıqlar yolu ilə sülhməramlı etnik münasibətlər yaratmaq öhdəliklərini nümayiş etdirməyə çağırır; hesab edir ki, məcburi köçkünlərin və qaçqınların vəziyyətinə beynəlxalq standartlara, o cümlədən AŞPA-nın "Avropanın unudulmuş insanları: uzun müddətli köçkün düşmüş insanların insan hüquqlarının qorunması" adlı 1877 (2009) saylı tövsiyyəsinə uyğun şəkildə baxılmalıdır.

9. Davamlı sülhə nail olmaq üçün real səylərə ehtiyac olduğunu vurğulayır; bütün müvafiq rəhbər şəxsləri provokativ siyasətlərdən və ritorikadan, qızışdırıcı bəyanatlardan və tarixi manipulyasiya etməkdən çəkinməyə çağırır; Ermənistan və Azərbaycan rəhbərlərini məsuliyyətli davranmağa, çıxışlarını yumşaltmağa və ictimai fikrin münaqişənin hərtərəfli həllinin xe-

yirlərini tam olaraq qəbul etməsi və anlaması üçün əsas yaratmağa çağırır;

10. Dağlıq Qarabağ da daxil olmaqla, Dağlıq Qarabağı əhatə edən bütün işğal olunmuş Azərbaycan torpaqlarının tez bir zamanda boşaldılması mövqeyinə inanır; qeyd edir ki, Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsinə qədər ona müvəqqəti statusun verilməsi məsələnin həlli üçün çıxış yolu ola bilər və regionda erməni və Azərbaycan əhalisinin dinc yanaşı yaşaması və əməkdaşlığı üçün keçid çərçivəni təşkil edə bilər;

11. Hamı üçün təhlükəsizliyin istənilən münaqişənin həlli üçün vacib element olmasını vurğulayır; həm hərbi, həm də mülki aspektləri özündə cəmləyən və beynəlxalq insan hüquqları standartlarına əsaslanan müvafiq sülhqoruma tədbirlərinin vacibliyini tanıyır; münaqişənin siyasi həlli tapıldığı halda Şuranı sülh prosesini Birgə Təhlükəsizlik və Müdafiə Siyasəti (BTMS) missiyaları vasitəsilə, o cümlədən beynəlxalq sülhqoruma qüvvələrinin yaradılmasını asanlaşdıra bilmək üçün əraziyə böyük monitorinq missiyası göndərmək yolu ilə dəstəkləmək imkanlarını müəyyənləşdirməyə çağırır.

---



## III.6. Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) sənədləri

*Əlavə III.5.1*

**Müdafiə Planlaşdırması Komitəsi**
**və Nüvə Planlaşdırması Qrupu**
**NATO Baş Qərargahı**
**Yekun Kommünike**
(çıxarış)

*Brüssel, 27 may 1992-ci il*

4. Müzakirələrimiz zamanı biz keçmiş Yuqoslaviyada, Naxçıvan da daxil olmaqla Dağlıq Qarabağ və ətrafında mövcud olan münaqişələrlə bağlı dərin narahatlığımızı bildirmişik. Biz hərbi əməliyyatların dayandırılması və məsələlərin sülh yolu ilə nizamlanmaları istiqamətində BMT, ATƏM və Avropa İttifaqı tərəfindən edilən müxtəlif səyləri tamamilə dəstəkləyirik. Biz aidiyyəti olan tərəfləri münaqişələrə son qoymağa çağırırıq.

---

*Əlavə III.5.2*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**Yekun Kommünike**
(çıxarış)

*Oslo, 4 iyun 1992-ci il*

1. Biz Avroatlantika regionunun müxtəlif yerlərində davam edən zorakılıq və dağıntılarla bağlı dərin narahatlığımızı

bildiririk. Bu, bizim bütün Avroatlantika regionunda sadiq olduğumuz sülh və sabitliyə tamamilə ziddir. Biz Avropada sülh və əməkdaşlığa əsaslanan qaydanın bərqərar edilməsi istiqamətində səylərimizə mane olmamağı üçün azğın milliyyətçilik və mübahisələrin zor yolu ilə həll edilməsi cəhdlərinin qarşısının alınması məqsədilə əlimizdən gələni edəcəyik. Biz keçmiş Yuqoslaviya ərazisində mövcud olan və Dağlıq Qarabağda mərkəzləşən münaqişələrlə bağlı narahatlığımızı ifadə edən ayrıca bəyanatlar vermişik.

---

*Əlavə III.5.3*

**Şimali Atlantika Əməkdaşlıq Şurası**
**BƏYANAT**
(çıxarış)

*Oslo, 5 iyun 1992-ci il*

2. Biz, həmçinin, Dağlıq Qarabağ və onun ətrafında olan böhranın gedişində döyüşlərin intensivləşməsi, insan tələfatının, iztirabların və dağıntıların artması ilə bağlı dərin narahatlıq hissi keçiririk. Biz Minskdə ATƏM-in Konfransının çağırılması qərarını, bu Konfransın uğurla nəticələnməsi üçün Romada ilkin toplantının keçirilməsi kimi addımları və bu münaqişənin sülh yolu ilə nizamlanması ilə bağlı ATƏM çərçivəsində görülən bütün tədbirləri alqışlayırıq. Bu məqsədə nail olmaq üçün öz töhfəmizi verəcəyik və aidiyyəti olan tərəfləri də eyni tədbir görməyə çağırırıq. Biz sülh prosesinə töhfə vermək məqsədilə ATƏM çərçivəsində regiona vaxtlı-vaxtında müşahidəçilərin



yerləşdirilməsinə dair razılıq əldə edilməsi istiqamətindəki səylərini dəstəkləyir və Şuramızın üzvlərinin həmin missiyanın işində iştirak etməyə hazır olduğunu bildiririk.

Biz aidiyyəti olan bütün tərəfləri sülh yolu ilə nizamlanma danışıqlarına mühüm töhfə verən səmərəli atəşkəs əldə etməyə çağırırıq. Biz eyni zamanda, tərəfləri münaqişənin qurbanları üçün təcili tələb olunan humanitar yardımın çatdırılması üçün müvafiq şəraiti təmin etməyə çağırırıq. Biz güc işlədilməsi vasitəsilə ərazilərin əldə edilməsi, sərhədlərin dəyişdirilməsi və ya siyasi məqsədlərə nail olunması üçün hər hansı cəhdin qəbul edilməz olduğunu və bu cəhdin əhəmiyyətli olan uzunmüddətli danışıqlara və dinc nizamlanmaya əsaslanan səylərə yalnız xələl gətirdiyini xüsusilə vurğulayırıq.

---

*Əlavə III.5.4*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**NATO Baş Qərargahı**
**Yekun Kommünike**
(çıxarış)

*Brüssel, 17 dekabr 1992-ci il*

10. Biz Dağlıq Qarabağ və onun ətrafında cərəyan edən döyüş əməliyyatları ilə əlaqədar dərindən təəssüflənirik. Biz aidiyyəti olan tərəfləri səmərəli atəşkəsə nail olmağa çağırırıq. Biz BMT və ATƏM-in prinsiplərini, habelə hazırki münaqişə ilə əlaqədar ATƏM-in addım və qərarlarını tam şəkildə dəstək-

ləyirik. Biz hesab edirik ki, Minskdə keçirilməsi təklif edilən ATƏM-in Konfransı bu münaqişənin sülh yolu ilə nizamlanması üçün bilavasitə imkan yaradır və biz Roma görüşü çərçivəsində başlanmış işin davam etdirilməsi əsasında konfransın çağırılması ilə bağlı səyləri dəstəkləyirik.

---

*Əlavə III.5.5*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**Yekun Kommünike**
(çıxarış)

*Afina, 10 iyun 1993-cü il*

13. Biz bir sıra regional məsələlər, xüsusilə də ATƏM-in Dağlıq Qarabağ üzrə Konfransının məşğul olduğu münaqişəni və keçmiş Sovet İttifaqı ərazisində digər gərginlik mənbələrini, habelə Baltik dövlətləri ərazisindən xarici dövlətlərə məxsus qüvvələrin çıxarılmasının tezliklə başa çatdırılmasının zəruriliyini müzakirə etmişik. Biz sabah Şimali Atlantika Əməkdaşlıq Şurasının Əməkdaşlıq Tərəfdaşları ilə də bütün qeyd edilən məsələlərə dair məsləhətləşmələr aparacağıq.

---



*Əlavə III.5.6*

**Şimali Atlantika Əməkdaşlıq Şurası**
**BƏYANAT**
(çıxarış)

*Afina, 11 iyun 1993-cü il*

3. Minskdə Dağlıq Qarabağa dair ATƏM Konfransının keçirilməsi planı münaqişənin daimi həlli yolunun tapılması və Ermənistan və Azərbaycan arasında yaxşı qonşuluq münasibətlərinin yaradılması üçün ən yaxşı imkan təklif edir. Biz bütün ölkələr və münaqişə tərəflərinin tam və ləngitmədən yerinə yetirilməli olduqları BMT TŞ-nin 822 saylı qətnaməsini tamamilə dəstəkləyirik. Biz hərbi əməliyyatların dərhal dayandırılması, bütün işğalçı qüvvələrin Kəlbəcər və son zamanlarda zəbt edilmiş digər Azərbaycan rayonlarından çıxarılması, beynəlxalq humanitar yardım səylərinin maneəsiz çatdırılması, məcburi köçkünlərin yaşayış yerlərinə geri dönmələri üçün zəruri şəraitin yaradılması və danışıqların bərpa edilməsinə çağırırıq. Biz ATƏM-in Minsk Qrupunun Sədrinin Minsk prosesi çərçivəsində sülh planının həyata keçirilməsi məqsədi daşıyan təşəbbüsünü dəstəkləyir və tərəfləri onu qəbul etməyə çağırırıq.

---

*Əlavə III.5.7*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**Mətbuat üçün Kommünike**
**NATO Baş Qərargahı**
**Dövlət və Hökumət Başçılarının**
**Bəyannaməsi**
(çıxarış)

*Brüssel, 11 yanvar 1994-cü il*

21. Cənubi Qafqaz regionundakı vəziyyət xüsusi narahatlıq doğurmaqda davam edir. Biz ərazilərin əldə edilməsi üçün güc işlədilməsini pisləyirik. Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə hörmət edilməsi regionda sülh, sabitlik və əməkdaşlığın bərqərar olunması üçün əhəmiyyət kəsb edir. Biz bütün dövlətləri mövcud problemlərin həll edilməsi ilə bağlı BMT və ATƏM-in himayəsi altında həyata keçirilən beynəlxalq səylərə qoşulmağa çağırırıq.

---

*Əlavə III.5.8*

**Şimali Atlantika Əməkdaşlıq Şurası**
**Nazirlərin görüşü**
**BƏYANAT**

*İstanbul, 10 iyun 1994-cü il*

Biz əminik ki, Dağlıq Qarabağ üzrə Minskdə ATƏM Konfransının keçirilməsi planı, davam etməsi dərin narahatlıq mənbəyi



olan münaqişənin ədalətli və davamlı nizamlanması üçün müvafiq vasitələr təklif edir. Biz bir daha vurğulayırıq ki, münaqişə hərbi vasitələrlə deyil, yalnız ATƏM prinsipləri və BMT Nizamnaməsinə hörmətə əsaslanan danışıq yolu ilə nizamlanma və Ermənistan və Azərbaycan və regionun bütün ölkələri arasında yaxşı qonşuluq münasibətlərinin yaradılması yolu ilə həll edilə bilər.

Biz ATƏM-in Minsk Qrupunun fəaliyyətini tam şəkildə dəstəkləyirik. Biz bu məqsədlərə nail olmaq üçün ATƏM-lə əməkdaşlıqda göstərilən bütün vasitəçilik səylərini alqışlayırıq. Biz razıyıq ki, BMT TŞ-nin müvafiq qətnamələrinə uyğun olaraq hərbi əməliyyatların dayandırılması, zor vasitəsilə işğal edilmiş ərazilərdən qoşunların çıxarılması və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması daxil olmaqla, güzəşt mühitində əldə edilən atəşkəs və konstruktiv danışıqlar daimi nizamlanma ilə nəticələnən mərhələli sülh prosesi üçün mühüm əhəmiyyət kəsb edir. Biz həlli uzanmış münaqişənin daimi nizamlanmasını sürətləndirmək məqsədilə bu regiona ATƏM müşahidəçilərinin göndərilməsini dəstəkləyirik.

---

*Əlavə III.5.9*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**Yekun Kommünike**

*Brüssel, 1 dekabr 1994-cü il*

Biz ATƏM-in Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin sülh yolu ilə nizamlanması sahəsindəki səylərini tamamilə dəstəkləyirik. Bu, ATƏM prinsiplərinin praktiki

tətbiqi istiqamətində bütün iştirakçı dövlətlərin siyasi qətiyyət nümayiş etdirilməsi üçün yaxşı fürsət olacaqdır.

Cənubi Qafqazda mövcud olan vəziyyət xüsusi narahatlıq doğurmaqda davam edir. Biz əldə edilmiş atəşkəsi alqışlayır, lakin hesab edirik ki, regionda, xüsusilə də Dağlıq Qarabağ və onun ətrafında cərəyan edən münaqişələrin dinc və ədalətli nizamlanması yalnız BMT-nin himayəsi və ATƏM-in mexanizmləri vasitəsilə həyata keçirilə bilər. Ümid edirik ki, ATƏM Dağlıq Qarabağa dair sülh prosesinə səmərəli, o cümlədən 1992-ci il Helsinki Sənədinin 3-cü Fəslinin prinsiplərinə əsasən ATƏM-in beynəlxalq sülhüqoruma əməliyyatının yaradılması vasitəsilə töhfə vermək iqtidarında olacaqdır.

---

*Əlavə III.5.10*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**Yekun Kommünike**
(çıxarış)

*Nordvik, 30 may 1995-ci il*

Cənubi Qafqazda mövcud olan vəziyyət xüsusi narahatlıq doğurmaqda davam edir. Biz Dağlıq Qarabağ ərazisində davam edən atəşkəsin ümumilikdə səmərəli olmasını alqışlayırıq. Biz, Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk Qrupunun səylərini dəstəkləyirik ki, bu nizamlanma, digər şərtlərlə yanaşı, Budapeşt Sammitində əldə edilmiş razılığa əsasən ATƏT-in



beynəlxalq sülhməramlı qüvvələrinin yerləşdirilməsinə imkan verəcəkdir.

---

*Əlavə III.5.11*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**Yekun Kommünike**

*Brüssel, 5 dekabr 1995-ci il*

Biz, Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk Qrupunun davam edən səylərini dəstəkləyirik ki, bu nizamlanma, digər şərtlərlə yanaşı, Budapeşt Sammitində əldə edilmiş razılığa əsasən ATƏT-in beynəlxalq sülhməramlı qüvvələrinin yerləşdirilməsinə imkan verəcəkdir.

---

*Əlavə III.5.12*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**Yekun Kommünike**
(çıxarış)

*Berlin, 3 iyun 1996-cı il*

Biz Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk Qrupunun səylərini dəstəkləyirik.

---

*Əlavə III.5.13*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**Yekun Kommünike**
(çıxarış)

*Brüssel, 10 dekabr 1996-cü il*

Bütün dövlətlərin demokratik və iqtisadi inkişafı, müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü Avroatlantik məkanda sabitlik və təhlükəsizliyin mühüm amilləridir. Biz özünün müxtəlif missiyaları vasitəsilə bir sıra regional münaqişələrdə vasitəçilik səyləri həyata keçirdiyinə görə ATƏT-i təqdir edir və Milli Azlıqlar üzrə Ali Komissarın dəyərli işini yüksək qiymətləndirik. Biz Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk Qrupunun səylərini dəstəkləyirik.

---

*Əlavə III.5.14*

**NATO Zirvə Toplantısının**
**Kommünikesi**
(çıxarış)

*İstanbul, 28-29 iyun 2004*

31. Avroatlantik Tərəfdaşlığını gücləndirərkən, biz Qafqaz və Mərkəzi Asiyanın strateji baxımdan vacib regionlarındakı tərəfdaşlarımızla birgə işləməyə xüsusi diqqət yetirəcəyik. Bu məqsədlə, iki əlaqələndirici zabitin, o cümlədən Beynəlxalq Katibliyin tərkibindən hər iki region üzrə xüsusi nümayəndənin təyin edilməsi də daxil olmaqla, NATO təkmilləşdirilmiş əlaqələndirmə vasitələrindən istifadə etmək razılığına gəlmişdir. Biz Gürcüstan, Azərbaycan və Özbəkistanın NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planlarının hazırlanması ilə bağlı qərarını alqışlayırıq. Bu, İttifaq ilə daha sıx Tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ilə bağlı həmin dövlətlərin səylərində əhəmiyyətli irəliləyiş təşkil edir. Biz Gürcüstanın yeni hökumətinin islahatlar sahəsindəki öhdəliyini alqışlayırıq.

---

*Əlavə III.5.15*

**NATO Zirvə Toplantısının**
**BƏYANATI**
(çıxarış)

*Riqa, 28-29 noyabr 2006-cı il*

43. Biz Cənubi Qafqazda və Moldova Respublikasında regional münaqişələrin təkidlə davam etməsinə təəssüf edirik. Bizim dövlətlərimiz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. Biz bu dövlətlərin cəlb olunduğu münaqişələrin sülh yolu ilə həll edilməsinə nail olmaq məqsədilə davam edən səyləri dəstəkləyirik.

---

*Əlavə III.5.16*

**NATO Zirvə Toplantısının**
**BƏYANATI**
(çıxarış)

*Buxarest, 2-4 aprel 2008*

43. Biz Cənubi Qafqazda və Moldova Respublikasında regional münaqişələrin təkidlə davam etməsindən narahatıq. Bizim dövlətlərimiz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. Biz bu prinsiplər nəzərə alınmaqla bu regional münaqişələrin sülh yolu ilə həll edilməsi yolunda səyləri dəstəkləməkdə davam edəcəyik.

---

*Əlavə III.5.17*

**Şimali Atlantika Şurası Nazirlərin görüşü**
**Yekun Kommünike**
(çıxarış)

*Brüssel, 2-3 dekabr 2008*

35. Biz Cənubi Qafqazda və Moldova Respublikasında regional münaqişələrin təkidlə davam etməsindən narahatıq. Biz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə davam edirik. Regionun tam təhlükəsizliyi üçün münaqişələrin bu



prinsiplər əsasında sülh yolu ilə həll olunmasının vacibliyi artmışdır.

Biz bu məqsədlə səyləri gələcəkdə də dəstəkləyəcək və regionda narahatçılıq doğuran məsələlər üzrə bu ölkələrlə məsləhətləşmələr aparmağa hazırıq. Biz həmçinin, münaqişələrin qarşısının alınması və münaqişələrin dinc yolla həll edilməsi mexanizmlərindən tam faydalanmaq məqsədilə göstərdiyi səylərdə bu dövlətləri dəstəkləyəcəyik.

---

*Əlavə III.5.18*

**NATO Zirvə Toplantısının**
**BƏYANATI**
(çıxarış)

*Strasburq/Kehl, 3-4 aprel 2009*

58. Biz Cənubi Qafqazda və Moldova Respublikasında uzadılmış regional münaqişələrin təkidlə davam etməsindən narahatıq. Konstruktiv şəkildə münaqişələrin sülh yolu ilə həlli ilə məşğul olmaq bu regionlardakı bütün tərəflər üçün vacibdir. Biz onların hamısını regional təhlükəsizlik və sabitliyə xələl gətirə biləcək bütün addımlardan çəkinməyə və hazırkı danışıqlar formatlarına hörmət etməyə çağırırıq. Biz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldova Respublikasının ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə davam edir və həmçinin, bu prinsiplər nəzərə alınmaqla bu regional münaqişələrin sülh yolu ilə həll edilməsi yolunda səyləri dəstəkləməkdə

davam edəcəyik. Biz ATƏT-in bu regionlarda səyləri və proseslərini alqışlayırıq və Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması bu səylərə əhəmiyyətli tamamlayıcı ola bilər.

---

*Əlavə III.5.19*

**NATO Zirvə Toplantısının**
**Yekun Bəyannaməsi**
(çıxarış)

*Lissabon, 19-20 noyabr 2010*

35. Avratlantik məkanda sülhün bərqərar olunması məqsədimiz naminə, Cənubi Qafqazda və Moldova Respublikasında uzadılmış regional münaqişələrin təkidlə davam etməsi Alyans üçün ciddi narahatlıq doğuran məsələ olaraq qalır. Biz bütün tərəfləri münaqişənin sülh yolu ilə həllində konstruktivlik və güclü siyasi iradə göstərməyə və hazırkı danışıqlar formatlarına hörmət etməyə çağırırıq. Biz onların hamısını regional təhlükəsizlik və sabitliyə xələl gətirən addımlardan çəkinməyə səsləyirik. Biz Azərbaycan, Gürcüstan, Ermənistan və Moldovanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə dəstəyimizə sadiq qalırıq, həmçinin bu regional münaqişələrin həmin prinsiplər nəzərə alınmaqla sülh yolu ilə həll edilməsi naminə səyləri dəstəkləməyə davam edəcəyik.

---





**Əhmədov Elçin İldırım oğlu**

1994-cü ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirərək BDU-da aspiranturaya qəbul olmuş və 1999-cu ilədək həmin Universitetin "Beynəlxalq münasibətlər" kafedrasında çalışmışdır. 2001-ci ildə "Böyük dövlətlərin Qarabağ münaqişəsinə dair siyasəti" mövzusunda dissertasiya müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır.

"Azərbaycanın Avroarlantik təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətləri" doktorluq dissertasiyası mövzusu üzərində işi başa çatdırmışdır.

1999-cu ildən indiyə kimi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında dosent vəzifəsində çalışır.

Bununla yanaşı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin təşəbbüsü ilə nəşr olunmuş "Qarabağa qayıdacağıq" və "Ermənistanın Azər-

baycana təcavüzü: təhlili xronika (1987-2011)" kitablarının müəllifi olan Elçin Əhmədov "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyinin Qarabağ Araşdırmalar Mərkəzinin müdiri vəzifəsində çalışır.

Tədqiqatının əsasını təşkil edən Azərbaycanın xarici siyasəti və Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar 300 çap vərəqi həcmində 7 kitab, dərs vəsaiti, proqram, metodik vəsait, eləcə də 200 çap vərəqi həcmində 120-dək elmi məqalənin (Azərbaycanda və xaricdə) müəllifidir.

E.Əhmədovun ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair aparılan danışıqlarda beynəlxalq təşkilatlar və böyük dövlətlərin mövqeyini əks etdirən elmi məqalələri Ankara, İstanbul, Sakariya, Bişkek, Elizığ, Kilis, Kişinyov və Tbilisidə (türk, ingilis və rus dillərində) çap edilmişdir.

Aşağıdakı kitabları nəşr edilmişdir:

1. *Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, "Tuna" nəşriyyatı, 1998, 138 s.;*

2. *Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011).* Bakı, "Letterpress"nəsriyyat evi, 2012, 912 s.;

3. *Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərnin icmalı (2003-2006). I kitab. (həmmüəllif) Bakı, "Azərbaycan" nəşriyyatı,, 2007, 944 s.;*

4. *Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərnin icmalı (2007-2008). II kitab. (həmmüəllif) Bakı, "Azərbaycan" nəşriyyatı,, Bakı, 2008, 754 s.;*



5. *Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərnin icmalı (2008-2010). III kitab. (həmmüəllif) Bakı, "Letterpress"nəsriyyat evi, 2013, 752 s.;*

6. *Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərnin icmalı (2011-2013). IV kitab. (həmmüəllif) Bakı, "Letterpress"nəsriyyat evi, 2013, 976 s.*

Müntəzəm olaraq KİV-lərdə Azərbaycanın xarici siyasəti, Ermənistanın ölkəmizə təcavüzü və münaqişənin beynəlxalq-hüquqi aspektləri ilə əlaqədar çıxışlar edir. Dövri mətbuatda və internet resurslarında 150-dək analitik məqalələri müxtəlif dillərdə çap edilmiş və yayılmışdır.

1998-ci ildə gənc tədqiqatçılar arasında keçirilən müsabiqənin qalibi olmuş və *II dərəcəli diplomla* təltif edilmiş, 2008-ci ildə Azərbaycan KİV İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə *"Qızıl Qələm"* mükafatına layiq görülmüşdür.

Azərbaycan Respublikası Təhsil nazirinin 17 sentyabr 2009-cu il tarixli əmrilə *"Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi"* döş nişanı ilə təltif olunmuşdur.

2012-ci ildə "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyinin təşəbbüsü ilə *"Yaddan çıxmaz Qarabağ"* mövzusunda keçirilən ümumrespublika yazı müsabiqəsinin qalibi olmuş və *I yer* üçün ayrılan mükafatla, 2013-cü ilin may ayında Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş konfransda "Dövlətin gənclər siyasətinin həyata keçirilməsində göstərdiyi dəstəyə" görə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin *"Fəxri Fərmanı"* ilə təltif edilmişdir.

2013-cü ilin noyabr ayında isə, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının beynəlxalq xarakterli 2-ci *"Şuşa Qrantı"* birgə müsabiqəsinin qalibi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurasının, Dissertasiya Şurası üzrə Elmi seminarın, Türkiyədə həşr olunun "Tarihin Peşinde" Beynəlxalq Tarix və Sosial Araşdırmalar dərgisinin Məsləhət Şurasının, Dövlət İdarəçilik Akademiyasının elmi nəşri olan "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə", eləcə də "Geostrategiya" elmi-nəzəri jurnallarının redaksiya heyətinin üzvüdür.

**Əlaqə ünvanı:** Bakı ş., Lermontov küç., 74, AZ 1001
**Tel:** (012) 492 45 93;
(050) 672 44 33;
(055) 766 28 28
**e-mail:** elchin_ahmedov@yahoo.com



# QEYD ÜÇÜN

Çapa imzalanmışdır: 18.11.2013.
Kağız formanı 60×84 $^{1}/_{16}$.
Fiziki çapa vərəqi 28,25.
Tiraj 500.

LETTERPRESS
NƏŞRİYYAT EVİ

"Letterpress" Nəşriyyat evində çap olunmuşdur.
e-mail: office@letterpress.az

ISBN: 978-9952-45257-0
9 789952 452570